İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## YÜZ ONUNCU KİTAB

## FEVRAL 2021 - MART 2021

AZƏRNƏŞR
BAKI - 2021

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR • NİTQLƏR
## BƏYANATLAR • MÜSAHİBƏLƏR
## MƏKTUBLAR • MƏRUZƏLƏR
## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2021

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2021, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildi tarixi ədalətin bərpasından – Müzəffər Ali Baş Komandanın qətiyyəti, əzmkar oğullarımızın polad iradəsi, xalqımızın birliyi və Zəfəri ilə başa çatan 44 günlük müharibədən sonra işğaldan azad olunmuş ərazilərimizdə başlanılacaq quruculuq və «Böyük Qayıdış» planlarının həyata keçirilməsi istiqamətində görüləcək işlərdən bəhs olunur.

Dövlət başçısının bu istiqamətdə bir neçə xarici şirkət rəhbərləri və diplomatları ilə görüş və danışıqları, bağlanan müqavilələr, qarşılıqlı razılaşma və məsləhətləşmələr, eyni zamanda Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərlərinə dair materiallar bu cilddə öz əksini tapmışdır.

Dövlət başçısının yerli və xarici media nümayəndələri üçün keçirdiyi 4 saatlıq tarixi mətbuat konfransı, «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin VII toplantısında çıxışı, həmçinin İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısı və Yeni Azərbaycan Partiyasının VII qurultayında geniş məruzə və nitqləri də bu cilddə toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2021}}$ **BBK - 32**

© Azərnəşr, 2021

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ VƏ TƏSİSÇİSİ MARK ŞNAYER İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri videoformatda qəbul etmişdir.*

*Mark Şnayer ölkəmizdə digər dini və etnik icmaların nümayəndələri ilə yanaşı, yəhudi icmasına yaradılmış şəraitə görə dövlət başçımıza minnətdarlığını bildirdi. Müsəlman ölkələri arasında ən böyük yəhudi icmasının Azərbaycanda yaşadığını vurğulayan Mark Şnayer Prezident İlham Əliyevin digər icmalarla yanaşı, yəhudilərə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirdi.*

*Dövlət başçısı yəhudilərin ölkəmizin dəyərli vətəndaşları olduqlarını qeyd edərək, digər dini və etnik icmaların nümayəndələri kimi, onların da Azərbaycanda əsrlərboyu mehribanlıq, qardaşlıq və dostluq şəraitində yaşadıqlarını bildirdi.*

*Söhbət zamanı mədəniyyətlərarası dialoq sahəsində Azərbaycanla ABŞ əlaqələrinin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## İTALİYANIN «MAİRE TECNİMONT GROUP» ŞİRKƏTİNİN SƏDRİ FABRİZİO Dİ AMATONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də İtaliyanın «Maire Tecnimont Group» şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir.*

*Dövlət başçısı görüş iştirakçılarını salamladı.*

**İlham Əliyev:** Sabahınız xeyir.

**Nümayəndə heyətinin üzvləri:** Sabahınız xeyir, cənab Prezident.

**İlham Əliyev:** Sizi görməyə çox şadam.

**Fabrizio Di Amato** (*«Maire Tecnimont Group» şirkətinin sədri*): Sabahınız xeyir, cənab Prezident. Bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm. 2018-ci ildəki açılış mərasimindən sonra biz yenidən Azərbaycana səfərə gəlmişik. Bu gün səfirimiz və «Maire Tecnimont Group» şirkətinin heyəti ilə Bakıda olmağımızdan şərəf duyuruq. 2020-ci ildə Dağlıq Qarabağdakı gərgin dövrü geridə qoymağınız münasibətilə Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycana çox yaxınıq və həmin mü-

hüm vaxt bütün italyanların diqqəti burada idi. Bildiyiniz kimi, 7 ildən artıqdır ki, biz Azərbaycanda fəaliyyət göstəririk. Biz ölkənizin sənayeləşdirilməsi işinə töhfəmizi veririk. Bu gün burada olmaqdan fərəh hissi duyuruq. Çünki biz artıq yeni layihələrə cəlb olunmuşuq. Şəxsən özüm və «Maire Tecnimont Group» şirkətinin bütün heyəti adından Sizi əmin etmək istəyirəm ki, biz ölkənizlə əlaqələri genişləndirmək və sənayenin inkişafına töhfə vermək əzmindəyik.

Bildiyiniz kimi, hazırda ölkədə bizim 200 nəfərə yaxın heyətimiz çalışır. Biz Azərbaycanı doğma ölkə hesab edirik və işçi qüvvəsinin 72 faizini azərbaycanlılar təşkil edir. İlk vaxtlarda bizim heyət tamamilə italyanlardan ibarət idi, lakin tədricən heyətdə yerli əməkdaşların sayı artırıldı. Bu daha bir vacib nailiyyətimizdir.

Bir mövzu da bizim yerli universitet tələbələri və ümumiyyətlə, gənclərlə əməkdaşlığımıza aiddir. Bizim buradakı heyətimiz bu gün tələbələrlə əməkdaşlığa xüsusi önəm verir. Bu bizim ümumi yanaşmamızdır. Ancaq ölkənizdə bu yanaşmanın inkişafı üçün yaxşı imkanlar mövcuddur. Digər bir məsələ sənaye zəncirinin yerli məzmunu ilə bağlıdır. Biz təchizat zəncirimizdə getdikcə daha çox Azərbaycan şirkətləri ilə əməkdaşlıq edirik. Sonuncu layihədə bizim Azərbaycanda sərmayə baxımından iştirakımız 400 milyon avrodan artıq olmuşdur. Bu da daha bir vacib məsələdir. Bildiyiniz kimi, biz İtaliyanı xaricdə təbliğ edirik və Azərbaycanla bizim çox möhkəm münasibətlərimiz vardır. Sizinlə bərabər biz bu əməkdaşlığı davam etdirmək və ölkənizdə uzunmüddətli fəaliyyət sahəmizi

genişləndirmək arzusundayıq. Bir daha qeyd etmək istəyirəm ki, biz Azərbaycanı doğma ölkə hesab edirik. Bu, işlədiyimiz hər bir ölkədə bizim prinsipimizdir.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Xoş sözlərinizə görə, əvvəla, Azərbaycanın keçən il ərazi bütövlüyünü bərpa etməsi münasibətilə təbrikinizə görə təşəkkür edirəm. Biz xalqımız, ölkəmiz üçün çox çətinliklər yaradan bu əsas məsələni həll etdikdən sonra – bu məsələ həm də dünyada ən böyük haqsızlıqlardan biri idi – Azərbaycanın inkişafı daha da sürətli olacaqdır. Buna baxmayaraq, hətta işğal illəri ərzində Azərbaycan uğurla inkişaf edib, sənayeni və müasir texnologiyaları inkişaf etdiribdir. Yeri gəlmişkən, sizin şirkətinizlə sıx əməkdaşlığımız və Azərbaycanda icra etdiyiniz layihələr göstərir ki, ölkənin iqtisadi və sənaye inkişafı çox yaxşı təsir bağışlamışdır.

İndi tariximizin yeni səhifəsidir. Azərbaycan azad edilmiş ərazilərdə həyatı bərpa etmək üçün zəruri olan bütün tədbirləri görəcək. Bu, asan olmayacaq, çünki hər şey məhv edilib və işğaldan azad olunmuş əraziləri ziyarət etdikdə biz hər şeyin dağıldığını müşahidə edə bilərik. Bütün binalar, zavodlar, tarixi abidələr, sosial infrastruktur yerlə yeksan edilibdir. Beləliklə, biz hər şeyi sıfırdan etməli olacağıq. Buna görə də fəaliyyətimizin bu istiqaməti üzrə bizə yaxşı tərəfdaşlar lazım olacaq. Əlbəttə, sizin Azərbaycandakı fəaliyyətiniz və həyata keçirdiyiniz layihələr bizə sənayemizin qeyri-enerji sektorunu artırmağa kömək edir. Yeri gəlmişkən deyə bilərəm ki, pandemiyaya və Azərbaycanda keçən il olan iqtisadi azalmaya bax-

mayaraq – o, 4,3 faiz olmuşdur – bizim qeyri-enerji sənayemiz 12,5 faiz artıbdır. Bu, sənayeləşmə proqramının əsl nümayişidir və «Maire Tecnimont Group» kimi aparıcı beynəlxalq şirkətlə əməkdaşlıq bizə kömək etdi və gələcəkdə də kömək edəcəkdir.

Mən sizin Azərbaycandakı fəaliyyətinizlə bağlı məlumata baxdım və əlbəttə ki, Sumqayıtdakı açılış mərasimini də xatırladım. O zaman bu mühüm, əlamətdar hadisədə Prezident cənab Mattarella da mənimlə birlikdə iştirak edirdi. Ümumiyyətlə, sizin şirkətiniz Azərbaycanda dəyəri 1,6 milyard avrodan çox olan layihələrə cəlb olunub və hesab edirəm ki, bu belə də davam edəcək. Çünki siz artıq bizim ölkəyə sadiq olduğunuzu nümayiş etdirmisiniz. Sizin fəaliyyətinizdə yer alan yerli vətəndaşların sayı ilə bağlı dedikləriniz sizin sadiqliyinizi və Azərbaycanda uzunmüddətli strategiyanızı nümayiş etdirir. Çünki burada uzun müddət ərzində fəaliyyət göstərməyi planlaşdırmasaydınız, bunu etməzdiniz. Başlanğıcda yalnız italyanlar işləyirdi, indi yerli kadrların sayı 70 faizdən çoxdur. Beləliklə, siz təlimlərə töhfə vermisiniz və bu da çox önəmlidir.

İtaliya və Azərbaycan arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etmək istəyirəm. Bir il bundan əvvəl mənim ölkənizə dövlət səfərim bunu bir daha göstərdi və mən bizim rəhbər şəxslərlə, biznes icması ilə görüşlərimizi və müzakirələrimizi xatırlayıram. Biz həmişə sözümüzü tuturuq və razılaşdırdıqlarımızın hamısını icra edirik.

Həmçinin keçən il tariximizdə yaşanan çətin vaxtlarda biz italyan xalqının bizimlə həmrəy olduğunun,

İtaliya mediasının bu məsələyə obyektiv yanaşmasının şahidi olduq, imzaladığımız və vurğuladığımız məsələləri reallığa çevirdik. Çünki İtaliya və Azərbaycan strateji tərəfdaşlardır. Strateji tərəfdaşlıq haqqında sənəd imzalanıb və reallıq da bizim strateji tərəfdaş olduğumuzu göstərir.

Beləliklə, biz ümid edirik ki, italyan şirkətləri bizim ərazilərimizin bərpası ilə bağlı layihələrdə çox fəal olacaqdır. Deyə bilərəm ki, artıq bərpa və tikinti işləri ilə bağlı bir neçə italyan şirkəti dəvət olunub. Əminəm ki, onların sayı daha da artacaq. Çıxışlarımda dəfələrlə demişəm və bir daha qeyd etmək istəyirəm ki, biz yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Yaxşı ingilis deyimi var: yaxşı dost dar gündə tanınar. Çətin anda siz kimin həqiqətən dostunuz olduğunu anlayırsınız. Bu çox vacib və dəyərli məsələdir.

Planlarımız haqqında sizə bir məsələni də söyləmək istəyirəm. Əminəm ki, siz bu barədə bilirsiniz, bu istiqamətdə işlər gedir. Bu məsələ Bakıda İtaliya–Azərbaycan Universitetinin təsis edilməsi ilə bağlıdır. Biz artıq yer ayırmışıq, universitetin yaradılması ilə bağlı məsələ üzərində işlər başlanılıb. Bu məsələ, həmçinin hökumət səviyyəsində razılaşdırılıbdır. Ümid edirəm ki, gərgin çalışsaq bu il biz bu işə başlaya bilərik. Bu bizim dostluğumuzun yaxşı göstəricisi olacaqdır. Eyni zamanda, bu müəssisələri, bu sənaye sahələrini gələcəkdə idarə etmək üçün tələb olunan ixtisaslar üzrə gənc azərbaycanlıların hazırlanması və təlim keçməsi məsələsində də çox önəmlidir. Bu həmçinin ölkələrimiz arasında sıx dostluq

əlaqələrinin güclənməsinə də kömək edəcəkdir. Sizə uğurlar arzulayıram və sizi Bakıda görməyə şadam. Ümid edirəm ki, növbəti dəfə biz videokonfrans vasitəsilə deyil, üzbəüz görüşəcəyik.

**Pierroberto Folgiero** (*baş icraçı direktor*): Sağ olun, cənab Prezident. Universitetlə əməkdaşlıq əsasında inkişaf məsələlərində Sizə yardımçı olmaqdan olduqca məmnunam. «Maire Tecnimont» şirkəti texnologiyalara əsaslanan şirkətdir. Bizim yeni texnologiyalara böyük inamımız var və bu səbəbdən töhfə verməkdən çox məmnun olardıq. Bilirəm ki, SOCAR ilə kimya sahəsində əməkdaşlıq aparılır. Bu işbirliyi universitetin fəaliyyətə başlamasını nəzərdə tutacaq. Bu isə kimya sahəsində malik olduğumuz ən mühüm dəyərlərdən biridir.

İcazə verin bildirim ki, biz öndə gedirik və istəyirik «yaşıl kimya» adlandırdığımız sahəni inkişaf etdirək. Fikrimizcə, dünyanın bu bölgəsində Azərbaycanın üzərinə mühüm rol düşür. Həmin ideyalarla bölüşməkdən çox şad olardıq. Bu birinci məsələdir.

İkinci məsələyə gəlincə, biz əməkdaşlığı enerji istehsalı sahəsində də genişləndirməkdə çox maraqlıyıq. Yanaşmamız uzunmüddətlidir və ən əsası, insan kapitalına söykənir, gənclərin işə cəlb edilməsini nəzərdə tutur. Sizə bir faktı da söyləyim. Biz dünya miqyasında regional müşavirələr keçiririk. Onların birində «Tecnimont» şirkətində çalışan gənc azərbaycanlı həmkarımız iştirak edib və dünya ictimaiyyəti qarşısında əməkdaşlığın faydası, mədəniyyətlərarası işbirliyi barədə çıxış edibdir. Onun çıxışı hamımızda böyük hisslər doğurub. İcazə verin bildirim ki, yeni

texnologiyaları inkişaf etdirmək və sizin çevikliyinizdən, sahibkarlıq imkanlarından istifadə etməkdən çox şad olardıq. Bu keyfiyyətlər İtaliyanın iş adamlarının da yanaşmasının əsasında dayanır və müəyyən dərəcədə «yaşıl kimya» sahəsində qabaqcıl mövqeni şərtləndirir.

**İlham Əliyev:** Çox sağ olun. Sizin gələcək tərəfdaşlığımızla bağlı ideya və fikirlərinizi tam dəstəkləyirəm. Əlbəttə, Turin Universitetinin ümumi işlərimizdə iştirakı çox alqışlanandır. Həmçinin siz «yaşıl kimya»nı qeyd etdiniz. Bildiyimə görə, bu, texnoloji inkişaf baxımından yenilikdir. Bu həmçinin bizim gündəliyimizə tam uyğundur, çünki əvvəlki illərdə biz çox işlər görməli idik ki, həyat tərzini yaxşılaşdıraq və bütün çirklənmiş sahələri təmizləyək. Xüsusən də burada, Bakıda və Abşeron yarımadasında. Həmin ərazilər yüz ildən artıqdır ki, çirkləndirilib. Biz böyük sərmayələr yatırdıq, torpaqlarda çoxlu rekultivasiya işləri apardıq. Ətraf mühitin qorunmasına aid bir çox məsələlərlə məşğul olduq. Bu, davam edəcək. Buna görə «yaşıl enerji» konsepsiyası, əsasən Azərbaycan üçün irəliyə aparan yoldur. Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər «yaşıl enerji zonası»nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir. Eyni zamanda, biz orada «ağıllı şəhər», hətta «ağıllı kənd» adlanan müasir texnologiyaları tətbiq edəcəyik. Bu həmçinin Azərbaycanın yenidənqurmaya, müasirləşməyə və texnoloji tərəqqiyə ehtiyac duyduğumuz digər bölgələri üçün də yaxşı nümunə olacaqdır.

Biz Azərbaycanda ən qabaqcıl texnologiyaları tətbiq etmək istəyirik. Çünki ölkə müasirləşməli, intellektual baxımdan bacarıqlı olmalı və sənaye sahəsində güclənməlidir ki, biz neft və qaz qiymətlərindən asılı olmayaq. Bu, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Təbii ki, sənaye inkişafı prosesi zamanı, qeyd etdiyiniz kimi, şirkətiniz ilə Azərbaycan arasında strateji birlik çox alqışlanacaq. Müasirləşmək, irəliyə doğru getmək və inkişaf etmək üçün bizim belə güclü tərəfdaşa ehtiyacımız vardır.

Mən bir daha xüsusi olaraq, qeydlərinizdən birinə istinad etmək istəyirəm – şirkətinizdə yerli işçilərin olması ilə bağlı. Bu, dostluğun əsl rəmzidir və dostluğu nümayiş etdirir. Mən buna görə sizə təşəkkürümü bildirmək istəyirəm və əminliyimi ifadə edirəm ki, biz şirkətinizlə və tərəfdaşlarınızla birgə işimizi davam etdirəcəyik. Əminəm ki, buradakı imkanlar, İtaliyaya olan səmimi münasibət barədə ölkənizin iş adamları nə qədər çox bilərsə, bir o qədər çox İtaliya şirkətləri bura gələcək. Biz bunu istəyirik.

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QOTABAYA RACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Şri-Lanka Demokratik Sosialist Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza Azərbaycan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq münasibətləri daha da inkişaf edəcək, «Qoşulmama Hərəkatı» daxil olmaqla, çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımız davam edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Şri-Lanka xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2021-ci il*

## MİNATƏMİZLƏMƏ AGENTLİYİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ VÜQAR SÜLEYMANOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*4 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Vüqar Süleymanovu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Siz Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə təyin edilirsiniz. Sizə böyük etimad göstərilir. Azad edilmiş torpaqların minalardan təmizlənməsi işi 1-ci dərəcəli vəzifədir. Bu işlər elə aparılmalıdır ki, işlər başa çatdıqdan sonra hər hansı bir bədbəxt hadisə baş verməsin.

Azad edilmiş torpaqlarda son günlərdə və müharibədən sonra əfsuslar olsun ki, bədbəxt hadisələr baş verir. Mən Azərbaycan vətəndaşlarına müraciət etmək istəyirəm, onlardan xahiş edirəm ki, azad olunmuş torpaqlara icazəsiz, qanunsuz getməsinlər. Mən insanların bu addımlarını bir tərəfdən, başa düşürəm, onlar uzun illər vətən həsrəti ilə yaşamışlar, hər bir keçmiş məcburi köçkün tezliklə öz doğma

torpağına, doğma kəndinə qayıtmaq istəyir, ancaq xahiş edirəm ki, gözləsinlər. Bir qədər gözləsinlər ki, minalardan təmizləmə işləri başa çatsın. Çünki bu, böyük təhlükədir – həm piyadalara, həm avtomobillərə böyük təhlükədir. Müharibədən sonra bir neçə belə bədbəxt hadisə baş verib, insanlar həlak olub, yaralanıblar. Eyni zamanda, postlarda dayanan əməkdaşlar da nəzarət işlərini daha ciddi təşkil etməlidirlər ki, azad edilmiş torpaqlara qanunsuz, icazəsiz gedişə son qoyulsun.

Bu bədbəxt hadisələr bir daha onu göstərir ki, mənfur düşmən işğaldan sonra nəinki bütün binalarımızı, bütün tarixi abidələrimizi dağıdıb, eyni zamanda, hər tərəfi minalayıb. Təkcə təmas xəttinə yaxın olan əraziləri yox, şəhərləri, yolları, önəmli strateji yüksəklikləri minalayıb və bizdə bu mina sahələrinin xəritələri yoxdur. Ona görə bizim istehkamçıların üzərinə çox böyük vəzifə düşür. Onlar bu vəzifəni elə icra etməlidirlər ki, azad olunmuş torpaqları tamamilə minalardan təmizləyə bilsinlər.

Azad edilmiş torpaqlarda minatəmizləmə işləri 1-ci dərəcəli vəzifədir. Bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət belə, gedə bilməz. Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə biz həm sürəti artırmalıyıq, eyni zamanda, minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatdıqdan sonra hər hansı bir təhlükə olmasın.

Agentliyin qarşısında böyük vəzifələr durur. İlk növbədə, işin düzgün təşkil edilməsi məsələsinə diqqət yetirməlisiniz. Təşkilatlanma işi düzgün həll edilməlidir. Yaradılan yeni agentlik Dövlət Agentliyidir. Əlbəttə, ilk növbədə, peşəkar kadrlar seçilib agentliyin işinə cəlb edilməlidir. Təbii ki, keçmiş ANAMA qurumunun kadrlarından istifadə edilməlidir, eyni zamanda, agentliyin say tərkibi də müəyyən olunmalıdır. Çünki azad edilmiş torpaqlarda işləri sürətlə, keyfiyyətlə qurmaq və aparmaq üçün, əlbəttə ki, agentliyin daha da böyük işçi qüvvəsi olmalıdır.

Yeni texnikanın alınması növbədə duran əsas vəzifələrdən biridir. Son illərdə bu sahədə texnoloji inkişaf özünü qabarıq şəkildə büruzə verir. İndi elə maşınlar, mexanizmlər, texnika var ki, işi həm sürətləndirir, həm də keyfiyyətlə aparmağa imkan verir. Ona görə dünyanın aparıcı istehsalçı şirkətlərinin ən müasir texnikası ölkəmizə gətirilməlidir. Çünki işin keyfiyyəti və sürəti bundan asılı olacaq. Bizim keçmiş köçkünlərimiz 30 il Vətən həsrəti ilə yaşayıblar. Ona görə minatəmizləmə işləri elə aparılmalıdır ki, biz qısa müddət ərzində bərpa işlərinə start verə bilək və beləliklə, vətəndaşlar inşaat işləri başa çatandan sonra öz torpaqlarına qayıda bilsinlər.

Mən ardıcıllıqla bağlı öz fikirlərimi dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, 1-ci dərəcəli vəzifə minalardan təmizləmə işləridir. Sonra dəymiş ziyanın qiymətləndirilməsi, ondan sonra isə artıq bərpa işləri aparılacaqdır.

Azad edilmiş torpaqlarda minalardan başqa, partlamamış sursatlar da kifayət qədər çoxdur, bu da

təbiidir. Çünki müharibə dövründə gedən döyüşlər təbii ki, azad edilmiş torpaqlarda partlamamış sursatların çoxluğuna səbəb olubdur. Odur ki, əraziləri bu sursatlardan təmizləmək də böyük zəhmət tələb edən məsələdir. Siz bu sahədə təcrübəli beynəlxalq mütəxəssisləri cəlb edərək, işçilər üçün həm ölkə daxilində təlim kursları keçirməlisiniz, həm də xaricdə qısamüddətli kurslar təşkil olunmalıdır ki, bizim mütəxəssislər, istehkamçılar özləri-özlərini qoruya bilsinlər, eyni zamanda, burada ən qabaqcıl təcrübə tətbiq edilsin.

Peyk görüntülərindən səmərəli istifadə etməliyik. Peyk görüntüləri bizə əlavə imkanlar yaradır, həm müharibə dövründə, həm də müharibədən sonrakı bərpa işlərində. Biz ermənilər tərəfindən qırılmış meşələrin həcmini məhz peyklərdən müəyyən edə bilmişik və indi yerlərdə bunu təsdiq edirik. Meşələrimizin 54 min hektarı Ermənistan rəhbərliyi tərəfindən qırılıb, talan edilib və satılıbdır. Peyk görüntüləri eyni zamanda, minalarla daha çox çirklənmiş yerləri də təsbit edir. Ona görə bu imkanlardan da səmərəli istifadə etməliyik.

Mən müharibə başa çatandan sonra Müdafiə Nazirliyinə göstəriş verdim ki, əlavə istehkamçı taborlar yaradılsın və onlar yaradılıbdır. Azad edilmiş torpaqlarda minalardan təmizləmə işi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilir və bu günə qədər işin təqribən 80–90 faizini Müdafiə Nazirliyinin istehkamçıları görüblər. Amma sizin rəhbərlik edəcəyiniz agentlik bundan sonra işin əsas hissəsini öz üzərinə götürməlidir. Əlbəttə, Müdafiə Nazirliyinin istehkamçıları bundan sonra da çalışacaqlar. Çünki işin həcmi kifayət qədər böyükdür. Ancaq Minatəmizləmə Agent-

liyinin elə imkanı olmalıdır ki, bu agentlik ümumi işimizə böyük töhfə versin. Çünki əvvəlki agentliyin texniki təchizatı da, say tərkibi də aşağı səviyyədə idi. Əgər biz bu işi onların öhdəsinə buraxsaydıq, bilinmir neçə il lazım olacaqdı. Bizim isə vaxtımız yoxdur. Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, 1-ci dərəcəli məsələ minalardan təmizləmədir. Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması – əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir. Mənfur düşmən işğal edilmiş və indi azad olunmuş torpaqlarda hər şeyi dağıdıb. Hətta son günlərə qədər yaşadıqları evləri də çıxarkən məhv edib, yandırıb, ağacları qırıb, xüsusilə Kəlbəcər və Laçın rayonlarında. Ağacların bir hissəsini yük maşınlarına doldurub Ermənistana satmağa aparıblar. Qalan ağacları sadəcə olaraq, qırıblar ki, bizə qalmasın. Özləri tikmədikləri evləri – azərbaycanlıların yaşadıqları evləri ki, onları zəbt etmişdilər – yandırıblar, dam örtüklərini, pəncərə çərçivələrini, sanitar qovşaqlarını çıxarıb aparıblar. Bu biabırçı kadrlar xarici mediada da kifayət qədər işıqlandırılıbdır. Görün onlar nələri özləri ilə aparıblar?! Sanitar qovşaqlarını. Mənfur xuntanın özünə ofis yaratdığı Şuşa şəhərinin keçmiş raykom binasında kondisionerləri, radiatorları bu qaçaqaçda çıxarıblar. Biz bilirdik ki, onlar oradan necə qaçırdılar. Bəlkə də qaçışda rekord nəticələr göstərmişlər. Amma bu qaça-

qaçda da bellərinə yəqin ki, radiator, kondisioner bağlayıb Ermənistana qaçırdılar. Yəni bizim bütün infrastrukturumuz, binalar yerlə yeksan edilib. Ona görə hər kəs başa düşməlidir ki, bu işin miqyası nə qədər böyükdür və Azərbaycan bu bərpa işlərinə təkbaşına start verib. Biz heç kimdən yardım gözləmədən buna start verdik və bütün işlər plan üzrə gedir. Siz Müdafiə Nazirliyi ilə sıx əməkdaşlıq etməlisiniz, onlarla görüləcək işlərin cədvəlini birgə tutmalısınız, hansı sahələr daha əvvəl təmizlənməlidir, burada da metodologiya var, dünya metodologiyası var, peyk təsvirləri vardır.

Bildiyiniz kimi, Ermənistan minalanmış sahələrin xəritələrini bizə verməyib, ona görə burada peyk təsvirləri önəmli rol oynaya bilər. Eyni zamanda, hesab edirəm ki, biz özəl şirkətləri də bu işlərə cəlb etməliyik. Mən artıq göstəriş vermişəm, indi xarici şirkətlərlə danışıqlar gedir. Hesab edirəm ki, onları cəlb etmək işimizi yüngülləşdirmək üçün önəmli addım olacaqdır. Bununla paralel olaraq, yerli şirkətlər də yarana bilər. Çünki bizdə bu vaxta qədər belə təcrübə olmamışdır. Ancaq işin həcmini nəzərə alaraq, hesab edirəm ki, özəl şirkətlər də yarana bilər, Azərbaycanın biznes dairələri burada öz sözünü deyə bilər və biz bu işləri daha qısa müddət ərzində görə bilərik. Əlbəttə, bu özəl şirkətlər müvafiq texnika ilə təmin edilməlidir. Eyni zamanda, Minatəmizləmə Agentliyi onlara sertifikatlar da verməlidir, onlar akkreditasiyadan keçməlidir. Həmçinin xarici şirkətlərlə birgə müəssisələr də yaradıla bilər. Siz agentliyin rəhbəri kimi, bu işlərə də fikir verin.

Biz Azərbaycanda minatəmizləmə əməliyyatları üzrə milli standartlar hazırlamalıyıq. Yəni bu, Azərbaycan standartları olmalıdır, əlbəttə, dünya praktikasına da baxmaq lazımdır. Hesab edirəm ki, bizim azad edilmiş ərazilərdə olan bu minalanmanın həcmi bəlkə də dünya miqyasında ən böyük dərəcələrdən biridir. Təmizləmə işləri də, əlbəttə, ardıcıllıqla aparılmalıdır. Burada da prioritetlər düzgün müəyyən edilməlidir. Siz bu prioritetləri Operativ Qərargahla mütləq razılaşdırın. Çünki bu prioritetlər bizim bərpa işlərimizlə də uzlaşmalıdır. İlk növbədə, misal üçün, infrastruktur obyektləri – indi yollar çəkilir, mütləq o sahədə minatəmizləmə işləri aparılmalıdır, hava limanı tikilir, orada da indi bu işlər aparılır, elektrik xətləri çəkilir, yol boyunca bu işlər görülməlidir.

Yaşayış məntəqələrinə gəldikdə, biz ilk növbədə, şəhərləri bərpa etməliyik. Ona görə bütün şəhərlərin əraziləri birinci növbədə, minalardan təmizlənməlidir. Bununla paralel olaraq, yaxın gələcəkdə bəzi kəndlərdə bərpa işlərinə start veriləcək və mən artıq bunu bildirmişəm. Biz indi «ağıllı kənd» konsepsiyasını da hazırlayırıq. Bu konsepsiya, demək olar ki, hazırdır, mənə məruzə edildi, mən bunu təsdiqlədim. «Ağıllı kənd» birinci pilot layihəsi icra ediləcəkdir. Məhz o yerlər də düzgün təsbit edilməlidir. Əkin sahələri və əkin sahələrinə gedən yollar təmizlənməlidir. Bu da prioritetlər sırasındadır.

Çünki mənfur düşmən bizim torpağımızı da vəhşicəsinə istismar edib. Azad olunmuş torpaqlarda təkcə taxıl altında 90 min hektar sahədən mənfur düşmən qanunsuz istifadə edib və qanunsuz varlanıbdır.

Vaxt itirməmək üçün mənim göstərişimlə bütün güclər artıq səfərbər edilib və müharibə başa çatandan sonra mən dərhal bu işlərə start verdim.

Deyə bilərəm ki, payızlıq əkin də aparılıbdır. Müharibə noyabrın 10-da dayandı və biz dekabr ayından payız əkininə başladıq. Mənə gündəlik məlumat verilir, 7000 hektarda artıq payız əkini aparılıb. Yəni bu yenə də bizim gücümüzü göstərir. Onu göstərir ki, biz bir dəqiqə də, bir gün də gözləmək istəmirik. Biz bu torpaqlara qayıtmaq istəyirik və keçmiş köçkünlər, əlbəttə ki, bu arzularla 30 il yaşayıblar. Onların hisslərini başa düşmək olar. Amma onların və onlarla birlikdə olanların təhlükəsizliyi 1-ci dərəcəli məsələdir. Bu yaxınlarda üç nəfər minaya düşüb, bir nəfər həlak olubdur. Yəni o işin təşəbbüskarı vardır. Təşəbbüsü irəli sürən adam özü də xəsarət alıb, yanında olanlar da. Bu çox ciddi məsuliyyətdir. İndi yazlıq əkin üçün sahələrin müəyyənləşdirilməsi prosesi gedir, torpaqlar müəyyən edilir və o əkin sahələrinə gedən yollar da mütləq prioritetlər sırasında olmalıdır.

İnkişaf etmiş ölkələrdə istehsalçılar indi robotlardan geniş istifadə edirlər, biz də bundan istifadə etməliyik. Bir sözlə, ən müasir texnologiyalar, ən son model texnika Azərbaycana gətirilməlidir. Biz güclü bir qurum yaratmalıyıq və ilk növbədə, onun başlıca vəzifəsi əraziləri minalardan təmizləmək olmalıdır. Bizim Dövlət Minatəmizləmə Agentliyimiz ölkə daxilində bütün işləri başa çatdırandan sonra bu təcrübədən istifadə edərək, xarici ölkələrdə də fəaliyyət göstərə, podratçı kimi işləyə bilər.

Beynəlxalq təşkilatlar tərəfindən də bizim agentliyin xidmətindən istifadə oluna bilər. Bax, strategiyanı belə qurun. Yəni bu, agentliyin gələcək fəaliyyəti üçün uzunmüddətli strategiya olmalıdır. Ancaq qısamüddətli və ortamüddətli strategiya torpaqların minalardan təmizlənməsidir ki, bərpa işləri başlansın və vətəndaşlar tezliklə öz doğma torpaqlarına qayıda bilsinlər.

**Vüqar Süleymanov** (*Minatəmizləmə Agentliyinin İdarə Heyətinin sədri*): Çox sağ olun, möhtərəm cənab Prezident. Sürətlə inkişaf edən Azərbaycanımız bu gün zəfər çalmış ölkədir. Bu, sözsüz ki, Sizin həm Prezident, həm də Ali Baş Komandan kimi, gərgin əməyinizin parlaq nəticəsidir. Bu gün ölkəmiz əsası ulu öndərimiz tərəfindən qoyulmuş inkişaf strategiyasını uğurla davam etdirərək, yeni hədəflərə doğru irəliləyir. Qarabağa böyük qayıdış bu hədəflərdən biridir. Bu hədəflərə nail olmaq üçün, Siz qeyd etdiyiniz kimi, mina təhlükələrindən qurtulmaq 1-ci dərəcəli vəzifələrə aiddir.

Hörmətli cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, agentlik bütün imkanlarını səfərbər edəcək və qarşımıza qoyulmuş vəzifələrə, hədəflərə nail olacaqdır.

Azad edilmiş ərazilərdə minatəmizləmə işləri tapşırığınıza əsasən, lazımi səviyyədə, beynəlxalq standartlara uyğun və keyfiyyətlə yerinə yetiriləcəkdir. Mən qürur duyuram ki, belə bir məsuliyyətli işin təşkilində iştirak edəcəyəm və bu etimadınıza görə Sizə minnətdarlığımı bildirirəm. Çox sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKURORLUĞUNUN BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ YENİ İNZİBATİ BİNA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*8 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Azərbaycan Respublikası Baş Prokurorluğunun paytaxtın Binəqədi rayonu ərazisində yeni inzibati bina kompleksinin açılışında iştirak etmişdir.*

*Baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevə raport verdi.*

*Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə dövlət başçısının 2020-ci il 10 iyun tarixli Sərəncamına əsasən, Baş Prokurorluğun yeni strukturu təsdiq edilib, yeni idarə və şöbələr, o cümlədən islahatların tərkib hissəsi kimi, kriminalistika və informatika idarəsi yaradılıbdır.*

*Yeni inzibati bina ilə tanışlıq zamanı Prezident İlham Əliyevə məlumat verən Baş prokuror Kamran Əliyev bildirdi ki, dörd korpusdan ibarət kompleksdə Baş Prokurorluğun altı idarəsi və Elm-Tədris Mərkəzi fəaliyyət göstərəcək. Kompleksdəki bütün otaqlar*

*müasir informasiya-kommunikasiya qurğuları ilə təchiz olunub. Yeni inzibati binada yaradılmış müasir şərait prokurorluq orqanları əməkdaşlarının daha səmərəli və məhsuldar fəaliyyətini təmin edəcək. Eyni zamanda, vətəndaş məmnunluğunun təmin olunması işi də yeni kompleksdə müvafiq standartlara və müasir formaya uyğunlaşdırılıb.*

*Diqqətə çatdırıldı ki, cinayət prosesi iştirakçılarının dindirilməsi üçün müasir tələblərə cavab verən 13 dindirmə otağında zəruri texniki vasitələr qoyulub. Eyni zamanda, cinayət prosessual qanunvericiliyin tələblərinə müvafiq olaraq, tanıyan şəxsin təhlükəsizliyinin təmin edilməsi məqsədilə tanınmanı vizual müşahidəni istisna edən şəraitdə aparmağa imkan verən istintaq otağı yaradılıb. Kriminalistika otağı da ən müasir cihaz və avadanlıqlarla təmin olunub. İnzibati binada 3 iclas zalı və 320 nəfərlik konfrans zalı müxtəlif beynəlxalq tədbirlərin, treninq, seminar, mətbuat konfransları və təqdimatların keçirilməsinə imkan verəcək.*

*Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılmış və 44 günlük Vətən müharibəsinə həsr edilmiş tarixi-memorial qalereya ilə tanış oldu. Qalereyada Vətən müharibəsi dövründə Ermənistan ordusunun Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə və obyektlərə qarşı törətdiyi terror aktları ilə bağlı prokurorluq tərəfindən istintaq olunan cinayət işləri üzrə əldə edilmiş maddi sübutlar toplanılıb.*

*Dövlət başçısına səyyar kriminalistik laboratoriyaların quraşdırıldığı avtomobillər barədə də məlumat verildi. Bildirildi ki, avtomobillərdə quraşdırılmış batareyaların köməyi ilə mühərriklər işə salın-*

*madan 1,5–2 saat ərzində avtonom rejimdə hadisə yerini, eləcə də istintaq hərəkəti aparılan ərazini işıqlandırmaq mümkündür. Müasir texnika və avadanlıqla təchiz edilmiş belə avtomobillər MDB məkanında yalnız Azərbaycandadır.*

*Kompleksin ərazisində abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb, müasir işıqlandırma sistemi quraşdırılıbdır.*

*Prezident İlham Əliyevin fəal hüquq siyasətinin əsas məqsədi qanunun aliliyinin təmin olunmasıdır. Prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması bu istiqamətdə həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirir.*

## BÖYÜK BRİTANİYANIN AVROPA QONŞULUĞU VƏ AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ XANIM VENDİ MORTON İLƏ GÖRÜŞ

*9 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə Dövlət naziri xanım Vendi Mortonu qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Sizi Azərbaycanda görməyə çox şadam. Əminəm ki, səfəriniz yaxşı nəticələrlə çox uğurlu olacaq. Bu bir daha ölkələrimiz arasında güclü tərəfdaşlıq münasibətlərini və əməkdaşlığımızı davam etdirmək üçün gələcək planlarımızı əks etdirir. Çox yaxşı siyasi təmaslarımız, çox fəal siyasi dialoqumuz var. Sizin Azərbaycana səfəriniz bunu bir daha nümayiş etdirir.

Əlbəttə, enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir. Biz böyük layihə olan «Cənub Qaz Dəhlizi»ni tamamlamağa çox şadıq. Bilirsiniz ki, *bp* bizim strateji tərəfdaşımızdır. Bu şirkət Azərbaycanda həyata keçirilən əsas layihələrdə lap əvvəldən investor qismində iştirak edib. «Əsrin müqaviləsi»nin vaxtının uzadılmasından sonra bizim əməkdaşlığımız bir çox onilliklər ərzində davam edə-

cəkdir. Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq, bizim qarşımızda indi yeni imkanlar vardır. Biz *bp* tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz vardır. Bu bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir. Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir. Yeri gəlmişkən, iki gündən sonra «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının 7-ci iclası keçiriləcək. Bu iclasda biz nailiyyətləri nəzərdən keçirəcəyik və gələcək əməkdaşlığa ümid bəsləyəcəyik. Əlbəttə, Birləşmiş Krallıqdan Azərbaycana qoyulmuş investisiyalar bizə ölkəni müasirləşdirməyə çox kömək edib. Bu investisiyalar əsasən enerji sektoruna yatırılıbdır – demək olar ki, 30 milyard dollar. Bu bizə iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunmuş gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanını veribdir. Ona görə əminəm ki, qarşıdakı illərdə bizim diqqətimizi cəmləşdirəcəyimiz əsas sahə Azərbaycanın qeyri-enerji sektorunun inkişafı olacaqdır.

Görüşümüzdən əvvəl mən bəzi məlumatlara nəzər saldım və gördüm ki, demək olar, 600 Britaniya şirkəti Azərbaycanda qeydiyyatdan keçib. Bu həqiqətən də iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin yaxşı göstəricisidir. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması üçün böyük potensialımız

vardır. Biz artıq Britaniya şirkətləri ilə təmaslara başlamışıq. Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir. Hər şey dağıdılıb. Bərpa olunan enerji sahəsində böyük potensial vardır. Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı Günəş, külək, su potensialı vardır. Biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri «yaşıl zona» ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, Günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir. Sözsüz ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr böyük əhəmiyyət kəsb edir. Bir daha ölkəmizə xoş gəlmisiniz.

**Vendi Morton** (*Böyük Britaniyanın Dövlət naziri*): İkitərəfli münasibətlərimizə gəldikdə, biz bir çox sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, gələcəkdə bu əməkdaşlıq daha da genişlənəcəkdir. Mən dünən səfirimiz tərəfindən təşkil olunmuş proqram sayəsində Azərbaycan mədəniyyəti ilə tanış oldum.

*Görüşdə postmünaqişə vəziyyəti, işğaldan azad olunmuş ərazilərdə «yaşıl enerji» konsepsiyasının tətbiqi, vətəndaş cəmiyyətinin inkişafı, gender bərabərliyi, energetika, o cümlədən bərpa olunan enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Sonda xatirə şəkilləri çəkdirildi.*

## «CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS FORMATINDA KEÇİRİLMİŞ 7-ci İCLASINDA İŞTİRAK

*11 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də «Cənub Qaz Dəhlizi» Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilmiş 7-ci iclasında çıxış etmişdir.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli komissar Simson!
Hörmətli komissar Varhelyi!
Xanımlar və cənablar!
Əziz dostlar!

«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasının 7-ci iclası videokonfrans vasitəsilə keçirilir. Bu, pandemiyanın nəticəsində yaranmış yeni reallıqdır. Buna baxmayaraq, əminəm ki, bizim birgə fəaliyyətimizin nəticəsi hər zaman olduğu kimi, əhəmiyyətli olacaqdır. Məşvərət Şurasının ilk iclası mənim xatirimdədir. O zaman biz birgə işimizə yeni başlamışdıq və bu gün keçmişə nəzər saldıqda mühüm nailiyyətlərin şahidi oluruq. Yeri gəlmişkən, hər il Bakıda toplaşarkən

biz görülmüş işləri nəzərdən keçirir və gələcək addımlarımızı planlaşdırırıq.

Şadam ki, bugünkü iclasda iştirak edən ölkələrin sayı əvvəlkindən artıqdır. Hazırda burada 18 ölkə, 19 şirkət və 5 aparıcı beynəlxalq maliyyə təsisatı iştirak edir. Biz vahid komanda olaraq çalışırıq və hesab edirəm ki, bu bizim uğurumuzun başlıca səbəbidir.

Əvvəla, hər birimizi «Cənub Qaz Dəhlizi»nin inşasının başa çatdırılması münasibətilə təbrik etmək istəyirəm. Ötən ilin sonuncu günü əlamətdar olmuşdur. «Cənub Qaz Dəhlizi»nin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir. Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki yeni plan və ideyalarımız vardır. Həmin plan və ideyalar bugünkü iclasda mütləq müzakirə ediləcəkdir.

Mən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Bu nəhəng layihənin inşasında iştirak edən dövlətlər – Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə minnətdaram. Avropa Komissiyasına təşəkkür edirəm, çünki Azərbaycan və Avropa Komissiyası 10 il əvvəl Bakıda «Cənub Qaz Dəhlizi»nə dair Birgə Bəyanat imzalamışdır. Bu bizim fəaliyyətimizin başlanğıc nöqtəsi idi. Bu 10 il ərzində biz Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik, Azərbaycan və Avropa Komissiyası Məşvərət Şurasının həmsədrləridir.

Mən ABŞ və Böyük Britaniya hökumətlərinə təşəkkürümü bildirmək istəyirəm. Tərəfdaşlarımız olan hər iki ölkənin hökuməti bizim bütün təşəbbüslərimizi hər zaman dəstəkləmiş, qonşu və tərəfdaşları-

mızla birlikdə əvvəllər də uğurla həyata keçirdiyimiz müxtəlif nəhəng layihələrin icrası zamanı bizə çox güclü dəstək vermişdir.

Əlbəttə, şirkətlər bu layihəyə sadiqlik nümayiş etdirməsəydi, onun reallaşması mümkünsüz olardı. Burada həqiqətən də bu nəhəng enerji layihəsinin həyata keçirilməsi ilə bağlı vahid ideya ətrafında toplaşmış şirkətlərdən ibarət böyük bir qrup mövcuddur. Bu mənada mən Azərbaycan və *bp* arasında strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. *bp* bizim strateji tərəfdaşımızdır, 27 ildir ki, Azərbaycanda fəaliyyət göstərən şirkətdir və qarşıda hələ neçə onilliklər ərzində əməkdaşlığımız vardır. Buraya Azərbaycanda neft və qaz sahəsi, o cümlədən resursların nəqli ilə bağlı bütün əhəmiyyətli layihələr daxildir.

Buradan aparıcı beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına və Asiya İnfrastruktur İnvestisiya Bankına təşəkkürümü bildirmək istəyirəm. Bu beş böyük beynəlxalq maliyyə institutu layihədə iştirak etmiş və onun həyata keçirilməsinə mühüm töhfələr vermişdir. Bu bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq.

«Cənub Qaz Dəhlizi» enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz

əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur.

«Cənub Qaz Dəhlizi» layihəsinə nəzər saldıqda, onun bir çox parametrlər üzrə çox nadir olduğunu görə bilərik. Onun uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir. Həmin ölkələr arasında sıx əməkdaşlıq olmasaydı, onu reallaşdırmaq mümkünsüz olardı. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, hündürlüyü 2500 metr olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir. «Cənub Qaz Dəhlizi» mövcud olan ən yüksək ekoloji standartlara cavab verir və bu həmin layihənin planlaşdırılması və icrası zamanı bizim üçün başlıca şərt idi.

Layihənin dəyərinə gəldikdə, ilkin olaraq dəyər 44,6 milyard dollar məbləğində hesablanmışdı. Lakin səmərəli idarəçilik və düzgün planlaşdırma nəticəsində layihənin dəyəri 33 milyard dollara enmişdir. Bunun özü əhəmiyyətli bir nailiyyətdir. Çünki, adətən, tikinti layihələrinin icrası zamanı dəyər azalmır, əksinə, artır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan layihəyə 10 milyard dollar həcmində əhəmiyyətli maliyyə töhfəsi veribdir və biz «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsinin hər dörd seqmentində – «Şahdəniz», «Cənubi Qafqaz» boru kəməri, TANAP və TAP-da iştirak etmişik. Bunların

hamısı bizim komanda şəklində işləməyimizin təzahürüdür.

Bir daha 10 il əvvəl Bakıda Avropa Komissiyasının ozamankı prezidenti cənab Barrozu və mənim tərəfimdən imzalanmış Birgə Bəyanatın əhəmiyyətini vurğulamaq istərdim. «Cənub Qaz Dəhlizi»nə dair Birgə Bəyanatın imzalanması həqiqətən də əlamətdar hadisə idi. Ancaq həmin bəyanatın imzalanması artıq əldə edilmiş irəliləyişə görə mümkün olmuşdur. O zaman – 1994-cü ildə Azərbaycan fəal şəkildə dünyanın aparıcı enerji şirkətləri ilə işləməyə başlamış və «Əsrin müqaviləsi»ni imzalamışdır. Bu bizim enerji strategiyamızın reallaşdırılması istiqamətində atılmış vacib addım idi.

Tərəfdaşlarımıza bəzi mühüm tarixi nailiyyətləri xatırlatmaq istəyirəm. 1994-cü il bizim bütün nəhəng layihələrimiz üçün başlanğıc nöqtəsi hesab oluna bilər. 1996-cı ildə Azərbaycan və beynəlxalq enerji şirkətlərindən ibarət konsorsium «Şahdəniz» yatağı ilə bağlı müqavilə imzaladı. Hazırda həmin yataq «Cənub Qaz Dəhlizi»nin yeganə təbii ehtiyat mənbəyidir, ancaq əminəm ki, digər yataqlardan da əlavə qaz həcmləri olacaqdır. 1997-ci ildə xarici şirkətlər tərəfindən Xəzərdə ilk neftin hasil edilməsi reallığa çevrildi. Azərbaycan Xəzər dənizində fəaliyyət göstərmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə oldu. Daha sonra 1999-cu ildə biz Bakıdan Gürcüstanın Supsa liman şəhərinədək uzanan boru kəmərini istifadəyə verdik. Bu, gələcək sərmayə qoyuluşu baxımından çox vacib idi, çünki buna qədər bizim dünya bazarına çıxışımız yox idi. Azərbaycan

dənizə çıxışı olmayan ölkədir. Bu səbəbdən bizim boru kəmərlərinə ehtiyacımız var idi və beləliklə, 1999-cu ildəki nailiyyətimiz əhəmiyyətli dəyişiklik yaratdı.

Daha sonra biz 2006-cı ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Ceyhan əsas neft boru kəməri ilə bağlı işlərimizi planlaşdırmağa başladıq. Bu, Xəzər dənizinin Aralıq dənizi ilə birləşdirilməsi demək idi. Biz artıq təchizat marşrutlarının şaxələndirilməsinə nail olduq. 2007-ci ildə biz Azərbaycandan Gürcüstana, oradan isə Türkiyəyə uzanan qaz boru kəmərinin inşasını başa çatdırdıq. Bunun özü də tarixdə bir ilk idi – Azərbaycan qonşu ölkələri təbii qazla təmin etməyə başladı. Nəhayət, 2012-ci ildə, Avropa İttifaqı ilə bəyanatın imzalanmasından bir il sonra biz Azərbaycan və Türkiyə arasında TANAP layihəsinin inşası ilə bağlı müqavilə imzaladıq. Bu, «Cənub Qaz Dəhlizi»nin həyata keçirilməsi baxımından çox mühüm hadisə idi. 2018-ci ildə TANAP-ın icrası başa çatdıqdan sonra, 2020-ci ildə TAP layihəsi də yekunlaşdırıldı.

Bunların hər biri əhəmiyyətli nailiyyətlərdir. Bu gün keçmişə nəzər saldıqda görürük ki, bütün bu nailiyyətlər olmasaydı, bir-birimizi təbrik etdiyimiz bugünkü mərasim mümkünsüz olardı. Ancaq biz gələcəyə baxmalıyıq. Biz böyük nailiyyətlər əldə etmişik, lakin əminəm ki, bu gün Məşvərət Şurasının toplantısı çərçivəsində iştirakçılar gələcək planlarımızı müzakirə edəcəklər. Azərbaycana gəldikdə, biz enerji resurslarımızı inkişaf etdirməyə davam edəcəyik. Hazırda kəşfiyyat və hasilat mərhələsində olan

bir neçə yataqla bağlı çox ümidverici perspektivlər vardır. Xüsusilə 400 milyard kubmetr qaz ehtiyatına malik olan «Babək» yatağını qeyd edə bilərəm. «Abşeron» qaz-kondensat yatağının 350 milyard kubmetr ehtiyatı var və ümid edirəm ki, orada hasilat gələn il başlanacaqdır. Digəri isə «Ümid» yatağıdır ki, orada ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatı mövcuddur. Onlar təsdiqlənmiş ehtiyata malik olan yataqlardır ki, Xəzər dənizinin Azərbaycana məxsus sektorunda qaz hasilatına töhfə verəcəkdir. Kəşfiyyat mərhələsində olan digər layihələr də var və biz növbəti illərdə yeni kəşflərin olacağına ümid edirik. Beləliklə, şaxələndirilmiş bu neft-qaz kəmərləri şəbəkəmizin hasilat gücünün artırılmasına xidmət edəcəkdir.

Birgə planlarımıza gəldikdə, əminəm ki, bu gün siz İonik–Adriatik boru kəmərinə dair məsələləri müzakirə edəcəksiniz. Əlbəttə, TAP-ın başa çatdırılması İonik–Adriatik boru kəmərinin inşasına imkan yaradır. Biz Qərbi Balkan ölkələri ilə Anlaşma memorandumlarını artıq imzalamışıq. İonik–Adriatik boru kəməri həyata keçirildikdən sonra biz təchizat marşrutlarımızı şaxələndirmək imkanı əldə edəcəyik və Qərbi Balkan dövlətləri üçün də yeni imkanlar yaradacağıq.

Şaxələndirmə haqqında danışarkən qeyd etməliyik ki, bizim layihə yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən ibarətdir. Bu, olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Azərbaycan qazı Avropa üçün yeni etibarlı və uzunmüddətli mənbədir. Çünki bizim təsdiqlənmiş

təbii qaz ehtiyatımız 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə, bu həcm daha da artıq ola bilər. «Azəri–Çıraq–Günəşli» yatağında «dərin qaz» adlanan layihəni də nəzərə alsaq, bizim potensialın mənzərəsi daha da aydın olar.

Sizlərə daha bir vacib tədbirlə bağlı məlumat vermək istərdim. Bu da Azərbaycan və Türkmənistan arasında «Dostluq» yatağına dair Anlaşma Memorandumunun imzalanmasıdır. Bu yataq azərbaycanlı geoloq və neftçilər tərəfindən sovet dövründə kəşf edilmişdir. Yəni kəşf edilmiş yataqdır. Bu yatağın işlənilməsinə dair baza prinsiplərinin hazırlanması üçün çox vaxt tələb edildi və biz onu «Dostluq» adlandırdıq. Bu, Xəzər hövzəsində çox əlamətdar hadisədir. Bu ilin yanvar ayında həmin memorandum imzalandı və əminəm ki, tezliklə biz bütün şərtləri razılaşdıraraq, yekun müqaviləni imzalayacağıq. Bu, Xəzər dənizi və onun hüdudlarından kənarda gələcək enerji əməkdaşlığı üçün də çox faydalı olacaqdır.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün etibarlı tranzit ölkəyə çevrilib. Uzun illərdir ki, biz Xəzərin şərqində yerləşən tərəfdaşlarımız üçün Bakı–Tbilisi–Ceyhan boru kəməri və ölkəmizin dəmir yolu sistemi vasitəsilə vacib nəqliyyat marşrutları üzrə təchizatı təmin edirik. Yəni Azərbaycan özünü etibarlı tranzit ölkə kimi təsdiq edibdir.

Diqqətinizə çatdırmaq istədiyim digər bir məqam bizim bərpa olunan enerjiyə dair planlarımızla bağlıdır. Biz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə

danışıqlar mərhələsindəyik. Biz artıq onların ikisi ilə inşaat üçün zəruri sənədləri imzalamışıq. Onların biri Günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, toplam gücü 440 meqavatdır. Bu layihələr 100 faiz xarici sərmayə hesabına icra olunacaq. Azərbaycanın sərmayə mühiti olduqca münbitdir. Dünya Bankının hesabatına görə, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. Bərpa olunan enerji sahəsinə sərmayələrin cəlb edilməsi bizim bərpa olunan enerji mənbələrinə dair strategiyamıza və potensialımıza uyğundur.

Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə Günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranıbdır. Bu baxımdan mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq, azad edilmiş əraziləri «yaşıl enerji» ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, Günəş və külək potensialından istifadə edərək, həmin layihələri icra edəcəyik.

Daha bir layihə bütün azad olunmuş ərazilərdə «ağıllı şəhər»lərin yaradılmasıdır ki, bununla bağlı da hazırlıq işləri gedir. İşğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən darmadağın edilməsini nəzərə alsaq, bu, böyük bir çağırışdır, lakin biz bunun öhdəsindən qısa müddət ərzində gəlmək və keçmiş köçkünlərimizi doğma torpaqlarına qaytarmaq məsələsinə sadiqik. Bununla da ölkənin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirmək niyyətindəyik.

Hesab edirəm ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsulları, təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və «yaşıl enerji»yə fəal şəkildə sərmayə yatırmalıdır. Biz məhz bununla məşğuluq. Bununla bağlı planlarımı bölüşdüm və əminəm ki, onlar həyata keçiriləcəkdir. Sadəcə olaraq, tərəfdaş və dostlarımızı məlumatlandırmaq istədim ki, belə imkanlar da mövcuddur.

Artıq dediyim kimi, «Cənub Qaz Dəhlizi»nin başa çatdırılmasını qeyd etdiyimiz bir vaxtda gələcəyə baxmalı, yeni plan və ideyalar üzərində işləməliyik. Ümid edirəm ki, pandemiya bitdikdən sonra yenidən Bakıda görüşə biləcəyik, çünki Bakı ənənəvi olaraq Məşvərət Şurasının toplantılarının keçirildiyi şəhərdir. Fürsətdən istifadə edərək, birgə fəaliyyətimizi davam etdirmək üçün sizi gələn il Bakıya səfərə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

* * *

**Pərviz Şahbazov** (*Energetika naziri*): Zati-aliləri cənab Prezident, biz Sizə Məşvərət Şurasının bugünkü iclasının bütün iştirakçıları adından dərin minnətdarlığımızı bildiririk. Siz çoxəhatəli və təfərrüatlı çıxış etdiniz. Təbii ki, Sizin dəstəyiniz «Cənub Qaz Dəhlizi»nin uğurlu olmasını şərtləndirdi.

İndi isə sözü Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simsona vermək istəyirəm.

**Kadri Simson**(*Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı*): Zati-aliləri Prezident Əliyev,

nazir Şahbazov, Brüsseldən sizə salamlar. Məşvərət Şurasının builki iclası xüsusidir. Çünki bizim bu günü qeyd etmək üçün əsasımız vardır. «Cənub Qaz Dəhlizi» başa çatıb. Məşvərət Şurası siyasi liderləri, şirkətləri və maliyyə təsisatlarının hamısını bir masa arxasında toplayıb. Digər forumlardan fərqli olaraq, bu, görünməmiş hadisədir. Bu uğurun miqyasını əslində anlamaq üçün biz layihənin üzləşdiyi iki gözəçarpan çətinliyi qavramalı idik. Birincisi, inam. Şura hamımızı vahid ideya ətrafında birləşdirdi. O hamımız üçün çox istənilən etimadı qurmağa, icra olunacaq məsələlər ətrafında konsensus əldə etməyə və həyata keçiriləcək layihələrlə bağlı razılığa gəlməyə yardım etdi. İkincisi, texniki tərəfdir. Burada nəinki «Şahdəniz-2» yatağının işlənilməsi, eləcə də çoxsaylı ərazilərdə, fərqli coğrafi məkanlarda, həm quruda, həm dənizdə boruların yerləşdirilməsi və birləşdirilməsində üzə çıxan çətinliklər nəzərdə tutulur. Bütün bunlara baxmayaraq, biz qalib gəldik. Bu gün biz fərəhlə deyə bilərik ki, mandatımız icra olunub.

«Cənub Qaz Dəhlizi» Avropa İttifaqına öz enerji təchizatını şaxələndirmək, vətəndaşlarımıza daha çox seçim və rəqabəti təmin etməkdə kömək edir. Faktiki olaraq, biz İtaliyada bu ilin əvvəlində qaz qiymətlərinin artıq aşağı düşdüyünü görürük. Bu, uğurumuzun, həmçinin yeni tərəfdaşlığın başlanması deməkdir. Bu dəhliz vasitəsilə Avropa İttifaqı və Azərbaycan hazırda strateji enerji tərəfdaşlarıdır. Biz bu nöqtəyə təsadüfən, yaxud hansısa şərtlərlə gəlməmişik. Tam əksinə. Biz bu nöqtəyə bu gün ona görə çatmışıq ki, bu iclasda iştirak edən hər bir şəxs yorulmadan ça-

lışıb və sadiqliyini nümayiş etdirib. Mən əvvəlcə, Prezident Əliyevə bütün bu illər ərzində nümayiş etdirdiyi mövqeyinə, qətiyyətinə və strateji idarəçiliyinə görə təşəkkürümü bildirmək istəyirəm. Mən həmçinin Gürcüstan, Türkiyə və Albaniyaya təşəkkürümü bildirmək istəyirəm. Dəhlizimiz sizin ərazilərdən keçir. Siz olmadan «Cənub Qaz Dəhlizi» layihəsi olmazdı. Siyasətə dəstək belə layihələrdə, hər hansı boru kəməri çəkilərkən təməl rolunu oynayır. Bir sözlə, mən bu müddət ərzində verdikləri siyasi dəstəyə görə Amerika Birləşmiş Ştatlarına və Birləşmiş Krallığa təşəkkürümü bildirmək istəyirəm. Biz bu illər ərzində işinizə və dəstəyinizə görə sizə minnətdarıq. Sonuncu, lakin mühüm məqam maliyyələşmədir. Maliyyələşmə bu layihənin icrasında çox vacib idi. Mən layihənin maliyyələşdirilməsinə töhfə vermiş Avropa İnvestisiya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Dünya Bankına və bütün özəl qurumlara minnətdarlığımı bildirmək istəyirəm. Məhz beləcə biz bu nöqtəyə çatdıq.

İndi isə gəlin işi necə davam etdirəcəyimizə nəzər salaq. Hamımız bilirik ki, Avropa iqlim neytrallığına doğru qlobal keçiddə aparıcı cərgədədir. «Yaşıl razılaşma»nın əsasında aydın məqsədlər dayanır. 2050-ci ilə qədər Avropada iqlim neytrallığı olmalıdır və gələn 10 il ərzində emissiyaların azaldılması ən azı 55 faizə çatmalıdır. Bu, dekarbonlaşmış enerji sisteminə doğru hərəkət etmək deməkdir.

Əlbəttə, iqlim neytrallığına doğru yol uzundur. Müxtəlif başlanğıc nöqtələrində fərqli yanaşma tələb edilir. Bu baxımdan biz qazın rolunu əvəzedici

yanacaq kimi görürük. Avropa İttifaqı Şurası bu yaxınlarda etiraf etdi ki, qaz keçid yanacağa kimi enerji təhlükəsizliyini və əlçatanlığı saxlanmaqla qara kömür kimi havanı çirkləndirən enerji mənbələrindən tədricən uzaqlaşmanın təmin edilməsində öz rolunu oynayacaqdır. Eyni zamanda, gələcək «yaşıl razılaşma» ilə dünyada qaz dekarbonlaşdırılmalıdır və öz yerini hidrogenin və digər dekarbonlaşmış yanacağın tətbiqinə təhvil verməlidir. Təmiz enerjiyə keçid zamanı qazın rolunu etiraf etdiyimiz zaman biz həmçinin aydın anlayırıq ki, bu rol yeni məsuliyyəti ehtiva edir. Bu səbəbdən Avropa İttifaqı metan emissiyaları sayəsində tədbirlərə xüsusi önəm verir. Biz bilirik ki, metan qısa perspektivdə $CO_2$-dən qat-qat zərərlidir. Metan emissiyaları bütün istilik qazlarının emissiyasının 50 faizə yaxın hissəsini təşkil edir. Lakin biz həmçinin bilirik ki, qaz hasilatı nəticəsində havaya qalxan metan, demək olar ki, sıfır xərclə azaldıla bilər. Bu elə bir sahədir ki, Avropa İttifaqı sürətlə addımlamağı çox arzu edir. Mənə məlumdur ki, Azərbaycanın Dövlət Neft Şirkəti artıq BMT-nin Ətraf mühit proqramı ilə ilk təmasları qurub. Biz Avropa İttifaqında metanın aradan qaldırılması ilə əlaqədar, həmçinin BMT-nin Ətraf mühit proqramı ilə yaxından əməkdaşlıq edirik. Böyük işin bir hissəsi olaraq, ötən ilin oktyabrında biz antropogen metan emissiyalarını azaltmaq üçün Avropa İttifaqının strategiyasını qəbul etmişik və bu məsələdə əməkdaşlığı genişləndirmək arzusundayıq. Qısa perspektivdə biz emissiyaların monitorinqi, yoxlanılması və məruzə edilməsindəki boşluqları

doldurmaq, eləcə də metan emissiyalarını azaltmaq üçün təşəbbüsləri həvəsləndirmək istəyirik. Növbəti addımımız BMT-nin Ətraf mühit proqramı ilə beynəlxalq metan emissiyası observatoriyasını yaratmaq və metan emissiyalarının azaldılması ilə əlaqədar Avropa İttifaqının qaydalarını hazırlamaqdan ibarət olacaqdır. Biz qlobal peyklə monitorinq məlumatlarınızı bölüşməyə hazırıq və onlar bu gün artıq ən çox emissiya tərəflərini müəyyən edə bilir.

Belə dəyişkən enerji xəritəsində bugünkü iclasda, həmçinin «Cənub Qaz Dəhlizi»nin uğurunu necə davamlı etmək və onun perspektivlərini təmin etmək kimi məsələləri də nəzərdən keçirəcəyik. Sual olunur: bu layihə Qərbi Balkan regionu üçün etibarlı enerji çıxışının təmin edilməsinə necə töhfə verə bilər? Çünki həmin region dekarbonlaşmış sistemə doğru tədricən addımlayır, kömürdən uzaqlaşır və öz güclü potensialını inkişafda olan bərpa olunan enerji üçün istifadə edir. Avropa İttifaqı Qərbi Balkanlara enerji keçidi zamanı praqmatik formada əsl tərəfdaşlıq ruhunda kömək etmək üçün yardım əlini uzadır. Biz enerji və bağlantını ötən il qəbul olunmuş Qərbi Balkanlar üçün iqtisadi və investisiya proqramının əsas hissəsində əks etdirdik. Əlbəttə, Azərbaycan qazının günlərin birində Qərbi Balkanlara çatması bir sıra aspektlərdən asılı olacaq. Əsas aparıcı qüvvə bazara əsaslanan investisiya qərarları olacaq. Bu yay TAP Konsorsiumu ilkin icbari bazar tədqiqatını planlaşdırır. İnfrastruktur da nəzərdən keçirilir. Hər bir yeni infrastruktur layihəsi ayrıca olaraq qiymətləndirilməlidir. Onun dayanıqlığa təsiri nəzərdən keçiril-

məlidir. Bütün bunlar mühüm texniki işi tələb edir. Fikrimizcə, bu iş enerji birliyi, Mərkəzi və Cənub-Şərqi Avropada enerji bağlantısı kimi, regional forumlardan istifadə edərək aparılmalıdır. Beləliklə, bugünkü görüşümüz nəinki hazırkı uğuru qeyd etmək, eləcə də perspektivlər və çağırışlar ətrafında fikir mübadiləsi aparmaq baxımından vacibdir.

Xanımlar və cənablar, mən bugünkü iclasda nümayiş etdirilən kollektiv səylərdən fərəh hissi duyuram. Biz bu uğurdan qarşımızda olan iş zamanı ruhlandırıcı amil kimi istifadə etməliyik. Sağ olun.

**Pərviz Şahbazov:** Xanım Simson, xoş sözlərə və ətraflı çıxışınıza görə sağ olun.

İndi isə hamınızı nazirlərin yeddinci iclasının birinci sessiyasına dəvət edirəm.

Zati-aliləri cənab Prezident!

Hörmətli komissarlar!

Hörmətli nazirlər!

ABŞ, Birləşmiş Krallıq və İtaliya hökumətinin yüksəkrütbəli nümayəndələri!

Xanımlar və cənablar!

Məşvərət Şurası beynəlxalq əməkdaşlığın nümunəvi bir formatı kimi, öz məqsədinə nail oldu. «Cənub Qaz Dəhlizi» hazırda Avropanı Xəzər dənizi ilə bağlayır və bu, dünya miqyaslı infrastruktur vasitəsilə baş tutur, enerji təhlükəsizliyini gücləndirir, eyni zamanda, iqlim, iqtisadi və kommersiya məqsədlərimizə nail olunmasına töhfə verir. İlk dəfə olaraq, Azərbaycan qazı Avropa bazarına 3500 kilometrlik məsafəni qət edərək daxil olub. Cənab Prezidentin qeyd etdiyi kimi, layihə vaxtında tamamlan-

dı və büdcəyə də qənaət edildi. Mən sizin hamınızı belə bir ümumi tarixi nailiyyət münasibətilə təbrik edir, strateji məqsədlərimizə doğru daimi olaraq irəliləməyimizi və səmərəli tədbirlərin keçirilməsini arzu edirəm. Biz yüksək səviyyədə dəstəyin və çoxtərəfli əməkdaşlığın tərəfdarıyıq.

Hörmətli iştirakçılar, belə bir meqalayihə öz şaxələndirmə missiyasının da nəticələrini artıq göstərdi. Cari ildə Azərbaycandan Gürcüstana təxminən 1 milyard kubmetr, Türkiyəyə ən azı 8 milyard kubmetr, Avropaya 5 milyard kubmetrdən çox təbii qazın ixrac edilməsi gözlənilir. Növbəti ildə «Cənub Qaz Dəhlizi»nin əsas seqmentlərindən biri olan TAP vasitəsilə bizim İtaliyaya 13 faiz, Yunanıstana 20 faiz, Bolqarıstana isə 33 faiz təbii qazımız çatdırılacaq. Həm TANAP-ın, həm də TAP-ın 2023-cü ilə qədər tam buraxılış qabiliyyəti ilə istifadə olunması nəzərdə tutulur. Artıq «Şahdəniz» yatağından 137 milyard kubmetr qaz hasil edilib və bu əslində «Cənub Qaz Dəhlizi»nin əsas mənbəyidir. Beləliklə, «Cənub Qaz Dəhlizi» Azərbaycanın enerji təhlükəsizliyini gücləndirir, bazarları, istehlakçı ölkələr üçün mənbələri və marşrutları şaxələndirir. Xüsusi olaraq məhz Avropa İttifaqının Karbon Neytrallığı Prioriteti çərçivəsində «Cənub Qaz Dəhlizi» yanacağın iqlimə ən az təsir göstərərək, təchiz edilməsi imkanlarını açır. Bu, karbohidrogenin nəqlini nəzərdə tutur və bununla bağlı «Cənub Qaz Dəhlizi» sisteminin seqmentinə artıq tətbiq edilir.

Xanımlar və cənablar, TAP-ın istismara verilməsi «Cənub Qaz Dəhlizi» layihəsinin sonu deyil, ək-

sinə, bu, yeni imkanların başlanması deməkdir. Biz öz tərəfdaşlarımızla birgə yeni geoiqtisadi mühiti və dayanıqlı inkişafı, qlobal əməkdaşlığı təşviq edən Avrasiyanın yeni xəritəsini yaradırıq. Həmçinin qeyd edilməlidir ki, Azərbaycan enerji dəhlizinin fiziki təhlükəsizliyini artırmış, bu layihəyə hərbi hədələri aradan qaldırmış, öz torpaqlarını Ermənistanın 30 illik işğalından azad edərək, ərazi bütövlüyünü bərpa etmişdir.

İndi isə biz «Cənub Qaz Dəhlizi»nin birinci fazasını başa çatdırdıqdan sonra növbəti faza üzərində düşünürük. İkinci faza nəticəsində Azərbaycan qazının işlənilməyən yataqlardan hasilatı təmin ediləcəkdir və bu da artıq yeni təchizatçılar üçün yeni tranzit imkanları yaradacaqdır. Əminəm ki, Məşvərət Şurasının bugünkü iclasında biz nəinki ümumi nailiyyətlərimizi qeyd edəcəyik, o cümlədən gələcək imkanlarla bağlı birgə müzakirələr aparacağıq.

İndi isə sözü cənab Oliver Varhelyiyə vermək istəyirəm.

**Oliver Varhelyi** (*Avropa Komissiyasının qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı*): Çox sağ olun.

Hörmətli cənab Prezident!

Hörmətli nazirlər, xanımlar və cənablar!

Bu gün sizin aranızda olmaqdan çox şadam. Biz çox mühüm bir qaz şaxələndirmə layihəsinin icrasını qeyd edirik. Ümid edirəm ki, bu həmçinin bizim üçün yeni bir səhifədir və bizim Qərb tərəfdaşlarımızla apardığımız əməkdaşlığın genişləndirilməsi deməkdir. Biz bu il uğuru qeyd edirik, lakin eyni

zamanda, yeni planları da tərtib edirik. İcazə verin, əsas məsələləri diqqətinizə çatdırım. Bu, «Şərq Tərəfdaşlığı» çərçivəsində olan əməkdaşlıqdır və bizim Balkanlarda olan tədbirlərlə bağlı planlarımızdır. Əvvəlcə, icazə verin, Trans–Adriatik boru kəmərinin tamamlanması münasibətilə sizi təbrik edim və Azərbaycanda hasil edilən təbii qazın Avropaya daxil olmasını xüsusi olaraq qeyd edim.

Bildiyiniz kimi, bu layihə ötən il başa çatdırıldı. Bu, böyük bir nailiyyətdir. Bu əslində bizim qətiyyətimizin, dövlətlərimizin və özəl iştirakçıların əməkdaşlığının təzahürü oldu. Çünki bu real şaxələndirilmə Avropaya gətirildi və bizim qonşuluğumuzda bu imkanları açdı. Bir sözlə, hamınızı təbrik edirəm və minnətdarlığımı bildirirəm.

«Cənub Qaz Dəhlizi» bizim «Şərq Tərəfdaşlığı» gündəliyimizin bir hissəsi idi və 2020-ci ildə onun başa çatdırılması nəzərdə tutulurdu. Əlbəttə ki, sonuncu dəfə ötən ilin martında biz bu istiqamətdə – «Şərq Tərəfdaşlığı» prioritetləri ilə bağlı iclas keçirdik. Bu bizim əməkdaşlığımızın müxtəlif məsələlərini, tərəflərini nümayiş etdirdi, biz iqtisadiyyatlarımızın müqavimət gücünü müzakirə etdik. Hazırda biz bu prioritetlərin icrası ilə bağlı planları tərtib etmək üzrəyik. Bizim qarşımızda reallaşdırılan məqsədlər dayanır. Əlbəttə, bu baxımdan dəhliz bizi ruhlandırır və enerji bağlantısı, təchizatın təhlükəsizliyi bizim iqtisadiyyatlarımızın müqavimət gücünü artırır. Təbii qaz Avropada və onun qonşularında dekarbonlaşmış iqtisadiyyata keçiddə vacib rol oynayır. Təbii ki, bu bizim məqsədimizdir, həmçinin siyasətimizdə mövcuddur,

burada həm də ədalətlilik prinsipi vardır. İndi sərmayələr davam etməlidir və Avropa İttifaqı bu baxımdan Azərbaycana və digər region ölkələrinə enerji bağlantısı məsələlərində öz dəstəyini verib. Biz bu istiqamətdə işimizi bundan sonra da davam etdirəcəyik və «yaşıl enerji»yə keçiddə, çirklənmənin aradan qaldırılmasında yardım edəcəyik.

COVID-19 pandemiyası bütün iqtisadiyyatlara böyük təsir göstərdi, biz bu şəraitdə müqavimət gücümüzü artırmalıyıq və bərpa işləri üzərində işləməliyik. İnvestisiyalar üçün yollar açılmalıdır və onlar reallaşmalıdır ki, xalqlarımızın həyatı daha da yaxşılaşsın.

İcazə verin, indi digər bir aspektə toxunum. Bu da bizim əməkdaşlığımızda çox vacib bir məqamdır və mənim üçün şəxsən çox vacibdir ki, ötən ilin oktyabrında Avropa Komissiyası Qərbi Balkan regionu üzrə iqtisadi investisiya planını qəbul etdi. İqtisadi bərpa planlarının tərtibatı, onun icrası ilə bağlı yönəldilmiş 9 milyon avro və əlavə 20 milyon avro Avropa Komissiyasının yardımıdır. Burada enerji bağlantısı, daşımalar və digər sahələr nəzərdə tutulur. Bu sənədin məqsədi həmin regionun istifadə olunmamış iqtisadi potensialından istifadə etməkdən ibarətdir və həmin dövlətlərin hökumətlərinə bu işlərin icrasında dəstək olmaqdır. Təbii ki, daşımalar sahəsi bu planın bir hissəsidir. Bu da bizim bir sıra təşəbbüslərimizə gətirib çıxarır. Birincisi, bərpa olunan enerji mənbələri, ikincisi, dekarbonlaşma, üçüncüsü isə innovativ yolların tətbiqi. Bütün bunlar Avropa İttifaqının ener-

ji siyasətini əks etdirir və Qərbi Balkanlar üçün gələn illərin artımında real gündəliyi ehtiva edir.

Bildiyiniz kimi, təbii qazın Qərbi Balkanlarda faydalı enerjiyə keçid sahəsində mühüm rolu vardır. Hazırda həmin regionda bununla bağlı çətinliklər mövcuddur, bu da regionun iqtisadi inkişafını əngəlləyir. Qaz istehlakına gəldikdə, əgər bu məsələlər həmin regionda həll olunarsa, belə bir keçid daha asanlıqla baş tutacaq. Buna görə də iqlim dəyişikliyi məqsədlərindən əlavə olaraq, həmçinin çirklənmənin qarşısı dayandırılacaq və həmin regionda sağlamlıq səviyyəsi də artacaqdır. Təbii ki, qaza əsaslanaraq, biz regionda 60 faizədək emissiyaları azalda bilərik. Bunun baş verməsi üçün bizə infrastruktur lazımdır. Bu səbəbdən iqtisadi investisiya planı bir-biri ilə bağlı 5 sahəyə yönəlib və orada Qərbi Balkanlara qazın təchizatı xüsusi yer tutur. Təbii ki, burada təchizatın təhlükəsizliyi və rəqabət nəzərdən keçiriləcək, müvafiq bazarlarda daha etibarlı və qiymət baxımından daha əlçatan şərait yaradılacaq. Eyni zamanda, kömürdən tədricən imtina etmək imperativdir. Yeni qaz təchizat mənbələri həmin regionda qaz bazarının canlanması deməkdir. Gələn aylar ərzində biz bu istiqamətdə müzakirələrimizi davam etdirəcəyik. Biz istəyirik azərbaycanlı tərəfdaşlarımızla bu yay bununla bağlı müzakirələr aparaq ki, müvafiq infrastruktur yaradılsın və Azərbaycan qazı mümkün qədər tez bir zamanda Qərbi Balkanlara da çatdırılsın.

Yekun olaraq, icazə verin bildirim ki, bu şərtlərlə biz irəliyə doğru gedəcəyik və bu qaz layihəsi bizdə uzunmüddətli dekarbonlaşma strategiyasının icrasına

əsas yaradacaqdır. Təbii ki, bu strategiyaya dəqiq planlar daxil edilməlidir, dekarbonlaşma, etibarlı enerji təchizatı Qərbi Balkanlarda həmin planların icrasına şərait yaradacaq və bizim planlarımız tam aydın şəkildə təmin ediləcək. İnanıram ki, bu il bu işlər davam edəcək. Bu məqsədlə hamınıza müraciət edərək, sizi iqlim dəyişikliyi ilə bağlı öhdəliklərin icrasına daha ciddi şəkildə yanaşmağa dəvət edirəm. Mən həmçinin bildirmək istəyirəm ki, Prezidentin verdiyi mesaj bizi ruhlandırdı. Həmsədr də burada bildirdi ki, Azərbaycanın regionu təchiz etmək potensialı vardır. Bu da şaxələndirmə deməkdir. Qarşımızdakı yol uzun, lakin aydındır. İnanıram ki, biz hamımız mümkün qədər qısa müddət ərzində bunun öhdəsindən gələcəyik. Çox sağ olun.

**Pərviz Şahbazov:** Komissar Varhelyi, çıxışınıza görə çox sağ olun. Cənab Prezidentin bildirdiyi kimi, Avropa Komissiyasının «Cənub Qaz Dəhlizi»nə verdiyi dəstək lap başlanğıcdan çox vacib idi. Biz arzu edirik ki, gələcəkdə də dialoqu davam etdirək.

*Sonra konsorsium üzvləri tərəfindən «Cənub Qaz Dəhlizi»nin tamamlanması hesabatı təqdim olundu.*

*TAP-ın icraçı direktoru Luka Şerpatti TAP-ın vaxtında istismara verilməsini mühüm hadisə adlandırdı. Bildirdi ki, məhz bu layihə Azərbaycanın təbii qazını Avropaya çatdırır.*

**Luka Şerpatti:** Fürsətdən istifadə edərək, Trans–Adriatik boru kəmərinin vaxtında reallaşmasını təmin etmək üçün üzərinə qəti öhdəlik götürdüyünə görə zati-aliləri Prezident Əliyevin rəhbərliyi ilə Azərbaycan hökumətinə, eləcə də Avropa İttifa-

qına, layihədə iştirak etmiş hökumətlərə, səhmdarlarımıza, kreditorlara və tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Həqiqətən, TAP-ın belə uğurlu olması məhz sizin yorulmadan verdiyiniz dəstək sayəsində mümkün olubdur.

*Trans–Anadolu qaz boru kəmərinin baş icraçı direktoru Saltuk Düzyol layihənin mövcud statusu barədə məlumat verdi.*

*bp şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons tarixdə ilk dəfə olaraq Azərbaycan qazının Xəzər dənizindən birbaşa Avropaya nəql olunduğunu bildirdi, bu strateji uğur münasibətilə təbriklərini çatdırdı.*

**Qəri Cons:** Prezident Əliyevin liderliyi, eləcə də ölkəsi və bütün region üçün gələcəyə baxışı bu tarixi nailiyyətin gerçəkləşməsinə böyük təkan verdi. Onun şəxsi səyləri dünya neft və qaz sənayesində ən mürəkkəb layihələrdən birinə çevrilmiş bir layihənin uğurla həyata keçməsi üçün həlledici rol oynadı. *bp* şirkəti olaraq, biz qarşıdan gələn onilliklər boyunca regiondakı və Avropadakı insanlara fayda gətirəcək bu layihənin bütün mərhələlərində iştirak etməkdən böyük qürur duyuruq.

*Sonra nazirlər və nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.*

*Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz vurğuladı ki, «Cənub Qaz Dəhlizi» bütün regiona fayda gətirir və bu enerji dəhlizi regional əməkdaşlığın onurğa sütunudur.*

**Fatih Dönməz:** Hörmətli iştirakçılar, belə bir yüksək səviyyəli 7-ci iclasda iştirak göstərir ki, ölkələr

bu işə qətiyyətlə yanaşır və regionlar arasında əməkdaşlığa sadiqlik var, baxmayaraq ki, biz çətin dövrdə yaşayırıq. Qeyd etmək lazımdır ki, Türkiyə və Azərbaycan arasında siyasi dəstək olmadan «Cənub Qaz Dəhlizi» reallığa çevrilməzdi. Azərbaycandan Avropaya gedən bu boru kəməri siyasi dəstək olmadan həyata keçirilə bilməzdi. Nəticədə biz bütün regiona fayda gətirdik.

*ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donelli tədbirdə iştirak etməkdən fərəh hissi duyduğunu bildirdi, ABŞ-ın «Cənub Qaz Dəhlizi»nin strateji əhəmiyyətini vurğuladı.*

**Kurt Donelli:** Xəzər dənizi karbohidrogenlərinin Qərb bazarlarına nəqli onilliklər boyu icra edilibdir. Məmnunam ki, Birləşmiş Ştatlar hökuməti və enerji şirkətləri həmin davamlı səylərdə mühüm rol oynayıbdır. «Cənub Qaz Dəhlizi» enerji sahəsində həqiqətən, çoxölçülü və çoxtərəfli nailiyyətdir. Burada bu gün təmsil olunan bütün ölkələr öz rolunu oynayıb. O cümlədən layihədə iştirak edən bütün ölkələrin çoxsaylı şirkətləri də vardır. Bu baxımdan İtaliya, Yunanıstan və Bolqarıstanda Avropa istehlakçıları hal-hazırda bu qış ilk dəfə olaraq Azərbaycanın təbii qazından istifadə edirlər. Biz bu il ərzində fəaliyyətə başlanması gözlənilən Trans–Adriatik boru kəməri üçün bazarda sınaqları alqışlayırıq və 2021-ci ilin sonuna qədər nəticələri görməyi arzulayırıq.

*Xəzər dənizinin karbohidrogen ehtiyatlarının nəqlində ABŞ şirkətlərinin də iştirak etdiyini deyən Kurt Donelli Azərbaycanla Türkmənistanın Xəzərdə «Dostluq» yatağının karbohidrogen resurslarının birgə kəşfiy-*

*yatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması münasibətilə təbriklərini çatdırdı.*

*Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolson bu tədbirdə Birləşmiş Krallığı təmsil etməkdən məmnun olduğunu bildirdi. İndiyədək Məşvərət Şurasının beş iclasında iştirak etdiyini deyən baronessa Emma Nikolson layihənin uğurla başa çatması münasibətilə Prezident İlham Əliyevi və tərəfdaşları təbrik etdi.*

**Baronessa Emma Nikolson:** Azərbaycanın və onun tərəfdaşlarının birgə işi nəticəsində «Cənub Qaz Dəhlizi» bütün Avropada enerjinin şaxələndirilməsi ilə təhlükəsizliyin və güclü olmağın rəmzinə çevrildi. Fəxr edirəm ki, *bp* bu layihədə aparıcı rol oynayır və Birləşmiş Krallıq bu layihəyə tam dəstəyini davam etdirəcəkdir.

*Nikolson Prezident İlham Əliyevin elan etdiyi «yaşıl enerji» konsepsiyasının əhəmiyyətini vurğuladı:*

– Azərbaycanın bu sahədə qəbul etdiyi təlimatlara gəldikdə, bu onu göstərir ki, hökumətin öhdəliyi və marağı aydın şəkildə göz qabağındadır. Birləşmiş Krallıq Azərbaycanın enerji keçidini fəal şəkildə dəstəkləyir və eyniliklə biz son üç onillik ərzində «Cənub Qaz Dəhlizi»ni və Azərbaycanın digər enerji prioritetlərini dəstəkləmişik.

*İtaliyanın İqtisadi İnkişaf Nazirliyinin infrastruktur və enerji sistemləri üzrə baş direktoru Gilberto Diyaluçe «Cənub Qaz Dəhlizi» layihəsinin qlobal əhəmiyyətindən danışdı və onun enerji təhlükəsizliyinin təmin olunmasındakı rolunu vurğuladı.*

**G i l b e r t o  D i y a l u ç e:** Şadam ki, bu gün «Cənub Qaz Dəhlizi»nin açılışı artıq reallıqdır və o, qaz təchizatının təhlükəsizliyini və şaxələndirilməsini təmin edən, istehlakçılara qaz qiymətlərini azaltmaq üçün rəqabəti gücləndirən və pik saatlarda istismar olunan qaz enerji stansiyaları vasitəsilə elektrik şəbəkəsinə tədricən bərpa olunan müxtəlif enerjinin daxil edilməsinə töhfə verən əsas infrastrukturdur. Dekabrın 31-də TANAP boru kəməri ilə qaz interkonnektor vasitəsilə həm Yunanıstana, həm Bolqarıstana çatdırılıb, bu iki ölkəni keçərək, TAP ilə «Snam Rete Gas» arasında interkonnektor nöqtəsində İtaliyaya daxil olubdur. Hazırda İtaliya və Avropa üçün Azərbaycan kimi yeni qaz təchizatı mənbəyinin işə düşdüyünü və ilk dəfə olaraq qədim qitəni Türkiyə və Balkanlar vasitəsilə Xəzərlə birləşdirən «Cənub Qaz Dəhlizi» kimi yeni marşrut olduğunu nəzərə alaraq, bu, qaz sektoru üçün tarixi gündür. Axın həcmi gündəlik təxminən 11 milyon kubmetr təşkil edir. Yanvarda TAP ilə İtaliyaya 340 milyon kubmetr qaz idxal edilibdir. Onun təxminən 70 milyon kubmetri revers axın formasında interkonnektor nöqtəsi ilə Avropaya ixrac olunubdur.

*Gürcüstanın İqtisadiyyat və Dayanıqlı İnkişaf naziri Natela Turnava bu tədbiri regional əməkdaşlığın göstəricisi kimi qiymətləndirdi. O bildirdi ki, Gürcüstan öz tərəfdaşları, o cümlədən Azərbaycanla birgə «Cənub Qaz Dəhlizi» konsepsiyasını daha da inkişaf etdirməkdə qərarlıdır, bu da ölkələrimizin uzunmüddətli tərəfdaşlığından qaynaqlanır.*

**Natela Turnava:** Müxtəlif platformalardan və əldə etdiyimiz hər imkandan istifadə edərək, biz həmin genişmiqyaslı nəqletmə təşəbbüsünə yekdil dəstəyi bəyan etdik. Mən qlobal maraq doğuran bu çox vacib layihənin icrası üçün diqqətli, addım-addım yanaşmanı tətbiq etmiş Azərbaycan Respublikasının rəhbərliyini və hər bir iştirakçını alqışlayıram. İlk dəfədir ki, artıq sözlərə ehtiyac qalmır. Bu vaxtdan etibarən bizim adımızdan rəqəmlər danışacaq. Avropa ölkələrində yenicə əldə edilmiş bazarlara və bu marşrut boyunca minlərlə yeni istehlakçıya milyardlarla kubmetr qaz çatdırılacaq. Daha böyük Avropa ailəsinə inteqrasiyanı arzulayan Gürcüstan hər zaman öz rolundan fərəhlənib və tranzit ölkə kimi, belə bir strateji vacib layihədə iştirak edibdir.

*Türkmənistanın Dövlət naziri, «Türkmənqaz» Dövlət Konserninin sədri Batır Amanov «Cənub Qaz Dəhlizi»nin Avropa İttifaqı üçün enerji təchizatının şaxələndirilməsində mühüm rol oynadığını bildirdi, «Cənub Qaz Dəhlizi» ilə bağlı əməkdaşlığın uğurla həyata keçirildiyini qeyd etdi.*

**Batır Amanov:** «Cənub Qaz Dəhlizi» Avropa İttifaqı ölkələri üçün enerji təchizatının şaxələndirilməsində xüsusi rol oynayır. Bildiyiniz kimi, Xəzər dənizindən Türkiyəyə, daha sonra Avropa İttifaqı ölkələrinə qaz nəql olunur. Bildirmək istəyirik ki, hazırkı səylər və bizim davamlı, məqsədəuyğun addımlarımız bugünkü beynəlxalq əməkdaşlığımızın xüsusi formatının yaradılmasına əsas kimi xidmət etdi. Bu əməkdaşlıq müxtəlif dövlətlər, şirkətlər və maliyyə strukturları arasında uğurla həyata

keçirilir. Hazırda həmin qaz boru kəməri və bütün seqmentlər gələcəkdə Türkiyənin və Avropa ölkələrinin enerji təhlükəsizliyinin artırılmasında mühüm rol oynaya bilər. Türkmənistan beynəlxalq münasibətlər sisteminin fəal iştirakçısı kimi, qlobal enerji əməkdaşlığının inkişafına öz tərəfindən layiqli töhfə verir.

*Bolqarıstanın Energetika naziri xanım Temenuşka Petkova Məşvərət Şurasının budəfəki iclasının son illərdə görülmüş işlərə nəzər salmaq baxımından əhəmiyyətli olduğunu dedi.*

**Temenuşka Petkova:** Bolqarıstan «Cənub Qaz Dəhlizi»nin inkişafından olduqca məmnundur. Biz Yunanıstanla interkonnektor vasitəsilə həmin dəhlizə çıxa bilirik. Biz bunu Bolqarıstana qaz təchizatının şaxələndirilməsinin, regionda bu şaxələndirmənin əks olunmasının vacib meyarı hesab edirik. Bu bizim üçün qaz təchizatını etibarlı şəkildə təmin edəcək ki, gələn üç il ərzində «Şahdəniz» yatağından hasil olunan qazı ildə 1 milyard kubmetr həcmində qəbul edək.

*Yunanıstanın Ətraf Mühit və Energetika naziri Kostas Skrekas tədbirin çox böyük əhəmiyyət daşıdığını vurğuladı. O qeyd etdi ki, «Cənub Qaz Dəhlizi»nin tamamlanması Azərbaycan qazının ilk dəfə Avropa İttifaqına daxil olmasına imkan veribdir.*

**Kostas Skrekas:** Bu həm Yunanıstan, həm Azərbaycan, həm Avropa İttifaqı və müvafiq tərəflər üçün vacib bir hadisədir. Yunanıstan «Cənub Qaz Dəhlizi» strategiyasının tərəfdarı olub. 2013-cü ildə əlindən gələni etdi ki, Trans–Adriatik boru kə-

məri vaxtında və uğurlu şəkildə tamamlansın və xüsusən də Şimali Makedoniya Respublikasına və Albaniyaya çıxış olsun. Təbii ki, biz bununla enerji təhlükəsizliyimizi gücləndiririk və enerji mənbələrimiz də şaxələndirilir.

*Albaniyanın İnfrastruktur və Energetika nazirinin müavini İlir Betiya bildirdi ki, ölkəsi «Cənub Qaz Dəhlizi»ndən faydalanır. O, Albaniyada müasir qaz təchizatının qurulması istiqamətində görülmüş işlərdən danışdı, ölkəsinin bundan sonra da regional enerji sektoruna töhfə verməyə hazır olduğunu bildirdi.*

**İ l i r B e t i y a:** Albaniya bu Məşvərət Şurasının üzvüdür və çox vacib olan «Cənub Qaz Dəhlizi»ndən faydalanan ölkələrdən biridir. Tam inteqrasiyanı təmin etmək üçün biz vacib addımlar atmışıq. Avropa Enerji Birliyinin müqavilə tərəfi kimi və enerji xartiyasını imzalayan tərəf kimi, biz Avropa İttifaqı çərçivəsində 2005-ci ilin müqaviləsini imzalamaqla enerji birliyinin qurulmasını əsasən Balkan ölkələrini əhatə edən müqavilə tərəflərinin enerji sektorunun inkişafında və Avropa İttifaqı səviyyəsində bu sektorun inteqrasiyasında mühüm əhəmiyyət kəsb edən hadisə hesab edirik.

*Sonra Serbiya Baş Nazirinin müavini, Mədən və Energetika naziri Zorana Mixayloviç, Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyarto, Ruminiyanın Energetika naziri Virgil Daniel Papesku, Monteneqronun Kapital İnvestisiyalar naziri Mladen Boyaniç, Şimali Makedoniya Respublikasının İqtisadiyyat naziri Kreşnik Bekteşi, Xorvatiyanın İqtisadiyyat və Dayanıqlı İnkişaf Nazirliyinin Dövlət katibi İvo Mila-*

*tiç və Avropa Komissiyasının energetika məsələləri üzrə baş direktorunun nümayəndəsi Kristina Lobillo çıxış etdilər.*

*İclasda dünyanın 5 aparıcı beynəlxalq maliyyə qurumunun və 18 aparıcı şirkətinin rəhbərləri də iştirak etdilər.*

**TÜRKİYƏ RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Xain terror aktı nəticəsində Türkiyə vətəndaşları olan 13 günahsız mülki şəxsin qəddarcasına qətlə yetirilməsi xəbəri bizi olduqca sarsıtdı.

Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror əməlindən hədsiz dərəcədə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyirik.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, qətlə yetirilənlərin ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2021-ci il*

## FÜZULİ, ZƏNGİLAN, LAÇIN VƏ CƏBRAYIL RAYONLARINA SƏFƏR

*14 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etmişlər.*

*Prezident İlham Əliyev Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini qoymaq üçün Füzuli rayonuna gəldi.*

*Məlumat verildi ki, ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcəkdir.*

*Dövlət başçısı Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlini qoydu.*

* * *

*Sonra Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Zəngilan rayonunun Üçüncü Ağalı kəndində oldular.*

*Prezident İlham Əliyev Zəngilana gedərkən avtomobili özü idarə etdi.*

**İ l h a m Ə l i y e v:** Zəngilan rayonuna gəlmişik. Yolumuz Laçın rayonunadır. Yol boyunca Zəngilan rayonunda da tədbirlər var. Yenə də azad edilmiş torpaqlardayıq. Torpaqların bərpası prosesi artıq başlanıbdır.

Bura Zəngilan şəhəridir. Biz burada artıq olmuşuq, yenə də gəlmişik. Zəngilan şəhəri də digər şəhərlər kimi, düşmən tərəfindən, demək olar, tamamilə dağıdılıbdır. Bir neçə ev qalıbdır. Burada düşmənin hərbi hissəsi, polis bölməsi yerləşirdi. Bir də ki, xaricdən gəlib qanunsuz yaşayan ermənilər. Zəngilanı bu günə qoyub mənfur düşmən.

Bütün şəhərlərimizin baş planları hazırlanır. Təqdim olunacaq, müzakirə ediləcək. Ondan sonra bərpa işlərinə start veriləcək. Keçən dəfə Zəngilan şəhərinə gələndə bu bayrağı burada mən ucaltdım.

Zəngilan rayonunda birinci «ağıllı kənd» layihəsi icra ediləcək. Bu gün layihəyə start verilir. Artıq ilkin araşdırmalar aparılıb. Bu, dağılmış Ağalı kəndidir. Bərpa ediləcək birinci kənd məhz bu kənddir.

*Dövlət başçısına Zəngilan rayonunun Üçüncü Ağalı kəndində icra olunacaq «ağıllı kənd» layihəsi barədə məlumat verildi.*

*Bildirildi ki, kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, «ağıllı kənd» təsərrüfatı, alternativ enerji sahələridir.*

*Prezident İlham Əliyev çıxışlarında azad olunmuş ərazilərin «yaşıl enerji» zonasına çevriləcəyini dəfə-*

*lərlə bildirib. Erməni işğalından azad olunmuş ərazilərin dövlət başçısının birbaşa təşəbbüsü və tapşırıqları ilə nəinki bərpa edilməsi və yenidən qurulması planlaşdırılır, hətta orada «ağıllı şəhər» və «ağıllı kənd» konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. Hazırkı pandemiya şəraitində dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Azərbaycan Prezidentinin bu təşəbbüsü bir daha dövlətimizin gücünü və qüdrətini nümayiş etdirir. İnşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq.*

*Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.*

*Daha sonra dövlət başçısı, xanımı və qızı Laçın rayonuna yola düşdülər.*

*Prezident İlham Əliyev yol boyunca Qubadlı rayonunun işğaldan azad edilmiş kəndləri barədə danışdı.*

– Bura Qubadlı rayonunun Xəndək kəndidir. Burada da şiddətli döyüşlər gedib. Ordumuz düşməni buradan qovaraq, məhv edərək, bu əraziləri də azad edibdir. Düşmən burada da qanunsuz olaraq məskunlaşmışdı. Çox ağır şəraitdə yaşayıblar. Baxın, onların yaşadıqları evlər it damından artıq deyil. Mən deyəndə ki, işğal edilmiş torpaqlarda ermənilər səfalət içində yaşayırlar, bax, bunu nəzərdə tuturdum. Aclıq, səfalət, qanunsuzluq hökm sürürdü. Belə bərbad yollardan istifadə edirdilər. Bu işıq dirəklərini biz torpaqları azad edəndən sonra quraşdırdıq.

Qubadlı rayonunun Muradxanlı kəndi, ermənilər burada yaşayıblar, buranı da dağıdıblar. Artıq

bərpa işləri gedir. Bu da Həkəri kəndidir. Baxın, nə gündədir, ermənilər bu it damında yaşayıblar. Dağıdılmış bu evlər erməni faşizminin törətdiyi əməllərdir. Bütün dünya görsün bunları. Bu da onların traktorudur.

Bala Soltanlı kəndi. Burada evlərin böyük hissəsi dağıdılıb, amma bəzi evlərdə düşmən qanunsuz məskunlaşma aparmışdı. Bu da hərbi cinayət sayılır. Bütün bu cinayətlərə görə düşmən artıq öz payını alıb, beynəlxalq müstəvidə də cavabını verəcəkdir. Bizim şanlı ordumuz, bax, bu yolla Laçın rayonuna keçmişdir və Laçın rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. O cümlədən Güləbird kəndi də ordumuz tərəfindən işğalçılardan azad edilmişdir. Bura Laçın rayonunun cənub hissəsidir. Ordumuz işğalçılardan azad etmişdir. Şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra bizə qaytarıldı.

Bu da Padar kəndidir.

Qubadlı rayonunun Yusifbəyli kəndi. Bu kənd də düşmən tərəfindən tamamilə dağıdılıb. Biz indi Laçın rayonuna gedirik. Laçın rayonunun Güləbird kəndinə. Zəngilan rayonunun İkinci Ağalı kəndində olduq, kəndin inkişafı ilə bağlı təqdimat edildi. Bir neçə aydan sonra İkinci Ağalı kəndinin yenidən qurulması prosesinə start veriləcək. Bu, bərpa ediləcək birinci kənd olacaq. İkinci Ağalı kəndi «ağıllı kənd» konsepsiyası əsasında qurulacaq. Eyni zamanda, Birinci və Üçüncü Ağalı kəndlərinə qayıdacaq soydaşlarımız da eyni imkanlardan istifadə edəcəklər.

İndi isə Mərdanlı kəndinə daxil oluruq. Günəş də çıxır, yolumuzu işıqlandırır. Mən demişdim ki, azad

edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Dağılmış bütün bu kəndləri biz bərpa edəcəyik. Baxın, mənfur düşmən bizim bütün yaşayış məntəqələrimizi nə günə salıb. Vandallar, barbarlar işğal dövründə bütün binaları söküblər, talayıblar, daşları oğurlayıblar. Hamısını bərpa edəcəyik.

Bura artıq Laçın rayonunun ərazisidir. Bu, Həkəri çayıdır. Görün nə gözəl çaydır! Çayımızı da düşmən istismar edirdi, təbiətimizi də istismar edirdi. Biz buna son qoyduq, düşməni rədd etdik.

Artıq Güləbird kəndindəyik. Güləbird kəndini də düşmən dağıdıb, talan edib. Güləbird kəndinə gəlməyimizin səbəbi qısa müddət ərzində inşa edilmiş su-elektrik stansiyasının açılışıdır və bu layihə azad edilmiş torpaqlarda birinci elektrik stansiyası olacaq, digər stansiyalar da tikiləcək. Azad edilmiş bütün torpaqlarda su, Günəş, külək enerjisindən istifadə edəcəyik.

*Prezident, Silahlı Qüvvələrin MüzəffərAli Baş Komandanı İlham Əliyev Güləbird kəndində Azərbaycan bayrağını qaldırdı və çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün mən azad edilmiş torpaqlara yenidən gəlmişəm. Bu gün bu torpaqlarda bir neçə tədbir keçiriləcək. Bu tədbirlərin məqsədi azad olunmuş torpaqları tezliklə bərpa etməkdir ki, insanlar buraya qayıtsınlar və bu torpaqlara həyat gəlsin. Bərpa işləri sırasında elektrik enerjisi təchizatı, əlbəttə ki, xüsusi yer

tutur. Bu məqsədlə müharibədən dərhal sonra ilk günlərdən biz bu işlərlə məşğul olmağa başladıq. İlk növbədə, Şuşa şəhərini elektrik enerjisi ilə təchiz etmək üçün əməli addımlara start verildi və birinci mərhələ başa çatdı. «Azərişıq» artıq Şuşa şəhərinə elektrik xətlərini çəkib. Şuşa şəhərini dayanıqlı elektrik enerjisi ilə təmin etmək və ondan sonra şəhərin inkişafını təmin etmək üçün «Azərenerji» Səhmdar Cəmiyyəti də Şuşa şəhərinə yüksəkgərginlikli xətləri çəkir və elektrik yarımstansiyası inşa edir.

Bu gün isə Laçın rayonunun cənub hissəsindəyik, Güləbird kəndinin ərazisində. Bu gün Güləbird kəndində su-elektrik stansiyasının açılışıdır. Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş – ay yarımdan sonra artıq burada su-elektrik stansiyası istismara verilir. Bu su-elektrik stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su-elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranacaq və beləliklə, biz təbiətimizdən – Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik.

Kəlbəcər–Laçın zonasında su-elektrik stansiyaları üçün təbii şərait çox əlverişlidir və vaxtilə burada bir çox stansiyalar olub. Mənfur düşmən də işğal dövründə bu stansiyalardan istifadə edib. Ancaq Ermənistan kapitulyasiyadan sonra 20 gün ərzində – dekabrın 1-nə qədər, demək olar ki, bütün bu su-elektrik stansiyalarını darmadağın edib, avadanlığı buradan çıxarıb, stansiyaların binalarını da

dağıdıb. O cümlədən, «Güləbird» Su-Elektrik Stansiyası düşmən tərəfindən dağıdılmışdır. Əks təqdirdə, bu stansiya elə dekabrın 1-dən bizə xidmət göstərəcəkdi. Ancaq verilən tapşırıqlarım qısa müddət ərzində yerinə yetirildi və bu gün biz 8 meqavat gücündə «Güləbird» Su-Elektrik Stansiyasının açılışını qeyd edirik. Bu, azad edilmiş torpaqlarda istismara verilən birinci elektrik stansiyasıdır və bunun çox böyük əhəmiyyəti, böyük rəmzi mənası vardır. Biz qayıdırıq bu torpaqlara. Biz Kəlbəcər və Laçın rayonlarında ermənilər tərəfindən uzun illər ərzində qanunsuz istismar edilmiş, onlar tərəfindən dağıdılmış bütün su-elektrik stansiyalarını bərpa edəcəyik. Düşmən təkcə Laçın rayonu ərazisində 5 su-elektrik stansiyasını dağıdıb. Onların hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su-elektrik stansiyası yenidən qurulacaq. Beləliklə, yalnız Kəlbəcər və Laçın rayonlarında dağıdılmış və bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaqdır. Bu çox böyük generasiya gücüdür. Bu generasiya gücü ilə biz bu əraziləri bərpa edəcəyik, dayanıqlı enerji ilə təmin edəcəyik. Əgər biz nəzərdə tutduğumuz digər layihələrə də nəzər salsaq görərik ki, bərpa olunan enerji növlərinin bu bölgədə çox böyük potensialı vardır. Onların arasında ən böyük potensiala «Xudafərin» və «Qız qalası» Su-Elektrik stansiyaları malik olacaqdır. Stansiyaların tikintisi ilə bağlı İran İslam Respublikası ilə razılığa gəlmişik. Yaxın gələcəkdə bu su-elektrik stansiyaları tikiləcək və beləliklə, Azərbaycan tərəfinə bu stansiyaların fəaliyyətindən düşən generasiya gücü 120 meqavat olacaq-

dır. Yəni biz bir neçə ildən sonra 120 meqavat «Xudafərin» və «Qız qalası» stansiyalarından, 120 meqavat isə Kəlbəcər və Laçın rayonlarındakı stansiyalardan alacağıq. Bu, 240 meqavat generasiya gücü deməkdir və bunun üstünlüyü odur ki, bu, su-elektrik stansiyalarıdır və enerjinin maya dəyəri çox aşağıdır. Bununla paralel olaraq, artıq göstəriş vermişəm ki, bizim azad edilmiş bütün digər torpaqlarda bərpa olunan enerji növlərinin və yerlərin müəyyənləşdirilməsi prosesinə start verilsin. Belə bir göstəriş verildi və bu gün Zəngilan rayonunda birinci pilot «ağıllı kənd» layihəsi də məhz bərpa olunan enerji ilə təchiz ediləcəkdir.

Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar «yaşıl enerji» zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq, biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilər, həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.

Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı vardır. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı vardır. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq, Qarabağı «yaşıl enerji» zonasına çevirəcəyik. Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə – bax, orada gördüyü-

nüz «Güləbird» Su-Elektrik Stansiyası artıq istismara verilir.

Bizim böyük planlarımız vardır. Biz bərpa işlərinə start verdik. Çalışacağıq ki, minalardan təmizləmə işləri qısa müddət ərzində başa çatsın, dəymiş ziyanın qiymətləndirilməsi aparılsın və bununla paralel olaraq, artıq infrastruktur layihələrinə start verilib. Bu gün Horadizdə Horadiz–Zəngilan–Ağbənd dəmir yolunun təməl daşı qoyuldu. Bu dəmir yolunun çox böyük strateji əhəmiyyəti vardır. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaqdır. Digər tərəfdən, bu dəmir yolu Naxçıvana gedəcək. Noyabrın 10-da imzalanmış Birgə Bəyanatda Naxçıvan dəhlizinin yaradılması ilə bağlı xüsusi müddəa vardır. Artıq bu işlərə start verilib. Bizim təşəbbüsümüzlə həyata keçirilən bu layihə, əminəm ki, icra ediləcək. Uzun fasilədən sonra Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası dəmir yolu ilə bir-birinə bağlanacaq və beləliklə, bizim həm strateji, həm iqtisadi, həm də siyasi məqsədlərimiz həyata keçiriləcək.

Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir – biz həm doğma torpaqlarımızı işğalçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də ölkəmizin ərazi bütövlüyünü bərpa etdik. Bütün dünyaya xalqımızın, dövlətimizin qüdrətini, xalqımızın əyilməz ruhunu göstərdik. Eyni zamanda, ölkəmizin gələcəyi ilə bağlı strateji hədəflərə çatmaq üçün əməli addımlar ataraq, önəmli sə-

nədləri imzaladıq. Noyabrın 10-da imzalanmış Birgə Bəyanat, əlbəttə ki, Laçın, Kəlbəcər və Ağdam rayonunun qaytarılmasını təmin etdi, bir güllə atmadan biz bu torpaqlara qayıtdıq. Eyni zamanda, Azərbaycanın onun ayrılmaz hissəsi olan Naxçıvanla birləşməsi də məhz o bəyanatda təsbit olunur. Həmçinin bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaqdır. Biz üç il yarım bundan əvvəl Bakı–Tbilisi–Qars dəmir yolunu istismara verdik. Bu da tarixi nailiyyət idi. Tarixdə ilk dəfə biz Azərbaycanı və Türkiyəni dəmir yolu ilə birləşdirdik. İndi isə ikinci dəmir yolu çəkiləcək və bu yoldan bütün bölgə ölkələri də istifadə edə bilər. Bölgə ölkələri bu yolun tikintisinə böyük maraqla yanaşır və bu layihəyə öz müsbət qiymətini veribdir.

Biz təklif etmişdik ki, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə nəqliyyat layihələrinin xüsusi rolu vardır və burada iştirak edən bütün ölkələr ancaq xeyir, fayda götürəcək. Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında dəmir yolu bağlantısı olacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni bütün bölgə ölkələri bundan ancaq xeyir görəcək.

Onu da bildirməliyəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun istismara verilməsi nəticəsində artıq Rusiya ilə Türkiyə arasında bu dəmir yolundan istifadə edərək, yüklər daşınmağa başlanmışdır. Görün biz nə qədər uzaqgörənlik, böyük iradə göstərmişdik. Eyni zamanda, maliyyə resurslarını səfərbər etmişdik və bu dəmir yolu bağlantılarını biz təmin edirik. Bu, ölkəmiz üçün lazımdır. Çünki bu, ölkəmizin geosiyasi əhəmiyyətini artırır, iqtisadi gücünü artırır. Biz etibarlı tranzit ölkə kimi, bundan böyük maliyyə gəliri əldə edəcəyik, eyni zamanda, bölgədə sabitliyin və sülhün təmin edilməsi üçün də bunun çox böyük əhəmiyyəti vardır.

Bu eyni zamanda, ona görə önəmlidir ki, bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın. Biz erməni faşizmini məhv etmişik. Düşməni öz doğma torpaqlarımızdan qovmuşuq. Onları torpaqlarımızdan rədd etmişik. Ermənistan ordusunu, demək olar ki, məhv etmişik. Ermənistan ordusu yoxdur, dağılıb. Həm texnika dağılıb, həm canlı qüvvə dağılıb. Özləri etiraf edirlər ki, müharibə zamanı onların 10 min fərarisi olubdur. Azərbaycan Ordusunda bir nəfər də fərari olmayıbdır. Bu, xalqımızın, ordumuzun yüksək mənəvi ruhunun təzahürüdür. Aparılan siyasətin təzahürüdür. Biz döyüş meydanında qələbə qazandıq. Biz bu torpaqları vuruşaraq işğalçılardan azad et-

dik. Ermənistanı məğlub edib məcbur etdik ki, noyabrın 10-da kapitulyasiya aktına imza atsın və Laçın, Kəlbəcər, Ağdam rayonlarını məcbur olub bizə qaytarsın. Çünki onlar danışıqlar zamanı heç vaxt Laçın və Kəlbəcər rayonlarını bizə qaytarmaq istəmirdilər. Danışıqlarda razılığa gəlməməklərinin əsas səbəbi də məhz bunda idi. Əfsuslar olsun ki, Ermənistanın və onun bəzi xarici havadarlarının mövqeyi ondan ibarət idi ki, 5 rayon Azərbaycana qaytarılsın, Azərbaycan bununla kifayətlənsin və Dağlıq Qarabağa nə vaxtsa müstəqillik verilsin, Kəlbəcər və Laçın rayonları Ermənistanın əbədi nəzarəti altında qalsın. Mən bu təklifi rədd etdim.

Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək, istədiyimizə nail ola bildik. Laçın rayonunu qaytarmaq fikirləri belə, yox idi onların. Biz indi gəldiyimiz bu yol boyunca yerləşən bütün rayonları, kəndləri, şəhərləri azad edərək, bax, buralara gəldik. Laçın rayonunun cənub hissəsini işğalçılardan azad etdik, Güləbird kəndini azad etdik. Burada Səfiyan və Türklər kəndləri yerləşir, onları da azad etdik və Laçın dəhlizinə nəzarət etmək üçün hərbi platsdarm yaratdıq və artıq Laçın dəhlizi atəşimiz altında idi. Faktiki olaraq, bu istiqamətdən hərəkət edərək, biz strateji əməliyyatlarımızı aparmışdıq. Eyni zamanda, əks tərəfdən – Xocavənd rayonundan Şuşa şəhərinə gedərək, dağlardan, dərələrdən keçərək, uğurlu əməliyyat apara bildik. Laçın rayonunun cənub hissəsi hərbi əməliyyat nəticəsində azad edildi. Biz döyüş meydanında düşməni məğlub etdik və tarixi ədaləti bərpa etdik.

Laçın rayonu Şuşadan sonra işğala məruz qalmış ikinci rayondur. Laçın rayonunun işğal altına düşməsi faktiki olaraq, Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaratmışdı. Halbuki sovet vaxtında bu bağlantı yox idi. 1992-ci il mayın 8-də Şuşanın işğalından 10 gün keçəndən sonra Laçın rayonu işğal altına düşdü. Bu, böyük faciə idi. Hər bir rayonun itirilməsi böyük faciə idi. İnsanlar həlak olmuş, insanların əmlakı dağıdılmış, insanlar öz dədə-baba torpaqlarından didərgin salınmışlar. Eyni zamanda, Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyətimiz idi. Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC–Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satmışdı. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə, faktiki olaraq, boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç 1 ay keçməmiş hakimiyyətə gəldilər. AXC–Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədibdir. 1993-cü ilin aprelində Kəlbəcər də işğal altına düşəndən sonra qorxaqcasına qaçıb gizlənib, fərarilik ediblər. Azərbaycan xalqı bunu heç vaxt unutmamalıdır, bu satqınları, bu xainləri, bu düşmənləri unutmamalıdır!

Onlar satıblar bizim torpaqlarımızı. Biz qaytarmışıq bu torpaqları, qayıtmışıq. Bax, durmuşam burada – Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi, Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtdıq. İndi isə bərpa işləri gedir və gedəcək. Mən demişəm, biz bu bölgəni – Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib, işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

* * *

*Sonra Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə «Güləbird» Su-Elektrik Stansiyasının açılışında iştirak etdi.*

*Erməni qəsbkarlar işğal dövründə xislətlərinə uyğun olaraq, digər yerlərdəki kimi, bu stansiyanı da darmadağın ediblər. Dövlət başçısının tapşırığı ilə qısa müddət ərzində istismara verilmiş bu stansiya işğaldan azad olunmuş ərazilərdə infrastrukturun yaradılması və nəzərdə tutulan digər işlərin həyata keçirilməsi baxımından böyük önəm daşıyır.*

*Prezident İlham Əliyev «Güləbird» Su-Elektrik Stansiyasını işə saldı.*

*«Güləbird» Su-Elektrik Stansiyasının istifadəyə verilməsi tarixi və əlamətdar hadisədir. Bu, işğaldan azad olunmuş rayonlarda Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilən ilk infrastruktur layihəsidir. Bu stansiya təxminən 7000 nəfər əhalinin elektrik enerjisi ilə təminatında mühüm rol oynayacaq. Burada istehsal olunan elektrik enerjisi Qubadlı rayonunun Xanlıq kəndini, Laçın rayonunun cənub hissəsini və ərazidə yerləşən digər infrastruktur layihələrini elektrik enerjisi ilə təmin edəcəkdir.*

## ZƏNGİLAN RAYONUNUN BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞUNUN ƏRAZİSİNDƏ ÇİNARƏKMƏ MƏRASİMİ

*14 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva fevralın 14-də Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəlmişlər.*

*Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin, demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıbdır. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulubdur.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər.*

*Sonra dövlət başçısı, xanımı və qızı Bəsitçaya balıq buraxdılar.*

**İlham Əliyev:** Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur

düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıbdır. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə, burada kəsilmiş ağacların yaşı təqribən 200–300 ilə bərabər idi. Ancaq hər halda, öz borcumuzu yerinə yetirdik.

Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtər çayı, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdi və bir neçə rayonumuzda 100 min hektardan çox torpaq susuz qalmışdı. Bizə qarşı ekoloji terror törədilmişdir.

* * *

*Sonra dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.*

**İlham Əliyev:** Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etdik və 7000 hektarda əkin işləri aparıldı.

O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20–25 min hektarda əkin işləri aparılacaq. Yəni vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlir əldə edirdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcəkdir.

* * *

*Sonra Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülmüş işlər barədə məlumat verildi.*

*Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.*

## İNDONEZİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ HİLDİ HAMİD İLƏ GÖRÜŞ

*16 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İndoneziya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Hildi Hamidin etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Hildi Hamid:** Zati-aliləri Prezident İlham Əliyev, İndoneziya Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni və sələfimin geri çağırılması ilə bağlı məktubu Sizə təqdim etməkdən şərəf duyuram. İcazə verin, həmçinin Sizə Prezident Coko Vidodonun, İndoneziya hökuməti və xalqı adından səmimi salamlarını çatdırım. Prezident Coko Vidodo İndoneziya ilə Azərbaycan arasında, xüsusilə iqtisadiyyat sahəsində daha güclü əməkdaşlığın və ikitərəfli əlaqələrin inkişaf etdirilməsi arzusundadır. Təşəkkür edirəm.

**İlham Əliyev:** Xoş gəlmisiniz, cənab səfir. Sizi görməyə çox şadam. Xahiş edirəm mənim də ən

xoş salamlarımı cənab Prezident Coko Vidodoya çatdırın. Mən bizim əməkdaşlıqda sürətli inkişafı görəcəyimə ümid edirəm. Siz də qeyd etdiyiniz kimi, iqtisadi sahədə daha mühüm tərəfdaşlıq istiqamətlərini müəyyən etmək üçün bizim çox böyük potensialımız vardır. Əlbəttə, müxtəlif sahələrdə əməkdaşlığımızı genişləndirmək üçün güclü siyasi əlaqələr çox faydalı olacaq. Biz siyasi sahədə çox uğurla əməkdaşlıq edirik, beynəlxalq təşkilatlarda, Birləşmiş Millətlər Təşkilatında bir-birimizi dəstəkləyirik. Sözsüz ki, biz səylərimizi «Qoşulmama Hərəkatı» çərçivəsində koordinasiya edirik. Biz «Qoşulmama Hərəkatı»nda təşəbbüslərimizə dəstək nümayiş etdirdiyinə görə İndoneziyaya minnətdarıq.

Bildiyiniz kimi, «Qoşulmama Hərəkatı»nda şərəfli missiya olan sədrliyi üzərimizə götürəndə mən dedim ki, Azərbaycan öz fəaliyyətində, atdığı addımlarda beynəlxalq hüququ və ədaləti müdafiə edəcək. Biz işğal illəri ərzində İndoneziya tərəfindən Azərbaycana davamlı dəstəyin göstərilməsinə görə xüsusilə minnətdarıq. İndoneziya BMT Baş Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» tərəfindən qəbul edilmiş dəstək xarakterli qətnamələrə həmişə qoşulub və Azərbaycanın haqq işini dəstəkləyibdir. Bu dəstək uzun illər ərzində nümayiş etdirilib və münaqişənin həlli üçün bizim mövqemizi, çox möhkəm hüquqi bazanın yaradılması prosesini gücləndiribdir. Münaqişə zamanı hökumətiniz Azərbaycana dəstəyini ifadə etmişdir, biz bunu yüksək qiymətləndiririk. Xarici İşlər Nazirliyi erməni işğalçı qüvvələrin Azərbaycan ərazilərindən

dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına dəstək olaraq bəyanat vermişdir. Biz buna görə sizə çox minnətdarıq. Həmçinin ölkənizin parlamenti, parlamentinizin bir çox üzvləri Azərbaycanla həmrəy olduqlarını ifadə etmiş və dəstəklərini bildirmişlər. Bütün bunlar Azərbaycan xalqına məlumdur və bu, Azərbaycan hökuməti tərəfindən yüksək qiymətləndirilir. İndoneziya Birləşmiş Millətlər Təşkilatında müzakirələr zamanı müharibə gedən vaxt bizim mövqemizə güclü dəstək göstərən «Qoşulmama Hərəkatı»nın digər üzvləri sırasında idi. Bildiyiniz kimi, Təhlükəsizlik Şurasının bəzi üzvləri yeni qətnamələrin və qərarların qəbul edilməsi prosesinə başlamaq istəyirdilər. Bu əslində bizim ərazilərin işğaldan azad olunması ilə bağlı haqq işimizi dayandırmaq üçün bir cəhd idi. Bu cəhdlər və düşünülmüş bu mətnlər Təhlükəsizlik Şurasının üzv ölkələri tərəfindən qəbul edilmiş qətnamələrə istinad etmirdi. Beləliklə, İndoneziya «Qoşulmama Hərəkatı»nın üzvü olan digər dost ölkələrlə birlikdə ərazi bütövlüyümüzün bərpa edilməsinin dayandırılmasına yönəlmiş bu cəhdlərin qarşısını aldı və biz bunu çox yüksək qiymətləndiririk. Biz buna görə minnətdarıq. Bu, həmrəyliyin, dəstəyin və dostluğun ifadəsidir. Beləliklə, bu bizim əməkdaşlığın siyasi əsasıdır.

Biz indi irəliyə baxmalıyıq. Azərbaycan öz ərazilərini azad etdikdən və ərazi bütövlüyünü bərpa etdikdən sonra iqtisadi əməkdaşlıq üçün böyük imkanlar var, həmçinin işğaldan azad olunmuş torpaqlarda. Biz planlaşdırdığımız müxtəlif layihələri

icra etmək, həmçinin birliyimizi nümayiş etdirmək üçün İndoneziya şirkətlərini tərəfdaşlarımız, podratçılarımız qismində görmək istəyirik.

Bu bizim planımızdır. Sizə burada xoş vaxt keçirməyi, çox fəal iş arzulayıram. Çünki ölkələrimizi birbirinə daha da yaxınlaşdırmaq üçün iqtisadi sahədə çoxlu işlər görülməlidir. Əminəm ki, sizin Azərbaycandakı fəaliyyətiniz zamanı biz yaxşı irəliləyiş görəcəyik.

**H i l d i H a m i d:** Zati-aliləri, İndoneziya ilə əlaqələrə göstərdiyiniz diqqətə görə Sizə təşəkkür edirəm. Zati-aliləri cənab Prezident, İndoneziyanın Azərbaycandakı səfiri təyin olunmağımdan şərəf hissi duyur, vəzifəmin məsuliyyətini tam dərk edirəm. Səfir olduğum müddətdə hər iki ölkənin hökumətləri və xalqları arasında dostluğu və qarşılıqlı faydalı əməkdaşlığı dərinləşdirməyə, qarşılıqlı anlaşmanı və dostluğu yaxşılaşdırmağa səy göstərəcəyəm. İndoneziya ilə Azərbaycan arasındakı əlaqələrin yeni səviyyəyə çatdırılması üçün əlimdən gələni əsirgəməyəcəyəm ki, zati-alinizin və hökumətinizin tam dəstəyi ilə ölkələrimiz arasında əməkdaşlıq davam etdirilsin. Azərbaycan Respublikasına inkişaf, Azərbaycan xalqına isə rifah diləyirəm.

## BELARUS RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ANDREY RAVKOV İLƏ GÖRÜŞ

*16 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Andrey Ravkovun etimadnaməsini qəbul etmişdir.*

*Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.*

**Andrey Ravkov:** Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti, icazə verin, Sizi salamlayım. Belarus Respublikasının Prezidenti Aleksandr Qriqoryeviç Lukaşenkonun etimadnaməsini Sizə təqdim etməyi özümə şərəf sayıram. Bu etimadnamə ilə o mənə Belarus Respublikasının Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri kimi, son dərəcə məsuliyyətli bir missiyanı etibar edir. Sizə bildirirəm ki, əvvəlki səfir Gennadi Vladimiroviç Axramoviç işini başa çatdırıb və Belarus Respublikasına qayıdıbdır.

**İlham Əliyev:** Sizi Azərbaycanda salamlayıram, vaxtınızın xoş keçməsini və fəal iş arzu edirəm. Mənim fikrimcə, iş çox olacaq. Ona görə ki, bizim dövlətlərarası münasibətlərin gündəliyi yetərincə ge-

nişdir, çox sahələri əhatə edir. Son illərdə biz həm siyasi, həm iqtisadi, həm də sənaye kooperasiyası sahələrində fəal qarşılıqlı işlər görmüşük. Əlbəttə, belə fəal qarşılıqlı işləri davam etdirmək niyyətindəyik.

Əsas məsələ ölkələrimiz arasında dostluq münasibətləridir. Uzun illər boyu bu münasibətlər böyük potensiala, yaxşı dinamikaya malik olduğunu göstərir. Ali səviyyədə tez-tez əlaqə saxlamağımız, qarşılıqlı səfərlər, əlbəttə, münasibətlərimizin inkişafına böyük təkan verir və biz əməkdaşlığın yaxşı nümunələrini görürük. Bu, ticarət sahəsinə də aiddir. Hərçənd pandemiya ilə əlaqədar təbii ki, bütün ölkələrdə ümumi daxili məhsulun və əmtəə dövriyyəsinin azalması müşahidə olunur. Buna baxmayaraq, düşünürəm ki, pandemiyadan sonra biz qısa müddətdə vəziyyəti bərpa edəcəyik. Bütövlükdə pandemiyadan əvvəlki son illərdə bizim ticari-iqtisadi münasibətlərin çox fəal dinamikası, idxal və ixrac etdiyimiz malların çeşidinin genişlənməsi müşahidə olunurdu.

Əlbəttə, sənaye kooperasiyası əməkdaşlığın mühüm istiqamətidir. Azərbaycanda Belarus–Azərbaycan müştərək müəssisələrinin yaxşı nümunələri vardır. Biz hətta üçüncü ölkələrin bazarlarına birlikdə çıxırıq. Fikrimcə, bu istiqamətdə əlavə addımlar atılacaq. Uzun illər boyu uğurla həyata keçirilən hərbi-texniki əməkdaşlıq mühüm sahədir. Biz hərbi-texniki əməkdaşlığın potensialını artırmaqla, o cümlədən yüksək texnologiyalar sahəsində də əməkdaşlıq edirik. Beləliklə, gündəlik yetərincə genişdir. Əminəm ki, Azərbaycanda olduğunuz müddətdə siz qarşılıqlı fəaliyyətin potensialını daha da artırmaq üçün bu mə-

sələlərlə fəal məşğul olacaqsınız. Əlbəttə, biz əvvəl olduğu kimi, bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik. Əminəm ki, belə çoxtərəfli və çoxplanlı birgə fəaliyyət bundan sonra da ölkələrimizin yaxınlaşmasına şərait yaradacaq. Sizə uğurlu iş və Azərbaycanda vaxtınızın xoş keçməsini arzu edirəm.

**Andrey Ravkov:** Sağ olun, cənab Prezident. İcazə verin, ilk növbədə, Sizə Aleksandr Qriqoryeviç Lukaşenkonun ən səmimi salamlarını və xoş arzularını çatdırım, Azərbaycan Respublikasının Prezidenti və onun dostu kimi, həm ikitərəfli formatda, həm də beynəlxalq məkanlarda Belarus Respublikasına göstərdiyiniz dəstəyə görə Sizə onun səmimi təşəkkürünü bildirim.

Belarus Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü həmişə bütün məsələlərdə və ardıcıl olaraq dəstəkləyib. Biz atəşkəs barədə bəyanatın imzalanması və Azərbaycanın əzəli torpaqlarını öz tərkibinə qaytarması xəbərini böyük ruh yüksəkliyi ilə qarşıladıq.

Hörmətli cənab Prezident, Siz tamamilə düzgün olaraq dediniz ki, dövlət rəhbərləri arasında dostluq və yüksək səviyyədə əlaqələr bu inkişafın, qarşılıqlı münasibətlərin möhkəmlənməsinin rəhnidir. Belarus da bunda maraqlıdır.

*Dövlət başçımız Aleksandr Lukaşenkonun salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Belarus Prezidentinə çatdırmağı xahiş etdi.*

## XALQ ŞAİRİ NƏRİMAN HƏSƏNZADƏYƏ

Hörmətli Nəriman Həsənzadə!

Sizi – müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə cansağlığı və yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Siz ötən əsrin ortalarında ədəbiyyat aləminə qədəm qoyduğunuz vaxtlardan öz dəstxəttinizi formalaşdırmış və geniş oxucu auditoriyasının ehtiramını qazanmısınız. Şair və dramaturq kimi, uzunmüddətli səmərəli fəaliyyətiniz boyu yüksək sənətkarlıqla meydana gətirdiyiniz ədəbi əsərlər söz xəzinəmizə layiqli töhfədir. Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən bu əsərlər Sizi ədəbi prosesin ön mövqelərinə çıxarmışdır. Bədii-estetik kamilliyi ilə seçilən şeir və poemalarınıza dərin səmimiyyət, həssaslıq və güclü lirizm hakimdir. Dövrün mənzərəsini dolğun canlandıran və xalqımızın mübarizliyinin tərənnümünə çevrilən mənzum tarixi dramlarınız tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmış, teatrlarımızın repertuarında özünəməxsus yer tutmuşdur. Yaratdığınız poetik nümunələrə bəstələnən mahnılar dillər əzbəridir.

Ziyalı vətəndaş mövqeyi nümayiş etdirərək, ictimai sahədə göstərdiyiniz təqdirəlayiq fəaliyyət kitab-

larınızdakı fikir və düşüncələrinizi əməli surətdə gerçəkləşdirmək istəyinizin bariz təzahürüdür.

İnanıram ki, Siz vətənpərvərlik ruhu, əxlaqi və mənəvi saflıq aşılayan əsərlərinizlə Azərbaycan oxucusunu bundan sonra da sevindirəcəksiniz.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 fevral 2021-ci il*

**GÜRCÜSTANIN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB
İRAKLİ QARİBAŞVİLİYƏ**

Hörmətli cənab Baş Nazir!

Gürcüstanın Baş Naziri kimi fəaliyyətə başlamağınız münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. İnanıram ki, sıx tellər ilə bir-birinə bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq, ölkələrimiz arasındakı səmərəli əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2021-ci il*

## NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN HƏMSƏDRİ İSMAİL SERAGELDİN İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*23 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Salam, cənab Serageldin. Sizi görmək çox xoşdur.

**İsmail Serageldin:** Cənab Prezident, bu mənim üçün böyük şərəfdir. Bu görüşün təşkilinə görə Sizə təşəkkür edirəm.

**İlham Əliyev:** Çox şadam ki, Azərbaycana gəlmisiniz. Ötən il keçirilməsi planlaşdırılan Qlobal Forum pandemiya səbəbindən təxirə salındı. Bu başadüşüləndir. Lakin eyni zamanda, mən bilirəm ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, sözsüz, bütün məhdudiyyətlər nəzərə alınaraq, öz fəaliyyətini davam etdirib. Sizə, xanım həmsədr Vayra Vike-Freyberqaya və Mərkəzin İdarə Heyətinin digər üzvlərinə Azərbaycanın uğurla həyata keçirdiyi azadlıq müharibəsi ilə əlaqədar mənə ünvanlanmış səmimi məktublarınıza görə minnətdarlığımı ifadə etmək istərdim. Sizin müharibə vaxtı və müharibədən sonra dəstək mək-

tublarınız, Azərbaycanın ərazi bütövlüyünə dəstəyiniz ölkəmizdə yüksək qiymətləndirilir. Mən torpaqlarımızın azad edilməsi işinə bu çox açıq, səmimi, ədalətli yanaşmaya görə olduqca minnətdaram.

Beləliklə, xatırladığınız kimi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin daimi forumları zamanı mən auditoriyaya müraciət edərkən hər dəfə münaqişəyə diqqət çəkirdim, hər dəfə ədalətsizliyə, beynəlxalq hüququn pozulmasına diqqət çəkirdim. İndi vəziyyət dəyişib. Azərbaycan beynəlxalq hüququ bərpa edib, faktiki olaraq, regionda və dünyada yeni reallıqlar yaradıbdır. Düşünürəm ki, bölgədə uzunmüddətli sülhün və sabitliyin bərqərar olması imkanından istifadə etmək üçün indi çox şey bu reallıqların region ölkələri, böyük dövlətlər tərəfindən düzgün qiymətləndirilməsindən asılı olacaqdır. Zənnimcə, bu gün Azərbaycan həqiqətən də düşmənçilik, nifrət, qarşıdurma səhifəsini bağlamaq və region üçün gələcək qurmağa hazır olduğunu nümayiş etdirir. Əslində biz artıq buna başlamışıq. Biz yenidən qurulma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik və proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlamışıq. Düşünürəm ki, yeni reallıqları qiymətləndirmək, əməkdaşlığın müsbət imkanlarına və sülh şəraitində birgəyaşayışa diqqəti cəmləşdirmək üçün hökumətlər və beynəlxalq təşkilatlar olaraq, addımlarımızı planlaşdırmağa ehtiyac vardır.

Azərbaycan öz öhdəliklərinə sadiqdir. Biz müharibə zamanı beynəlxalq norma və qaydalara əməl etməklə çox ləyaqətli, doğru şəkildə davrandıq.

Zənnimcə, müharibədən sonra da çox konstruktiv yanaşma nümayiş etdiririk. Düşünürəm ki, bu reallıqlar uzunmüddətli olacaq.

Regionumuzun uzun illər ərzində gözlədiyi sülh bərqərar olub və bu sülh uzunmüddətli olmalıdır. Əminəm ki, Mərkəzin fəaliyyətində siz həmçinin bu imkanlara, müharibədən sonrakı inkişaf imkanlarına, münaqişədən sonrakı vəziyyətə diqqəti cəmləyəcəksiniz.

Dağlıq Qarabağ münaqişəsi sona çatıb. O, artıq tarixin bir hissəsinə çevrilib. İndi biz diqqəti qarşımızdakı məsələlərə cəmləşdirməliyik, ilk növbədə, əlbəttə, ərazilərin yenidən qurulmasına, bərpasına. Hər şey məhv olub. Biz dağıntıların miqyasını təsəvvürümüzə belə, gətirə bilməzdik. Ağdamda, Füzulidə, azad edilmiş digər ərazilərdə, kəndlərdə, şəhərlərdə bir bina da qalmayıb. Hər şey, o cümlədən tarixi abidələr də dağıdılıb. Yenidən qurulma işləri aparmaq üçün çoxlu tədbirlər görülməlidir. Əlbəttə, biz bu işə sadiqik, bunu etmək üçün bizim güclü iradəmiz, imkanlarımız vardır.

Əlbəttə, biz heç vaxt olmadığı kimi, indi beynəlxalq birliyin həqiqəti bilməsini istəyirik. Xarici diplomatlar, beynəlxalq medianın nümayəndələri işğaldan azad olunmuş əraziləri ziyarət edərkən işğal nəticəsində bizim tarixi, mədəni abidələrimizin nə vəziyyətə salındığını həqiqətən, görürlər. Bizim əraziləri işğal edənlər hər şeyi məhv ediblər. Ümid edirəm ki, pandemiyadan sonra Mərkəzin üzvlərinin də işğaldan azad edilmiş bir sıra əraziləri ziyarət etmək və ola bilsin, orada müəyyən tədbiri təşkil etmək für-

səti olacaqdır. Lakin bu, əlbəttə, bizim gələcək əməkdaşlığımızın və müzakirələrimizin bir hissəsidir. Müharibə zamanı və müharibədən sonra göstərdiyiniz dəstəyə görə bir daha sizə minnətdarlığımı bildirmək istəyirəm. Sizi bir daha görməyə çox şadam.

**İsmail Serageldin:** Bu gözəl sözlərinizə görə çox sağ olun, cənab Prezident. Həqiqətən də mənim üçün gündəlikdə duran birinci məsələ Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə bağlı bu böyük nailiyyətə görə Sizi şəxsən təbrik etmək idi. Mən İdarə Heyətindəki həmkarlarımla ziyarətetmə zərurəti olmadan Sizin dinindən asılı olmayaraq, bütün tarixi abidələrin tərəfinizdən qorunmasına dair möhtəşəm bəyanatınızla bağlı videoformatda xüsusi tədbirin keçirilməsi məsələsini müzakirə etdim. Hesab edirəm ki, bu çox mühüm məsələdir və biz UNESKO, Dünya Abidələr Fondu kimi təşkilatları, mədəni irsin qorunmasına cəlb olunmuş təşkilatları dəvət etməklə, bu məsələni daha yaxşı qabarda və Sizin bəyanatınızla bağlı onları müzakirələrə cəlb edə bilərik. Çünki bu, insanların qalibin nəinki təkcə möhtəşəm olduğunu, eyni zamanda, Siz də dediyiniz kimi, regionda sülhü təşviq etmək məqsədilə yeni səhifə açmaq istədiyini söyləməsi üçün bir nümunə ola bilər. Bu məsələni həll etməyin bir yolu mədəni irs məsələləri ola bilər. Bunlar da bütün tərəflərdə maraq oyatmaq üçün bəzi insanlar tərəfindən istifadə edilə bilən məsələlərdir. Beləliklə, Siz bu mühüm bəyanatı verməklə, bunun qarşısını aldınız və hesab edirəm ki, biz bununla bağlı tədbir keçirə bilərik. İlk növbədə, mən həqiqətən də Sizi bu tarixi nailiyyət münasibətilə təbrik

etmək istəyirəm. Bu tarixi nailiyyət hətta Sizin dahi atanız Heydər Əliyev üçün belə, mümkün olmamışdı. Lakin onun dahi oğlu bunu edə bildi. Bu həqiqətən də böyük nailiyyətdir.

*Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzin gələcək planları və Bakı Qlobal Forumun keçirilməsi haqqında fikir mübadiləsi aparıldı.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ad gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Bu gün Türkiyə Respublikası əhəmiyyətli sosial-iqtisadi və elmi tərəqqi, hərtərəfli inkişaf yolu keçərək, dünya miqyasında müstəqil siyasət yürüdən güc mərkəzinə çevrilibdir. Heç şübhəsiz ki, qazanılmış bütün bu uğurlar bilavasitə Sizin böyük dövlət xadimi kimi, gərgin fəaliyyətinizin nəticəsidir.

Fəxr hissi ilə qeyd edə bilərik ki, qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan və «Bir millət – iki dövlət» prinsipinə əsaslanan Azərbaycan–Türkiyə münasibətləri hazırda özünün ən yüksək səviyyəsindədir.

Dostluq və qardaşlıq üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin bu səviyyəyə gəlib çatmasında şəxsən Sizin misilsiz rolunuz vardır. Çoxşaxəli ikitərəfli əlaqələrimizin və strateji müttəfiqliyimizin daha da möhkəmləndirilməsi yolunda qətiyyətiniz, Azərbaycanın əzəli torpaqlarının işğaldan azad edilməsi uğrunda haqq işinə bütün müstəvilərdə açıq,

tərəddüdsüz mənəvi və siyasi dəstəyiniz xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

İnanıram ki, bütün sahələrdə genişmiqyaslı, səmərəli, fəal əməkdaşlığımız, beynəlxalq məsələlərdə qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan ardıcıl mövqemiz və fəaliyyətimiz bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyə xalqının əmin-amanlığı və firavanlığı naminə ali dövlətçilik fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 fevral 2021-ci il*

## XƏZƏR RAYONUNDA ŞAĞAN REABİLİTASİYA PANSİONATININ ƏSASLI TƏMİRDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*25 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Dövlət başçısı pansionatda yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, bu pansionat ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada əsaslı təmir işləri görülüb. Yenidən qurulmuş 250 çarpayılıq pansionat ildə 5000 nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Burada müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.*

*Pansionatda Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Burada mövsümə uyğun iqlimlə müalicə im-*

*kanları ilə yanaşı, fizioterapiyanın da, demək olar, bütün sahələri əhatə edilibdir.*

*Bildirildi ki, postmüharibə dövründə bu tip müalicə mərkəzlərinin əhəmiyyəti xüsusi nəzərə çarpır. Müalicə xidməti ilə bərabər, əlilliyi olan şəxslərin sosial statusunun bərpası, cəmiyyətə inteqrasiyası əsas məsələlərdəndir.*

*Bu il istifadəyə verilməsi gözlənilən Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzləri də daxil olmaqla, ümumilikdə reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq, 2018-ci ildə isə bu potensial cəmi 10 min nəfərə bərabər idi.*

*Müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilibdir. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə artıq evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. 2021-ci ildə onların protezlə təmin olunması planlaşdırılır.*

## RAMANA QƏSƏBƏSİNDƏKİ YAŞAYIŞ KOMPLEKSİNDƏ ŞƏHİD AİLƏLƏRİ VƏ MÜHARİBƏ ƏLİLLƏRİNƏ MƏNZİLLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*25 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim edilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı kompleksdə yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlət başçısının bu ilin yanvarında imzaladığı sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021–2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.*

*Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada 30 bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird-yerlik məktəb inşa edilib. Yəni yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilibdir.

Bu gün eyni zamanda, Şağan qəsəbəsində Reabilitasiya Mərkəzinin əsaslı təmirdən sonra açılışı da oldu. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur. Bu ən müasir protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər

9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3000-ə yaxın mənzil veriləcəkdir. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomobili verilibdir.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səsləndirilir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyibdir. Ümumiyyətlə, bizdə olan proqram Ermənistanda mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür.

Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

İkinci Qarabağ müharibəsində 3000-ə yaxın şəhidimiz olub. Mən o cümlədən, bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbr versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsi şəhidlərinin, İkinci Qarabağ müharibəsi şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuş və 4000-ə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətlidir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əks-hücum əməliyyatı əslində hücum əməliyyatına çevrilibdir. Ermənilərin 30 il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilə-

rik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik. Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq, Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilibdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaqdır.

Biz ədaləti bərpa etdik, 30 il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən, demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari var idi. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmadı. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olubdur.

Birinci Qarabağ müharibəsində bizim qəhrəman övladlarımız şücaət göstərmişdilər. Ancaq o vaxt Azərbaycanın başında olan insanlar lazımi tədbirlər

görə bilməmişdilər. Xüsusilə AXC–Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq, müharibənin sonrakı gedişatını şərtləndirdi. Çünki Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradıldı və ondan sonra digər torpaqların işğalı üçün ermənilərin çox böyük üstünlüyü yarandı.

O vaxt faktiki olaraq, bizim bölgələrimizin müdafiəsi, demək olar ki, özünümüdafiə qüvvələrinin öhdəsinə buraxılmışdı. Nizami ordu yox idi. Hətta insanları Kəlbəcərdən, Laçından çıxarmaq üçün lazımi tədbirlər görülməmişdi, ona görə də əhali arasında böyük itkilər olmuşdu. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.

Əlbəttə, biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Bunu heç gizlətmirdik. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu münaqişənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. De-

məli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik də. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, həm regional layihələrin icrasında, həm də ordu quruculuğunun təkmilləşdirilməsində böyük işlər gördük. Eyni zamanda, gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən dedim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25–30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular.

Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək, düşməni məğlub edib, torpaqlarımızı iş-

ğaldan azad etdilər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq–iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

İndi baxın Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar, demək olar ki, tamamilə pozulub. Ermənistan heç vaxt belə acınacaqlı vəziyyətdə olmamışdı. Onları bu vəziyyətə salan onların rəhbərləridir. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri – Köçəryan–Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi – ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox. Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular, kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa

başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bu torpaqlar bizim nəzarətimizdədir.

Müharibədən sonrakı dövrə gəldikdə isə, indi hər kəs görür ki, Azərbaycanda inkişaf gedir, quruculuq işləri başlanıb. Ermənistanda isə böhran hökm sürür, bir-birilərini ittiham edirlər, bir-birilərini didirlər. Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik. Bu məğlubiyyətdə bir-birilərini ittiham edirlər, bir-birilərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur ki, Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir?! Bu nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan sadəcə olaraq, bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik.

Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi. Bilirsiniz, kimisə günahlandır-

maq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz, müftə verilibdir. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Biz indi bütün imkanlardan istifadə edib bölgədə gedən prosesləri diqqətlə izləyirik, bizim imkanlarımız var, informasiya mənbələrimiz kifayət qədər çoxdur. Biz bilirik müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verilib, müharibədən əvvəl nə qədər verilib. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq, müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirilirdi. Həmin o «İskəndər» raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. «Elbrus», «Toçka-U», «Skad» raketlərini pulla alıb? Pulsuz alıb. S-300, hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib, tanklar da, toplar da, digər hava hü-cumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb.

Amma bir neçə gün əvvəl eşitdim ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməırik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə eyni zamanda, ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır.

Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt – iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi əslində buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılmış raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Belə təxribat planları var idi, amma düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermə-

nistan ordusunu 44 günə məhv etdik, onların əsrlərboyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs onlara kömək etməlidir, onları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıblar, sonra da deyiblər ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır və yaşayacaqlar. Allah sizə səbr versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdular və öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdılar.

Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi, hər zaman sizin yanınızda olacağam.

**Fatma Qocayeva** (*Şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası*): Hörmətli cənab Prezidentimiz, mən Birinci Qarabağ müharibəsinin şəhid Milli Qəhrəmanı İlqar İsmayılovun 90 yaşlı anasıyam. Mən

bütün şəhidləri öz övladım hesab edirəm. Ona görə də bütün şəhidlərin valideynləri adından, öz adımdan Sizə minnətdarlıq bildirmək istəyirəm ki, Siz Qarabağın azadlıq sevincini bizə yaşatdınız. Otuz il gözləsək də, o həsrətdən bizi qurtardınız. Bu, böyük fəxrdir. Şəhid ailələri də, şəhid valideynləri də bunun üçün Sizə minnətdardır. Şəhidlərin də ruhu şad oldu, torpaqda rahat uyudular. Siz Şuşanın azad olunmasını elan edərkən, «Şuşa, sən azadsan!» – deyərkən elə bir azərbaycanlı tanımıram ki, onun gözündə sevinc yaşı olmasın. Bu bizim fəxrimiz oldu.

Qeyd etmək istəyirəm ki, Qubadlının iki polisi – İlqar İsmayılov, Əli Məmmədov bir çox kəndləri azad edə-edə Laçın dağlarının ən yüksək zirvəsi olan Qızartı yüksəkliyinə çıxıb Laçın dəhlizini bağlamaq tapşırığı almışdılar. O yüksəkliyə çıxanda onlar məşhur idmançı polislər idi. Çox ağır döyüşlə rastlaşıblar. Ermənilər əvvəlcədən oranı zəbt ediblərmiş. Onlar mühasirəyə düşüblər. Erməni başbilənləri onlara güllə atmayıb. «Onlar bizə diri lazımdır» – deyəndə, komandir olan İlqar deyib ki, uşaqlar soyuqqanlı olun. Bir atəşlə hamımız onları yerə sərməliyik. Sağ qalanların dediyinə görə, qumbara atmaqla, tüfənglə, avtomatla, bir çox silah və sursatı olan 48 erməninin meyiti yerə sərilib. Axırda İlqar deyib ki, biz bunlara təslim olmamalıyıq. Bıçaqları çıxarın əlbəyaxa döyüşə keçək. Orada əlbəyaxa döyüş gedib, bu cəsur oğullar şəhid olublar. İndi Şuşa, Laçın azad olunandan sonra o dağlara baxıb deyirəm, orada bitən qırmızı lalələr, sizə qurban olum. Sizin rənginiz ona görə qırmızıdır ki, o igidlərin qanından su iç-

misiniz. İndi Prezidentimizin sayəsində, şəhidlərin qanı bahasına torpaqlarımız azaddır, Şuşa da, Laçın da bizimdir. Bizim şəhidlərin ruhu bir də ona görə şaddır ki, cənab Prezident, Siz şəhid ailələrinə böyük qayğı ilə yanaşırsınız, onların hər bir ehtiyacını çox həvəslə ödəyirsiniz. Bu gün bizi buraya dəvət edib ehtiyacı olan şəhid ailələrinə ev bağışlamaqla, yenidən öz qayğınızı göstərirsiniz. Xalqımız bunu duyur, hiss edir ki, biz Prezidentimizin himayəsindəyik.

Mən həmişə demişəm, heç kəs qorxmasın ki, gedib şəhid olaram, ailəm baxımsız qalar. Bizim Prezidentimiz hər bir şəhid ailəsinin qayğısına qalır. Sizə bütün şəhid ailələri adından, öz adımdan təşəkkür və minnətdarlıq edirəm ki, Siz bizi belə bir qayğı ilə əhatə edirsiniz. Allah Sizi qorusun, dövlətimizi, xalqımızı qorusun. Bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Sizinlə fəxr edirik. Allah Sizi həmişə qorusun. Sağ olun.

**Rahim Babayev** (*ikinci qrup Qarabağ müharibəsi əlili*): Cənab Prezident, müzəffər xalqın Müzəffər Ali Baş Komandanı, Sizə Qarabağ qaziləri adından, şəhid ailələri adından böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Ona görə ki, Siz nəinki bizim Azərbaycan xalqına, bütün türk dünyasına bir hədiyyə etdiniz – Qarabağ hədiyyəsi!

Vaxt uzandıqca son zamanlar insanlarda ümidsizlik yaranmışdı. Amma Siz bütün bu ümidsizliyə son qoydunuz. Dünyanın bir çox ölkələrində müharibələr olur, amma 44 günlük müharibə olmur. 44 gün ərzində belə bir nəticə heç bir yerdə, heç bir ölkədə olmayıb, amma Siz bunu etdiniz. Təkcə Azərbaycan

xalqı deyil, bütün türk dünyası Sizinlə fəxr edir. Siz bütün dünyaya türkün gücünü və Sizin dediyiniz o «dəmir yumruğu» göstərdiniz və sübut etdiniz. Biz qazi olaraq, əsgər olaraq, yenə də Sizin bütün əmr və sərəncamlarınızı yerinə yetirməyə hazırıq.

Hörmətli Prezident, biz qazi olaraq, həyatda hər zaman Sizin qayğınızı hiss edirik. Bizim təqaüdlərimiz məhz Sizin sərəncamlarınız əsasında mütəmadi surətdə ilbəil, aybaay artırılır. Məhz bu ilin əvvəlində də sərəncamınızla Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin təqaüdləri artırıldı.

Bir neçə il bundan əvvəl biz Qarabağ qazilərinə avtomobil hədiyyə etmisiniz. Mənə də o avtomobildən hədiyyə olunub. Hazırda o avtomobili idarə edirəm. Bu gün isə məni evlə təmin edirsiniz.

Cənab Prezident, Siz nəinki bu xalqa, bütün türk dünyasına lazım olan insansınız. Allah Sizi qorusun. Var olun, sağ olun. Vətən sağ olsun!

**İlham Əliyev:** Çox sağ olun.

## «SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT VƏ ŞİRKƏT RƏHBƏRLİYİNİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*25 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də «Signify» (əvvəlki adı «Philips Lighting») şirkətinin baş icraçı direktoru Erik Rondolatı və şirkət rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul etmişdir.*

**İlham Əliyev:** Salam.

**Erik Rondolat:** Hər vaxtınız xeyir.

**İlham Əliyev:** Sizi yenidən görməyə çox şadam. Mən bizim sonuncu görüşlərimizi – ötən ilin yanvar ayında Davosdakı görüşü və həmçinin ötən il videokonfrans vasitəsilə təşkil olunmuş görüşü xatırlayıram. Çox şadam ki, sizin şirkətlə Azərbaycandakı tərəfdaşlarınız arasında əməkdaşlıq çox uğurla davam edir. Davosda razılaşdırdığımız kimi, siz ölkəmizdə çox mühüm layihələri həyata keçirirsiniz. Biz bütün müzakirə etdiklərimiz və razılığa gəldiyimiz məsələləri icra edirik. Mənə bu yaxınlarda məlumat verildi ki, Bakıda, Sumqayıtda və Şamaxıda küçələrin işıqlandırılması layihəsi uğurla davam edir, yaxşı nəticələr əldə olunur, elektrik enerjisinin

qənaəti yaxşı səviyyədədir. Bu çox mühümdür. Çünki bizim ötən dəfə müzakirə etdiyimiz kimi, Azərbaycan şəhərlərinin müasirləşdirilməsi prosesi davam edir. Ona görə də xatırladığınız kimi, Bakıda biz əsas diqqəti küçə işıqları olmayan küçələrə yönəltməyi qərara aldıq. Sumqayıtda, eləcə də Şamaxıda siz layihəni tamamilə üzərinizə götürdünüz. Əminəm ki, belə şəhərlər daha çox olacaq. Çünki biz artıq yaxşı nəticələr görürük. Biz artıq səmərəliliyi görürük. Ötən dəfə müzakirə etdiyimiz kimi, biz bu texnologiyaları yalnız küçələrin işıqlandırılması sektorunda deyil, həm də digər sektorlarda tətbiq edə bilərik – xüsusilə azadlıq müharibəsindən sonra Azərbaycan hər şeyin dağıdıldığı azad edilmiş əraziləri artıq yenidən qurmağa başladığı dövrdə. Mən dəfələrlə dediyim kimi, biz həmin ərazilərdə çox müasir infrastruktur, o cümlədən «ağıllı şəhər»lər, «ağıllı kənd»lər sistemi yaratmağı planlaşdırırıq. Proses artıq başlayıb. Ona görə də bizim müvafiq strukturlarımızla beynəlxalq şirkətlər arasında əməkdaşlıq üçün böyük imkan olacaq. Bu səbəbdən mən əməkdaşlığı davam etdirməyi və birinci layihənin çox yaxın zamanda təhvil verilməsini səbirsizliklə gözləyirəm. Bu, əməkdaşlığımızın çox yaxşı göstəricisi olacaq. Bir daha yalnız müzakirələr və yeni ideyaların inkişaf etdirilməsi baxımından deyil, həm də təmasların qurulması baxımından Davos görüşünün əhəmiyyətini vurğulayıram. Sizi yenidən görməyə çox şadam.

**Erik Rondolat:** Sizin Azərbaycanın lideri olaraq, münaqişəyə son qoymağınızı görməkdən çox şadıq. Münaqişə heç kim üçün yaxşı deyil və mü-

naqişənin həlli bacarığına malik olan liderlərin olması bizim üçün çox önəmlidir.

*Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdıran «Signify» şirkətinin baş icraçı direktoru vurğuladı ki, dövlət başçımızın Qarabağdakı əraziləri yenidən Azərbaycana qaytarması onları çox sevindirir. Çünki bu münaqişə uzun müddət idi ki, davam edirdi.*

*«Siz bir lider olaraq vəziyyətdən düzgün çıxış yolunu tapa bildiniz» – deyən Erik Rondolat vurğuladı ki, onlar işğaldan azad olunmuş ərazilərin təsvirlərini görüblər və oradakı dağıntıların miqyası onların qəlbində iz buraxıb.*

*Erik Rondolat ölkəmizdə həyata keçirdikləri layihələrdən danışdı, Bakı, Sumqayıt və Şamaxıda icra olunan layihələrin aprelin sonunadək yekunlaşacağını qeyd etdi. O, ölkəmizdə yeni layihələrin icrasında maraqlı olduqlarını bildirdi.*

**İlham Əliyev:** Təşəkkür edirəm. Təbriklərinizə görə çox sağ olun. Düşünürəm ki, bu həqiqətən də təkcə Azərbaycan üçün deyil, həm də bütün region üçün tarixi nailiyyət oldu. Çünki indi regionun tam inteqrasiya olunmaq imkanı vardır.

*Dövlət başçısı münaqişənin həlli ilə regiondakı bütün ölkələr üçün yeni imkanların yaradıldığını dedi. İşğal dövründə həmin ərazilərimizin ermənilər tərəfindən tamamilə dağıdıldığını qeyd edən Prezident İlham Əliyev vurğuladı ki, biz artıq bu ərazilərdə elektrik enerjisinin hasilatı, avtomobil və dəmir yollarının tikintisi ilə bağlı layihələrə start vermişik.*

*Prezident İlham Əliyev «Signify» şirkətinin ölkəmizdə icra etdiyi layihələri də qeyd etdi.*

– Hesab edirəm ki, Bakı, Sumqayıt, Şamaxı layihələri sizin şirkətinizin yüksək fəaliyyətini, səmərəliliyini həqiqətən də nümayiş etdirir. Bizim yeni planlarımız vardır. Biz artıq digər böyük şəhərlərlə və əlbəttə, işğaldan azad olunmuş ərazilərlə bağlı bu planları müzakirə etmişik. Biz hər bir şəhərin yenidən qurulması üçün baş plan hazırlayırıq və küçələrin işıqlandırılması bunun mühüm bir hissəsi olacaqdır.

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*26 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 26-da XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət etmişlər.*

*Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.*

*Birinci vitse-prezident xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi. Xocalı soyqırımından 29 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə yeksan etdi. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca dünyasını dəyişdi. 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideyn-*

*lərindən birini itirdi. Xocalı faciəsi təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı törətdiyi soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir. Azərbaycan dövləti ötən illər ərzində erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlər, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün ardıcıl fəaliyyət göstərib.*

*Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva böyük xidmətlər göstərib. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə «Xocalıya ədalət!» beynəlxalq kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Xocalı soyqırımı hər il dünyanın bir çox ölkələrində geniş şəkildə anılır və ictimaiyyətə çatdırılır. Artıq 14 ölkənin parlamenti, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını beynəlxalq hüquq normalarına uyğun olaraq qiymətləndirib. ABŞ-ın 22 ştatı Xocalı soyqırımının rəsmi tanınması ilə bağlı sənəd qəbul edib. İndiyə qədər 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanıyıbdır. Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman övladlarımızı Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. İllər keçdi. 2020-ci ildə baş vermiş Vətən müharibəsində müstəqilliyin övladları 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə, yeni reallıq yaratdı, «dəmir yumruq» qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nü-*

*munələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı.*

*Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən bütövləşdi. Bununla da xalq öz rəhbərinin ətrafında yumruq kimi birləşərək, tarixi hədəflərinə qovuşdu.*

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*26 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng etmişdir.*

*Dövlət başçımız Prezident Rəcəb Tayyib Ərdoğanı ad günü münasibətilə təbrik etdi, dost və qardaş Türkiyənin inkişafı və firavanlığı naminə ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı.*

*Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür etdi.*

*Prezident Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı ilə əlaqədar dövlət başçımıza və Azərbaycan xalqına başsağlığı verdi.*

*Azərbaycan Prezidenti başsağlığına görə minnətdarlığını bildirdi.*

*Dövlət başçıları Azərbaycan–Türkiyə münasibətlərinin bundan sonra da bütün sahələrdə uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminlik ifadə edərək, əlaqələrimizin gələcək perspektivləri ətrafında fikir mübadiləsi apardılar.*

## YERLİ VƏ XARİCİ MEDİA NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

*26 fevral 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirmişdir.*

**İlham Əliyev:** Bu gün Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı faciəsi Ermənistan tərəfindən Azərbaycan əhalisinə qarşı törədilmiş qanlı cinayətdir, soyqırımıdır. Bu soyqırımı nəticəsində 613 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onlardan 106-sı qadın, 63-ü uşaq idi. Xocalı soyqırımını törədənlər hərbi cinayətkarlardır. Onların bir çoxu İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tərəfindən məhv edilmişdir.

Xocalı soyqırımı Ermənistan faşizminin təzahürü idi. Ermənistan faşizmi o vaxt baş qaldırırdı və 1992-ci ildən son hadisələrə qədər erməni faşizmi Azərbaycan xalqına böyük zərbələr vurubdur. Hərbi təxribatlar, terror aktları, dinc əhaliyə qarşı qəddarlıq, şəhərlərimizin, kəndlərimizin atəşə tutulması, eyni zamanda, İkinci Qarabağ müharibəsi dövründə ballistik raketlərlə dinc şəhərlərin bombalanması – bütün bunlar erməni faşizminin təzahürləridir.

Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanıyıb, təsdiq edibdir və bu proses davam etdirilir. Azərbaycan dövləti, eyni zamanda, ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır. Ermənistan dövlətinin hərbi cinayətləri sənədləşdirilib, video, fotomateriallar kifayət qədər geniş auditoriyaya təqdim edilibdir. İndi bütün dünya görür və bilir ki, Azərbaycan xalqı XX əsrin sonunda soyqırımına məruz qalmışdır.

Xocalı soyqırımının törədilməsi ilə Ermənistan əslində Azərbaycan xalqının iradəsini qırmaq istəyirdi. Təsadüfi deyil ki, Ermənistan rəhbərləri – hərbi cinayətkarlar xarici jurnalistlərə müsahibə verərkən, bu barədə sualı cavablandırarkən qürur hissi ilə qeyd edirdilər ki, bəli, Ermənistan bu hərbi cinayəti dinc əhaliyə qarşı törədib. Ona görə ki, Azərbaycan xalqı görsün – Ermənistan rəhbərliyi dinc əhaliyə də əl qaldıra bilər. Biz isə Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq. Azərbaycan güclü dövlət kimi, heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın, halbuki belə meyillər görünməkdədir. Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır.

Bu günlərdə Azərbaycanda bir çox tədbirlər keçirilir və bu tədbirləri işıqlandırmaq üçün xaricdən böyük bir jurnalist qrupu gəlibdir. Mən onlara təşəkkürümü bildirirəm ki, bu hadisələri, bu soyqırımını işıqlandırmaq üçün bu gün Azərbaycandadırlar. Eyni zamanda, bilirəm ki, onların bəziləri azad edilmiş torpaqlara gediblər, o dağıntıları öz gözləri ilə görüblər və bundan sonra da gedəcəklər. Buna görə bir daha dərin təşəkkürümü bildirirəm. Mənə məlumat verildi ki, xarici jurnalistlər mənimlə görüşmək, müsahibə almaq istəyirlər. Onların sayının çox olmasını nəzərə alaraq, belə qərara gəldim ki, bu formatda görüşək. Təbii ki, pandemiya bizim işimizə də təsir göstərir. Amma hesab edirəm, bu canlı bağlantı imkan verəcək ki, jurnalistləri maraqlandıran suallara cavab verim. Buyurun.

**Hikmət Hacıyev** (*Azərbaycan Prezidentinin köməkçisi*): Möhtərəm cənab Prezident, icazənizlə, yerli və xarici media nümayəndələrinin iştirakı ilə mətbuat konfransımıza başlayırıq. Söz verilir «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyətinin nümayəndəsinə.

**Sual** (*Azərbaycan Televiziyası*): **İlk növbədə, bu imkanı yaratdığınıza görə Sizə təşəkkür edirəm. Siz qeyd etdiniz ki, Xocalı soyqırımının törədilməsindən ötən 29 il ərzində bir çox ölkələrin parlamentləri, eyni zamanda, beynəlxalq təşkilatlar tərəfindən bu qətliama soyqırımı kimi qiymət verilib. Bəs hazırda beynəlxalq ictimaiyyət tərəfindən Xocalı soyqırımına münasibəti necə qiymətləndirirsiniz, onların mövqeyini necə qiymətləndirmək olar? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, bir çox beynəlxalq təşkilatlar bu qanlı hadisəyə Azərbaycanın təşəbbüsü ilə öz münasibətini bildirmişdir və bu istiqamətdə işlər davam etdiriləcək. Əlbəttə, soyqırımı törədiləndə Azərbaycan, demək olar ki, informasiya blokadasında idi. O vaxt müasir imkanlar da yox idi. Ona görə bu məsələ bir çoxları üçün o qədər də aydın deyildi. Xüsusilə nəzərə alsaq ki, o illərdə Azərbaycanın beynəlxalq aləmdə o qədər də böyük imkanları yox idi və bunun müqabilində erməni lobbisi fəal çalışırdı, müharibə ilə, baş vermiş hadisələrlə bağlı yalan, təhrif edilmiş məlumatları ötürürdü. Beynəlxalq ictimaiyyətdə müəyyən yanlış fikirlər formalaşmışdı. Bu fikirləri aradan qaldırmaq, təkzib etmək üçün biz, əlbəttə ki, böyük səylər göstərməli idik və qeyd etdiyim kimi, dövlət olaraq, ictimai təşkilatlar olaraq, son illər ərzində ardıcıl surətdə bu fəaliyyəti göstərmişik. İctimai təşkilatlar arasında xüsusilə Heydər Əliyev Fondunun fəaliyyətini qeyd etmək istəyirəm. «Xocalıya ədalət!» şüarı altında bir çox ölkələrdə müxtəlif tədbirlər keçirilib və bu gün Xocalı faciəsi haqqında dünya ölkələrində kifayət qədər dolğun məlumat vardır. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, bu qanlı cinayət heç vaxt unudulmasın, nə Azərbaycanda, nə də dünyada bu heç vaxt təkrarlanmasın və Azərbaycan heç vaxt ötən əsrin 90-cı illərinin əvvəllərində olan o aciz duruma düşməsin, Azərbaycan özünü, öz vətəndaşlarını hər zaman qoruya bilsin.

Hesab edirəm ki, bu gün dünyada Xocalı soyqırımı ilə bağlı artıq geniş məlumat vardır. Halbuki Ermənistan tərəfi müxtəlif yollarla yalan informa-

siyaları ortalığa atmaqla, bu qanlı cinayəti də Azərbaycan dövlətinin üzərinə qoymaq istəyirdi. Guya ki, Azərbaycan özü Xocalı soyqırımını törətmişdir. Biz bu addımların təkrarını İkinci Qarabağ müharibəsində də gördük. Gəncəni, Tərtəri, Ağdamı, digər şəhərləri bombalayanda Ermənistan rəhbərliyi deyirdi ki, bunu Azərbaycan özü törədib. Halbuki atılan ballistik raketlər peyk tərəfindən izlənilir və böyük dövlətlər, ilk növbədə, Minsk qrupuna həmsədrlik edən dövlətlər bütün bu mənzərəni izləyirdi.

Ballistik raketlər Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə Ermənistan ərazisindən buraxılmışdır. Yəni növbəti erməni yalanı cəhdi göstərildi, amma keçmədi. Çünki artıq vəziyyət tam başqadır və bizim məlumatı ötürmək üçün imkanlarımız vardır.

Mən tam əminəm ki, illər keçdikcə Xocalı soyqırımı haqqında həqiqətləri də bütün dünya biləcək və bizim vəzifəmiz bundan ibarətdir. Biz bundan sonra da çalışacağıq ki, dünya ölkələri bu soyqırımını rəsmən soyqırımı kimi tanısın. Bu istiqamətdə işlər ardıcıl surətdə bundan sonra da aparılacaqdır.

**S u a l** (*Türkiyənin «TRT Haber» telekanalı*): **Cənab Prezident, əvvəlcə, Xocalıda şəhid olanları rəhmətlə anırıq. Sizi də Qarabağ Zəfəri münasibətilə bir daha təbrik edirik. Qarabağ Zəfərindən dərhal sonra Ermənistanda davamlı daxili siyasi qarışıqlıqlar müşahidə olunur. Siz bu məsələyə – Ermənistanda baş verənlərə necə baxırsınız? Sizin və Prezident Ərdoğanın əməkdaşlıq formatı təklifi vardır, orada baş verənlərin ona mənfi bir təsiri ola bilərmi? Digər tərəfdən, orada hər hansı bir hakimiyyət dəyişikliyi ilə bağlı Azər-**

**baycanın bölgədə hərbi tədbirləri artırması planlaşdırılırmı?**

**İ l h a m  Ə l i y e v:** Ermənistanda baş verən hadisələr Ermənistanın daxili işidir. Mən dünən şəhid ailələri ilə görüşdəki çıxışımda, o cümlədən Ermənistandakı vəziyyətə də toxundum. Ancaq onu bildirmək istəyirəm ki, o çıxış hadisələrdən əvvəl edilmişdir. Yəni mənim şəhid ailələri ilə görüşüm təqribən saat 10:30-da olmuşdur və mən Ermənistandakı hadisələrdən ondan sonra xəbər tutdum. Ona görə istəyirəm, hər kəs bilsin ki, mənim şərhlərim bu hadisələrdən əvvəl edilmişdir.

Ancaq hadisələr onu göstərdi ki, mən tam haqlı idim. Çünki bu gün Ermənistan elə bir ağır durumdadır ki, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərləridir. Çünki 20 il ərzində Köçəryan–Sarkisyan xuntası Ermənistanı faktiki olaraq, uçuruma aparırdı və böhranlı vəziyyətə gətirib çıxardı. Ölkə, demək olar ki, bütövlükdə müstəqillik əlamətlərini itirmişdi, daha çox müstəmləkəyə bənzəyirdi. Bunun əsas səbəbi işğalçılıq siyasətidir. Çünki onlar torpaqlarımızı işğal altında nə qədər çox saxlamaq istəyirdilərsə, o qədər də asılı vəziyyətə düşürdülər. Biz Ermənistanı ardıcıl olaraq bütün beynəlxalq, regional layihələrdən təcrid etmişdik. Ermənistanı iqtisadi cəhətdən sarsıtmaq, çökdürmək, təcrid etmək bizim siyasətimiz idi. Mən bunu heç vaxt gizlətmirdim və dəfələrlə açıq deyirdim: torpaqlarımız nə qədər ki, işğal altındadır, biz bu siyasəti aparacağıq. Deyirdim ki, Ermənistan öz

silahlı qüvvələrini bizim torpaqlarımızdan çıxarsın, ondan sonra bölgədə işbirliyi də ola bilər, əməkdaşlıq da ola bilər və bizim siyasətimizdə dəyişiklik də ola bilər. Əfsuslar olsun ki, nə əvvəlki xunta rejimi, nə də ki, 2018-ci ildə hakimiyyətə gəlmiş hökumət bu çağırışlara qulaq asmadı. Əgər vaxtında qulaq assaydılar, bu gün belə rəzil duruma düşməzdilər.

Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür. Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaqdır. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir. O Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Yəni Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq.

Otuz il ərzində bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, eyni zamanda, ayrı-ayrı ölkələr bizə açıq, yaxud da qeyri-rəsmi mesajlar göndərirdilər ki, reallıq var, Azərbaycan müharibədə məğlub edilmiş tərəfdir, siz reallıqla barışın. Çalışın ki, bu reallıqdan özünüz üçün maksimum məqbul variant seçin, yəni pis variantla daha pis variant arasında. Biz isə, bildiyiniz kimi, belə çağırışları hər zaman

rədd edirdik, öz mövqemizdən bir addım belə, geri atmırdıq və mən bunu açıq bəyan edirdim. İndi isə mən deyirəm ki, yeni reallıq yaranıb və bu reallığı biz yaratdıq. Bu reallıqla Ermənistan və eyni zamanda, bütün başqa ölkələr barışmalıdır, hesablaşmalıdır. İndi Ermənistan qarşısında bir neçə seçim var və onların arasında Ermənistan üçün ən məqbul seçim 10 noyabr Bəyanatının müddəalarını icra etməkdir. Əks təqdirdə, onlar üçün daha da böyük problemlər yarana bilər.

**S u a l** (*Rusiyanın TASS agentliyi*): **Hər vaxtınız xeyir, cənab Prezident. İcazə versəniz, Sizə iki sualım var. Birinci sual logistikaya aiddir. Bu yaxınlarda Füzulidə aeroport tikintisinin başlanması barədə xəbər verilib. Siz belə işlərin aparılmasını, onlara heç nəyin mane olmamasını, obyektin hansı müddətdə istifadəyə verilə biləcəyini və bu aeroportun beynəlxalq hava limanı olub-olmayacağını təsdiqləyə bilərsinizmi? İkinci sualım koronavirusa qarşı vaksinlərlə bağlıdır. Biz ümid edə bilərikmi ki, Rusiya vaksinləri Azərbaycanda qeydiyyata alınacaq? İcazə versəniz, şəxsi xarakterli bir sualım da var. Siz özünüz peyvəndlənəcəksinizmi və hansı preparata üstünlük verəcəksiniz? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Füzulidə tikilən aeroport məsələsinə gəldikdə, bu işlər artıq başlanılıb. Biz ərazinin minalardan təmizlənməsi ilə bağlı məsələlərin həllinə operativ surətdə başlamışıq. Ona görə ki, ilk növbədə, orada ərazini təmizləmək lazım idi. Bu proses başa çatmağa yaxındır və aeroport, hər halda, onun uçuş-enmə zolaqları və aeroportun fəaliyyətini tə-

min edəcək naviqasiya sistemləri operativ müddətdə istifadəyə veriləcək.

Aeroport beynəlxalq hava limanı olacaq. Uçuş-enmə zolaqları ən ağır təyyarələr və yük təyyarələri də daxil olmaqla, bütün növ təyyarələri qəbul edə biləcək. Əlbəttə, aeroportun tikintisinin nə vaxt başa çatacağını qabaqcadan demək çətindir, çünki ərazilərin minalardan təmizlənməsi, bu əraziyə gediş-gəlişin mümkünlüyü ilə bağlı məsələlər çətinlik doğurur. Lakin biz ümid edirik ki, aeroport bu il istifadəyə veriləcək. İstəyirik ki, bu, payızın əvvəllərində olsun. Əgər bütün işlər plan üzrə getsə, aeroport payızın əvvəllərində istifadəyə veriləcək. Bu bizə həmin hava limanından həm xaricdən alacağımız yüklər nəzərə alınmaqla, ərazilərin bərpası üçün, həm də qonşu dövlətlərin vətəndaşlarının Şuşa şəhərinə rahat gedib-gəlmələri üçün istifadə etməyimizə imkan verəcək. Ona görə ki, aeroport ilə eyni vaxtda Şuşa şəhərinə iki avtomobil yolu tikilir. Həmin yollardan birinə mən «Qələbə yolu» adı vermişəm. Azərbaycanın xüsusi təyinatlı qoşunları məhz həmin yolla meşələrdən və vadilərdən keçərək, Şuşa şəhərinə gediblər. Nisbətən aran ərazidən keçən digər yol da aeroportdan birbaşa gediş-gəlişi təmin edəcək. Əminəm ki, xaricdə yaşayan azərbaycanlılar, həmçinin digər ölkələrin vətəndaşları belə bir imkana malik olacaqlar.

Deməliyəm ki, bizim aeroportlar tikmək planlarımız təkcə Füzuli şəhəri ilə məhdudlaşmır. Biz ərazinin abadlaşdırılması proqramlarını, Zəngilanın çox mühüm logistika mərkəzinə çevriləcəyini nəzərə almaqla, Laçında və Zəngilanda da aeroport tikməyi

planlaşdırırıq. Bildiyiniz kimi, keçən il 10 noyabr tarixli Bəyanatın bir bəndi Ermənistan ərazisində Azərbaycanı onun Naxçıvan Muxtar Respublikası ilə birləşdirən, həmçinin Azərbaycanı Türkiyə ilə və eyni zamanda, Rusiyanı Türkiyə ilə birləşdirən dəhlizin açılması barədə idi. Buna görə də bizim böyük planlarımız var və biz onları reallaşdıracağıq. Bu il ərazilərin bərpası üzrə kifayət qədər geniş xüsusi investisiya proqramı təsdiq edilib. Biz bağlanmış müqavilələr əsasında ilk ödənişləri həyata keçirməyə başlayırıq.

Vaksin məsələsinə gəldikdə deməliyəm ki, pandemiyanın lap əvvəlindən biz vəziyyəti nəzarətdə saxlayırıq. Karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması üzrə görülmüş tədbirlər kifayət qədər səmərəli olub. Bizdə yoluxmanın səviyyəsi kifayət qədər aşağıdır. Koronavirusa yoluxmuş insanların sayı hazırda 200 mindən bir qədər çoxdur. Bugünkü vəziyyətə görə, aktiv xəstələrin sayı 2 mindən bir qədər artıqdır. Bizim xəstəxanalarda boş yerlər çoxdur. Ona görə ki, əvvələn, pandemiyanın ilk aylarında biz 10-dan çox modul tipli yeni xəstəxana yaratdıq, həmçinin son iki ayda yoluxanların və sağalanların sayı arasında sağalanların xeyrinə müsbət dinamika müşahidə olunur. Biz həm də Cənubi Qafqazda peyvəndləməyə başlamış birinci ölkəyik. Biz peyvəndləməyə yanvarın 18-də başlamışıq, yəni Avropada peyvəndləmə başlanandan cəmi bir ay sonra.

Biz Çində istehsal edilmiş «CoronaVac» peyvəndi ilə vaksinasiya aparırıq. Deməliyəm ki, həm də lap əvvəldən COVAX layihəsinə qoşulmuşuq. Bu

layihə üzrə biz «AstraZeneca», «Pfizer» və «Moderna» peyvəndlərini də almalıyıq. Bundan əlavə, biz Azərbaycana «AstraZeneca» vaksininin göndərilməsi barədə lap ilk günlərdən Rusiya tərəfi ilə müvafiq sənədlər imzalamışıq. Ona görə ki, Rusiya şirkətləri postsovet məkanında bu vaksinin, həmçinin «Sputnik» vaksininin distribüterləridir. Lakin hələlik bu vaksinlər bizə daxil olmayıb. Bizdə olan məlumata görə, «Sputnik» vaksini hələlik Rusiyanın daxili ehtiyaclarını təmin edir və xarici ölkələrə bu vaksin çox məhdud miqdarda göndərilib.

«CoronaVac» peyvəndinə gəldikdə isə, bu vaksinin 4 milyon dozasının alınması barədə kontrakt bağlanıb. Mənə hər gün məruzə edirlər ki, bəzən gündə 15–20 min nəfər vaksinlənir. Yəni bu istiqamətdə bütün imkanlardan istifadə edəcəyik. Bunun üçün müvafiq maliyyə vəsaitləri ayrılıb. Sadəcə, vaksinlərin istehsalçılardan gəlməsini gözləyəcəyik.

Bununla əlaqədar, onu da qeyd etmək istərdim ki, bizim beynəlxalq səviyyədə, o cümlədən «Qoşulmama Hərəkatı»nın sədri kimi, təşəbbüsümüzlə BMT Baş Assambleyasının COVID-19-a həsr edilmiş xüsusi sessiyası keçirilib. 150-dən çox ölkə bu təşəbbüsü dəstəklədi. Sessiya ötən ilin dekabr ayında keçirildi. Mənim orada səsləndirdiyim tezislərdən biri vaksinlərin dünya ölkələri arasında ədalətli bölgüsü idi ki, bu məsələdə proteksionizm, millətçilik olmasın. Lakin təəssüf ki, tamam başqa mənzərə görürük. Görürük ki, hətta müttəfiqlər arasında da ciddi problemlər yaranır, kimin neçə vaksindən istifadə etməsini və kimin kimə nəyi yarımçıq verməsini hesabla-

mağa başlayırlar. Bu vəziyyət bir daha göstərir ki, həmrəylik barədə, bu bəlaya qarşı birgə mübarizə barədə bütün bəyanatlara baxmayaraq, praktikada tamamilə əks vəziyyət görürük. Məsələn, bəzi ölkələr onlara lazım olandan 3-4 dəfə çox vaksin alıb. Misal üçün, Kanada. Mən bu barədə demişəm. Belə çıxır ki, kiməsə çatmayacaq. Amma bu onlara maraqlı deyil. Onlar sözdə bərabərlik, insan haqları, demokratiya tərəfdarları kimi çıxış edir, praktikada isə milyonlarla insanın, yoxsul ölkələrdə yaşayan və buna imkanı olmayan insanların hüquqlarını tapdalayırlar. Hətta bu insanların imkanları olsa belə, onlar üçün əlçatan deyil. Sizə açıq deməliyəm ki, əgər biz bütün istehsalçılarla saziş bağlamasaydıq – bunu etmişik – bu gün biz də vaksinsiz qalardıq. Biz «AstraZeneca» vaksinini çoxdan almalı idik. Almamışıq. Artıq bir neçə aydır ki, almamışıq. «Sputnik» vaksinini də almamışıq. COVAX təşəbbüsü üzrə «Pfizer» və «Moderna» peyvəndlərini almalı idik, almamışıq. Özü də bizə onları nə vaxt alacağımızı demirlər. Yaxşı ki, bizim çinli tərəfdaşlarımız öz öhdəliklərini yerinə yetirirlər. Bizim bunu almaq üçün vəsaitimiz vardır. Bəs vəsaiti olmayanlar nə etsinlər? Bu adamlar ölməlidirlər? Deməli, varlılar özlərini peyvəndləyəcək, bütün istehsalı özlərinə götürəcək, necə deyərlər, elementar insan davranışı qaydalarına tam etinasızlıq göstərəcək, yoxsul ölkələr isə əziyyət çəkməli olacaq. Biz hansı bərabərlikdən danışırıq? Mən BMT Baş Assambleyasının xüsusi sessiyasında bu məsələni qaldırmışam və bu gün «Qoşulmama Hərəkatı» çərçivəsində bu məsələ barədə fəal diskussiya aparırıq. Bir çox ölkə-

lər mənim təşəbbüsümü dəstəkləyib. Hazırda əlavə məsləhətləşmələr aparılır və biz əməli işə keçməliyik. Şablon bəyanatlar səsləndirmək kifayətdir, onların arxasında heç bir iş dayanmır. Bunlar artıq hamını bezdirib. Bu məsələ hər bir insana aiddir. Biz bu məsələdə həm milli mənada, həm də bu gün üzvlərinin sayına görə dünyada BMT-dən sonra ikinci beynəlxalq qurumda sədrlik edən ölkə kimi, prinsipiallıq göstəririk.

**S u a l** (*«Ukraina-24» telekanalı*): **Hər vaxtınız xeyir, cənab Prezident. Mən «Ukraina-24» telekanalının jurnalistiyəm. İcazənizlə, sual vermək istərdim. Ukrayna Azərbaycanda baş verən hadisələri həmişə izləyib və izləyir. Sizin təcrübəniz bizim üçün çox vacibdir. Ümidvaram ki, yaxın gələcəkdə biz də öz torpaqlarımızı qaytaracağıq. Sualım da bir növ bu barədədir. Deyin, indi, işğaldan azad olunmuş ərazilərin reinteqrasiyası dövründə Azərbaycan hansı çətinliklərlə üzləşir? Bilirəm ki, döyüş əməliyyatları başa çatandan dərhal sonra pozucu təxribat-partizan fəaliyyəti cəhdləri olmuşdu. Bu məsələni necə həll etdiniz? Dinc vətəndaşların qayıtması məsələsini necə həll edirsiniz ki, onlar sülh şəraitində və təhlükəsiz yaşasınlar? Sağ olun.**

**İ l h a m  Ə l i y e v:** Siz haqlısınız. Bizdə olan məlumata görə, döyüş əməliyyatları başa çatandan sonra, təxminən noyabrın 20-də Ermənistanın Şirak vilayətindən, Gümrü şəhərindən və ətraf rayonlardan 60 nəfərdən çox bir dəstə göndərilmişdi. Bu dəstənin Laçın dəhlizindən necə keçməsi, Azərbaycan Ordusunun nəzarətində olan ərazilərə necə gəlməsi aydın

deyil. Bildiyiniz kimi, hərbi əməliyyatlar başa çatandan sonra noyabrın 10-da Rusiya Federasiyasının sülhməramlı missiyası sülhməramlıların məsuliyyət daşıdığı ərazinin xəritələrini dərc edib. Bu xəritələr daim saytdadır. Hərbi əməliyyatlar başa çatandan sonra biz aşkar etdik ki, arxa cəbhənin dərinliyində erməni silahlı dəstələri vardır. Əvvəlcə, aldığımız məlumata görə, bu adamlar azıb mühasirədən çıxa bilməyənlərdir. Azərbaycan hərbi qulluqçuları onların azdıqlarını zənn edərək, bir müddət sülhməramlı missiya ilə birlikdə həmin adamlara kömək göstərməyə və onları geri qaytarmağa çalışdılar. Lakin məlum oldu ki, bu belə deyilmiş. Məlum oldu ki, bu həm bizim hərbi qulluqçulara, həm də dinc vətəndaşlara hücumlar edən təxribat qrupudur. Bu təxribatlar və terror aktları nəticəsində bizim hərbi qulluqçulardan dörd nəfəri və bir nəfər mülki şəxs – mobil operator şirkətinin nümayəndəsi həlak olub. Şuşa şəhərinə gedən həmin şəxs pusquya düşüb və bir neçə nəfər yaralanıb. Təbii ki, biz əks-terror əməliyyatı apardıq, nəticədə bir neçə terrorçu tamamilə zərərsizləşdirildi, 60-dan çox terrorçu isə tutuldu. Bu gün onları hərbi əsirlər adlandırmağa çalışırlar. Düşünürəm ki, məsələnin mahiyyətini qəsdən təhrif edirlər. Müharibə bitəndən 20 gün sonra hərbi əsir ola bilməz. Bizdə olan hərbi əsirlərin hamısını qaytarmışıq. Özü də onları bizim əsirlərin qaytarılmasından əvvəl qaytarmışıq. O adamlar həmin kateqoriyaya uyğun gəlmir. Onlar terrorçu və təxribatçılardır. Ermənistan tərəfindən və ya başqa ölkələr tərəfindən hər hansı spekulyasiya yersizdir.

Başqa çətinliklərə gəldikdə isə, biz başqa təxribat qruplarının keçməyəcəyinə qarantiya vermirik. Lakin biz işğaldan azad olunmuş ərazilərin təhlükəsizliyini bu gün kifayət qədər təmin edirik, müntəzəm reydlər keçiririk, pilotsuz uçuş aparatları vasitəsilə və vizual şəkildə monitorinq aparırıq. Buna görə vəziyyət tam nəzarət altındadır. Bundan əlavə, ərazilərin minalanması əsas çətinlikdir. Ona görə ki, erməni tərəfi minalanmış sahələrin xəritələrini bizə təqdim etməyib. Yeri gəlmişkən, bu da cinayət hesab edilə bilər. Ona görə ki, hərbi əməliyyatlar başa çatandan sonra bizdə həm hərbi qulluqçular, həm də mülki şəxslər arasında bir neçə hadisə olub, bu insanlar yalnız ona görə həlak olub ki, minalanmış sahələrin xəritələri bizə təqdim edilməyib. Bu gün bizdə mövcud olan resurslarla ərazilərin minalardan tezliklə təmizlənməsi mümkün deyil.

Yəni burada erməni tərəfin qeyri-səmimi davranmasını bir daha yəqin edirik. Onlar sözdə bir cür danışır, əməldə isə başqa cür hərəkət edirlər. Biz onların hərbi əsirlərini, həlak olanların cəsədlərini verdik. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə erməni tərəfinin nümayəndələri, sülhməramlı missiya və bizim nümayəndələr birlikdə 1000-dən çox həlak olmuş erməni hərbi qulluqçusunun cəsədlərini tapdılar və erməni tərəfə verdilər. Biz özümüzü əxlaq normalarına və ümumbəşəri davranış normalarına müvafiq şəkildə aparırıq. Lakin minalanmış sahələrin xəritələrini bizə verməmək dinc vətəndaşları və hərbi qulluqçuları bilərəkdən ölümə və şikəstliyə məhkum etmək deməkdir. Hansı əməkdaşlıqdan söhbət

gedə bilər? Belə olan təqdirdə, birtərəfli əməkdaşlıq ola bilməz.

Bu gün bizim müzakirə etdiyimiz daha bir məsələ keçmiş məcburi köçkünlərin qovulduğu ərazilərə qayıtmasının qrafiki məsələsidir. Lakin ərazilərin minalanması ilə bərabər, burada hər şey, bütün infrastruktur tamamilə dağıdılıb, şəhərlər yoxdur, qayıdası yer yoxdur. Praktiki olaraq, bütün kəndlər dağıdılıb. Mən azad edilmiş ərazilərdə dəfələrlə olmuşam, maşınla yüzlərlə kilometr yol gedirsən və yalnız dağıdılmış kəndləri görürsən, heç yerdə bircə bina da yoxdur. Ağdamda bircə bina da yoxdur. Təkcə qismən dağıdılmış bir məscid qalıb, ondan da ermənilər atəşin təshih edilməsi üçün oriyentir və müşahidə məntəqəsi kimi istifadə ediblər, oradan baxırlarmış ki, Azərbaycan qoşunları orada hərəkət edir, yoxsa yox? Füzulidə bircə bina da yoxdur. Hətta bayraq sancmağa yer yox idi. Biz bayrağı bayraq dirəyindən asdıq. Cəbrayılda da eyni vəziyyətdir. Zəngilanda, Qubadlıda bir neçə ev qalıb, onlarda da qanunsuz məskunlaşdırma aparılmışdır.

Buna görə indi biz ərazilərin minalardan təmizlənməsi və bununla paralel olaraq, bütün imkanlardan istifadə etməklə, ziyanın qiymətləndirilməsi ilə məşğuluq. O cümlədən beynəlxalq qurumlar vasitəsilə işğalçılara əsaslandırılmış iddialar təqdim etmək üçün dronlarla çəkilişlər aparırıq. Bununla paralel olaraq, şəhərlərin və kəndlərin inkişafının baş planlarının tərtib edilməsinə dair tapşırıqlar verilib. Bizim vətəndaşların qayıtması üçün əsas mərhələlər bunlardır. Biz həm də pilot layihələrə başlamışıq. Bir layihə – «ağıllı

kənd» layihəsi artıq başlanılıb. Biz 30 il ərzində öz torpaqlarından qovulmuş insanlar üçün işğaldan azad edilmiş ərazilərdə maksimum əlverişli imkanlar yaratmaq istəyirik. Onlar buna layiqdirlər. Onlar layiqli yaşamağa və müasir dünyanın bütün nemətlərindən istifadə etməyə layiqdirlər. Bu əraziləri bərpa etmək üçün bizim siyasi iradəmiz də, maliyyə resurslarımız da var və biz bunu edəcəyik.

**S u a l** (*Böyük Britaniyanın «Teleqraf» qəzeti*): **Bu qorxunc soyqırımını anım günündə bizimlə görüşdüyünüzə görə təşəkkür edirəm. Sizcə davamlı sülhü təmin etmək, gələcəkdə belə soyqırımıların qarşısını almaq olarmı və Azərbaycanın belə bir səmimi niyyəti varmı ki, gələcəkdə davamlı sülhün tərəfdarı olacaq?**

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Əlbəttə, biz davamlı sülhə nail olmaq istəyirik. Bu, düşmənçilik səhifəsini çevirmək üçün yeganə yoldur. Bunu görmək üçün mən sizi 10 noyabr Bəyanatı ilə tanış olmağa dəvət edirəm. Mən, Rusiya Prezidenti və Ermənistanın baş naziri ona imza atmışıq. Erməni tərəfi bizə qoşunların çıxarılması tarixini verən kimi, biz müharibəni dayandırdıq. Müharibənin ilk günündən mən hər bir müsahibəmdə və bəyanatımda onu vurğulayırdım ki, Ermənistanın baş naziri şəxsən özü, onun hər hansı bir məmuru deyil, özü bizə Füzuli, Şuşa, Cəbrayıl və digər rayonlarımızdan qoşunların çıxarılmasının tarixini verən kimi, biz müharibəni dayandıracağıq. Yəni biz bunu sülh yolu ilə edə biləriksə, müharibə dayanacaq.

Biz münaqişənin başa çatdırılması üçün 30 il gözləmişik. Bizim niyyətimiz hər zaman aydın və səmimi

olub. Ermənistan ən azı müəyyən bir əlamətlər nümayiş etdirirdi ki, münaqişə dinc yolla həll oluna bilər, biz bu danışıqlarda iştirak edirdik. Ancaq biz dərk edəndə ki, Ermənistan hökuməti bizə heç bir santimetr torpağı belə, geri qaytarmaq niyyətində deyil və iyul, avqust aylarında bizə qarşı bir sıra hərbi təxribatlar törədildi, sonra da sentyabr ayındakı təxribat – biz təbii ki, adekvat cavab verməli olduq. Ona görə də bu sual veriləndə ki, davamlı sülh necə ola bilər, bu, yalnız imzalanmış 10 noyabr Bəyanatına sadiqlik nümayiş etdirməklə olar. Həmin sənəd Ermənistanın baş naziri tərəfindən imzalanıb: Ağdamın bir hissəsi, Kəlbəcər və Laçın boşaldılacaq. Biz müharibəni dərhal dayandırdıq. Mən öz sözümə əməl etdim. Ancaq bunu hər kəs çox gözəl anlayır ki, biz müharibəni davam etdirsəydik, Ermənistan üçün nəticələr daha ağır və acınacaqlı ola bilərdi. Ancaq biz istəmədik ki, daha artıq itkimiz və qurbanlar olsun və bunu nümayiş etdirdik. Bu gün biz onu müzakirə edirik ki, bölgədə davamlı, dayanıqlı sülh və təhlükəsizlik olsun. Bunun yeganə yolu isə əməkdaşlıqdır. Bizim məqsədimiz artıq üçtərəfli qaydada – Ermənistan və Rusiya ilə birlikdə kommunikasiyaların bərpası, Zəngəzur dəhlizinin yaradılması və nəqliyyat baxımından bütün maneələri aradan qaldırmaqdır. Bu, baş tutsa, burada Ermənistan da mənfəət əldə edəcək, onlar sülhün xeyrini görəcəklər. Daha bir şərtimiz, sülh üçün şərt ondan ibarətdir ki, Ermənistanın siyasi dairələri anlamalıdırlar ki, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır. Biz hər hansı bir

təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır. 10 noyabr Bəyanatı Ermənistan tərəfindən tam icra olunmalıdır və sülh tədricən addım-addım regiona gələcək.

Daha bir məsələni qeyd edə bilərəm. Hazırda bizim azad etdiyimiz şərqi Zəngəzur istiqamətində, Zəngilanla sərhəddə Azərbaycanın ordusu yoxdur. Orada Azərbaycanın Dövlət Sərhəd Xidməti vardır. Baxın, orada hər hansı erməni mülki əhali və Azərbaycan sərhədçiləri arasında heç bir gərginlik yoxdur. Dinc həyat mövcuddur. Biz sərhədə gəldik, sərhədə yerləşdik, sərhədi keçmədik. İndi bəzi kəndlərin bir hissəsi bizim əraziyə düşür, orada erməni silahlı qüvvələri yoxdur. Ermənistanın heç dövlət sərhəd xidməti yox idi, çünki sizə deyə bilərəm ki, Ermənistanın Türkiyə və İranla sərhədi rus qoşunları tərəfindən qorunur. Yəni biz öz sərhədimizdə dayanmışıq. Biz erməni əhalisinə qarşı hər hansı bir zərərli addımlar atmırıq. Əksinə, 20 kilometr uzunluqda olan bir yol, hansı ki, erməni şəhərlərini birləşdirir, Azərbaycan ərazisindən keçir. Biz bunun üçün imkan yaradırıq. Hətta böyük bir plakat da asmışıq orada ki, Azərbaycana xoş gəlmisiniz. Mən anlamıram, bu nəyə görə Ermənistanda hər hansı bir qıcıq doğurur?! Sözün açığı, mən bunu anlamıram. Çünki orada hərəkət edən nəqliyyat vasitələri, o insanlar görməlidirlər ki, onlar Azərbaycana daxil olur və Azərbaycan ərazisindən rahat istifadə edirlər və heç bir problem yoxdur. Ona görə də biz dayanıqlı sülh üçün bundan da artıq hər

hansı bir nailiyyətə imza atmalı deyilik. Biz özümüzə məxsus olanı qaytardıq və nümayiş etdirdik ki, bizim sözümüz və əməlimiz eyni dəyərə malikdir.

S u a l (*Türkiyənin CNN televiziya kanalı*): **Bu gün mühüm bir tarixin ildönümüdür. Xocalı soyqırımı törədilərkən, Qarabağ müharibəsində dinc insanlar öldürülərkən bir çox ölkələr susdu. Burada faciə yaşanarkən dünyanın susması ilə bağlı fikirlərinizi bilmək istəyirəm. İkinci sualım isə belədir: Qarabağda hazırda hansı işlər görülür? Otuz il əvvəl torpaqlarını tərk etmək məcburiyyətində qalan insanlar gözləyirlər ki, öz yurdlarına qayıdacaqlar. Bununla bağlı tarix müəyyənləşibmi? Bir «Yol Xəritəsi», plan hazırlanıbmı? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Siz tam haqlısınız. Xocalı soyqırımı törədiləndə dünya susmuşdu. Bunun səbəblərindən biri yəqin o idi ki, o vaxt məlumat qıtlığı var idi. Müharibə ilə bağlı məlumat birtərəfli idi. Ermənistan öz təbliğatını işə salmışdı. Azərbaycan tərəfi isə tamamilə aciz bir vəziyyətdə idi. Çünki o vaxt bizim dövlətçilik əsaslarımız yox idi. O vaxt Azərbaycan idarəolunmaz vəziyyətdə idi. Ovaxtkı Azərbaycan indiki Ermənistanı xatırladır – səriştəsiz idarəçilik, böhranlı vəziyyət, orduda nizam-intizamın olmaması. Ordu faktiki olaraq, hakimiyyətin tabeliyindən çıxmışdı. Eyni mənzərəni biz bu gün Ermənistanda görürük. Bizim o vaxt imkanlarımız çox məhdud idi. Bu bir səbəb idi. Digər səbəb o idi ki, dünya bunu görmək istəmirdi, çünki bu – biz bunu sonra anladıq – müəyyən dərəcədə mövcud stereotiplərin əleyhinə olan bir mənzərə idi. Çünki Birinci Qarabağ müharibəsi

başlayanda, demək olar, əksər ölkələrdə belə bir təsəvvür var idi ki, Ermənistan haqlıdır, Azərbaycan haqsızdır. Ərazi bütövlüyü məsələləri kənara qoyulmuşdu. Ancaq xalqların öz müqəddəratını təyinetmə məsələsi ön plana çıxmışdı. Halbuki heç kim sual vermirdi ki, axı erməni xalqı öz müqəddəratını müəyyən edib. Onların müstəqil Ermənistan dövləti var. Nə üçün tarixi Azərbaycan torpağında ikinci Ermənistan dövləti yaradılmalıdır?! Heç kim buna cavab verə bilmədi. Ona görə bu stereotiplər uzun illər davam etdi. Uzun illər ərzində bizə qarşı ədalətsizlik tətbiq olunurdu. Baxın, Sovetlər Birliyi dağılandan sonra Amerika Konqresi azadlığa dəstək aktı qəbul etmişdi. Bu qanun bütün keçmiş müttəfiq respublikalara yardım məqsədilə qəbul edilmişdi. Azərbaycanı oradan çıxartdılar. Kim çıxartdı? Erməni lobbisinin nümayəndələri. Onların bir çoxu indi də yüksək vəzifələrdədir. Səbəb o idi ki, guya Azərbaycan Ermənistanı blokadaya alıb. Necə almışıq ki, bizim torpaqlarımız işğal altına düşüb?! Ancaq bizə qarşı sanksiyalar tətbiq olundu. Bu günə qədər o sanksiya hələ də qüvvədədir. Onun nömrəsi də var – 907-ci düzəliş. Azadlığa dəstək aktının 907-ci düzəlişi bizə sanksiyalar tətbiq edir. Bu qədər ədalətsizlik olarmı? Sadəcə olaraq, o vaxt hakimiyyətdə olanlar buna qarşı heç bir addım ata bilmədilər. Uzun illər lazım oldu ki, biz dünyanın fikrini dəyişdirə bilək, həqiqətləri təqdim edə bilək. Açıq-aydın olan həqiqətləri təsdiq etmək üçün, onları sübut etmək üçün görün biz nə qədər səy göstərdik. Stereotip isə belə idi ki, Ermənistan daim haqlıdır. Nə etsə də yenə də onlara haqq qazandırırdılar. Baxın, son bir-

iki il ərzində Ermənistanda nə qədər müxalifət lideri həbs edilib. Nə qədər insan öz hüquqlarından məhrum edilib.

Hətta siyasi qətllər də baş verib. Hansısa bir beynəlxalq təşkilat onları qınadımı? Yox. Onlara hər şey etmək mümkündür. Biz isə haqlı olduğumuzu döyüşərək sübut etməyə çalışırdıq və buna nail olduq. Sizin bu gün Azərbaycanda olmağınız, bizim sözümüzü dünyaya çatdırmağınız, əlbəttə ki, haqq-ədalətin bərqərar olmasına böyük töhfə verir.

O ki qaldı ikinci sualınıza, bizim soydaşlarımız öz torpaqlarına nə vaxt qayıda bilərlər? Bilirsiniz, mən özüm-özümə bəlkə hər gün eyni sualı verirəm. Çünki mən də istəyirəm ki, nə qədər mümkünsə qısa müddət ərzində biz buna nail olaq. Amma bunun üçün kompleks tədbirlər görülməlidir. Bu barədə mən artıq demişəm. Minalardan təmizləmə prosesi başa çatandan sonra və artıq bununla paralel olaraq, biz bu işləri başlayırıq. Bu yaxınlarda «ağıllı kənd» layihəsi artıq gerçəkləşməyə başlayıbdır. Zəngilan rayonunun üç kəndində – Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihə həyata keçiriləcək. Mən təlimat vermişəm ki, bu ilin sonuna qədər layihə tam başa çatsın. Yəni orada təqribən 1000-ə yaxın insan yerləşəcək. Bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və insanlar oraya qayıdacaqlar. Belə pilot layihələr çox ola bilər. Biz indi onun üzərində işləyirik.

O ki qaldı böyük şəhərlərə qayıdışa, əlbəttə ki, şəhərlərin baş planları tərtib edilməlidir. Misal üçün, Ağdam şəhəri. Müharibədən əvvəl orada təqribən 40 minə yaxın insan yaşayırdı. İndi əhalinin sayı artıb,

olub 50 mindən çox. Biz 50 minlik, bəlkə də 70 minlik bir şəhər planlaşdırmalıyıq, infrastruktur yaratmalıyıq. Ondan sonra binalar inşa edilməlidir, o cümlədən məktəblər, xəstəxanalar. Yəni bu, böyük bir zaman tələb edir. Yenə də deyirəm, bizim yarışacağımız əsas tərəf-müqabili zamandır. Çünki vəsait də var. Bütün gücləri də səfərbər etmişik. Amma zaman, əlbəttə ki, öz haqqını diktə edir. Mən hansısa bir tarix vermək istəməzdim. Halbuki mənim fikrimdə tarixlər var, amma vaxtından əvvəl insanları sevindirmək, bəzilərini bəlkə də həyəcanlandırmaq istəmirəm. Amma inanın ki, maksimum qısa müddət ərzində mərhələli yollarla biz insanlarımızı o bölgələrə qaytaracağıq. Eyni zamanda, hazırda azad edilmiş bütün ərazilərdə ilk növbədə, bərpa ediləcək kəndlərin siyahısı tutulur. Biz bu məsələ üzərində də fəal çalışırıq.

**Sual** (*Türkiyənin Qlobal Jurnalistlər Şurasının rəhbəri*): **Cənab Prezident, əvvəlcə, təşəkkürümüzü bildiririk. Burada bizi qəbul etdiniz. Türkiyənin Qlobal Jurnalistlər Şurasının 40 ölkədə nümayəndəliyi vardır. Azərbaycan da bunlardan biridir. Türkiyədə bütün şəhərlərdə nümayəndəsi olan, Ankarada Baş Qərargahı, İstanbulda ofisi olan bir təşkilatın rəhbəri olaraq, buraya xarici mətbuat nümayəndələri, xarici jurnalistlərlə birlikdə gəldik. Sizə təşəkkür plaketimiz vardır. Onu Sizə təqdim edəcəklər. Sualıma gəldikdə, Siz dediyiniz kimi, beynəlxalq ictimaiyyətin ciddi əleyhinə olduğu 44 günlük Vətən müharibəsini Müzəffər Ali Baş Komandan kimi, uğurla yekunlaşdırdınız. Bununla bağlı Sizi təbrik edirik. Təbii ki, bundan sonrakı proses mühüm əhəmiyyət kəsb edir. Müharibə**

**başa çatıb. Amma beynəlxalq ictimaiyyətdə belə bir qənaət var – Dağlıq Qarabağın statusu tam olaraq müəyyənləşmədən bu müharibə heç vaxt bitməz. Sizə görə bu müharibə həqiqətən, yekunlaşıbmı, başa çatıbmı? Bundan sonra iki ölkə, iki xalq sülh şəraitində qonşuluq münasibətləri ilə həyatlarına davam edəcəklərmi? Bundan sonra proseslər necə olacaq? Bu, sualımın bir hissəsi. İkincisi, bildiyimiz kimi, Rusiya–Türkiyə Birgə Monitorinq Mərkəzi yaradılıb. Bu Mərkəz nə işlə məşğul olur, hansı işləri görür? Bu da maraqlıdır. Bu Mərkəzə funksiya verildimi? Hansı vəzifələri öhdəsinə götürdü? Türkiyənin 44 günlük müharibədəki rolunu bilirik. Öhdəsinə götürdüyü vəzifələri bilirik. Amma sülhdən sonra Türkiyənin missiyası nə olacaq? Bununla bağlı məlumat verə bilərsinizmi? Çox təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.**

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. İlk növbədə, statusla bağlı sualınıza cavab vermək istərdim. Mən bu haqda artıq demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi başa çatıb. Azərbaycan bu münaqişənin bir tərəfi idi. Biz bu fikri açıq-aydın ifadə edirik ki, Dağlıq Qarabağ münaqişəsi artıq həll olunub. Azərbaycan bunu həll edib. Otuz il davam edən danışıqlar heç bir nəticə vermədi. Minsk qrupunun fəaliyyəti olsa da, nəticəsi sıfıra bərabər oldu. Son iki il ərzində faktiki olaraq, Minsk qrupunun həmsədrləri özləri də bilmirdilər ki, nə işlə məşğul olsunlar. Çünki Ermənistanın baş nazirinin yersiz və çox təhlükəli bəyanatları onların fəaliyyətini də faktiki olaraq, iflic etmişdi, mənasız etmişdi. Əgər Ermənistanın baş naziri deyir ki, «Qarabağ Ermənistandır və

nöqtə», ondan sonra hansı proses ola bilər, hansı danışıqlardan söhbət gedə bilər? Bu əslində Minsk qrupunun həmsədrlərini də çox çətin vəziyyətə saldı. Çünki onlar da buna hər hansı bir reaksiya verməli idilər. Faktiki olaraq, son iki il ərzində danışıqlar aparılmırdı. Yəni Azərbaycan bu məsələni təkbaşına həll etdi. Dağlıq Qarabağ münaqişəsi həll olundu. Noyabrın 10-da imzalanmış Bəyanat bunu təsdiqləyir.

O ki qaldı statusa, mən öz çıxışlarımda statusun ünvanını göstərdim. Bir daha o məsələyə qayıtmaq istəmirəm. Status haradadır, onu hər kəs bilir. Hesab edirəm ki, Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Çünki Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil. Onları bu günə salan səbəblərdən biri də məhz o idi. Xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir. Onun bir hissəsində erməni xalqı yaşayır. Biz buna etiraz etmirik. Baxmayaraq ki, erməni əhalisi ora XIX əsrin əvvəllərində köçürülmüşdür. Biz etiraz etmirik. Bizim başqa yerlərimizdə də erməni əhalisi yaşayır və heç bir problem yaşanmır. Ona görə statusla bağlı hesab edirəm ki, əgər kimsə bu gün bu məsələni qaldırırsa, sülhə yox, qarşıdurmaya daha çox

xidmət göstərir. Bundan sonra Azərbaycan və erməni xalqlarının birgə yaşaması ilə bağlı da bizdə aydın təsəvvür vardır. Mən bunu müharibə dövründə də dəfələrlə demişəm. Əfsuslar olsun ki, müharibə dövründə biz Ermənistan rəhbərliyindən buna oxşar bəyanatlar eşitməmişik. Əksinə, ədavətlə, nifrətlə dolu açıqlamalar verilirdi. Mən isə deyirdim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanda minlərlə erməni yaşayır. Müharibə dövründə erməni əsirlərlə bizim davranmağımız bunu bir daha göstərir. Mən sizə bir misal gətirim. Azad edilmiş bir kənddə iki yaşlı insan yiyəsiz qalmışdı. Yəni oradan qaçan «qəhrəman» erməni əsgərləri onları qoyub qaçmışdılar. Bir qadın idi, bir də kişi. Onların yaşı çox idi. Onları biz gətirdik, xəstəxanaya yerləşdirdik. Ondan sonra da Ermənistan tərəfi ilə əlaqə saxladıq ki, biz dövlət sərhədində onları təhvil vermək istəyirik. Biz onları sərhədə gətirəndə onlar yaşlı qadını qəbul etdilər, yaşlı kişini qəbul etmədilər. Dedilər ki, bu, artıq xəstədir. Bizim də buna baxmağa imkanımız yoxdur. Bunun heç bir qohumu yoxdur. Əgər biz bunu qəbul etsək, buna kim baxacaq? Baxın, bu əxlaqsızlığın dərəcəsi varmı, yoxsa yox? Biz nə qədər səy göstərsək də – Qırmızı Xaç da bunun şahididir, biz bunu Qırmızı Xaçın iştirakı ilə edirdik – ondan imtina etdilər. O yaşlı kişi bizdə qaldı. Qırmızı Xaç onu bizim köməyimizlə xəstəxanaya yerləşdirdi. Bütün səylərə baxmayaraq, bir müddətdən sonra o, rəhmətə getdi. Biz bunu da edirdik. Amma onların cavabı nə oldu?! Ona görə biz bu gün də bəyan edirik

və mən Prezident kimi, bunu deyirəm, bizim erməni xalqı ilə birgə yaşamağımızın böyük tarixi vardır. Həm Ermənistanda, həm Azərbaycanda, həm başqa ölkələrdə. Misal üçün, Gürcüstanda elə kəndlər var ki, orada azərbaycanlılar və ermənilər bir kənddə yaşayırlar. Onların arasında heç bir ixtilaf yoxdur. Rusiyada, Ukraynada, Avropada. Bizim mövqemiz bundan ibarətdir. Ancaq bu, birtərəfli məsələ deyil. Erməni xalqı da buna hazır olmalıdır. Əfsuslar olsun ki, erməni xalqının beynini o qədər zəhərləyiblər ki, onların bu xəstəlikdən xilas olmaları üçün gərək daha böyük səylər göstərilsin.

Rusiya–Türkiyə Monitorinq Mərkəzinin fəaliyyətinə gəldikdə deyə bilərəm ki, bu da müəyyən mənada noyabrın 10-da imzalanmış Bəyanatda öz əksini tapıb. Orada dəqiq göstərilmirdi ki, bu Rusiya–Türkiyə Monitorinq Mərkəzi olacaq. Amma biz bu bəyanatı razılaşdıranda bunu müəyyən etmişdik. Azərbaycan öz vəsaiti hesabına bu Monitorinq Mərkəzini Ağdam rayonunun Mərzili kəndinin yaxınlığında yaratdı. Bütün şərait yaradıldı.

Bildiyiniz kimi, Monitorinq Mərkəzi fəaliyyət göstərir və bunun əsas məqsədi postmüharibə dövründə nəzarət etmək, pilotsuz uçuş aparatlarından da istifadə edərək, monitorinq aparmaqdır ki, bu münaqişə zonasında hər hansı bir qarşıdurma olmasın. Əgər olarsa, bunu kim törədib, təşəbbüskar kimdir, günahkar kimdir, bunu təsbit etməkdir. Bu günə qədər – əgər dediyim o diversiya qrupunun Azərbaycana keçməsini istisna etsək – hər hansı bir ciddi qarşıdurma olmayıbdır. Hesab edirəm ki, bu

Monitorinq Mərkəzi postmüharibə dövrü üçün çox önəmli bir alət olaraq fəaliyyət göstərəcək.

Növbəti sualınız Türkiyə tərəfinin fəaliyyəti ilə bağlıdır. Dediyiniz kimi, Türkiyənin missiyası nə olacaq? Türkiyə müharibənin ilk günlərindən çox müsbət davranış göstərdi. Sülhə, sabitliyə hesablanmış davranış. İlk günlərdən Azərbaycanın haqq işinə Türkiyə öz dəstəyini göstərdi. Əziz qardaşım hörmətli Prezident ilk günlərdən çox dəqiq açıqlamalar verdi. Digər vəzifəli şəxslər də – Müdafiə naziri, Xarici İşlər naziri, digər nazirlər, Türkiyə Böyük Millət Məclisinin Sədri. Bütün bu açıqlamalar, bizə verilən siyasi və mənəvi dəstək həm bizi gücləndirdi, həm də bir çoxları üçün çox ciddi mesaj oldu. Müharibədən sonra da Türkiyə çox müsbət münasibət göstərir. Hətta dünən Türkiyənin rəsmi şəxsləri Ermənistanda olan vəziyyətlə bağlı açıqlamalar verdilər. Bu gün Azərbaycan, Ermənistan və Rusiya arasında Baş nazirlərin müavinləri səviyyəsində aparılan görüşlər də Türkiyə tərəfinə bəllidir. Çünki bu görüşlər bütün bölgə üçün əhəmiyyət daşıyır. Həm Türkiyə, həm İran, həm gələcəkdə belə bir istək olarsa, Gürcüstan ümumi platformaya qoşula bilər. Türkiyə bu gün dünya miqyasında güc mərkəzi kimi, bütün bölgələrdə, o cümlədən bizim bölgəmizdə çox müsbət rol oynayır və bu, bölgənin sabitliyi üçün çox önəmlidir.

**S u a l** (*Rusiyanın RİA Novosti agentliyi*): **Hər vaxtınız xeyir, cənab Prezident. Bu günlərdə biz Laçın rayonunda olduq. Şəxsən mən ilk dəfə idi ki, orada olurdum. İlk baxışda, əlbəttə, gözəl yerlərdir və başa düşürük ki, oranın böyük potensialı vardır. Lakin orada olarkən**

**başa düşdük ki, bu yerlərin dirçəldilməsi üçün hələ çox iş görülməlidir. Əlbəttə, müharibədən sonra bu ərazilərin minalardan təmizlənməsi prosesi bununla birbaşa bağlıdır. Bəlkə də bu rəqəmlər artıq səsləndirilib, ola bilsin yeni məlumatlar vardır. Hələ nə qədər ərazini minalardan təmizləmək lazımdır? Siz hansı müddətləri müəyyən edirsiniz? Rusiya mətbuatının nümayəndəsi kimi, bilmək istərdim, bu ərazilərdə infrastrukturun bərpası prosesində iştirak edə biləcək Rusiya şirkətləri ilə danışıqlar aparılırmı və əgər aparılırsa, hansı şirkətlərlə?**

**İ l h a m  Ə l i y e v:** Ərazilərin minalardan təmizlənməsi məsələsində biz hələ yolun başlanğıcındayıq. Biz hələ cəmi bir neçə min hektar ərazini təmizləmişik. Mən yeni hərbi bölmələrin, Azərbaycan Müdafiə Nazirliyinin yeni mühəndis-istehkamçı batalyonlarının formalaşdırılması barədə göstərişlər vermişəm. Bu bölmələr artıq formalaşıb. Bu yaxınlarda biz Türkiyədən müasir texnika almışıq, o, artıq gətirilib. Bu texnika bizim işimizi xeyli asanlaşdıracaq. Bununla paralel olaraq, mən yaxın vaxtlarda Minatəmizləmə üzrə Dövlət Agentliyinin yaradılması barədə sərəncam imzalamışam.

Bundan əvvəl bizdə mövcud olan, ANAMA adlanan qurumun statusu çox qeyri-müəyyən idi. O, vaxtilə işğaldan azad edilmiş ərazilərin bərpası üzrə mövcud olmuş komissiyanın nəzdində yaradılmışdı. Bu işi gücləndirmək üçün biz dövlət qurumu yaratdıq, o, artıq formalaşıb. Agentliyin səmərəli işləməsi üçün biz bu ilin investisiya proqramında təqribən 100 milyon manat ayıracağıq. O cümlədən ən müasir ava-

danlıq, distant xarakterli robotlar və mina təmizləyən maşınlar alınacaq. Yəni biz bu işlə maksimum məşğul olmağa çalışacağıq. Birinci istiqamət Müdafiə Nazirliyi, ikinci istiqamət Minatəmizləmə Agentliyidir. Bundan əlavə, müharibə başa çatandan dərhal sonra ərazilərin minalardan təmizlənməsində iştirak etmək və bizim istehkamçılara treninqlər keçirmək üçün Türkiyə Müdafiə Nazirliyindən 100-dən çox mütəxəssis ezam edilibdir. Ağdam rayonunun ərazisinin minalardan təmizlənməsində Rusiya Fövqəladə Hallar Nazirliyinin bir qrupu da iştirak edir. Rusiya Fövqəladə Hallar Nazirliyi qrupunun əsas fəaliyyəti rusiyalı sülhməramlıların məsuliyyət zonası ilə bağlıdır, lakin onlar burada da iştirak edirlər. Hazırda biz bu istiqamətdə təcrübəyə malik olan bir neçə şirkətlə danışıqlar aparırıq, ancaq bu danışıqlar hələ başa çatmayıb. Orada razılaşmalar gedir. Lakin biz bütün imkanlardan maksimum istifadə edəcəyik. Yeri gəlmişkən, agentliyin rəhbəri vəzifəsinə təyin edilmiş şəxsə də demişəm ki, biz istəyirik bu işdə Azərbaycan şirkətləri də iştirak etsin, çünki bu iş, təəssüf ki, bir ilin işi deyil. Minalardan təmizlənməli olan ərazi kifayət qədər böyükdür. Buna görə yerli şirkətlər də bu işə qoşulmalıdır.

Metodologiyaya gəldikdə, burada metodologiya vardır. İlk növbədə, minalardan haranın və necə təmizlənməli olması barədə beynəlxalq təcrübə vardır. Buraya kommunikasiyalar, yaşayış məntəqələri və kənd təsərrüfatı fəaliyyəti üçün yerlər aiddir. Yeri gəlmişkən deməliyəm ki, biz işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı fəaliyyətinə artıq baş-

lamışıq, 7000 hektardan çox ərazidə payızlıq buğda əkilib. Bunun üçün əvvəlcə ərazi minalardan təmizlənib. Belə ki, biz geniş beynəlxalq əməkdaşlığa hazırıq. Mən bilirəm ki, hazırda müxtəlif şirkətlərdən çoxlu təkliflər daxil olur. Lakin bir sıra başqa məsələlərdə olduğu kimi, burada da iki əsas amil var – keyfiyyət və qiymət. Bu iki amil birlikdə bizim bu və ya digər şirkətə üstünlük verməyimiz üçün əsas şərt olacaq.

Bərpa işində Rusiya şirkətlərinin iştirakı barədə digər sualınıza gəldikdə isə, bu barədə mən artıq bəyanat vermişəm. Biz dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Rusiya və Azərbaycan dost ölkələrdir. Buna görə təbii ki, Rusiya şirkətləri cəlb ediləcək. Fikrimcə, artıq onlar özləri maraq göstərə bilərlər. Biz müəyyən iş növləri barədə müxtəlif ölkələrdən sifarişlər alırıq. Bu, şəhərlərin planlaşdırılmasına, obyektlərin, o cümlədən infrastruktur obyektlərinin, yolların, körpülərin, elektrik stansiyalarının tikintisi ilə bağlıdır. İşin həcmi çox böyükdür. 10 min kvadratkilometrdən çox ərazi azad edilib. Buna görə düşünürəm ki, Azərbaycanın bütün dostları üçün kifayət qədər iş vardır.

**S u a l** (*İctimai Televiziya*): **Cənab Prezident, sentyabrın 27-də Ermənistanın növbəti təcavüz cəhdinə cavab olaraq, Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ordumuzun parlaq qələbəsi ilə başa çatdı. Azərbaycan müharibədən sonra işğaldan azad olunmuş ərazilərinin sürətli təmir-bərpa işləri ilə məşğuldur və yeni çoxtərəfli regional əməkdaşlıq platformaları üzərində işləyir. Müharibədən sonra regionun inkişaf perspektiv-**

**lərini necə qiymətləndirirsiniz və bu, ölkəmizə, region dövlətlərinə necə öz töhfəsini verəcək?**

**İlham Əliyev:** Mən vəziyyəti çox müsbət qiymətləndirirəm. Hesab edirəm ki, regionun gələcək inkişafı üçün bu gün nadir imkanlar yaranıb. Çünki bir daha qeyd etmək istəyirəm, biz hesab edirik və bizim bir çox tərəfdaşlarımız hesab edirlər ki, müharibə başa çatıb və biz artıq kitabın o səhifəsini bağlamalıyıq, gələcəyə baxmalıyıq. Nikbinliyə səbəb olan digər amil odur ki, qonşularımız da bizim fikirlərimizi bölüşürlər. Regionun gələcək inkişafı, inteqrasiya layihələrinin icrası ilə bağlı bizim aramızda fikir ayrılığı yoxdur. Mən deyə bilərəm ki, Türkiyə, Rusiya, İran rəhbərlərilə bu məsələ ilə bağlı mənim bir çox söhbətlərim olub, Xarici İşlər nazirləri səviyyəsində, Baş nazirlərin müavinləri səviyyəsində məsləhətləşmələr, təmaslar olub və biz faktiki olaraq, tam yekdil fikir sərgiləyirik ki, bu imkandan maksimum səmərə ilə istifadə etməliyik. Çünki postmüharibə dövrü doğrudan da yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır. Biz əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran, Ermənistanın maraqlarına cavab vermir, bu, qonşu ölkələrin maraqlarına da cavab verir. Yəni Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Əgər bu müsbət meyillər üstünlük təşkil edərsə, icra edilən hər bir layihə özündən sonra digər layihəni də gətirib çıxaracaq. Mən burada bizim enerji sektorundakı fəaliyyətimizdən misal gətirə bilə-

rəm. Biz birinci addımı atanda bəlkə də təsəvvür etmirdik ki, bu gün nə qədər böyük layihələr icra edəcəyik. Birinci neft kəməri – Azərbaycanı, Xəzər dənizini Qara dənizlə birləşdirən, 1999-cu ildə istismara verilmiş Bakı–Supsa kəməri görün nəyə gətirib çıxardı. Ondan sonra neçə layihə icra edildi. Sərmayə qoyuluşu, yeni kəşfiyyatlar, eyni zamanda, «Cənub Qaz Dəhlizi». Bu layihənin icrası ilə bağlı olan məsələlərdə artıq 7 ölkə birləşib və indi bu özlüyündə yeni bir əməkdaşlıq formatı yaradır. Eyni mənzərəni biz burada da görə bilərik. Ancaq bir şərtlə ki, burada hər hansı gizli məqamlar, fikirlər olmasın, səmimiyyət, qarşılıqlı inam və maraqların bölgüsü olsun. Çünki bütün ölkələrin maraqları təmin edilməlidir. Məhz o təqdirdə bu vəziyyətdən biz maksimum səmərə ilə istifadə edə bilərik. Bir daha demək istəyirəm ki, Türkiyə, Rusiya, İran – mənim bu ölkələrin dövlət başçıları ilə görüşlərim və fikir mübadiləsi deməyə əsas verir ki, biz bir mövqedəyik. Ermənistan sözdə hələ ki, bu mövqedədir. Çünki gedən məsləhətləşmələrdə bəzi fikirlər ortalığa atır ki, onlar qəbul edilən deyil. Ona görə Ermənistanda da əgər bu məsələ ilə bağlı eyni yanaşma olarsa, onda, əlbəttə, Ermənistan da gedən proseslərin tərkib hissəsi ola bilər. Yox, əgər olmasa, onsuz da biz planlaşdırdığımız məsələləri həll edəcəyik. Heç kim bizi dayandıra bilməz. Yaxın tarix də göstərir ki, nəyi hədəfləmişiksə, ona da çatmışıq. Sadəcə olaraq, Ermənistan növbəti dəfə bu tarixi şansı itirə bilər, necə ki, ötən əsrin 90-cı illərində itirib, inanmayıb ki, biz bütün layihələri icra edəcəyik və onlar Ermənistandan yan keçəcək, Ermənistan bir

quruş da mənfəət görməyəcək. İndi də əgər belə fikirdədirlərsə, yenə də eyni aqibətlə üzləşəcəklər. Biz əməkdaşlığa hazırıq və hesab edirik ki, bu əməkdaşlıq bölgədə uzunmüddətli sülhün əsas təminatçısı ola bilər.

**S u a l** (*Yaponiyanın JİJİ PRESS İnformasiya Agentliyi*): **Salam, hörmətli cənab Prezident. Əvvəla, Sizə çox təşəkkür edir və bir daha başsağlığı diləklərimizi bildiririk. Bizim sualımız Xocalı ilə bağlıdır. Otuz il əvvəl orada bir çox insan yaxınlarını itirib. Hazırda azərbaycanlıların oraya geri qayıtması gündəmdədir. Ancaq orada həyatda qalmağı bacaranlarla danışdığımız zaman «Bəli, biz oraya geri qayıtmaq istəyirik, amma orada erməni görmək istəmirik» – deyirlər. Orada Sizcə, ermənilərin və azərbaycanlıların birlikdə yaşamaları mümkündürmü? Bu məsələ ilə bağlı hansı tədbirləri görürsünüz? Təşəkkürlər.**

**İ l h a m  Ə l i y e v:** Mən artıq müəyyən dərəcədə bu suala cavab verdim. Hesab edirəm ki, bu mümkündür. Azərbaycanın əslində siyasəti də, mövqeyi də, xalqımızın düşüncələri də bu fikri təsdiqləyir. Biz əməkdaşlığa açıq olan ölkəyik və Azərbaycanda müxtəlif xalqların nümayəndələri əsrlərboyu bir ailə kimi yaşayırlar. Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Yəni bütün xalqların nümayəndələri bir bayraq altında bir yumruq kimi birləşdi və bu qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı vardır.

O ki qaldı gələcəkdə ermənilərlə birgə yaşamağımıza, mən bir daha demək istəyirəm ki, müxtəlif ölkələrdə bu, baş verir, o cümlədən Azərbaycanda. Bu yaxınlarda mənə verilən məlumata görə, bizim jurnalistlər hətta Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycanda yaşayan bacısını da tapıblar. Baxın, Ermənistanın keçən əsrin 90-cı illərindəki müdafiə naziri azərbaycanlılara qarşı soyqırımının törədilməsində iştirak edib. Onun doğmaca bacısı Azərbaycanda yaşayır. Ona bir söz deyən var? Yoxdur.

Bax, Azərbaycan xalqının əxlaqı budur, mənəvi durumu budur. Biz bundan sonra da buna hazırıq.

Mən tam əminəm ki, Qarabağın bu gün sülhməramlı missiyasının nəzarətində olan torpaqlara da azərbaycanlılar qayıtmalıdırlar və qayıdacaqlar.

Noyabrın 10-da imzalanmış Bəyanatda bu göstərilir. Bəli, bu bir qədər zaman və birgə səylər tələb edəcək. Amma bu qaçılmazdır. O cümlədən biz Xocalıya da qayıdacağıq. Bunun başqa yolu yoxdur. Ermənistan tərəfi də bunu anlamalıdır ki, süni əngəllər yaratmaq istəsə, ancaq özünə zərbə vurmuş olar. Eyni zamanda, mən dediyiniz məsələni də yaxşı başa düşürəm. Müharibənin yaraları sağalmayıb. Xocalı yaraları heç vaxt sağalmayacaq. Biz heç vaxt Xocalı soyqırımını unutmayacağıq, həm qurbanların yaxınları, həm də bütün Azərbaycan xalqı. Müharibənin yaralarının sağalması üçün vaxt lazımdır. Biz bunu başa düşürük və burada heç kimi tələsdirmək istəmirik, heç kimi məcbur etmək istəmirik.

Bizim üçün birinci mərhələdə azad edilmiş torpaqlara vətəndaşlarımızın qayıtmasıdır. Bununla pa-

ralel olaraq – artıq bu suallara mən cavab verdim – uzunmüddətli sülhün təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi məsələləri dayanır. İndi müharibədən heç dörd ay keçməmiş artıq rəsmi şəxslər – Ermənistan və Azərbaycan rəsmi şəxsləri arasında təmaslar qurulur, görüşlər keçirilir, bəzən açıq formatda, bəzən qeyri-rəsmi formatda. Amma bu proses gedir və bu proses müsbət istiqamətdə gedir. Ona görə burada bütün bu həssaslığı başa düşərək, bir daha demək istəyirəm ki, biz istədiyimizə tam nail olmaq üçün müdrik olmalıyıq və bütün addımları vaxtında atmalıyıq. Necə ki, İkinci Qarabağ müharibəsində vaxtında atılmış addımlar səmərəsini verdi.

**S u a l** (*Rusiyanın «Zvezda» və «Bolşaya Aziya» media-holdinqləri*): **Cənab Prezident, mən Rusiya Silahlı Qüvvələrinin «Zvezda» və «Bolşaya Aziya» media-holdinqini təmsil edirəm. «Bolşaya Aziya» media-holdinqinin sualından başlamaq istəyirəm, kifayət qədər sadə sualdır. Siz bütün dünyanın gözü qarşısında nadir presedent yaratdınız. Çünki Siz Qarabağ müharibəsi zamanı mütləq mənada sülhməramlı kimi çıxış etdiniz. Siz 23 dəfə sülh haqqında danışdınız, halbuki digər tərəf bir dəfə də olsun, belə bəyanat vermədi. Siz bundan sonra Ermənistan ilə dövlət səviyyəsində münasibətləri necə qurmaq niyyətindəsiniz? Erməni xalqı ilə yox, məhz bir dövlət olaraq, Ermənistanla, Sizin həqiqətən, dünyanı heyrətləndirən təşəbbüslərinizin davamı kimi.**

**Rusiya Silahlı Qüvvələrinin «Zvezda» media-holdinqinin sualı isə ağır silahlardan, o cümlədən Rusiya istehsalı olan «İsgəndər» əməliyyat-taktiki raketlərdən isti-**

**fadə olunması barədə Ermənistanın rəsmi şəxslərinin heyrətamiz və ziddiyyətli bəyanatları ilə bağlıdır. Bu bəyanatlar Rusiya Müdafiə Nazirliyi tərəfindən təkzib edilib, lakin bununla yanaşı, mən deyərdim ki, Ermənistan ilə həmhüdud olan, öz təhlükəsizliyi və sülh üçün narahat olan bütün dövlətlərin hamısında müəyyən ajiotaj yaradıb. Siz necə hesab edirsiniz, Sizin fikrinizcə, məsuliyyətsiz şəxslərin əlinə keçə biləcək belə silahlara mümkün nəzarət üçün hansı mexanizmlər yaratmaq olardı? Bunun davamı kimi, Rusiya ilə silah sazişləri üzrə gələcək münasibətləri necə təsəvvür edirsiniz? Mümkünsə, bu barədə danışardınız. Diqqətinizə görə təşəkkür edirəm.**

**İlham Əliyev:** Sentyabr–noyabr aylarında baş vermiş hadisələrə belə diqqət ayırdığınıza görə sağ olun. Mən sülh barədə neçə dəfə danışmağımı doğrusu saymamışam, lakin siz saymısınız. Bu o deməkdir ki, siz sualın mahiyyətinə çox diqqətlə varmısınız. Buna görə də cavab vermək mənə asan olacaq. Əslində mən sülh barədə çox danışmışam və dediklərimi bu gün bir daha təkrar etmək istəyirəm. Müharibənin ilk günündən mən deyirdim ki, işğal edilmiş bütün ərazilərdən çıxmaq müddətini bizə təqdim edəcəkləri anda biz dayanmağa hazırıq. Əgər erməni tərəfi mənim sözlərimə qulaq assaydı, o halda onların məğlubiyyəti bu dərəcədə alçaldıcı və ağrılı olmazdı, bu qədər tələfat da olmazdı. Bununla yanaşı, Ermənistan tərəfi baş nazirin şəxsində Prezident Putinin sözlərinə də qulaq asmadı. Mən bu barədə danışa bilərəm, çünki o özü bu barədə şəxsən deyib ki, müharibə dövründə biz dəfələrlə əlaqə saxlamışıq. Mən demə-

liyəm, təbii ki, bizim Ermənistanın baş naziri ilə əlaqəmiz olmayıb və yoxdur. Lakin Prezident Putin vasitəsilə bir növ bir-birimizə müxtəlif mesajlar ötürürdük.

Bildiyimə görə, Rusiya Prezidenti də bu barədə deyib ki, Ermənistanın baş naziri onun sözlərinə qulaq asmayıb və bununla da vəziyyəti o dərəcədə ağırlaşdırıb ki, kapitulyasiya haqqında aktı haradasa, hansısa qaranlıq otaqda imzalamağa məcbur olub. Əgər yadınızdadırsa, o hətta imzalanma mərasimində də yox idi. Buna görə də hər şey Ermənistan rəhbərliyinin və Ermənistan iqtidarının hansı siyasəti seçəcəyindən asılı olacaq. Bizim siyasətimiz həm müharibə dövründə, həm müharibədən sonra birmənalıdır. Mən bu siyasəti qısaca və dürüst ifadə edərək, bu gün də deyirəm ki, bizim hədəfimiz sülhdür. Müharibə bizə lazım deyildi. Bu, məcburi tədbir idi. Bu tədbir bütün otuzillik səmərəsiz danışıqlardan daha effektli oldu. Beləliklə, hər şey Ermənistan rəhbərliyinin müasir reallıqlara düzgün qiymət verməsindən, düzgün nəticə çıxarmasından və revanşist cəhdlərin istisna edilməsindən asılı olacaq. Biz bütün olanları izləyirik, daha da diqqətlə izləyəcəyik. Biz təkcə işğal edilmiş ərazilərdə deyil, həm də Ermənistan ərazilərində vəziyyəti izləyirdik. Biz bütün yerdəyişdirmələri, o cümlədən uzaqmənzilli raketlərin də irəli çıxarılmasını görürdük, bu gün isə daha artıq dərəcədə görürük. Buna görə də mən erməni rəhbərliyinin hiyləgərlik etməsini, bizi aldatmağa çalışmasını məsləhət görmürəm. Bu sadəcə, artıq mümkün deyil. Əgər Ermənistan tərəfindən düzgün

yanaşma olarsa, o halda biz əlaqələrin bundan sonra möhkəmlənməsi planında münasibətləri quracağıq. Əlbəttə ki, əgər hər şey məhz belə, bizim fikirləşdiyimiz kimi gedərsə, hansısa mərhələdə sülh sazişinin də imzalanmasını istisna etmirik. Çünki 10 noyabr tarixli Bəyanat mahiyyətcə elə defakto sülh sazişidir. Tərəflərdən biri digərinə qalib gəlirsə, tərəflərdən biri kapitulyasiya haqqında akt imzalayırsa, sülh sazişlərində daha nə lazımdır? Lakin 10 noyabrda imzalanan sənəd de-fakto elə Ermənistanın tam kapitulyasiyası barədə aktdır. Buna görə də, əlbəttə, biz bu yolla getməyə hazırıq.

Ermənistanın baş nazirinin «İsgəndər» raket kompleksi ilə bağlı bəyanatlarına gəlincə, bu bizdə də sual doğurdu. Mən bu mövzuda istehza ilə danışmaq istəmirəm, Rusiyanın rəsmi şəxsləri, Rusiya parlamentinin üzvləri, ekspertlər arasında da artıq kifayət qədər şərhlər olub ki, raketlərin 10 faizinin partlaması üçün, əlbəttə, çox çalışmaq lazımdır. Biz «İsgəndər» raketlərinin buraxılmasını görməmişik. Buna görə də bu bəyanat dünən bir daha səslənəndə, biz bir də maraqlandıq. Amma yox. Biz bunu görməmişik. Mən deyərdim ki, bu, növbəti ağ yalandır. Belə yalanlar çox olub. Prinsipcə, Ermənistanda indi baş verənlər hansısa tragikomediyanı xatırladır. Orada baş verənləri mən belə xarakterizə edərdim.

Təsəvvür edin, onların təyyarəsi itir. Onlar bilmirlər ki, təyyarələri haradadır. Təyyarə bir istiqamətə uçub, digər istiqamətə uçub, pilotlar gizlənib, təyyarə itib, onlar oturub fikirləşirlər ki, təyyarəni kim qaçırıb və ya oğurlayıb. Sonra Əbu-Dabidə ADEX sər-

gisində Ermənistan stendi heç vaxt olmadığı dərəcədə tərtəmiz idi, orada bir dənə də eksponat yox idi. Bir tərəfdən, onlar orada nə sərgiləyə bilərdilər, axı onların hərbi sənayesi yoxdur. Digər tərəfdən, onların orada stendi olması üçün, necə deyərlər, təlxəklik etmək və kiminsə dalınca qaçmaq nəyə lazım idi? Bütün dünya qarşısında biabır oldular. Hamı öz məhsulunu gətirib, Ermənistan stendində isə hansısa kitabçalar var. Axı bu biabırçılıqdır. Daha sonra bəyanat vermək ki, «İsgəndər» buraxılıb. Bəs o haraya buraxılıb? 10 faiz partlayıb. Axı bu sadəcə olaraq, gülməlidir. Bu gün məhz bu tragikomediya orada baş verənləri xarakterizə edir. Onlar «Skad», «Toçka U» raketlərini yaşayış məntəqələrinə tuşlayırdılar, özü də məqsədyönlü şəkildə, gecə vaxtı yatmış Gəncə şəhərinə. Bütün bunlar izlənilib. Biz təbii ki, bu məlumatı dərhal Rusiya tərəfinə çatdırdıq. Mən Prezident Putinlə söhbət zamanı bu barədə dedim, Rusiya tərəfini erməniləri bundan çəkindirməyə çağırdım. Əks halda, bizim seçimimiz olmayacaq, biz onların şəhərlərini bombalayacağıq. Bizdə hər şey nişan altında idi. Bizim raketlərimiz təkcə Naxçıvan Muxtar Respublikasından deyil, digər regionlardan da rahatlıqla İrəvanadək çatar. Biz bunu hər an nümayiş etdirə bilərik. Buna görə də mənim bu çağırışım artıq bütün qırmızı xətləri keçmiş, azğınlaşmış Ermənistan hərbi-siyasi rəhbərliyini vəziyyətin sağlamdüşüncəli təhlilinə çağırış idi.

Yoxsa biz onları tamamilə məhv edərik. Hesab edirəm ki, Rusiya tərəfinin təsiri özünü göstərdi. Çünki Gəncəyə son zərbələrdən sonra bir daha belə

cəhdlər olmadı. Hərçənd buna qədər onlar müntəzəm hücuma keçirdilər. Yeri gəlmişkən, bundan sonra da həm artilleriya silahlarından, həm də minaatanlardan bizim şəhərlərimizə daim hücum edirdilər. Tərtərə 16, yaxud 18 min bomba düşüb, o cümlədən dəfn mərasiminə hücum ediblər. Yəni dinc əhaliyə maksimum ziyan vurmaq istəyiblər. Görünür, bu onların acizliyinin, zəifliyinin, döyüş meydanında məğlub olmalarının nəticəsi idi. Onlar düşünürdülər ki, bizi bu yolla dayandıracaqlar. Hərçənd mən demişdim ki, öz yaxınlarını itirmiş və ya uçqunların altından çıxmış, tamamilə qan içində olan adamlar deyirdilər ki, yalnız irəli gedin, təki dayanmayın.

Nə etmək, hansı çəkindirmə mexanizmlərindən istifadə etmək lazım olması barədə sualınıza gəldikdə, Ermənistana «İsgəndər» raketləri veriləndə mən bunu Rusiya rəhbərliyinə demişdim. Mən demişdim ki, bu, düzgün addım deyil, bu addım sabitliyin möhkəmləndirilməsinə yönəlməyib, bu bizi heç nədən çəkindirməyəcək. Yeri gəlmişkən, müharibə dövründə də Rusiya tərəfinə «İsgəndər» raketlərini geri almalarını təklif etmişəm. Bəli, demişəm, bu gün də fikrim belədir ki, regionda hadisələrin belə faciəli inkişafının qarşısını ala biləcək yeganə yol bu silahları geri almaq və ermənilərə bir daha pulsuz silah verməməkdir. Mən bunu həmişə deyirəm. Təəssüf ki, belə olub. Müharibədən sonra belə hallar yoxdur. Biz bunu müsbət addım kimi qiymətləndiririk.

Lakin Ermənistanın müdafiə naziri bu yaxınlarda bəyan edib və məncə, Rusiyanın Ermənistandakı səfiri

də deyib ki, Ermənistan ordusunun modernləşdirilməsində Rusiya da iştirak edəcək. Nə üçün? Nə məqsədlə? Mənim sualım əsaslıdır. Mən sizin kanalınız vasitəsilə, bugünkü birbaşa translyasiya vasitəsilə soruşuram: nə üçün? Buna heç bir zərurət yoxdur. Əgər biz sülh, uzunmüddətli sülh istəyiriksə, məsuliyyətsiz adamların əlində belə məhvedici vasitələr olmamalıdır. Hərc-mərclik hökm sürən, ordunun rəhbərliyə tabe olmadığı, onların hərbi çevriliş etdiyi və ya etmədiyi ölkədə bu da tragikomediyanın bir hissəsidir. Axı hərbi çevrilişi ya edirlər, ya da etmirlər. Əllərində meqafonlar tutmuş, küçələrdə gecə çadırları qurmuş, hansısa bomjların yürüşləri tragikomik təsir bağışlayır. Bu sadəcə, biabırçılıqdır. Bütün dünya onlara gülür, həm iqtidara, həm də müxalifətə. Belə adamların əlinə təhlükəli silah vermək olarmı? Buna görə də demək istərdim, elə etmək lazımdır ki, heç kəs üçün təhlükə yaranmasın.

Rusiya Federasiyası ilə gələcək hərbi-texniki əməkdaşlığa gəlincə, bu əməkdaşlığımız planlı xarakter daşıyır. Biz hərbi əməliyyatlar başa çatandan sonra bu mövzunu da Rusiya rəhbərliyi ilə müzakirə etmişik. Ona görə ki, bizim resurslarımız da, döyüş sursatımız da sərf edilib və təbii ki, bu arsenalı müharibədən əvvəlki həddə qədər tamamlamaq zəruridir. Bu istiqamətdə iş aparılır. Bizim əsas hərbi texnikamız Rusiya istehsalı olan texnikadır və Ermənistandan fərqli olaraq, biz heç vaxt şikayətlənməmişik, şikayətlənmək üçün səbəb olmayıb. Rusiyanın hərbi texnikası bəzi göstəricilər üzrə dünyada ən yaxşı texnikalardan biridir. Sadəcə, o, düzgün əllərdə olmalıdır ki, son-

radan əsassız, əslində Ermənistanda hərbi-siyasi böhrana gətirib çıxarmış ittihamlar olmasın.

**S u a l** (*Böyük Britaniyanın «Independent» qəzeti*): **Xocalı soyqırımından 29 il ötür. Azərbaycan müharibədə qalib gəlib. 29 il sonra Azərbaycanın Qarabağla bağlı hədəfi nədir? Əcnəbi əsgərlərin hələ də regionda müşahidəçi olaraq qalacağını düşünürsünüzmü? Təşəkkürlər.**

**İ l h a m Ə l i y e v:** Biz hədəfə çatdıq. Bizim hədəfimiz ərazi bütövlüyümüzün bərpa edilməsi idi, buna nail olduq, hərbi qələbə qazandıq. Torpaqları danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad etdik. Döyüşərək, qan tökərək, şəhidlər verərək ədaləti bərpa etdik. Şəhidlərimizin qanını yerdə qoymadıq. Düşməndən intiqamımızı döyüş meydanında aldıq.

Əcnəbi əsgərlərə gəldikdə, onların Azərbaycan ərazisində fəaliyyət göstərməsi müvəqqəti xarakter daşıyır. Bu əsgərlər xüsusi missiya icra edirlər. Bu, hərbi baza anlamına gəlmir. Rusiyanın sülhməramlı qüvvələri burada sülhməramlı missiyanı icra edirlər, hesab edirəm ki, müvəffəqiyyətlə icra edirlər. Hərdən bir müəyyən problemlər üzə çıxır, bəzi problemlər yaşanır. Amma, ümumiyyətlə, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyəti qənaətbəxş hesab oluna bilər. Onların burada fəaliyyəti beş il müddətinə nəzərdə tutulur. Əgər beş ildən sonra Azərbaycan bu məsələ ilə bağlı fərqli fikir sərgiləsə, əlbəttə, onların da fəaliyyətinə son veriləcəkdir. Eyni zamanda, artıq bu barədə mən öz fikirlərimi bildirdim. Türkiyə–Rusiya Monitorinq Mərkəzinin fəaliyyətə başlaması da çox önəmli addımdır. Bu, bölgəmizin sabitliyini qorumaq

üçün önəmli amildir. Onu da bildirməliyəm ki, bəzən dünyada, eyni zamanda, Azərbaycanda Rusiya sülhməramlı missiyasının fəaliyyəti ilə bağlı o qədər də dəqiq olmayan fərziyyələr irəli sürülür. Onların bu gün Azərbaycan ərazisində olması eyni zamanda, azad edilmiş torpaqlara Azərbaycan əhalisinin qayıtması üçün də müsbət rol oynayacaq. Çünki Ermənistanın diversiya qrupunun azad edilmiş torpaqlara göndərilməsi bunu göstərir. Ona görə onların fəaliyyəti hesab edirəm ki, müsbətdir. Bu fəaliyyət əminəm ki, belə də davam edəcək. Amma yenə də Azərbaycan ərazisində hər hansı bir başqa xarici qüvvələrin yerləşməsi müzakirə mövzusu deyil.

**S u a l** (*RBK telekanalı*): **Salam, cənab Prezident. Mənim sualım insanlarla bağlıdır, amma əlbəttə, Qarabağa aiddir. Üçtərəfli Bəyanat imzalanandan sonrakı xəritəyə baxsaq görərik ki, hazırda şərti olaraq, erməni qüvvələrinin nəzarətində olan torpaqlar, demək olar ki, indi həmin bəyanata əsasən, tamamilə Azərbaycana məxsus olan ərazilərlə əhatə olunub. Bir də ensiz bir yol – Laçın dəhlizi var. Şərti mənada desək, Qarabağ erməniləri həmin dəhlizlə Xankəndiyə və ya onların dediyi kimi, Stepanakertə gedə bilərlər. Hər halda, rusiyalı sülhməramlıların Qarabağ ərazisində olması haçansa başa çatacaq. Sizin fikrinizcə, bu dəhlizdən keçid necə həyata keçiriləcək – insanların harada qeydiyyatda olmasına və ya pasportlarına baxılacaq? Oradan keçib getmək istəyən həmin şərti Qarabağ erməniləri necə keçib gedəcəklər? Ümumiyyətlə, prinsip etibarilə, Siz o insanları öz ətrafınıza necə inteqrasiya**

**etməyə, onlarla necə münasibət qurmağa hazırlaşırsınız?**

**Məsələn, bu yaxınlarda Siz Şuşadakı kilsəyə getdiniz. Ola bilsin ki, Qarabağ ermənilərindən də kimsə həmin kilsədə dua etmək üçün gəlmək istəyəcək. Belə həyati məqamlar ola bilər. Lakin biz də Azərbaycanda küçələrdəki insanlarla ilk dəfə deyil ki, ünsiyyətdə oluruq. Onlar deyirlər ki, bəli, əlbəttə, bu dəfə münaqişədə qələbəyə görə razıdırlar. Lakin bildirirlər ki, tam razı deyillər. Hər halda, Xankəndi və başqa şəhərlər barədə suallar verirlər. Sizin hər hansı gələcək planlarınız varmı? Ümumiyyətlə, gələcəkdə qarşılıqlı münasibətlər necə olacaq? Hər halda, onları necəsə qurmaq lazımdır. Çox sağ olun.**

**İlham Əliyev:** Hazırda mövcud olan vəziyyəti siz çox düzgün təsvir etdiniz. Azərbaycan öz ərazilərinin xeyli hissəsini həm hərbi, həm də sülh yolu ilə qaytarıb. İndi bizim əsas vəzifəmiz həmin ərazilərin bərpa edilməsi, keçmiş köçkünlərin qaytarılması və bu insanların normal həyatının təmin edilməsidir. Bunu şəraitdən, strateji planlardan asılı olaraq mərhələli şəkildə etmək lazımdır. Biz ərazilərin azad edilməsinə də uzun illər boyu gəlmişik. Danışıqlar dövrünə, mənim aparmalı olduğum danışıqlar dövrünə gəldikdə isə, bu danışıqlar prosesinin müxtəlif dövrlərində ümidlər olub. Bizə elə gəlirdi ki, əsas prinsipləri razılaşdıracağıq.

Bu gün Ermənistanda həm iqtidarda, həm də müxalifətdə nə təklif edilməsi, necə təklif edilməsi barədə spekulyasiyalar çoxdur. Ermənistanın siyasi həyatında yanar odun üstünə yağ tökməmək üçün

mən şərhlər etməyəcəyəm. Təkcə onu deyə bilərəm ki, bütün danışıqlar prosesi dövründə Azərbaycanın ərazi bütövlüyü məsələsi heç vaxt müzakirə mövzusu olmayıb. Bu, prinsipial məsələ idi. Həm Ermənistanın danışıqlar apardığım rəhbərləri ilə, həm də ATƏT-in Minsk qrupunda mən bu prinsipial məsələdən danışmışam.

Azərbaycanlıların qaytarılması, ümumiyyətlə, ərazilərin qaytarılması mənim prinsipial mövqem olub. Danışıqlar nə üçün gedirdi? Ona görə ki, erməni tərəfi bununla razılaşırdı. Vəssalam. Onlar bununla razılaşırdı. Əvvəlki iki prezident də razılaşırdı. Ermənistanın indiki rəhbərinə gəldikdə isə, mən hələlik şərhlərdən çəkinirəm. Burada, necə deyərlər, hər şey yadınızdadır. Bəs nə üçün belə olmurdu, ona görə ki, onlar yalan danışırdı, sözdə bir cür deyir, əməldə başqa cür hərəkət edirdilər.

Hər hansı işıq ucu görünəndə ümidlər dərhal təxribatla əvəz olunurdu. Dəfələrlə belə olub. 2000-ci illərin əvvəllərində də, 2014-cü ildə də. Azacıq bir imkan yaranan kimi, dərhal hərbi təxribat törədilirdi. Bir əyani nümunə – ermənilərin helikopteri bizim mövqelərimizə hücum etdi və buna görə vuruldu. Onlar belə bir iddia irəli sürdülər ki, guya Azərbaycan hücum edib. Halbuki bu, hərbi helikopter idi – nə təlim helikopteri, nə də nəqliyyat helikopteri. Bu, «Mi-24» idi. Bundan sonra danışıqlar dayandırıldı. Sonra yeni mərhələ. Sonra 2016-cı ilin aprel müharibəsi. Bu gün Ermənistanın sabiq prezidenti Sarkisyan deyir ki, onlar müharibədə qalib gəliblər. Orijinal qələbədir, onların səngərlərində biz idik. Biz onların

bayrağını çıxarıb, onları Ağdərə, Cəbrayıl və Füzuli rayonlarından qovub və Böyük Mərcanlıya qayıdıb öz bayrağımızı qaldırdıq. Deməli, biz belə uduzmuşuq? Əladır! Bax, nümunəvi erməni istorioqrafiyası budur, mifoloji erməni elmi, o cümlədən və ilk növbədə, tarix elmi budur. Buna görə də 2016-cı ildə biz onlara dərs verdik. Belə deyərdim, bundan sonra bizə vədlər verildi. Bir halda ki, söhbət düşüb, onu da deyim. Bizə vəd verildi ki, onlar bütün ərazilərimizdən rədd olacaqlar. Şəxsən Sarkisyan Rusiyadakı görüşümüzdə belə vədlər vermişdi. O, aprel döyüşlərindən sonra bu ərazilərdən rədd olmaq üçün iki həftə vaxt xahiş etdi. Bəs nəyə görə o vaxt o, Ohanyanı müdafiə naziri vəzifəsindən azad etdi?!

Son məqamda həmin Ohanyan Şuşadan qaçdı. Guya Şuşanı müdafiə etməyə gəlmişdi. Müdafiə edəydi! O orada, bizim torpağımızda doğulub. Bəs nə üçün müdafiə etmədi? Nə üçün qaçdı? İndi mitinqlərdə lovğalanır, nəyə görə lovğalanması aydın deyil. Sarkisyan onu 2016-cı ilin aprelində hərbi qələbəyə görə işdən çıxarmışdı? Sarkisyana möhlət də verildi. O, iki həftə vaxt istəmişdi. Bu hadisə mənim və Prezident Putinin yanında olub. İki həftə keçdi, sonra ya özü təşkil etdi, ya da orada nə isə baş verdi, polis məntəqəsi tutuldu. Buna görə dedi ki, indi bunu edə bilmərəm. İndi vəziyyət gərginləşib, orada terrorçular var, mən terrorçularla vəziyyəti aydınlaşdırmalıyam. Beləliklə, işi 2018-ci ilə qədər uzatdı. Buna görə də heç bir məsələ həll edilmədi. İndi bütün bunları biz özümüz həll etdik. Bir daha demək istəyirəm, bizim gələcək barədə mövqemiz

aydındır. Bu gün biz gələcək barədə düşünməliyik. Bu gün inteqrasiya barədə danışanda biz indi rusiyalı sülhməramlıların yerləşdiyi sahədə inteqrasiyanın istənilən formasına hazırıq. Orada çox adam yaşamır. Ümumiyyətlə, sizə deməliyəm, orada nə qədər insanın yaşaması barədə müxtəlif rəqəmlər olmaması üçün bilin ki, müharibədən əvvəl orada maksimum 60 min nəfər yaşayırdı. Biz bu məlumatları havadan götürməmişik. Biz o cümlədən Azərbaycan peykləri vasitəsilə, obyektiv müşahidə vasitəsilə obyektiv nəzarət məlumatlarını götürmüşük. Axı hər kəs başa düşür ki, bizim üçün Dağlıq Qarabağ məsələsi həmişə bir nömrəli məsələ olub və bu gün də belədir. Ona görə Azərbaycan dövləti operativ kəşfiyyat tədbirləri görməyə, orada nələrin baş verdiyini bilməyə bilərdimi? Biz orada nələr baş verdiyini indi də bilirik. Müharibə vaxtı da bilirdik, müharibədən əvvəl də bilirdik. Əlbəttə, bu bizə o vaxt da kömək edirdi, indi də kömək edir. Buna görə də indi rusiyalı sülhməramlılar tərəfindən əcnəbilərin gizlicə Dağlıq Qarabağa buraxılması ilə bağlı anlaşılmaz hərəkətlər bizi heyrətləndirir. Biz Rusiya tərəfi ilə razılığa gəlmişik ki, əcnəbilər oraya yalnız bizim icazəmizlə daxil ola bilərlər. Lakin razılaşma pozulur. Hələlik bu barədə daha danışmayacağam. Ola bilsin, bu mövzunu bir daha şərh etmək lazım gələcək, lakin bu faktdır. Yəni demək istəyirəm ki, biz praktiki olaraq, kimin oraya gəlməsini və kimin oradan getməsini adbaad bilirik. Buna görə də belə imkanlara malik olduğumuz bugünkü şəraitdə biz, əlbəttə, hər şeyi izləyirik və izləyəcəyik.

İnteqrasiya məsələsinə gəldikdə isə, biz bundan sonra da müxtəlif variantlar təklif etməyə hazırıq. Məsələn, bu gün mən bilirəm ki, su ehtiyatlarının idarə edilməsi məsələsi müzakirə olunur. Bəs bütün bu illər ərzində bu məsələ niyə həll edilmirdi? Nə üçün ərazilərimizi işğal edərək, Sərsəng su anbarından bizə gələn suyu bağlamışdılar? Yaxud nə üçün qış vaxtı suyun qabağını açıb daşqınlar törədir, yayda isə bağlayırdılar ki, bizim kənd sakinləri öz torpaqlarını suvara bilməsinlər. Artıq biz Suqovuşan su anbarını özümüzə qaytarmışıq və bu gün tamam başqa vəziyyət yaranıb. Bəli, bu gün onlar bizdən xahiş edirlər. Buna görə də burada enerji təhlükəsizliyi ilə bağlı məsələlər çox olacaq.

Bütövlükdə, Xankəndinin və hazırda erməni əhalinin yaşadığı digər ərazilərin inteqrasiyası labüd prosesdir. Tarixi perspektivi də başa düşmək və qəbul etmək lazımdır. Yeri gəlmişkən, mən bu barədə müharibədən əvvəl demişəm. Yəni əgər Ermənistan rəhbərliyi qüvvələrin – həm hərbi, həm siyasi, həm iqtisadi, həm demoqrafik qüvvələrin nisbətini ayıq başla qiymətləndirsəydi, düzgün qərar qəbul edərdi. Bizim qüvvəmiz isə yalnız artacaq. O cümlədən, əhalimiz də. Ermənistan isə əməkdaşlıq etməsə, yalnız zəifləyəcək. Burada obyektiv olaraq, başqa hal sadəcə, mümkün deyil. Azərbaycan və Türkiyə ilə əməkdaşlıq olmasa, Ermənistanın bərpa üçün sadəcə, resursu yoxdur. Onlar hər tərəfdən sıxılmış vəziyyətdə necə yaşayırdılarsa, elə də yaşayacaqlar. Lakin indi həmin kisə, deyərdim ki, balaca bir torbaya çevrilib. Vəssalam. Onlar yaxşı başa düşməlidirlər ki, hansısa «arsax»

adlı bir dövlətləri olduğunu deyə bilərlər, lakin belə dövlət yoxdur, heç vaxt olmayıb və olmayacaq. Bu sərsəm ideyaları bir kənara atıb Azərbaycan vətəndaşları kimi normal yaşamaq lazımdır. Biz onları Azərbaycan vətəndaşları hesab edirik, onların beynini yeyiblər. Bu gün İrəvanda yenidən hakimiyyətə gəlməyə çalışanlar həmin hərbi canilərdir. Xalqın beynini yeyən onlardır. Onlar özləri orada yaşamır, müharibə vaxtı da orada yox idilər, qaçmışdılar, Sarkisyan da, Köçəryan da, Ohanyan da. Uşaq qatilləri, Xocalı qatilləri kimi döşlərinə taxdıqları qəhrəman medalları haradadır? Onlardan biri Şuşada, ikisi Xankəndidə doğulub. Bəs nə üçün doğulduqları yerləri müdafiə etmədilər? Müdafiə edəydilər! Yaxud indi. Qoy getsinlər, burunlarını oraya soxsunlar. Baxarıq, onlar oradan salamat çıxacaqlarmı? Bilirsinizmi, bu insanları, azərbaycanofobiyanın, Azərbaycana qarşı bu təbliğatın qurbanlarına çevrilmiş günahsız insanları müalicə etmək lazımdır. Zənnimcə, zaman ən yaxşı təbibdir. Bu mənim sözlərim deyil. Bunu çoxları deyib. Yaraların sağalması, anlaşma yaranması üçün vaxt lazımdır. Azərbaycanı iblis şəklində təqdim etməklə bağlı göstərdikləri bütün cəhdlər ilk növbədə, onların özləri üçün səmərəsizdir. Ermənistanda bunu anlamalarından ötrü vaxt lazımdır.

Dini abidələrə gəldikdə isə, biz bütün dini abidələri qoruyuruq, onları dövlət qoruyur, biz bərpa edirik. Biz müharibə dövründə Qəbələ rayonunun Nic qəsəbəsindəki xristian məbədini bərpa edəndən sonra onun açılışını etdik. İşğaldan azad edilmiş ərazilərdəki xristian dini və mədəni abidələrinə gəldikdə

isə, heç kəsin şübhəsi olmamalıdır ki, onlar layiqincə qorunacaq. Yeri gəlmişkən, erməni zəvvarlar Kəlbəcər rayonundakı qədim Xudavəng alban məbədini sərbəst ziyarət edə bilərlər. Biz şərait yaratmışıq və həmin məbədin mənsub olduğu Azərbaycan udi icması və məbədi erməniləşdirməyə cəhd göstərən ermənilər də onu ziyarət edirlər. Beləliklə, gələcəkdə burada problem olmayacaq. Mən buna əminəm.

**S u a l** (*İspaniyanın «La Vanguardia» qəzeti*): **Sabahınız xeyir, cənab Prezident. İlk olaraq, Sizə təşəkkür edirəm ki, bu gün bizə şərait yaradıldı. Biz ötən ilin dekabr ayında Ağdamda olduq və burada xüsusilə Sizin dil qabiliyyətinizi qeyd etmək istərdim. Bizdə İspaniyada siyasətçilər bunu edə bilmir. Dil məsələsinə gəldikdə, özlərini Dağlıq Qarabağın rəhbərləri adlandıran insanlar rus dilini guya, rəsmi dil kimi qəbul etdiklərini iddia edirlər. Cənab Prezident, necə düşünürsünüz, orada gələcəkdə rəsmi dil və ya ümumiyyətlə, dillər məsələsi necə olacaq? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Sağ olun sualınıza görə. Qarabağda rəsmi dil məsələsi barədə sualınıza dair qeyd edə bilərəm ki, bu bir manipulyasiyadır. Hazırda Azərbaycanın o bölgəsində qeyri-qanuni olaraq özlərini rəhbər adlandıranların manipulyasiyasıdır. Onlar orada suahili dilini də Qarabağın rəsmi dili elan edə bilərlər. Bunun heç bir təsiri və nəticəsi ola bilməz. Dağlıq Qarabağ mövcud deyil və hər kəs oranı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır. Düşünürəm, bu onların, həmin cinayətkar xunta rejiminin son nəfəsidir, son cəhdləridir ki, guya onlar dövlətdirlər. Azərbaycanda yeganə rəsmi dil Azərbaycan

dilidir və Azərbaycan ərazisində digər heç bir dilin rəsmi statusu ola bilməz. Eyni zamanda, biz heç bir dilə hər hansı məhdudiyyət də qoymuruq. Bildiyiniz kimi, rus dili Azərbaycanda çox geniş istifadə edilir. Bu gün bizdə sovet dövründən fərqli olaraq, rus dilində daha çox qəzet və internet saytları fəaliyyət göstərir. 340-a yaxın rus bölməsi olan məktəbimiz vardır. Ermənistanda isə neçə belə məktəb vardır? Sıfır. Ermənistanda yalnız orada olan rus hərbi kontingentinin övladları üçün bir məktəb fəaliyyət göstərir. Onlarda hətta təqribən belə bir qanun da qəbul edilib ki, erməni uşaqları rus məktəblərinə gedə bilməz. Yəni bu özlərinin qeyd etdiyi kimi, strateji tərəfdaşlarına olan diskriminasiya, ayrı-seçkilikdir. Onlar Rusiyadan hərbi resursları qəbul edirlər, bizim məhv etdiyimiz bütün silahları, hansı ki dəyəri 3–5 milyard dollar civarındadır, onlar bütün bunları Rusiyadan pulsuz almışdılar. Bu, hədiyyə və ya «kredit» müqaviləsi əsasında olmuşdur. Həmin kredit ki, onlar heç zaman onu ödəməyəcəklər. Baxın, belə bir tərəfdaşa qarşı onlar ayrı-seçkilik edirlər. Rusiya televiziya kanallarına qarşı yeni qanunvericilik qəbul edilmişdir. Müharibədən sonra onlar bunu bir balaca, qismən aradan qaldırıblar. Onlar rus dilini qadağan edirlər, rusdilli məktəbləri qadağan edirlər. Ancaq baxın, indi Rusiya sülhməramlıları Qarabağa yerləşəndən sonra birdən onlar rus dilini rəsmi dil kimi qəbul edirlər. Mən suahili dilini təklif edirəm. Belə olsa, onlar dil cəhətdən uzaq, ucqar ölkələrlə təmas qurmağa da nail ola bilərlər.

Gələcəyə gəldikdə, Azərbaycanda fərqli dildə danışan insanların hər cür hüquq və imtiyazları mövcuddur. Onların təhsilə çıxışları təmin edilir, bizim bütün dövlət universitetlərində rus bölmələri vardır. Nəzərə alaq ki, həmin ərazilərdə yaşayan erməni icması öz aralarında erməni dilində danışa bilərlər, sovet dövründə bizim o bölgədə erməni dilində qəzetlər dərc edilirdi, orada xüsusi proqramlar var idi. Digər bütün dillər kimi, erməni dili də Azərbaycanda qorunacaqdır.

Mənim müxtəlif xarici dil biliklərimə dair komplimentinizə görə təşəkkür edirəm. Bəli, mən xarici dilləri öyrənmişəm və hər zaman bunu daha tez-tez istifadə etmək mənə xoşdur.

**S u a l** (*Yunanıstanın «Real Group Media» şirkəti*): **Cənab Prezident, öncəliklə mətbuat konfransında iştirak etmək üçün yaradılmış imkana görə təşəkkür edirəm. Bu çox gözəl təşkil olunub. Mən Yunanıstanı təmsil edirəm. Dünən Ermənistanda baş verən böhranla bağlı, necə hesab edirsiniz, bunun atəşkəs və aparılan təmaslara – Türkiyə, İran, Rusiya arasında təmaslara hər hansı bir mənfi təsiri ola bilərmi? Digər sualım isə Ağdamla bağlıdır. Mən dünən orada oldum. Minlərlə kvadratkilometr ərazinin darmadağın edildiyinin şahidi oldum. Bəşər sivilizasiyasına, dini abidələrə qarşı olan hörmətsizliyin, təhqirin şahidi oldum. Ağdamın bu dərəcədə dağıdıldığını təsəvvür edə bilməzdim. Mən dünən sıravi vətəndaşlarla danışdım. Sizcə, bu ərazilərin bərpası nə qədər vaxt aparacaq? Orada böyük mədəni itkilər, dini abidələrə qarşı hörmətsizlik baş vermişdir.**

**Sizin zənninizcə, bu ərazilərin bərpası nə qədər çəkəcək?**

**İ l h a m Ə l i y e v:** İlk sualınıza gəldikdə, Ermənistandakı böhran və onun sülhə təsiri yenə də bu böhranın hansı istiqamətdə cərəyan edəcəyindən asılı olacaqdır. Bu böhranın tezliklə bir sonu olmalıdır. Dediyim kimi, bu tragikomediyaya son qoyulmalıdır. Atəşkəs və üçtərəfli Bəyanatın icrası ilə bağlı diqqətinizi Prezident Putinin cavabına yönəltmək istərdim. Ona sual verildi ki, Ermənistan bu bəyanatın icrasından boyun qaçırmaq istəsə nə olacaq? O da dedi ki, bu, Ermənistan üçün sui-qəsd olacaqdır. Mən də bu məsələdə Prezident Putinlə tamamilə razıyam.

Ermənistandakı böhranın regional əməkdaşlıq məsələsinə təsirinə gəldikdə, bəli, bizim müəyyən narahatlığımız vardır. Üç ölkənin – Rusiya, Azərbaycan və Ermənistanın Baş Nazir müavinləri arasında üçtərəfli görüşlər keçirilir. Artıq iki belə görüş olubdur. Üçüncü belə bir görüş Moskva şəhərində sabaha planlaşdırılıbdır. Ancaq mənə hələ də məruzə edilməyib ki, bu görüş Ermənistan tərəfindən təxirə salınıbmı. Yəni bu, təxirə salınsa da, anlaşılan olacaqdır. Ancaq yenə də bu, Ermənistanda gələcəkdə baş verəcək hadisələrdən, oradakı siyasi mübarizənin nəticələrindən asılı olacaqdır. Amma bu bizim planlarımıza təsir edə bilməz. Qeyd etdiyim kimi, artıq bizim regionun gələcəyi ilə bağlı aydın fikrimiz vardır. Türkiyə, Rusiya, İran və Azərbaycan arasında körpülərin yaradılması ilə bağlı da aydın təsəvvürümüz vardır. Ona görə də Ermənistan burada hər hansı bir mənfi addım atmağa cəhd etməməlidir. Onların

siyasi, hərbi və iqtisadi konfiqurasiyasının asılı vəziyyətdə olması bunu şərtləndirir. Azərbaycan bu regionun tərkib hissəsi olubdur, hər zaman uğurlu əməkdaşlığın nümunəsi olubdur. Azərbaycan–Türkiyə–Gürcüstan, Azərbaycan–Türkiyə–Türkmənistan, Azərbaycan–Türkiyə–İran əməkdaşlıq formatları mövcuddur.

Bununla yanaşı, Türkiyə–İran–Rusiya arasında əməkdaşlıq formatı da vardır. Ermənistan yeganə ölkədir ki, onlarda belə bir əməkdaşlıq formatı mövcud deyil. Yəni biz bu regionun məsuliyyətli ölkəsiyik. Müəyyən geriləmələr, müəyyən təxirə salınmış tədbirlər ola bilər. Ancaq, ümumiyyətlə, mən hesab edirəm ki, Ermənistanda siyasi hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistan buna böyük mənada təsir edə bilməz və etməməlidir də.

Siz Ağdamı qeyd etdiniz və orada acınacaqlı mənzərənin şahidi olduğunuzu dediniz. Ora gedən hər kəs ilk səfərində bir növ şok və sarsıntı yaşayır. Mən Ağdama səfər edəndə, oradakı səngərləri görəndə heç ifadə edə bilmirəm ki, necə qarışıq hisslər keçirdim: sarsıntı, əzab, təəssüf… Eyni zamanda, məndə fərəh hissi var idi ki, biz ora qayıtmışıq. Bu hətta əlavə bir mətbuat konfransının mövzusu ola bilər. Qeyd etdiyim kimi, Ağdamın işğaldan əvvəl əhalisinin sayı 40 minə yaxın idi. Yəni işğaldan sonra təbii ki, əhalinin sayı artıb. Biz artıq təqribən 70 min nəfərlik şəhərin baş planını yenidən işləməliyik və sizə bir nümunə deyə bilərəm. Ötən il biz bir neçə min ailə üçün mənzil və evlər inşa etmişik. Mənim qərarımla onlar əslində məcburi köçkünlər üçün nəzərdə tu-

tulmuşdu. Ancaq artıq işğal olunmuş ərazilər azad edildikdən sonra qərara gəldim ki, həmin mənzillər şəhid ailələrinə verilsin və dünən də mən belə bir şəhərciyin – 1572 ailəlik şəhərciyin açılışını etdim. Bu ilin sonuna qədər daha 3000 şəhid ailəsi ev və mənzillərlə təmin ediləcək.

Biz buna bir növ öyrəncəliyik, bizim təcrübəmiz vardır. Biz hər il 3-4 min mənzil və ev inşa edə bilirik. Yəni fiziki olaraq, biz Ağdam şəhəri haqqında danışırıqsa, bu şəhər hesab edirəm ki, 2-3 il ərzində tam bərpa oluna bilər. Ancaq bundan öncə minadan təmizləmə, infrastruktur layihələri həyata keçirilməlidir. Elektrik infrastrukturuna gəldikdə, biz bütün şəhərlərimizin, bölgələrimizin bir-biri ilə bağlı enerji şəbəkəsini yaradacağıq. Artıq büdcə, proqram təsdiq edilib və bu ilin sonuna qədər elektrik enerjisi təminatı başa çatdırılacaqdır. Su təminatı, qaz təminatı, yollar... Biz təkcə evlər tikməli deyilik, orada xəstəxanalar, məktəblər, bağçalar da tikilməlidir. Orada iş yerləri yaradılmalıdır. Çünki orada yaşayan insanlar işlə təmin edilməlidir. Yəni bütün bu işlər bizim «Böyük Qayıdış» adlandırdığımız proqramımızın tərkib hissəsidir, Prezident Administrasiyasının rəhbəri bu əlaqələndirmə ilə məşğuldur. Təkcə Ağdam deyil, digər bütün şəhər və qəsəbələrimizdə – Füzuli, Cəbrayıl, Qubadlıda da vəziyyət təqribən eynidir. Zəngilanda bir neçə ev istisna olmaqla, hər şey darmadağın edilib. Bu çox nəhəng bir işdir, bizim qarşımızda böyük işlər dayanır. Biz bunu yalnız öz daxili resurslarımız hesabına edəcəyik və artıq etməyə başlamışıq. Burada söhbət təkcə maliyyə resurslarım-

dan getmir. Söhbət texniki imkanlardan gedir, bizim peşəkarlarımız, intellektual resurslarımız vardır.

Xüsusilə vurğulamaq istəyirəm ki, biz orada vətəndaşlarımız üçün ən yaxşı şəraiti yaratmalıyıq. Çünki uzun illərdir bu insanlar əziyyət çəkirlər. Biz anlayırıq ki, həmvətənlərimiz ən qısa zamanda oraya qayıtmaq istəyirlər. Yenə də istəməzdim daha dəqiq tarix verim, təkcə elə Ağdam kimi bir şəhərimizin yenidən bərpası ən azı 2 il çəkəcəkdir.

**S u a l** (*İranın Mehr agentliyi*): **Cənab Prezident, bu gün terrorçuluq dünya üçün təhdiddir. Qarabağ müharibəsi zamanı regionda terrorçu qrupların fəaliyyət göstərməsi barədə xəbərlər yayılırdı. Bu isə region üçün böyük təhlükədir. Burada hansı kollektiv səylər göstərilməlidir? Bununla bağlı Azərbaycan Respublikası tərəfindən hansı addımlar atılacaqdır? Digər sualım isə Azərbaycan–İran əməkdaşlığının necə qiymətləndirilməsi ilə bağlıdır. İki xalqı bir-birinə tarixi və mədəni bağlar birləşdirir və bu əməkdaşlığın regional perspektivlərini necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Bir məsələni aydınlaşdırmaq istəyirəm. Siz müharibə zamanı terrorçu qrupların fəaliyyət göstərməsi haqqında danışırsınız, hansı məlumatlara, kim tərəfindən verilən məlumatlara istinad edirsiniz?

**Jurnalist:** Region ölkələrindən olan xəbər agentlikləri belə məlumat yayırdılar. İcazənizlə, onların adlarını çəkməyim.

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz, sualınız bir növ ittiham formasındadır. İstənilən məlumat haqqında danışmaq olar, ancaq mənbə qeyd edilməlidir. Siz

deyirsiniz ki, məlumatlar yayıldı, onların mənbəyini də qeyd edin. Terrorçu qruplar haqqında məlumatın mənbəyini qeyd edin.

**J u r n a l i s t:** Sizcə, regionda terrorçu qrupların qarşısının alınması üçün hansı tədbirlər görülməlidir?

**İ l h a m  Ə l i y e v:** Hansı regiondan və ya ölkədən söhbət gedir? Siz mənbə göstərə bilmirsiniz. Kimisə ittiham etmək asandır. Siz onu sual formasında verə bilərsiniz, ancaq burada mahiyyət dəyişmir. Dediyinizin arxasında dayanmaq daha çətindir. Xəbər deyirsiniz, yəni hansı mənbələrə istinad edirsiniz? Sualınızda mənbəni qeyd edə bilsəniz, daha geniş cavab verə bilərdim.

**J u r n a l i s t:** O zaman ikinci sualıma cavab versəniz məmnun olardım.

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, siz birinci sualınıza özünüz cavab verdiniz. Sualınızda qeyd etdiyiniz məlumatlar mövcud deyil. Müharibə zamanı terrorçu qrupların iştirakı ilə bağlı hər hansı məlumat, dəlil və sübut yoxdur. Bu, məqsədyönlü şəkildə uydurulmuş bir hekayədir və mən təəssüf edirəm ki, dost ölkədən olan jurnalist belə bir sual verir. Adətən, belə ittiham xarakterli suallar digər ölkələrdən olur. Torpaqların azad olunması uğrunda aparılan əməliyyatlarda heç bir terrorçu iştirak etməyib. Bu qələbəni Azərbaycan Ordusu qazanıb. Burada hər hansı yazılı və ya şifahi məlumat və ya sübutlardan söhbət gedə bilməz. Bu, Azərbaycanı ittiham etməkdən başqa bir şey deyil. Bu, Ermənistan tərəfindən ediləndə anlaşılandır. Bu, ermənilərin bir

bəhanəsidir, çünki onlar üçün bu, psixoloji cəhətdən ağrılı bir məsələdir – Azərbaycan əsgəri onları məğlub edib. Onlar deyə bilərlər ki, bunu hansısa terrorçular edib. Ancaq kimsə bu terrorçuları görüb? Siz və ya həmkarlarınız sadəcə, bir ad verə bilərsinizmi? Kifayət qədər vaxtınız var, bu məlumatları həmkarlarınızla bölüşün. Varmı belə bir məlumat? Xeyr. Ona görə sizə tövsiyəm odur ki, spekulyasiya ilə məşğul olmayın. Dediyim kimi, siz bir xanım olaraq dost ölkədən gəlmisiniz, ona görə də mən mövzunun dərinliyinə getmək istəməzdim. Ancaq xahiş edirəm, belə şayiələr yayarkən daha məsuliyyətli olun.

O ki qaldı Azərbaycan–İran əməkdaşlığına, bu əməkdaşlıq çox yaxşı səviyyədədir. Müharibədən sonrakı dövr yeni imkanlar yaradır. Bilirəm ki, İran şirkətləri dağıdılmış ərazilərdə yenidənqurma işlərində iştirak etməkdə maraqlıdırlar. Azərbaycandan olan yüksək səviyyəli nümayəndə heyəti İranda səfərdə olubdur. Burada əməkdaşlığımızla bağlı vacib məsələlər, o cümlədən Xudafərin su anbarının birgə istifadəsi də müzakirə edilib. Biz artıq elektrik stansiyalarının inşasına dair İran tərəfi ilə razılığa gəlmişik. Artıq «Xudafərin» və «Qız qalası» elektrik stansiyalarının tikintisi ilə bağlı büdcə ayrılıb. Ümumi istehsal gücü 280 meqavat olacaq və bu həcm iki ölkə arasında bölüşdürüləcəkdir.

Yeni vəziyyətlə əlaqədar çoxlu imkanlar vardır. Biz İranla dövlət sərhədimizi bərpa etmişik, onun 132 kilometrlik hissəsi işğal səbəbindən bizim nəzarətimizdə deyildi. Bu gün isə artıq biznes üçün yeni imkanlar açılır. Buraya nəqliyyat və kənd təsərrü-

fatı da daxildir. Nəqliyyat sahəsi haqqında danışarkən, mən Zəngəzur dəhlizini qeyd etmək istəyirəm. Bu dəhliz İran tərəfi üçün də faydalı olacaqdır. İran həmin dəhlizdən istifadə edərək, Ermənistanla dəmir yolu əlaqəsi yarada bilər. İki ölkənin hazırda belə bir əlaqəsi yoxdur və eşitdiyimə görə, belə bir dəmir yolu xəttinin tikintisi artıq gündəmdə deyil. Çünki olduqca mənasız və bahalı bir layihədir. Naxçıvandan, Culfa üzərindən İran yükləri Ermənistana və geriyə nəql edilə bilər. İmkanlar çoxdur, biz onların hamısını nəzərdən keçirəcəyik və əminəm ki, gələcəkdə sıx əməkdaşlığımız davam edəcəkdir.

**J u r n a l i s t:** Cənab Prezident, mən üzr istəyirəm, zənnimcə, mənim terrorçu qruplarla bağlı sualım yanlış anlaşıldı. Mən Azərbaycan tərəfindən terrorçu qrupların fəaliyyətini nəzərdə tutmurdum. Mən Qarabağ müharibəsi zamanı regionda İŞİD kimi qrupların fəaliyyətini nəzərdə tuturdum.

**İ l h a m Ə l i y e v:** Aydınlıq gətirdiyinizə görə sizə təşəkkür edirəm.

**S u a l** (*İraq media şəbəkəsi*): **Cənab Prezident, işğaldan azad olunmuş ərazilərdə təşkil edilmiş tədbirlərdə iştirak üçün bizi dəvət etdiyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Dünən işğaldan azad edilmiş Ağdam şəhərini ziyarət edərkən biz misli görünməmiş dağıntıların şahidi olduq. Məlum oldu ki, bütün evlər işğal dövründə daşlara qədər qarət edilib. O cümlədən dağıdılmış vəziyyətdə olan qədim məscidin işğal zamanı heyvanlar üçün tövlə kimi istifadə edildiyini öyrənmək bizə çox ağırdır. Bildiyimizə görə, Ermənistan tərəfindən işğal edilmiş digər ərazilərdə də məscid-**

**lər, türbələr, qəbiristanlıqlar, ümumiyyətlə, Azərbaycan xalqına məxsus mədəniyyət abidələri tamamilə dağıdılıbdır. Bununla əlaqədar sizin hökumət Ermənistana qarşı beynəlxalq hüquqi müstəvidə hansı konkret iddialar qaldırmağı düşünür? Digər tərəfdən, bu, müasir tarixdə islam irsinin və mədəniyyət abidələrinin ən genişmiqyaslı dağıdılmasıdır. Bunu İŞİD-in işğal etdiyi torpaqlarda mədəniyyətlərə qarşı cinayətləri ilə müqayisə etmək olar. Bildiyimə görə, bu fakt bu yaxınlarda İSESKO-nun nümayəndələri tərəfindən təsdiq edilib. Sizcə, azad edilmiş ərazilərdə mədəni abidələrin bərpasında beynəlxalq təşkilatlar və müsəlman ölkələri hansı konkret rol oynaya bilər? Eyni zamanda, həmin ərazilərin bərpasında dediyimiz kimi, beynəlxalq təşkilatlar və müsəlman ölkələri ümumi şəkildə hansı rol oynaya bilər? Çox sağ olun, cənab Prezident.**

**İlham Əliyev:** Doğrudan da, Ağdam şəhərinin görüntüləri hamımız üçün çox ağrılıdır və bütün dünya bunu görməlidir. Ağdam məscidində donuz, inək saxlanılması Ermənistan tərəfindən bütün müsəlman aləminə edilən təhqirdir. Biz bunu belə qəbul edirik. Bu təhqiri edənlər bu gün Ermənistan siyasi müstəvisində özləri üçün yer tapmaq istəyirlər. Ermənistanın keçmiş prezidenti Köçəryanın dağılmış və üzərində təhqiramiz ifadələr olan həmin Ağdam məscidinin önündə fotoşəkilləri vardır. Onlar bu cinayəti törədiblər və mən dəfələrlə müxtəlif tədbirlərdə, xüsusilə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşlərində və digər beynəlxalq tədbirlərdə qeyd edirdim ki, bu cinayəti törədənlər, islam müqəddəslərinin təhqirini özünə rəva bilənlər heç vaxt

müsəlman ölkələri ilə dost ola bilməzlər. Mən müsəlman ölkələrinin liderlərinə üz tutub deyirdim ki, sizin əl sıxdığınız insanlar müsəlman məscidlərini dağıdan, sökən, orada inək, donuz saxlayanlardır. Zəngilan işğaldan azad olunandan sonra bu, lap yeni görüntülərdir. Müharibə dövründə o görüntülər də üzə çıxmışdır. Zəngilan rayonunun məscidlərinin birində donuz saxlayırdılar. Pənahəli xanın sarayını tövləyə çevirmişdilər. Yəni bunu qəsdən edirlər.

Məgər heyvanları başqa yerdə saxlamaq olmaz? Qəsdən edirlər. Görün müsəlmanlara qarşı bunların nifrəti nə qədər böyükdür və bunu edən cinayətkarlar, bunu edən əxlaqsızlar ondan sonra da gedib bəzi müsəlman ölkələrinin liderləri ilə görüşüb hansısa dostluqdan, əməkdaşlıqdan danışırlar. Ona görə mən xahiş edirəm, bu görüntüləri yayın bütün dünyaya. Bütün dünya görsün ki, Ermənistan rəhbərliyi islamofob xisləti ilə fərqlənir və bu təkcə bizə deyil, bütün müsəlman aləminə qarşı təhqirdir.

Azad edilmiş torpaqlarda məlumatlara görə, 67 məscid var idi, onlardan cəmi biri nisbətən salamat vəziyyətdədir. Qalanlar ya tam dağıdılıb, ya da ki, onların böyük hissəsi dağıdılıb. Biz bütün məscidləri bərpa edəcəyik. Əlbəttə, islam ölkələrinin nümayəndələri bu məsələ ilə bağlı öz təkliflərini verirlər. Bu yaxınlarda sizin də qeyd etdiyiniz kimi, İSESKO-nun nümayəndə heyəti Azərbaycanda idi. Onlar Ağdam məscidini ziyarət etmişlər və ondan sonra İSESKO-nun baş katibi ilə görüş əsnasında belə bir təklif irəli sürüldü ki, İSESKO bizim tarixi abidələrimizin bərpası işində öz rolunu oynaya bilər. Biz bunu da, digər

müsəlman ölkələrinin nümayəndələrinin təşəbbüslərini də alqışlayırıq. Biz bu bərpa işlərini islam həmrəylik bayramına çevirməliyik. Çünki Azərbaycan islam həmrəyliyinin gücləndirilməsi ilə bağlı çox ardıcıl siyasət aparır. İslam Əməkdaşlıq Təşkilatının xətti ilə ölkəmizdə keçirilmiş müxtəlif tədbirlər, eyni zamanda, prinsipial məsələlərlə bağlı açıq mövqemiz islam aləmində də bizə böyük nüfuz qazandırıb. Müsəlman ölkələri arasındakı birlik, həmrəylik bizim hamımız üçün lazımdır. Ona görə belə bir təklifə görə sizə təşəkkürümü bildirirəm və xahiş edirəm ki, öz ölkənizin ictimaiyyətini bu reallıqlarla tanış edəsiniz.

**S u a l** (*Türkiyənin Anadolu Agentliyi*): **Hörmətli cənab Prezident, 10 noyabrdan sonra bölgədə Bəyanatı imzalayan üç ölkənin etməli olduqları bəzi fəaliyyətlər var idi və üç ölkə də fəaliyyətlərinə başladı. Ancaq bu dönəmdə bölgədəki xarici ölkələrin sayı, bölgəyə dərhal sonra hər gün gələn karqo təyyarələrə nəzarət olunması, bölgəyə geri qaytarılan erməni vətəndaşların sayı ilə bağlı müxtəlif iddialar mətbuatda yer aldı. Bəzi məsələlər Sizin gündəliyinizdə də yer aldı. Siz bu məsələlərlə bağlı iradlarınızı daha əvvəl dilə gətirmişdiniz. Siz müharibədə qalib gələn ölkənin lideri olaraq, 10 noyabrdan sonrakı dövrdən məmnunsunuzmu və bu dövr daha yaxşı ola bilərdimi?**

**İ l h a m Ə l i y e v:** Prinsip etibarilə mən məmnunam. Çünki 10 noyabrda imzalanmış Bəyanatda göstərilən əsas məsələlərdən biri Ağdam, Kəlbəcər və Laçın rayonlarının bizə qaytarılması idi və buna nail olduq. Dekabrın 1-də bu bölgələr bizə qayıtdı.

Eyni zamanda, bəyanatda göstərilən digər məsələlərlə bağlı, hesab edirəm ki, müsbət addımlar atılır. Bəzi məsələlər təbii olaraq, hələ ki, icra edilmir. Onlar üçün müəyyən zaman lazımdır. Amma hesab edirəm ki, məsələ prinsip etibarilə müsbət istiqamətdə gedir.

Türkiyə–Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyət göstərməsi də bu istiqamətdə atılmış çox önəmli addımdır. Mən əminəm ki, bu Monitorinq Mərkəzi vasitəsilə bölgədə sabitlik və atəşkəs rejiminin möhkəmləndirilməsi işinə böyük töhfə veriləcək. Azərbaycan Prezidenti olaraq, bildirmək istəyirəm ki, Azərbaycan tərəfindən hər hansı bir aqressiv addım atılmayacaq. Biz bunu heç vaxt etməmişdik və bu gün buna ehtiyac yoxdur. Ona görə 10 noyabr Bəyanatı prinsip etibarilə icra edilir.

Bəzi məsələlər var ki, onlar 10 noyabr Bəyanatında öz əksini tapmayıb, amma ondan sonrakı dövrdə razılaşdırılıb. Bu məsələlərin bir qismi icra edilir, bir qismi isə hələ ki, icra edilmir. Yenə də deyirəm, misal üçün, Rusiyanın sülhməramlı qüvvələri bizim ərazimizə xarici vətəndaşların buraxılmasında o qədər də ciddi addımlar atmırlar. Bu bizi narahat edir və bu narahatlığı da biz Rusiya tərəfinə çatdırırıq. Əminəm ki, vaxt keçdikcə, bu məsələlər də tənzimlənəcək.

Biz bir məsələni də unutmamalıyıq ki, 10 noyabrdan sonra bizim bölgəmizdə və bütövlükdə dünyada tam yeni bir vəziyyət yaranıb. Biz bu vəziyyətə uyğunlaşmalıyıq, hər bir ölkə buna öyrəşməlidir. Bu, yeni bir vəziyyətdir, bizim üçün də, qonşu ölkələr üçün də.

Burada həm logistik, həm texniki, həm nəqliyyat, həm də psixoloji problemlər vardır. Bəzilərinin gözləntiləri həddindən artıq çoxdur. Amma hər şeyin öz vaxtı var, öz yeri var. Biz addım-addım öz hədəfimizə çata bilmişik və mümkün olmayanı 44 gün ərzində reallığa çevirmişik. Bunu bu gün təkcə biz yox, beynəlxalq ekspertlər də deyir. Bizim apardığımız hərbi əməliyyat bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Hesab edirəm ki, biz müharibə dövründə və müharibədən sonra mümkün olan maksimum nəticəni əldə etdik və həyat davam edir, həyat yerində durmur, yeni məsələlər ortalığa çıxır.

Bizim strateji baxışımız var: biz nə istəyirik, bu günə qədər nə istəmişik, bundan sonra nə istəyirik. Bu arzulara, hədəflərə çatmaq üçün nə etməliyik? Bizdə çox aydın baxış və təsəvvür var. Biz bu ümumi plan çərçivəsində bundan sonra da addımlarımızı atacağıq və yeni nailiyyətlər, uğurlar da olacaqdır.

**S u a l** (*Ukraynanın «1+1» telekanalı*): **Hər vaxtınız xeyir, cənab Prezident. Sizə iki sualım var. Birinci sualım kifayət qədər qısadır. Xahiş edirəm Ukrayna ilə Azərbaycanın indiki mərhələdə hərbi və hərbi-texniki əməkdaşlığının xarakterini qısaca səciyyələndirin. Azərbaycanın ərazilərini işğaldan hərbi yolla azadetmə təcrübəsini Ukrayna ilə bölüşmək imkanı varmı? İkinci sual: Ukraynada və Azərbaycanda müharibələrin xarakterində bütün fərqlərə baxmayaraq, hər halda, Ukrayna Rusiyanın təcavüzünə qarşı mübarizə aparır, bizim ortaq cəhətlərimiz çoxdur. Məsələn, işğaldan azad ediləndən sonra, yumşaq desək, qanuni hakimiyyətə o qədər də dostcasına münasibət bəsləməyən yerli əha-**

**linin reinteqrasiyası probleminin həlli zərurəti. Siz bu problemlə üzləşirsiniz. Biz onu həll etməliyik. Sual budur. Qısamüddətli və uzunmüddətli perspektivdə Qarabağın erməni əhalisinə münasibətdə Sizin planlarınız necədir və başqa sözlə desək, Siz Qarabağ ermənilərinə nə təklif edə bilərsiniz? Vətəndaşlıq, tam reinteqrasiya, mədəni muxtariyyət və sair. Çox sağ olun.**

**İlham Əliyev:** Ukrayna ilə Azərbaycan arasında hərbi-texniki əməkdaşlıq məsələsinə gəldikdə, prinsip etibarilə bu əməkdaşlığın böyük tarixi vardır. Müstəqilliyin ilk illərində Ukrayna hərbi-texniki əməkdaşlıq məsələsində bizim əsas tərəfdaşımız olub, lakin tədricən bu əməkdaşlıq yox dərəcəsinə enibdir. Açığını deyim ki, bu gün də həmin əməkdaşlığın həcmi o qədər də böyük deyil. Hərçənd bizim hərbi sənayenin formalaşmasına gəldikdə, biz öz hərbi sənayemizi yaratmağa başlayanda Ukrayna müəssisələri bu işdə bizə çox kömək ediblər və bizim hərbi məhsullar istehsal edən müəssisələrin çoxu Ukrayna şirkətləri ilə birgə müəssisələr idi.

Mənə məlum olduğuna görə, bu gün Ukraynanın hərbi-texniki kompleksi inkişaf dövrünü yaşayır. Azərbaycanda da belədir. Ona görə hesab edirəm ki, bu istiqamətdə də əməkdaşlıq üçün imkanlar vardır. Lakin açıq deyim ki, hələlik istər Ukrayna, istərsə də Azərbaycan tərəfindən hər hansı konkret layihələr və təkliflər olmayıb. Yəqin ki, hələ bunun vaxtı yetişməyib.

Yerli əhalinin reinteqrasiyası məsələsinə gəldikdə, sözün düzü, biz bu işə hələ başlamamışıq. Ona görə ki, müharibə təzəcə başa çatıb. Bu gün Qara-

bağ ərazisində yaşayan erməni əhalinin azərbaycanlı əhali ilə əlaqəsi yoxdur. Lakin bu ona görədir ki, orada azərbaycanlı əhali sadəcə, yoxdur, otuz il orada azərbaycanlılar olmayıb və azərbaycanlı əhali oraya qayıtmayıb. Erməni əhali isə Rusiya sülhməramlı missiyasının nəzarəti altında olan ərazidədir və bu ərazidən kənara çıxmır, ona görə ki, orada çıxası yer də yoxdur. Orada hər yer minalanıb. Buna görə də erməni və azərbaycanlı əhali arasında gündəlik əlaqələrin başlanması üçün şərait yetişməlidir. Bu, ilk növbədə, siyasi şəraitə aiddir. Bir daha deyirəm, Ermənistan dövləti Azərbaycanın suveren ərazisini onun əlindən almaq üçün hər hansı cəhdlərdən, «Arsax müstəqil dövlətdir» tipli hər cür frazalardan, bütün bu boş və cəfəng sözlərdən imtina etməlidir. Onlar sadəcə, özlərini və bütün dünyanı aldatmaq və orada yaşayan insanları çaşdırmaq cəhdlərindən imtina etməlidirlər. Onlar Azərbaycanın ərazi bütövlüyünü tanımalıdırlar. Hesab edirəm ki, bu qaçılmazdır. Mən əvvəllər Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin mümkünlüyü barədə suallara cavab verərək deyirdim ki, bu o vaxt mümkün olacaq ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın, necə ki, bunu bütün dünya tanıyır.

Düşünürəm ki, indi rəsmi şəxslər səviyyəsində əlaqələr, Baş Nazir müavinlərinin iştirakı ilə işçi qrupu, Azərbaycanın və Ermənistanın sərhəd xidməti rəhbərlərinin sərhəddə görüşü, Rusiya, Azərbaycan və Ermənistanın xüsusi xidmət orqanları rəhbərlərinin Moskvada görüşü, rəsmi şəxslər arasında digər əlaqələr buna zəmin yaratmalıdır. Burada yenə zəruridir

ki, Ermənistan tərəfi bizi aldatmağa çalışmağın lazım olmadığını başa düşsün. Amma təəssüf ki, belə demək mümkündürsə, biz yenə də belə hoqqaları görürük. Onlar sözdə bir cür danışır, əməldə başqa cür hərəkət edirlər. Belə etmək lazım deyil, indi o vaxt deyil. Onlar əsla elə vəziyyətdə deyillər ki, indi bunu özlərinə rəva görsünlər. Səmimi işləmək lazımdır, əgər nə barədəsə razılığa gəliriksə, onu yerinə yetirmək lazımdır, yox əgər bunu edə bilmirlərsə, demək lazımdır ki, edə bilmirlər. Əsassız ümidlər və vədlər olmamalıdır.

Bax, belə bir baza yaradılanda, azərbaycanlı əhali işğaldan azad edilmiş ərazilərə qayıdanda, əlbəttə, əlaqələr olacaq. Ona görə ki, hazırda Xankəndidə, digər yaşayış məntəqələrində yaşayan insanların normal həyat fəaliyyəti üçün əlaqələr sadəcə, zəruridir. Azərbaycansız buna nail olmaq sadəcə, qeyri-mümkündür. Fikir verin, bu gün Qarabağdakı rusiyalı sülhməramlı kontingent üçün yüklər necə çatdırılır. Əvvəlki kimi təyyarə ilə İrəvana qədər, sonra isə yük maşınları ilə Xankəndiyə qədər yox, indi dəmir yolu ilə Bərdəyə qədər – tezliklə, bir ildən sonra bizim yolumuz Ağdama qədər uzanacaq – oradan Rusiyaya məxsus yük maşınları gəlir, yüklənir və gedir. Bu, xeyli ucuz və rahatdır. Bəs hərbi qulluqçular üçün yük daşıyan Rusiya təyyarələri indi necə uçur? Onlar sonradan 10 saat, özü də qar basmış bu dəhlizlə getmək üçün İrəvana uçmurlar. Onlar Gəncəyə uçur, oradan isə Xankəndiyə getmək üçün bir saat, ola bilsin bir qədər çox vaxt lazımdır. Yəni bunu həyat tələb edir. Rusiya tərəfi belə bir xahişlə müraciət edəndə

biz onları dəstəklədik. Axı nəyə görə biz sülhməramlılar üçün süni problemlər yaratmalıyıq?! Bu sülhməramlılar, o cümlədən bizim sakinlərin də təhlükəsizliyini təmin edirlər. İkincisi, beləliklə, biz hazırda orada yaşayanlara siqnal veririk ki, baxın, axı Qafqaz Bürosu o vaxt Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması barədə qərarı təsadüfən qəbul etməmişdi. Bir daha vurğulamaq və ermənilərin bir çox başqa yalanları kimi, bu yalanını da ifşa etmək istəyirəm ki, həmin qərarda Dağlıq Qarabağın Azərbaycana verilməsindən yox, onun Azərbaycanın tərkibində qalmasından söhbət gedir. Onlar bu prinsipial bənd ilə həmişə manipulyasiya edirlər. Birincisi ona görə ki, bu, Azərbaycanın tarixi vilayətidir və ikincisi, onlar oraya necə gedib çıxa bilərdilər? Axı ötən əsrin 30-cu illərinə qədər Laçında və Kəlbəcərdə yol olmayıb. Əgər kimsə bunu bilmirsə qoy bilsin. Orada atla hərəkət edirdilər. Ermənistandan oraya necə getmək olardı? Heç cür. Yalnız atla. Kəlbəcərdə, ümumiyyətlə, yol yox idi. Bu, təcrid olunmuş bir bölgə idi. Biz ötən əsrin 30-cu illərində yol çəkməyə başladıq. Buna görə təbiidir ki, burada yaşayış məntəqələri, sivilizasiya, qədim şəhərlər vardır. Xankəndiyə gedən yol Ağdamdan keçirdi. Buna görə də hər şey öz təbii vəziyyətinə qayıtmalı, tamamilə siyasətsizləşdirilməlidir. Zənnimcə, orada yaşayan erməni millətindən olanlar da öz azərbaycanlı qonşuları və keçmiş dostları ilə ünsiyyət saxlayanda bunu başa düşəcəklər, tezliklə ortaq dil tapacaqlar.

**S u a l** (*«TRT World»*): **Cənab Prezident, hazırda Ermənistandakı vəziyyət Sizi nə dərəcədə narahat edir?**

**Ermənistanın baş naziri Nikol Paşinyan 10 noyabr tarixli sənədə imza atanlardan biridir. İndi orada bəzi siyasətçilər məsələyə yenidən baxılmasına dair çağırışlar edirlər, bu məsələ Sizi narahat edirmi? Daha bir sualım ondan ibarətdir ki, Sizin Nikol Paşinyanla rəsmi təmaslarınız olubmu və hazırda birbaşa təmasınız varmı?**

**İ l h a m Ə l i y e v:** Mən istəməzdim Ermənistandakı vəziyyətlə bağlı dərinə gedim. Mənim deyə biləcəyim Ermənistanda müəyyən siyasi qruplar tərəfindən sui-istifadə edilə bilər. Məncə, məsələni özləri həll etsələr yaxşıdır. Ancaq qonşu ölkə olaraq və müharibənin başa çatmasını nəzərə alsaq, biz Ermənistandakı vəziyyətə biganə ola bilmərik. Biz məsələni diqqətlə izləyirik. Hesab edirəm ki, Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, 10 noyabr Bəyanatının icrasına mane olmaq cəhdləri bu ölkə üçün çox zərərverici olacaqdır. Mən artıq Prezident Putinin sitatını dilə gətirdim. Bu onlar üçün sui-qəsd olacaqdır, vəziyyət bundan da qat-qat pis olacaqdır. Ona görə bu gün Ermənistanda anlamalıdırlar ki, bu vəziyyət Azərbaycana qarşı işğalçılıq siyasətinin bilavasitə nəticəsidir. Bu, son iki ildə baş verən və ya bir neçə ayın nəticəsində baş verən hadisə deyil, bunun birbaşa səbəbi işğaldır. Onlar hazırda bütün ideoloji dayaqlarını itiriblər. Çünki onların ideoloji dayaqları azərbaycanofobiya üzərində qurulmuş miflərdən ibarət idi. Özlərini qalib ölkə kimi təqdim edirdilər, Azərbaycan isə məğlub tərəf idi. Ancaq üz-üzə gəldikdə biz sübut etdik ki, qalib kimdir. Yəni bu vəziyyəti mən nəzarətdə saxlayıram, ancaq mən narahat deyiləm ki, Ermə-

nistanda olan hər hansı bir dəyişiklik Bəyanatın icrasına təsir edə bilər. İlk olaraq, ona görə ki, bu, artıq rəsmi imzalanmış sənəddir. İkincisi isə ona görə ki, burada Rusiya Prezidentinin də imzası vardır. Bu gün Ermənistanın  Rusiyadan asılılığı müharibədən qabaqkı dövrdən 10 dəfə artıqdır. Müharibədən əvvəl də Ermənistan Rusiyadan asılı olan bir ölkə idi. Mən bununla Ermənistanı ittiham etmirəm, bu reallıqdır, yəni o asılılıq müharibədən sonra 10 qat artıbdır. Yəni Ermənistanın cəsarəti çatacaqmı ki, Rusiya Prezidentinin imzasına belə yanaşsın? Burada sadəcə, o bəyanatdan söhbət getmir, bu söhbətin mahiyyəti ondan ibarətdir ki, orada Rusiya Prezidentinin imzası var və o bu sənədin qarantı kimi çıxış edir. Yəni mən tövsiyə edərdim ki, onların hər hansı bir gözləntisi olmasın. Ermənistanda tarix sübut edib ki, orada siyasətçilər hər zaman hakimiyyətə gəlmək üçün populist çıxışlar ediblər, sonra real vəziyyətlə üzləşəndə onlar bunun əziyyətini çəkiblər. Ona görə mən istisna etmirəm ki, hər hansı revanşist bəyanatlar olsun. Amma onlar bundan çəkinməlidirlər. İstənilən halda, Ermənistan hakimiyyətinin iradəsindən asılı olmayaraq, 10 noyabr Bəyanatı icra ediləcəkdir.

Mənim Paşinyanla təmaslarım o vaxt sona çatdı ki, o təxribatçı bəyanatlar verdi, mən onları artıq səsləndirdim. Ondan əvvəl o, 2019-cu ildə Düşənbə şəhərində belə bir təmasın təşəbbüskarı oldu. Həmin siyasətçilər Ermənistanda bu gün onu «lift diplomatiyası» ilə məşğul olmaqda ittiham edirlər. Amma gülünc bir vəziyyətdir. Biz təsadüfən 1 dəqiqə ərzində liftdə olduq, yəni görüşə gedərkən bir

mərtəbədən digər mərtəbəyə qalxdıq. Liftdə bir dəqiqə ərzində bu adam hansı diplomatiya ilə məşğul ola bilərdi? Düşənbə şəhərində o mənə təklif etdi və söz verdi ki, atəşkəsə riayət edəcək, münaqişənin başa çatdırılması üçün səylər göstərəcək. Mən dedim olsun. Sonra bizim nümayəndələr arasında birbaşa təmaslar yarandı və təmas xəttində hər hansı bir hadisə baş verəndə qarşılıqlı olaraq məlumat mübadiləsi baş tuturdu. Sonra Paşinyan özü qeyd edirdi ki, təmas xəttində bu qədər dinc vəziyyət mövcud deyildi. Nəyə görə? Çünki o məndən xahiş etmişdi bunu və mən hesab etdim ki, bu, sülhə töhfə verəcək. Mən hesab edirdim ki, o öz sələflərinin səhvlərini təkrar etməyəcək, siyasətini dəyişəcək. Ancaq o mənim jestimi yanlış dəyərləndirdi. O bunu zəiflik əlaməti kimi gördü, halbuki bu, güc əlaməti idi, böyüklük əlaməti idi. Sonra da onun Şuşadakı məlum rəqsi və məlum bəyanatları bizim təmaslara son qoydu. Əlbəttə, müharibə zamanı də bizim heç bir təmasımız ola bilməzdi. Biz Moskvada Prezident Putinin dəvəti ilə yanvar ayında üçtərəfli görüş keçirdik. Bu, üçtərəfli görüş idi və bizim ikitərəfli hər hansı bir əlaqəmiz və təmasımız olmayıb.

**S u a l** (*REAL Televiziyası*): **Cənab Prezident, Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan ərazilərində xalqımızın tarixi, mədəni irsinə ağır zərbə vurub, məscidləri, tarixi abidələrimizi, infrastrukturu dağıdıb. Demək olar ki, ərazidə faktiki səhralıq hökm sürür, oranı səhralığa çeviriblər. Bu vandallıq 10 noyabr Bəyanatından sonra da davam etdi. Onlara vaxt verilmişdi ki, ərazini tərk etsinlər.**

**Həmin vaxtda da onlar vəhşiliklər törətdilər, Azərbaycana külli miqdarda ziyan vuruldu. Bu hala beynəlxalq səviyyədə hüquqi-siyasi qiymət verilməsi üçün hansı işlər görülür və Ermənistanın törətdiyi cinayətkarlığa görə hər hansı məsuliyyətə cəlb olunması perspektivini necə qiymətləndirirsiniz? Təşəkkür edirəm.**

**İlham Əliyev:** Siz tamamilə haqlısınız. 10 noyabrdan sonra onlar öz mənfur fəaliyyətlərindən əl çəkmədilər, əksinə, 20 gün ərzində çalışdılar ki, maksimum bizim təbiətimizə və əmlakımıza ziyan vursunlar. Evləri, ağacları yandırırdılar, kəsib-doğrayırdılar, talan edirdilər, evlərin pəncərələrini, sanitar qovşaqlarını aparırdılar və bunları bütün dünyanın gözü qarşısında edirdilər. Yaxşı ki, xarici media nümayəndələri də bu vəhşiliyin şahidləri oldular və bütün dünya gördü ki, biz kimlərlə üz-üzə idik və biz hansı bəlanı məğlub etdik. Mən, sözün düzü, belə vəhşilik gözləmirdim, özü də tamamilə əsassız vəhşilik. Baxın, başqasının torpağını zəbt edəsən, güc tətbiq edərək, heç bir vaxt vermədən o torpağın, o evin sahibini qovasan – biz onlara 20 gün vaxt verdik, onlar bizə 20 saat da vaxt verməmişdilər – ondan sonra onun evində yaşayasan, sonra deyəsən ki, bu mənimdir və sən oradan çıxmağa məcbur olanda bu evi dağıdasan, sökəsən, yandırasan. Bu dərəcədə əxlaqsızlıq ola bilərmi? Bütün dünya bunu gördü. İkinci Qarabağ müharibəsinin əhəmiyyəti təkcə ərazilərimizin, ərazi bütövlüyümüzün bərpası ilə məhdudlaşmır. Bütün dünya erməni faşizminin əsl real sifətini gördü. Biz bütün dəymiş ziyanı hesablamalıyıq və hesabla-

yırıq. Mənim göstərişimlə indi Azərbaycanın müvafiq qurumları video, fotoçəkilişlər aparırlar, dron çəkilişləri aparılır. Dəymiş bütün ziyan hesablanacaq. Dağılmış bütün evlərin protokollaşdırılması işlərinə start verilib ki, vətəndaşlar fərdi qaydada dəymiş ziyanın ödənilməsi üçün beynəlxalq məhkəmələrə, ilk növbədə, Azərbaycan məhkəmələrinə və sonra beynəlxalq məhkəmələrə müraciət etsinlər.

İkinci mərhələdə – artıq bu sahədə də işlər başlanılıb, müvafiq sənədlər imzalanıb – buna oxşar münaqişələrdə dəymiş ziyanın hesablanması üçün təcrübəsi olan beynəlxalq şirkətlərlə də sənədlər imzalanıb, onlar yaxın gələcəkdə Azərbaycana gələcəklər. Əlbəttə, onlar özləri tədqiqatlar aparacaqlar, ancaq biz də onları lazım olan materiallarla təmin edəcəyik. Bu beynəlxalq şirkətlərin bu sahədə təcrübəsi var və dəymiş ziyanın ödənilməsi, təzminatın ödənilməsi üçün beynəlxalq məhkəmələrdə iddialar qaldırılacaqdır.

Eyni zamanda, bizim təbii resurslarımızı icazəsiz istismar edən xarici şirkətlər də məsuliyyətə cəlb ediləcək. Bildiyiniz kimi, azad edilmiş torpaqlarda bizim qızıl mədənlərimiz vəhşicəsinə istismar edilirdi. Bu, beynəlxalq cinayətdir. Artıq bu cinayəti törətmiş bəzi qurumların məsuliyyətə cəlb edilməsi üçün ilkin hazırlıq işləri aparılıb. Mən bu məsələ ilə bağlı bir-iki dəfə öz sözümü demişəm, bir daha demək istəyirəm ki, ya bu şirkətlər bizə təzminat ödəyəcək, kompensasiya verəcək, ya da ki, məhkəməyə gedəcək. Məhkəməyə getdikləri təqdirdə, tam əminəm ki, məhkəmədə onlar uduzacaqlar, eyni zamanda, dünya miqya-

sında biabır olacaqlar. Çünki başqa ölkədə qanunsuz işlərlə məşğul olmaq, qanunsuz sahibkarlıqla məşğul olmaq, o ölkənin təbii sərvətlərini talamaq cinayət sayılır. Bu şirkətlərin beynəlxalq reputasiyasına da çox ciddi ziyan dəyəcək.

Bununla paralel olaraq, bizim meşə fondumuz da məhv edilib, 54 min hektar meşə ermənilər tərəfindən qırılıb, dağıdılıb. İşğala qədər bizim meşələrimizin ümumi həcmi təqribən 220–230 min hektar idi, onun 54 min hektarı kəsilərək dağıdılıb. Onlar ondan müxtəlif materiallar istehsal ediblər, bildiyimə görə, orada parket biznesi də çox geniş vüsət almışdı, xarici şirkətlər də burada iştirak edibdir.

Yəni dəymiş bütün ziyan hesablanacaq, o cümlədən bizim torpaqlarımızdan qanunsuz şəkildə istifadə edən şirkətlər də cərimələnəcək. Azad edilmiş torpaqlarda ancaq taxıl altında 100 min hektara yaxın torpaq var idi, onları qanunsuz istismar edirdilər və gəlir götürürdülər. Onu da hesablayacağıq. Bu, işin bir tərəfidir. Beynəlxalq məhkəmələrdə buna nə dərəcədə reaksiya veriləcək? Bu, işin ikinci tərəfidir. Burada, əlbəttə ki, əsas məsələ obyektivlikdir. Əgər obyektiv yanaşma olsa, əlbəttə, onlar bu təzminatı ödəməli olacaqlar. Biz eyni zamanda, beynəlxalq praktikaya da nəzər saldıq. Xarici İşlər Nazirliyinə tapşırıldı və artıq bu günlərdə mənə məlumat verildi, presedentlər necə olub, bu presedentlər var. O qədər də çox deyil, amma var. Burada, əlbəttə, hər bir presedent bizim tərəfimizdən təhlil edilməlidir ki, bunun təməlində nələr dayanır? Obyektivlik, yoxsa ki, siyasi sifariş? Çünki sirr deyil ki, beynəlxalq məhkəmə sistemi də siyasi təzyiq-

dən azad deyil və bəzi hallarda siyasi sifarişlər də yerinə yetirilir. Ona görə hər şey bundan asılı olacaq. Hər halda, biz öz üzərimizə düşən missiyanı yerinə yetiririk və yaxın zamanlarda dolğun hesabat hazırlanacaqdır.

S u a l (*Böyük Britaniyanın Reuters agentliyi*): **Cənab Prezident, Siz indi investisiyalar, Qarabağın bərpasına investisiyaların qoyulması barədə danışdınız. Mən soruşmaq istərdim, Qarabağda möhkəm sülh üçün, onun bərpasına əcnəbi investorları və kreditorları cəlb etmək üçün kifayət qədər zəmanət varmı? Ümumiyyətlə, təqribən hansı həcmdən söhbət gedir? Bildiyim qədər bu il büdcədən 2,2 milyard manat ayrılıb. Bu, böyük məbləğ deyil, orada bərpa işləri çox böyükdürmü? Özəl investisiyalar cəlb ediləcəkmi? Rəsmi Bakı bütövlükdə bu prosesə necə baxır? Bir sualım da var. Sizin fərmanınızla Azərbaycan Dövlət Neft Şirkəti Azərbaycan İnvestisiya Holdinqinə verilib və onun səhmləşdirilməsi prosesi gedir. Bu o deməkdirmi ki, rəsmi Bakı artıq ölkənin bir sıra iri dövlət şirkətlərinin özəlləşdirilməsi üçün onları açıq elan etməyə hazırlaşır? Demək olarmı ki, bu, əcnəbi investorlara mesajdır? Siz giriş sözünüzdə çox yaxşı qeyd etdiniz ki, işğaldan azad edilmiş bir sıra ərazilərə əcnəbi jurnalistlərin səfəri təşkil olunub, Sizin Administrasiyanız bu işi çox peşəkarlıqla, yüksək səviyyədə həyata keçirib. Lakin yəqin ki, həmkarlarım da məni dəstəkləyər, biz hamımız Şuşa şəhərinə səfər etmək, onun indi nə vəziyyətdə olduğunu, onun nə dərəcədə dağıdıldığını, orada hansı işlərin aparıldığını, hazırda bu şəhərin əhvalını görmək istərdik. Mən risk edib bu**

**səfərin təşkilinə kömək göstərməyinizi Sizdən xahiş edirəm. Çox sağ olun, cənab Prezident.**

**İ l h a m Ə l i y e v:** Əcnəbi investorlara gəlincə, düşünürəm ki, müharibənin başa çatmasını nəzərə alsaq, indi əcnəbi investorlar Azərbaycana daha fəal şəkildə sərmayə qoyacaqlar. Hamı başa düşür ki, hərbi əməliyyatların yenidən başlanması riski praktiki olaraq, sıfıra endirilib. Azərbaycana gəlincə, bizim tərəfimizdən heç bir təcavüzkar hərəkətlər olmayacaq. Ermənistana gəlincə, onların sadəcə olaraq, buna imkanları yoxdur və fikirləşirəm ki, mənim barəsində danışdığım və sitat gətirdiyim özünə qəsd hətta onların vəziyyətində belə, ən yaxşı çıxış yolu deyil. Ona görə də əminəm ki, investisiyalar olacaq. Mən sizə deməliyəm ki, biz hələ müharibədən əvvəl bərpa olunan enerjiyə investisiyalar cəlb etməyə nail olmuşuq. İki iri beynəlxalq şirkət ümumi həcmi 440 meqavata bərabər Günəş və külək elektrik stansiyaları tikintisinə sərmayə yatırmaq arzusunda olduqlarını bildirib. Dünyanın aparıcı enerji şirkətləri arasında tender keçirilib və iki şirkət ən yaxşı təkliflər irəli sürüb. Lakin mən o vaxt dedim, bu o demək deyil ki, uğur qazana bilməyən digər şirkətlər kənarda qalacaq. Buna görə də biz indi bu sahəyə sərmayə yatırmaq istəyən şirkətləri cəlb edirik. Məhz azad edilmiş ərazilərdə bunun üçün yaxşı imkanlar mövcuddur. Kəlbəcər–Laçın zonasında külək stansiyaları, çünki orada çox güclü küləklər olur, Zəngilan–Cəbrayıl zonasında isə Günəş stansiyaları, çünki orada Günəş şüalarının il ərzində miqdarı da çox böyükdür və əgər belə demək olarsa, Günəş şüalarının keyfiyyə-

ti də buna imkan verir. Beləliklə, bu gün Azərbaycanın müvafiq strukturlarına əcnəbi tərəfdaşlarla bu məsələlər üzərində işləmək tapşırığı verilib. Yəni bu çox böyük perspektivə malikdir. Üstəlik, dediyim kimi, biz artıq Qarabağı «yaşıl enerji» zonası elan etmişik və bunun üçün ilk növbədə, investorları gözləyirik.

Dövlətin 2,2 milyard manat investisiyasına gəlincə, fikrimcə, bu, başlanğıc üçün məqbul məbləğdir. Onu da deyim ki, Qarabağın bərpası barədə mənə təklif edilmiş investisiya proqramından bu il həyata keçiriləcək layihələrdən təxminən 1 milyard manatı praktik olaraq paylanıb. Yəni bu nə deməkdir? Bu o deməkdir ki, hələ layihələr yoxdur. Çünki layihələr infrastruktur layihələridir, biz onlara vəsait ayırırıq. Bu, elektrik enerjisi, yollar, dəmir yolları, minalardan təmizləmə və sairə sahələrdir. Tikintinin özünə gəlincə, buna hələ heç nə ayırmırıq, çünki bu layihələr hələ mövcud deyil. Biz şəhərsalmada, hətta Bakı şəhərinin tikintisi zamanı buraxılmış səhvlərə yenidən yol verməməkdən ötrü hər şeyi düzgün planlaşdırmaq istəyirik. Tikintinin xaotik, nəzarətsiz, əksər hallarda adi və aydın olmayan sxemlər üzrə getdiyi digər şəhərlərdəki kimi, Qarabağ zonasında olmamalıdır. Təkcə Qarabağ zonasında deyil, bu artıq təcrübə olacaq, həmin təcrübə paralel olaraq Azərbaycanın bütün başqa ərazilərində də tətbiq ediləcək. Buna görə də hər şey düzgün planlaşdırılmalıdır. Harada nə yerləşdirilməlidir, hansı infrastruktur layihələri həyata keçirilməlidir ki, hər şey plan üzrə getsin. Əlbəttə ki, dövlət bütün in-

frastruktur sahəsini, üstəlik mənzil fondunun böyük hissəsini də öz üzərinə götürəcək. Lakin şəhərsalmanın və ekologiyanın bütün normalarına riayət olunmaqla, razılaşdırılmış layihələr üzrə xüsusi ayrılmış yerlərdə özəl şirkətlər də investisiya qoymaq imkanına malik olacaqlar. Bax, təxminən yanaşmanı belə görürük. Kəndlərə gəlincə, bu ərazilərdə yüzlərlə kənd azad edilib. Bəzi kəndlərdə əvvəllər 5 ev, 6 ev, 7 ev olub. Yəqin ki, onlar prioritet olmamalıdır.

Buna görə də biz indi ilk növbədə, hansı kəndlərin bərpa olunacağını və bundan ötrü nə etmək lazım olduğunu müəyyən edirik. Həmçinin mənim tapşırığımla, artıq keçmiş köçkünlər arasında sorğuya başlanılıb ki, biz kimin oraya getməyə hazırlaşdığını dəqiq bilək. Bilirsinizmi, mən də əminəm ki, Allahın izni ilə hamı getmək istəyir, amma ola bilsin, kimsə getmək istəməyəcək. Əgər o getməyəcəksə və ya oraya həftəsonu gedəcək, özü isə Bakıda və ya Sumqayıtda yaşayacaqsa, nə üçün xərc çəkməliyik. Məgər bu, vəziyyətdən çıxış yoludurmu? Xeyr. Biz o yerlərdə kim yaşayacaqsa onları yerləşdirməliyik. Bax, buna görə biz sorğu keçirməliyik, özü də elə-belə, soruşmaq və unutmaq üçün yox. Xeyr. İmza etsin ki, mən filankəs filan rayonun filan kəndinə köçüb getməyə və orada yaşamağa hazırlaşıram. Buna uyğun olaraq, biz maliyyə məsələlərini və bütün digər məsələləri həll edəcəyik. Əks halda, mən öncəgörənlik etmək istəmirəm, lakin bilirəm ki, işğaldan azad edilmiş ərazilər Bakıda yaşayanlar üçün bağ sahəsi deyil. Biz, ümumiyyətlə, kimin orada

yaşayacağına ciddi nəzarət edəcəyik və məhz oraya getmək istəyənlər üçün hər cür şərait yaradacağıq.

İnvestisiya Holdinqinə gəlincə, mən çox danışmayacağam, fikrimcə, onun nə üçün yaradıldığını hamı bilir və mənim fərmanımda bu barədə dəqiq göstərilib. İlk növbədə, idarəçilik sistemini təkmilləşdirməkdən ötrü. Dövlət şirkətlərində idarəçilik sistemi axsayır. O, müasir tələblərə cavab vermir. Bu, ləngidici amildir və büdcədən vəsaitlərin sovrulması üsuludur. Bizdə praktik olaraq, heç bir dövlət şirkəti, az istisnalar olmaqla, özünü dolandıra bilmir. Deməli, daim büdcədən dotasiyalar tələb edirlər. Bu nəyə lazımdır? Buna görə də daha belə davam edə bilməz. Digər tərəfdən, bu mərhələdə strateji infrastruktur, özü də Qarabağın bərpası nəzərə alınmaqla, dövlətin əlində qalmalıdır. Bu birmənalıdır, əks halda, biz sadəcə olaraq, ərazini bərpa edə bilməyəcəyik. Əgər bu gün fərz etsək ki, bizim bütün dövlət şirkətlərimiz bir növ özəl Qərb şirkətlərinin korporativ idarəçilik üsulu ilə işləyir, o halda onlar sadəcə, ərazilərin bərpası üçün lazım olan layihələrə sərmayə yatırmayacaqlar. Buna görə də bu mərhələdə məqsəd dövlət şirkətlərinin korporativ idarəçiliyini beynəlxalq normalara uyğun şəklə salmaq, lazımi nəzarəti təmin etməkdir. Bundan ötrü müşahidə şuraları yaradılır.

Müşahidə şuralarına Administrasiyanın, nazirliklərin, hökumətin nümayəndələri daxil ediləcək ki, nəzarətsizlik, israfçılıq olmasın. Ona görə ki, bu gün dövlət şirkətləri bir çox məsələlərdə dövlətin boynunda ağır yükdür. Hətta vergiödəyicisi olan Dövlət Neft Şirkəti də dövlətdən pul alır. Bu yaxınlaradək

qazlaşdırılma üçün büdcədən pul alırdı. Belə iş olarmı? Mən hələ başqalarını demirəm. Cüzi istisnalar olmaqla, bizim dövlət şirkətləri səmərəsizdir. Buna son qoyulacaq, həm rəhbərliyin möhkəmləndirilməsi, həm də idarəçiliyin təkmilləşdirilməsi planında. Kim yeni qaydada vicdanla, şəffaf işləməyi bacarmırsa və ya bunu istəmirsə, o, məsuliyyətə cəlb ediləcək, özü də təkcə inzibati məsuliyyətə yox.

Dövlət şirkətlərinin özəlləşdirilməsinə gəlincə, hər halda, bu il bu, dəqiq baş verməyəcək. Lakin dövlət şirkətlərinin bəzi fəaliyyət sahələri, əlbəttə ki, o cümlədən dövlət kapitalı hesabına inkişaf etdirilməlidir. İlk növbədə, mən enerji sahəsini nəzərdə tuturam. Biz bu sahəni əcnəbi və Azərbaycan özəl kapitalı üçün artıq açmışıq. Bizim Günəş, külək stansiyalarını tətbiq edəcəyimizi dedim. Bizdə Laçın–Kəlbəcər zonasında hidroenergetika üçün böyük potensial mövcuddur. Niyə də Azərbaycan şirkətləri layihələrdə iştirak etmək üçün təkliflər verməsin? Oraya o qədər də böyük vəsait tələb olunmur. Bu hidroelektrik stansiyaları kifayət qədər kiçik həcmdədir. Bu, yaxşı addım olacaq, biz bunun necə işləməsini, bizim ümumi enerji təminatı sisteminə necə inteqrasiya edəcəyini testdən keçirəcəyik ki, bu şirkətlər fəaliyyət göstərsin, hələlik bu mərhələdə dövlətin üzərinə az yük düşsün.

Şuşaya səfərə gəlincə, mən göstəriş verərəm ki, jurnalistlər oraya getsinlər. Oraya gedişlə bağlı çətinliklər vardı, çünki orada praktiki olaraq, yol yox idi. Hətta mən getdiyim zaman sadəcə, bəxtim gətirdi ki, hava günəşli və yol quru idi. Əks halda, mən də yarı yolda qalardım. Buna görə Hikmət Ha-

cıyevə tapşırıq verirəm ki, yaxın vaxtlarda bu səfər həyata keçirilsin. Yeri gəlmişkən, bu barədə başqa müraciətlər də olub.

**S u a l** (*CBC Azərbaycan telekanalı*): **Cənab Prezident, uzun illərdir ki, Azərbaycan dünya ictimaiyyətinin diqqətini ərazisinin işğal olunmasına və maddi-mənəvi irsinin talan edilməsinə yönəltmək istəyib. Rəsmi Bakı dəfələrlə beynəlxalq qurumlara çağırışlar edib ki, o qurumlar münaqişənin həlli üçün təsirli addımlar atsın. Amma biz hamımız laqeydliyin və ikili standartların hökm sürdüyünün şahidi olduq. Sonda Azərbaycan öz gücü hesabına ərazi bütövlüyünü bərpa etdi. Necə düşünürsünüz, Azərbaycanın ortaya qoyduğu nümunə dünyanın digər nöqtələrində dondurulmuş münaqişələrin həlli barədə formalaşan stereotipləri pozubmu?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, böyük dərəcədə pozub və biz yeni reallıq yaratmışıq. Dondurulmuş münaqişələr dünyanın bir çox yerlərində var, təkcə postsovet məkanında yox. Əgər bu münaqişələrə nəzər salsaq, onların mənşəyini və indiki vəziyyətini təhlil etsək görərik ki, artıq o ölkələrin vətəndaşları da, beynəlxalq ictimaiyyət də elə bil ki, bu vəziyyətlə müəyyən dərəcədə barışıb, razılaşıb. Yaxud da bunu alternativsiz bir variant kimi qəbul edir. Müəyyən dərəcədə burada məntiq vardır. Çünki uzun illər davam edən nə hərb, nə sülh vəziyyəti, dondurulmuş münaqişələr istər-istəməz belə fikirlərin yaranmasına gətirib çıxarır.

Bu, birincisi. İkincisi, burada stereotiplərin qırılması üçün bir neçə amil lazımdır. Əgər bu amillər,

onların vəhdəti varsa, deməli, bu stereotiplər qırılacaq. Birincisi, güclü siyasi iradə olmalıdır: liderlərin güclü siyasi iradəsi və istənilən təzyiqə davam gətirmə qabiliyyəti. Bu, hesab edirəm ki, 1-ci dərəcəli məsələdir. Çünki öz təcrübəmə istinad etsəm deyərəm ki, 17 il ərzində müxtəlif dövrlərdə mənə təzyiq cəhdləri gah artırdı, gah səngiyirdi. Amma hər zaman var idi, hər zaman. Bax, mən bu barədə də demişəm. Reallıq var və siz gərək reallıqla barışasınız, indi sizə nə təklif olunur, bununla da kifayətlənin, qalan torpaqlar qalsın, Ermənistan razı deyil, orada referendum keçirilməlidir, səsvermə keçirilməlidir və sair. İndi ictimaiyyət bunu bilir.

Bizim münaqişənin vasitəçiləri dünyanın aparıcı ölkələri idi, ya da ölkələridir. Kim necə istəyir, elə də qəbul etsin, Təhlükəsizlik Şurasının daimi üzvləri və bu ölkələrə «yox» demək, onların iradəsindən kənarda addımlar atmaq, əlbəttə ki, o qədər də asan məsələ deyildi. Ona görə də güclü siyasi iradə varsa, bu bir, ikincisi, xalqın mövqeyindən çox şey asılıdır. Əgər xalq bu vəziyyətlə razılaşıbsa, barışıbsa, onda bu münaqişə dondurulmuş qalacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayıb və mən hər zaman Azərbaycan xalqına müraciət edərək deyirdim ki, biz heç vaxt bununla barışmayacağıq. Bəziləri fikirləşirdi ki, nə üçün İlham Əliyev harada gəldi Qarabağ məsələsini qaldırır. Heç bu mövzuya aidiyyəti olmayan beynəlxalq tədbirlərdə də hər dəfə qaldırırdım. Bəlkə eyni sözləri min dəfə deyirdim ki, o adamların beyninə girsin. Bu, birincisi. İkincisi, bu heç vaxt burada – daxildə unudul-

masın. Heç vaxt. Həm məcburi köçkünlərdə belə bir ümidsizlik yaranmasın, həm də cəmiyyətdə heç vaxt bu mövzu unudulmasın və bu mövzunu gündəlikdə saxlamaq hesab edirəm ki, vacib məsələlərdən biridir. Xüsusi ilə nəzərə alsaq ki, hər şeyi mən indi olduğu kimi deyirəm, real vəziyyət onu göstərirdi ki, bu məsələni hərbi yolla həll etmək çox baha başa gələr bizə. Hətta bütün imkanlarımız olsa belə, bunun, necə deyərlər, hesabı çox ağrılı ola bilər. Üçüncüsü, əlbəttə ki, güclü ordu olmalıdır. Bu olmasa, heç bir münaqişə həll oluna bilməz və sən haqlı olmalısan. Bizdə bütün ilkin amillər var idi. Biz haqlı idik, tarix baxımından, bu bizim torpağımızdır, beynəlxalq hüquq baxımından, beynəlxalq təşkilatların qətnamələri baxımından bütün bu məsələlər bizim mövqemizi gücləndirirdi. Amma nə üçün biz bu torpaqları vaxtilə, ötən əsrin 90-cı illərinin əvvəllərində itirdik? Çünki idarəetmə yox idi, ordu yox idi və burada Bakıda 1992-ci ildə minlərlə adam mitinqlərə çıxırdı, amma orada mövqelər boş qalırdı. Vətəndaş müharibəsini o vaxt Xalq Cəbhəsi başlamışdı, Azərbaycan əsgərlərini əsir götürmüşdü, o vaxt da bizim torpaqlarımız işğal altına düşmüşdü. Hakimiyyət uğrunda mübarizə gedirdi. Yəni milli vəhdət, vahid ideya uğrunda o vaxt biz birləşə bilməmişdik, indi isə birləşmişik. Bir də ki, nəsil yetişməli idi, mən bu barədə artıq bir neçə dəfə demişəm. Qarabağı azad edənlərin arasında ən böyük rol oynayan bizim son 17 il ərzində yetişdirdiyimiz insanlarımızdır. Yaşlı nəslin, əlbəttə, böyük əməyi, təcrübəsi və biliyi vardır. Amma döyüşə gedən, öz sinəsini atəş altına

qoyan, bax, 17 il ərzində vətənpərvərlik ruhunda tərbiyə almış bizim övladlarımızdır. Hansılar ki, Vətən uğrunda öz canından keçib. Bu amillər olan zaman istənilən münaqişə həll oluna bilər və təbii ki, digər amillər var, iqtisadi inkişaf və sair. Amma əgər bu amillər yoxdursa, heç bir dondurulmuş münaqişənin həlli mümkün deyil.

Biz yeni reallıq yaratdıq və indi hər kəs bu reallıqla barışmalıdır, hesablaşmalıdır. Bizim üçün yeni dövr başlanır. Postmüharibə dövrü bir çox ölkələr üçün çətin dövr olub. Amma müharibədən sonra artıq bir neçə ay keçib və biz görürük ki, postmüharibə dövrü də bizdə çox rahat keçir. Bu da cəmiyyətimizin çox böyük üstünlüyüdür, xalqımızın böyüklüyüdür və bu gün məhz bu ideyalar uğrunda biz yenidən birləşirik. Yeni ideyalar uğrunda – Qarabağı necə bərpa edək, keçmiş köçkünləri torpaqlarına necə qaytaraq. Bundan sonra elə bir qüdrətli dövlət yaradaq ki, heç kim heç vaxt bizə qarşı heç bir təxribat törədə bilməsin.

**Sual** (*Böyük Britaniyadan müstəqil jurnalist*): **Cənab Prezident, bizi bura dəvət etdiyinizə görə Sizə təşəkkür edirik. Düşünürəm ki, mətbuat konfransının davamlılığına görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 dildə mətbuat konfransı aparmasının şahidi olmamışdım. Dünən biz Sizin bəzi nazirlərinizlə də görüşlər keçirdik. Onlar da bizə məsələlərlə bağlı dolğun məlumat verdilər. Təbii ki, biz də Xocalı soyqırımının qurbanlarını dərin hüznlə anırıq. Cənab Prezident, Siz artıq bir çox suallara cavab ver-**

**misiniz. Siz dünya mediasının Azərbaycana olan münasibətini necə qiymətləndirirsiniz? Burada bir çox jurnalistlər var, Sizin onlara mesajınız nədən ibarət olacaq və Siz gələcəyi necə görürsünüz? Azərbaycanın mövqeyinin dünyaya çatdırılması baxımından hansı planlarınız vardır?**

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm, sizi təəccübləndirmək istəyirəm ki, mənim sonuncu dəfə nə vaxt mətbuat konfransı təşkil etdiyim heç xatirimdə deyil. Mən bilirəm ki, hərdən yerli jurnalistlər də bir növ gileylənirdilər ki, niyə Prezident Əliyev mətbuat konfransları təşkil etmir, müsahibələr vermir. Mən hesab edirəm ki, hər bir işin öz vaxtı var. Sənin vermək istədiyin bir mesaj varmı və səni dinləyəcək bir auditoriya varmı? Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqemizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərimin və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur. Bu gün sizinlə razılaşıram ki, bu da xüsusi bir gündür. Mənə məlumat veriləndə ki, xarici jurnalistlərdən ibarət qrup buradadır, düşündüm ki, bu, yaxşı bir imkandır. Ona görə sizin hər birinizə təşəkkürümü bildirirəm, siz gəlməsəydiniz yəqin ki, bu mətbuat konfransı da baş tutmayacaqdı.

Dünya mətbuatının Azərbaycana münasibətinə gəldikdə, deyə bilərəm ki, bu məsələ artıq dəyişir. Bu məsələyə yanaşma dəyişir, fikirlər dəyişir və reallıq artıq daha yaxşı dərk edilir. Bunun ən yaxşı yolu Azərbaycana gəlməkdir. Biz başqa xarici ölkədə sizinlə görüşsəydik, sizə eyni sözləri desəydim siz bunu fərqli şəkildə qəbul edə bilərdiniz. Ancaq bu gün siz buradasınız, siz hamınız peşəkarsınız, ağıllı insanlarsınız və bilirsiniz ki, doğru və yanlış nə deməkdir. Siz həmin dağıdılmış ərazilərə səfər edirsiniz və bu hər bir sözdən artıqdır, bunu öz gözünüzlə görmək imkanınız olur. Ona görə hesab edirəm ki, müharibə vaxtı mən, səmimi desəm, bir balaca fərqli yanaşma gözləyirdim, çünki uzun illərdir ki, Azərbaycana qarşı ədalətsizlik hökm sürürdü, bizə qarşı müxtəlif media qrupları tərəfindən hücumlar var idi. Bəzən bu, məlumat qıtlığından qaynaqlanırdı, ancaq bir çox hallarda erməni lobbi təşkilatlarının sayəsində baş verirdi. Onlar hər zaman Azərbaycana qarşı hücumlar ediblər. Bəziləri hesab edirəm ki, o qədər də müstəqil olmayan media şirkətləri idi. Amma mən, sözün açığı, gözləyirdim ki, müharibə zamanı bizə qarşı ədalətsizlik olacaq. Ancaq ümumi deyə bilərəm ki, məni təəccübləndirdi ki, Azərbaycana qarşı ədalətli mövqe var idi. Bunun da, əlbəttə, səbəbi ondan ibarətdir ki, biz haqlı idik, biz öz ərazilərimizi işğaldan azad edirdik. Mənim beynəlxalq mediaya mesajım ondan ibarətdir ki, hər zaman həqiqətləri söyləyin, siyasi sifarişlərdən uzaq olun. Nəyə görə mən bunu deyirəm? Mən bilirəm ki, biz əlaqələndirilmiş, təşkilatlanmış informasiya hücumuna məruz qalır-

dıq. Bu əməllər bizim etdiyimizi gözdən salmaq, bizə ləkə yaxmaq və Azərbaycan haqqında, onun hökuməti haqqında yanlış təsəvvürlər yaratmaq məqsədi daşıyıb. Ona görə də sizə səslənirəm ki, həqiqəti söyləyin, mövqenizi açıq ifadə edin. Ola bilər ki, bu, jurnalistlərə verə biləcəyim o qədər də yaxşı tövsiyə olmaz. Amma rəhbərlərinizin dediklərinə hər zaman əməl etməsəniz, bəlkə daha yaxşı olardı.

**S u a l** (*Türkiyənin «Haber Qlobal» televiziya kanalı*): **Cənab Prezident, əvvəlcə, belə önəmli bir gündə bizi qəbul etdiyiniz üçün təşəkkür edirik. Şəhidlərimizin xatirəsini bir daha anırıq və Qarabağdakı Zəfər münasibətilə Sizi bir daha təbrik edirik. Bu çox maraqlıdır, əslində bir az bu məsələlərə toxunuldu. Birincisi, Qarabağın yenidən bərpası prosesində Türkiyə bu mərhələdə nə qədər yer alacaq? İkinci sualım da budur ki, iki qardaş ölkə arasındakı əməkdaşlığın hazırda davam etdiyini bilirik. Bu əməkdaşlıq istər müdafiə sənayesi, istərsə də yenidənqurma–inşaat sahələrində hansı mərhələlərdə davam edəcəkdir?**

**İ l h a m  Ə l i y e v:** Deyə bilərəm ki, Türkiyədən olan şirkətlər artıq bizim layihələrimizdə yer alıblar. Bizim üçün strateji önəm daşıyan Füzuli–Şuşa avtomobil yolunun inşası ilə bağlı türk şirkətləri artıq fəaliyyətdədir. Eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə çəkilən yolda da türk şirkətləri fəaliyyət göstərir və o da çox mürəkkəb, çətin bir ərazidən keçir, orada tunellər qazılmalıdır. Artıq ilkin razılaşmalar əldə edilibdir.

Bununla paralel olaraq, bildiyiniz kimi, Türkiyə şirkətləri Azərbaycanda bundan əvvəl də fəal idi.

Dövlət xətti ilə icra edilən layihələrdə ən çox yer alan Türkiyə şirkətləridir. Dəqiq rəqəmləri xatırlamıram, amma Türkiyə şirkətləri Azərbaycanda – Bakıda və bir çox başqa yerlərdə təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak edibdir.

Təbii olaraq, ilk kontraktları imzalayan da Türkiyə şirkətləri olub. Görüləcək işlərin həcmi çox böyükdür. Ona görə mən artıq bu barədə əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə də dəfələrlə danışmışam. Biz bütün bu işləri birgə görəcəyik və Türkiyə şirkətlərinin buradakı fəaliyyəti üçün yeni imkanlar yaranacaq. Xüsusilə nəzərə alsaq ki, inşaatda, ondan sonra infrastruktur işlərində və digər sahələrdə, yenidənqurma sahəsində türk şirkətlərinin çox böyük təcrübəsi vardır.

Müdafiə sənayesinə gəldikdə, müharibə dövründə bütün dünya Türkiyə müdafiə sənayesinin keyfiyyətini gördü. Bu, artıq dünya üçün sirr deyil. Türkiyə istehsalı olan müdafiə sistemlərindən Azərbaycan məharətlə istifadə etdi və bu bizə böyük üstünlük verdi. Müharibədən sonra da bu təmaslar davam edir. Onu bildirməliyəm ki, yeni kontraktlar imzalanıb. Türkiyə tərəfi ilə Türkiyədə istehsal olunan ən müasir silah növlərinin Azərbaycana gətirilməsi üçün razılaşma əldə edilib. Yeni kontraktlar imzalanıb və bu bizim hərbi gücümüzü yüksək dərəcədə gücləndirəcək. Bildiyiniz kimi, Türkiyə–Azərbaycan birgə hərbi təlimləri də müntəzəm olaraq keçirilir. Keçən il pandemiyaya görə az keçirildi, amma 2019-cu ildə 10 dəfədən çox

keçirilmişdir və bu il artıq Qars şəhərində keçirilibdir. Bu sahədə də işlər aparılacaq.

Biz azad edilmiş torpaqlarda bir çox sahələrdə Türkiyə şirkətlərini görmək istəyirik. Əminəm ki, görəcəyik, inşaat, yenidənqurma, infrastruktur və tarixi abidələrimizin bərpası işlərində. Görüləcək işlər çoxdur. Bundan sonra da, inşallah, bərabər gedəcəyik.

**S u a l** (*Ukraynanın «İnter» telekanalı*): **Hər vaxtınız xeyir, cənab Prezident. Bizi maraqlandıran məsələlər barəsində Sizin rəyinizi şəxsən öyrənmək imkanı yaratdığınıza görə sağ olun. Mən hərbi jurnalist kimi, bütün planetdə onlarca müxtəlif hərbi münaqişələri işıqlandırmaq imkanına malik olmuşam. Demək istəyirəm ki, Azərbaycanın işğal olunmuş rayonlarının azad edilməsi üçün xüsusi əməliyyat mənim fikrimcə, həm yeni hərbi texnologiyaların tətbiqi baxımından, həm də ən başlıcası, dinc əhali və hərbçilər arasında tələfatın minimuma endirilməsi baxımından nümunəvi əməliyyat idi. Azərbaycan bütün dünyaya göstərdi ki, səngər müharibəsi artıq keçmişdə qalıb və mən əminəm ki, bu bir çox hərbi məktəblərin dərsliklərinə daxil ediləcəkdir. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı bu xüsusi əməliyyatı diqqətlə izləyirdi. Ukraynanın hərbi dairələri bu əməliyyatın nəticələrini fəal müzakirə edir, yüksək qiymətləndirirdi. Ola bilsin, belə bir yanlış təəssürat yaranıb, bəlkə də Siz həmin təəssürata düzəliş edəcəksiniz ki, bu əməliyyatın uğur qazanmasında aerokosmik texnologiyalar həm atəşin təshih edilməsi, həm nöqtəvi zərbələr endirilməsi, həm də kəşfiyyat məlumatının toplanması kontekstində böyük rol oynayıb. Bu, həqiqətə nə dərəcədə**

**uyğundur, xüsusən ona görə ki, Ukrayna da hərbi-sənaye kompleksinə, aerokosmik sahəyə əsaslanaraq, bu məsələdə potensiala malikdir. Üstəlik, indi Azərbaycanın sayəsində oriyentirimiz var, çünki görürük, bizdə münaqişə uzandıqca onun diplomatik yolla həllinə inam azalır. Biz müasir təcrübəni tətbiq etmədən ərazimizi öz nəzarətimiz altına başqa yolla qaytara bilməyəcəyik. Xahiş edirəm, bu məsələni şərh edəsiniz, cavabınıza görə əvvəlcədən təşəkkür edirəm.**

**İlham Əliyev:** Bizim fəaliyyətimiz barədə dediyiniz sözlərə görə çox sağ olun. Xüsusi qeyd etmək istərdim ki, siz dinc əhali arasında itkilərin minimuma endirilməsi barədə danışdınız. Biz azadlıq əməliyyatlarını həyata keçirərkən mənim Ali Baş Komandan kimi, verdiyim göstərişlərdən biri bu barədə olub. Statistikaya baxsanız, bizdə olan məlumata görə qarşı tərəfin dinc əhalisi arasında itki minimum olub. Bu itki 40 nəfərdən azdır. Eyni zamanda, onların hərbi qulluqçuları arasında itki ən azı 6,5 – 7 min nəfərə çatıb. Bundan əlavə, bizim müşahidələrə görə, düşmən tərəfin belə adlandırılan dinc əhalisinin çox hissəsi onlar əməliyyatlarla bağlı hərəkətlər edən zaman həlak olublar, onlar artilleriya toplarının yaxınlığında olub, döyüş sursatları daşıyıblar və o vaxt biz bu topları məhv edərkən həmin adamlar zərər çəkiblər. Buna görə də müharibədə dinc əhali zərər çəkməyib. Erməni tərəfi isə təəssüf ki, əksinə, bizim dinc əhaliyə maksimum zərər vurmağa çalışırdı, Gəncənin, Bərdənin, Tərtərin və digər şəhərlərin ballistik raketlərlə bombalanması buna sübutdur.

Azadlıq müharibəsi məsələsinə gəldikdə, əlbəttə, sizinlə razıyam və bilirəm ki, hazırda aparıcı xüsusi hərbi məktəblərdə həm xüsusi əməliyyatların aparılması, həm də bütün qoşun növlərinin səylərinin əlaqələndirilməsi öyrənilir. Yəni bu əməliyyat barəsində hər şey məlum olanda, o, ən uğurlu əməliyyat kimi tarixə düşəcək. Başa düşmək lazımdır ki, düşmən təqribən 30 il ərzində müdafiə səddini çox fəal şəkildə möhkəmləndirmişdi. Hətta işğaldan azad edilmiş ərazilərə gedəndə, yəqin siz də görmüsünüz, xüsusən Füzuli istiqamətində bir neçə müdafiə xətti, üstəgəl uzunmüddətli atəş nöqtələri, hətta onların öz mövqeləri də atəşə tutulub ki, biz oraya daxil olanda bizi artilleriya atəşinə tutsunlar. Ona görə də dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmaq üçün çox böyük cəsarət, qorxmamaq tələb olunurdu və bizim həmlə dəstələrimiz düşmənin müdafiə xəttini yararkən əsl qəhrəmanlıq göstəriblər. Təəssüf ki, onların arasında qurbanlar az olmadı. Ona görə ki, əsas məsələ müdafiə xəttini yarmaq idi. Özü də biz onların bizi haradan gözlədiklərini və nə edəcəklərini təxminən bilirdik. Buna görə də elə yerdən gedirdik ki, onların ağlına belə, gəlməzdi. Onlar bizim Şuşaya necə gedib çıxmağımızı hələ də başa düşə bilmirlər. Başa düşə bilmirlər, bir-birindən soruşurlar. Bəzən bu məsələ mətbuata çıxır. Lakin haçansa başa düşəcəklər, bu da Azərbaycanın xüsusi təyinatlılarının və digər xüsusi hərbi birləşmələrinin misilsiz mərdliyi, qəhrəmanlığı, fədakarlığı ilə bağlı ayrıca bir əhvalatdır. Lakin bu gün artıq sirr deyil ki, döyüş əməliyyatlarında sərhəd xidmətinin xüsusi təyinatlı qüv-

vələri, daxili qoşunlar, təhlükəsizlik xidməti, kəşfiyyat xidməti, Naxçıvan ordusunun xüsusi qüvvələri iştirak edirdi. Onlardan hər birinin vahid komandanlıq altında öz vəzifəsi var idi. 44 gün ərzində ərazilərimizi azad etməyimizdə xüsusi təyinatlıların böyük xidməti olub. Ordu korpusları da ərazilərin azad edilməsində və mövqelərin əldə saxlanılmasında böyük rol oynayıbdır. Cəbhə aviasiyası, həm də sizin dediyiniz pilotsuz uçuş aparatları da, əlbəttə, itkilərin minimuma endirilməsində çox böyük rol oynayıb, ona görə ki, əgər onlar olmasaydı tələfat qat-qat çox olardı. Sizin tamamilə düzgün olaraq qeyd etdiyiniz kimi, onlar təkcə zərbə və kəşfiyyat funksiyalarını deyil, həm də atəşin təshih edilməsi funksiyalarını yerinə yetirirdi. Hətta bəzən göstərilən kadrlarda da görünür ki, hədəf götürülüb, mərmi isə hədəfi vurmur. Buna görə də bütün bu əməliyyatların kombinasiyası uğurla nəticələndi. Bir də planlaşdırmanın düzgün olması. Sizə deməliyəm ki, planlaşdırma düzgün olmasaydı bizim üçün çox çətin olardı. Ona görə ki, orada uzunmüddətli istehkamlardan əlavə, təbii relyef də çətinlik törədir. Axı dağa dırmaşmaq, aşağıdan yuxarıya qalxmaq lazımdır. Şuşanın alınması isə, ümumiyyətlə, ayrıca dastandır, bəli, bu, epos kimidir. Ona görə ki, döyüşçülər nə götürə bilərdilərsə götürməliydilər, amma özünlə nə götürə bilərsən? Maksimum qumbaraatan. Bu, inanılmaz fiziki qüvvə, hazırlıq tələb edir. Bu sal qayalara aşağıdan dırmaşmaq lazımdır. Müdafiə xətləri çox möhkəmləndirilmişdi, özü də orada ermənilərin tankları və topları vardı. Bizdə isə süngü, bıçaq və yüngül silahlar. Bəzən mən də

ekspertlərin fikrini müşahidə edirəm, əlbəttə, hərənin öz fikri vardır. Bu da aydındır, çünki ekspert döyüş əməliyyatlarının bütün mənzərəsinə bələd ola bilməz. Buna görə də təbii ki, müharibənin aparılmasının bir növünün xeyrinə müəyyən meyil olur. Amma deməliyəm ki, bu elementlərin heç biri vahid komandanlıq, planlaşdırılma olmadan bizim qələbəmizi təmin etməzdi. Məhz bunların hamısının düzgün kombinasiyası: kəşfiyyat, artilleriya, zərbə, pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpusları – bütün bunlar birlikdə qələbəyə gətirib çıxardı. Lakin zaman keçdikcə məxfilik qrifi götürüləcək və informasiya daha çox olacaq. Amma düşünürəm ki, hətta artıq olub keçənlər düzgün nəticə çıxarmaq üçün kifayət qədər əsas verir.

**S u a l** (*Böyük Britaniyanın «Middle East Eye» media qurumu*): **Salam, cənab Prezident. Mənim iki sualım var. Birincisi, Qarabağda azad edilmiş ərazilərin yenidən inşası üçün nə qədər pul xərclənəcəyini düşünürsünüz? Yəni hesablanıbmı cəmi neçə milyard dollar edəcək? İkincisi, beynəlxalq mediada Sizin Türkiyə ilə İsrail arasında əlaqələrin normallaşdırılması üçün vasitəçi olmağınıza dair xəbərlər var. Bununla bağlı fikirləriniz varmı?**

**İ l h a m Ə l i y e v:** Bizim bu ilin sərmayə planında 2,2 milyard manat vəsait nəzərdə tutulur. Mən qeyd etdiyim kimi, onun təqribən yarısı indi bölünüb, yarısı bölünməmiş qalır. Bunu hesablamaq çox çətindir. Çünki bu, görüləcək işlərin həcminə bağlıdır. Biz bu torpaqlara yeni gəlmişik. Hələ ki, tam təhlil aparılmayıb. Bu təhlil aparılandan sonra, əlbəttə, daha

dəqiq rəqəmlər məlum olacaqdır. Ancaq şübhəsiz, bu, bir neçə milyard dollar vəsait tələb edəcəkdir. İndi təsəvvür edin ki, biz üç hava limanı inşa edirik. Biz 100 kilometrlərlə dəmir yolu çəkməyə başlamışıq. Bəlkə minlərlə kilometr avtomobil yolu çəkiləcək, həm şəhərlərarası, həm kəndlərarası. Bütün kəndlərə asfalt yol çəkiləcək. Bütün bölgələrdə elektrik enerjisi ilə bağlı layihələr bu ilin sonuna qədər icra ediləcək. Ondan sonra içməli su və bununla bağlı işlər, kənd təsərrüfatı işləri, ondan sonra 1 milyon insanı ora qaytarmaq üçün nə qədər inşaat işləri aparılmalıdır. Məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları. Hesablamaq çox çətindir. Ona görə biz hər il üçün müəyyən büdcə ayırdıq. 2,2 milyard manatlıq büdcə son rəqəm deyil. Əgər görsək ki, bu ilə bu çatmır, biz əlavə edərik. Çünki bu gün bizim Qarabağın bərpasından başqa önəmli bir işimiz yoxdur. Çünki əsas infrastruktur layihələri artıq gerçəkləşib. Ölkə qarşısında duran çox ciddi inşaat layihələri də yoxdur. Ona görə bütün gücümüzü oraya yönəldirik.

Təbii ki, görüləcək işlər arasında xüsusi sərmayələr də önəmli yer tutmalıdır. Əgər bərpa olunan, yenilənən enerji növlərini özəl qurumlar öz üzərlərinə götürərlərsə təbii ki, dövlətin üzərinə düşən yük daha az olacaq. Hər halda, burada keyfiyyət, zaman və xərclərdən səmərəli istifadə önəmlidir.

Vasitəçiliyə gəldikdə, Azərbaycan bölgədə işbirliyini təmin edən bir ölkə kimi tanınır. Bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Məhz buna görə biz «Qoşulmama Hərəkatı»na yekdil səslə – 120 öl-

kədən 119-nun səsi ilə seçildik. Halbuki «Qoşulmama Hərəkatı»nda elə ölkələr var ki, bir-biri ilə yola getmir, onların arasında ciddi ixtilaflar vardır. Amma onların hər biri Azərbaycanı dəstəklədi. Çünki bizim çox səmimi siyasətimiz vardır.

Biz hər bir ölkə ilə səmərəli işbirliyi qurmaq fikrindəyik, bunu edirik. Ona görə istər-istəməz Azərbaycan dünyada bir görüşmə nöqtəsi kimi tanınır. Təsadüfi deyil ki, misal üçün, müharibədən, COVID-dən əvvəl NATO və Rusiya hərbi rəhbərlərinin görüşləri məhz Bakıda keçirilirdi. Rusiyanın Baş Qərargah rəhbəri və NATO-nun Silahlı Qüvvələrinin rəhbəri Bakıda görüşürdülər. Niyə Bakıda görüşürdülər, başqa yerdə görüşmürdülər? Çünki inam vardır. Artıq biz bu imici qazanmışıq. İnam var, etimad var və hörmət vardır. Bilirlər ki, bizim sözümüz imzamız qədər qüvvətlidir.

Digər önəmli hadisələr baş verir. Müharibədən sonra aralarında ixtilaflar olan bəzi ölkələri bir araya gətirmək üçün Azərbaycan səy göstərir. Nə üçün biz bunu edirik? Biz istəyirik ki, sabitlik olsun, sülh olsun, ədavət olmasın, risklər azalsın. Biz bu bölgədə yaşayırıq. Azərbaycanın daxilində hər hansı bir təhlükə, risk mənbəyi yoxdur. Müharibənin əvvəlində də yox idi, indi də yoxdur. Nə ola bilər, bizim üçün nə başağrısı yarada bilər? Bizim hüdudlarımızın kənarında müəyyən gərginlik bizə həm siyasi, həm iqtisadi problem gətirə bilər. Bunu aradan qaldırmaq üçün nə etmək lazımdır? Çalışıb ölkələri barışdırmaq. Bilirsiniz, bəzi hallarda emosiyalar üstünlük təşkil edir. Bəzi hallarda hansısa ifadə

edilmiş bir söz düzgün qəbul edilmir, yaxud da ki, yanlış anlaşılır. Yəni bütün bu emosional məsələlərdən masamızı təmizləməliyik və mahiyyətə baxmalıyıq. Mahiyyətdə nə var? Misal üçün, hər hansı iki ölkə arasında hansısa ciddi əsaslı ixtilaf var. Əgər varsa, gəlin bunu çözək. Yoxdursa, o zaman Azərbaycan kimi ölkənin, necə deyərlər, fəaliyyəti, əməyi yerində ola bilər. Mən bundan artıq deyə bilmərəm. Yəqin ki, siz də anlayırsınız nəyə görə. Ancaq mən hesab edirəm ki, dostlarımız arasında dostluq olarsa, o həm dostlarımız üçün, həm də bizim üçün daha yaxşı olar.

**S u a l** (*Ukraynanın «5-ci kanal» televiziyası*): **Hər vaxtınız xeyir, cənab Prezident. Ölkəniz üçün bugünkü Anım günündə Sizə başsağlığı vermək istərdim. Mənim sualım GUAM təşkilatı və dörd ölkənin bu formatda əməkdaşlığı barədə olacaq. Bilirik ki, bu format keçən əsrin 90-cı illərinin sonlarında yaradılıb və bu birliyin siyasi vektorunda deyilirdi ki, bu formatda iştirak edən dörd ölkə bir-birini qarşılıqlı surətdə dəstəkləyəcək, iştirakçı ölkələrin ərazisində münaqişələrin həllində bir-birinə kömək edəcəkdir. Bu formatın yaradılmasından artıq 20 il keçib, çox şey dəyişib. Ukraynada 7 ildir ki, müharibə gedir. Azərbaycan öz ərazilərini işğaldan azad edə bilib. Siz bu formatın iştirakçısı olan ölkələrdən birinin Prezidenti kimi, həmin ölkələrin gələcək əməkdaşlığını necə təsəvvür edirsiniz? Daha bir sözüm var, bu, sual deyil, həmkarımın arzusuna dəstəkdir: Şuşanı görməyi çox istəyirəm.**

**İ l h a m Ə l i y e v:** Yaxşı, çox sağ olun. Mən demək istərdim ki, Azərbaycan öz xarici siyasət fəa-

liyyətində həmişə ardıcıl olub və mən çıxışlarımda vaxtaşırı olaraq bizim xarici siyasətin əsaslarına toxunuram. Bu çox açıq və prinsipial siyasətdir. Bizim xarici siyasətimizdə heç bir gizli məqam yoxdur. Ona görə ki, bu siyasət bizim milli maraqlarımıza əsaslanır və yalnız əməkdaşlığın möhkəmləndirilməsi üçün nəzərdə tutulur.

GUAM təşkilatına gəldikdə isə, sizin qeyd etdiyiniz kimi, onun yaradılmasından 20 ildən çox keçib. Onun necə yaranmasını isə yəqin ki, xatırlayırsınız. Sonradan bu və ya digər siyasi konyunkturadan asılı olaraq, iştirakçıların tərkibində müxtəlif dəyişikliklər olub. Lakin Azərbaycan həmişə bu təşkilatın əsas prinsiplərinə, məhz bütün ölkələrin suverenliyinin və ərazi bütövlüyünün dəstəklənməsi prinsipinə sadiq qalıb. Biz həmişə bunu həm bəyan etmişik, həm də müxtəlif beynəlxalq təşkilatlarda səsvermələr zamanı praktiki olaraq həyata keçirmişik. Deməliyəm ki, GUAM-ın üzvü olan ölkələrin ərazi bütövlüyü ilə bağlı məsələlərdə həmin ölkələrin həmrəy mövqeyi, mənim fikrimcə, elə mühüm təməldir ki, biz öz münasibətlərimizi prinsip etibarilə həmin təməl üzərində qururuq. BMT-də, digər beynəlxalq təşkilatlarda səsvermə çərçivəsində Azərbaycan Gürcüstanın, Moldovanın, Ukraynanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və yenə dəstəkləyir. Biz də həmin ölkələr tərəfindən bizim ərazi bütövlüyümüzün dəstəklənməsini həmişə görmüşük. GUAM-ın daha fəal olduğu dövr də olub, onun nisbətən az fəal olduğu dövr də. Tam səmimi deyirəm, bu daha çox Ukraynanın mövqeyindən asılı olub. Ona görə ki,

GUAM üzvləri arasında Ukrayna ən iri, ən böyük potensiala malik ölkədir. Bu və ya digər dövrdə GUAM-ın fəallaşması, yaxud əksinə, fəallığının azalması Ukrayna rəhbərliyinin mövqeyindən asılı olub.

Prezident vəzifəsində veteran kimi, artıq 18 ildir ki, bütün bu hadisələr mənim gözlərimin qabağında baş verir. Bu təşkilatın fəaliyyətinin bütün məqamlarını, o cümlədən həm Bakıda, həm Ukraynada, həm Gürcüstanda, həm də Moldovada keçirdiyimiz çoxsaylı sammitləri çox gözəl xatırlayıram. Ukraynada GUAM-a maraq azalan kimi, bu təşkilat sanki sönür, orada maraq artan kimi, təşkilat bir qədər pərvazlanırdı. Buna baxmayaraq, siyasi tərkib hissəsinə gəldikdə, zənnimcə, bizim ölkələrdə bütün hakimiyyətlərin dövründə biz bu əsası qoruyub saxlaya bilmişik. Düşünürəm ki, bu mövqe artıq zamanın sınağından çıxmış mövqedir. İstərdim ki, bu təşkilatın fəaliyyəti daha artıq dərəcədə proqnozlaşdırıla bilən və planlı olsun. Mən həmişə konkret məqsədlər nəzərə alınmaqla qısamüddətli, ortamüddətli və uzunmüddətli addımların planlaşdırılmasının tərəfdarıyam. Məndən hətta indi hansı məqsədlərimin olduğunu soruşsanız, çətin vəziyyətə düşərəm. Hərçənd bu gün nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün çox böyük imkanlar vardır. Lakin biz bu imkanlardan GUAM formatında istifadə edirikmi? Biz ondan ikitərəfli, ən yaxşı halda üçtərəfli formatda istifadə edirik. Sonra isə bir növ konstruksiya, pazllar kimi yığmağa çalışırıq. Amma bu məsələyə sistemli şəkildə yanaşsaq, xüsusən nəqliyyat dəhlizlərinin yeni imkanlarını və bir çox başqa amilləri nəzərə almaqla, Xəzər

dənizi, Qara dəniz regionunda nəqliyyat-logistika əməkdaşlığının çox perspektivli istiqamətlərini müəyyən etmək olar. Buna görə düşünürəm ki, gələcəkdə hər şey bizim tərəfdaşlarımızın fəaliyyətindən asılı olacaq. Şərhlərin dərinliyinə varmaq istəməzdim, lakin bəzən hakimiyyətin tez-tez dəyişməsi ona gətirib çıxarır ki, yeni hakimiyyət bütün bunları təzədən dərk etməli, öz prioritetlərini, həmin prioritetlərdə GUAM-ın yerini müəyyən etməli olur. Bunlar müəyyən ediləndə isə görürsən ki, yeni hakimiyyət özünü yetirdi. Beləliklə, biz həmişə bu təşkilatın sabit üzvü olmuşuq və bu gün də sabit üzv kimi qalmaqda davam edirik.

**S u a l** (*Türkiyənin «Yeni Şəfəq» qəzeti*): **Hörmətli cənab Prezident, səbriniz və hamımızın suallarını cavablandırdığınız üçün təşəkkür edirik. Əvvəlcə, Azərbaycanın qardaş xalqının üzüntüsünü bölüşürük, eyni zamanda, Zəfərin qürurunu da bölüşürük. Mənim bir sualım vardır. Türkiyə Silahlı Qüvvələri ilə birlikdə həyata keçirdiyiniz fəaliyyətlərlə bağlı ilk gündən etibarən Qarabağda monitorinqin təmin edilməsində birgə fəaliyyətin həyata keçiriləcəyini açıqladınız. Birgə Mərkəz yaradıldı. Rus əsgəri ilə türk əsgəri orada birgə fəaliyyət həyata keçirirlər. Minalanmış ərazilərin təmizlənməsi məsələsində də ortaq fəaliyyəti görürük.**

**Bundan başqa, Azərbaycan Ordusu ilə Türkiyə Ordusunun digər ortaq fəaliyyətləri nədir? Qarşıdakı dövrdə hər hansı bir çatışmazlıq yaranacağı halda ortaq hərəkat, ya da təhdidin aradan qaldırılması ilə bağlı türk əsgərinin daha çox fəaliyyət göstərməsi mümkündürmü? Təşəkkür edirəm.**

**İ l h a m  Ə l i y e v:** Türkiyə Silahlı Qüvvələri ilə Azərbaycan Müdafiə Nazirliyi arasında əməkdaşlıq uzun tarixə malikdir. Bütün dövrlərdə Türkiyə və Azərbaycan Silahlı Qüvvələri bir yerdə olublar. Mən sualların birinə cavab verərkən dedim ki, təkcə 2019-cu ildə həm Bakıda, həm də Türkiyədə 10-dan çox birgə hərbi təlim keçirilib. Bu il də artıq birinci təlim keçirildi.

Ortaq Mərkəzin yaradılması Türkiyə Silahlı Qüvvələrinin Qarabağ bölgəsinə, Azərbaycan torpağına gəlməsi deməkdir. Bu, hesab edirəm ki, tarixi hadisə sayıla bilər. Bu bizi çox məmnun edir. Qeyd etməliyəm ki, Türkiyə–Rusiya Monitorinq Mərkəzinin yaradılması üç ölkənin müştərək qərarıdır. Ermənistan sadəcə olaraq, bununla razılaşmalı oldu. Çünki 10 noyabr Bəyanatı imzalananda Ermənistan o durumda deyildi ki, buna etiraz etsin. Ermənistan, necə deyərlər, öz hayında idi. Ona görə əgər başqa bir siyasi və hərbi durum olsaydı, Ermənistan buna etiraz edərdi. Ancaq buna etiraz edə bilmədi və biz də söylədik ki, bu Mərkəz Azərbaycan ərazisində yaradılır, Ermənistanın bu işlərlə nə əlaqəsi var?

Bu Mərkəzin yaradılması hesab edirəm ki, tarixi hadisə sayıla bilər. Bundan başqa, siz qeyd etdiyiniz kimi, mən də söyləmişdim ki, Türkiyədən böyük heyət gəlib, 100 nəfərdən çox heyət, minaların təmizlənməsi işləri və təlim kursları aparılıbdır. Bu fəaliyyət davam etdirilir.

Bundan sonra müxtəlif sahələrdə, hərbi sahədə əməkdaşlığımız davam etdiriləcək. Mən müharibə dövründə demişdim və bu hər kəsə bəllidir ki, Tür-

kiyə Ordusu dünya miqyasında ən güclü ordular sırasındadır, NATO-da güc baxımından ikinci ordudur. Biz də Azərbaycanda Türkiyə Ordusunun kiçik modelini yaratmaq əzmindəyik. Artıq bu sahədə əməli-praktiki işlərə start verilibdir.

Müharibə dövründə biz yeni təcrübə topladıq. Çünki bizim ordumuz, demək olar ki, müharibələrdə iştirak etmirdi. Sadəcə olaraq, bu sahəyə nəzəri baxımdan yanaşırdı. İndi müharibə çox böyük bir təcrübədir. Biz bu təcrübədən düzgün nəticə çıxarmalıyıq. Böyük uğurlarımız olub. Eyni zamanda, müharibə dövründə müəyyən çatışmazlıqlar da olub. Biz bunu da gizlətmirik. Müharibə dövründə Ali Baş Komandan kimi, qəbul etdiyim qərarlar, o cümlədən hərbi heyətlə bağlı qəbul edilmiş qərarlar məhz onu göstərir ki, müəyyən problemlər də üzə çıxmışdı, amma biz onları həll etdik.

Türkiyə ilə Azərbaycan arasında çox geniş qanunvericilik bazası vardır. Bir çox sənədlər, müqavilələr imzalanıb. Onların arasında elə sənədlər var ki, orada qarşılıqlı hərbi yardım məsələləri də təsbit edilibdir.

Müharibə dövründə ilk günlərdən əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan açıqlamalar verdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu bir çoxları üçün mesaj oldu ki, kənarda durun, müdaxilə etməyin, Azərbaycana mane olmayın. Türkiyənin Müdafiə naziri hörmətli Hulusi Akar, Xarici İşlər naziri hörmətli Mövlud Çavuşoğlu, digər yüksəkvəzifəli rəsmilər birmənalı olaraq Azərbaycana dəstək verdilər. Bu bizə çox bö-

yük siyasi və mənəvi dəstək oldu. Eyni zamanda, bütün dünyaya bir siqnal oldu ki, kənarda durun, müdaxilə etməyin.

Bu gün də bu, davam edir. Türkiyə və Azərbaycan iki qardaş ölkə, dünya miqyasında bir-birinə ən yaxın olan ölkələrdir. Bizim hərbi əməkdaşlığımız gündən-günə möhkəmlənir. Türkiyədən yeni silahların alınması istiqamətində işlər aparılır. Bu barədə mən artıq məlumat verdim, o silahlar yaxın zamanlarda gələcək. Bizim ordumuz daha güclü, daha müasir olmalıdır. Türkiyə Silahlı Qüvvələrinin modeli bizim üçün ən məqbul modeldir. Bundan sonra bu istiqamətdə də bərabər çalışacağıq.

**S u a l** (*Türkiyənin «Sözçü» qəzeti*): **Mənə sonuncu sualı verməyə şərait yaratdığı üçün cənab Prezident İlham Əliyevə təşəkkür edirəm. Cənab Prezident, əvvəla, türk xalqı olaraq, qazandığınız qələbə ilə bağlı böyük qürur duyduq. Zəfər çıxışınızı da böyük məmnuniyyətlə izlədik. Sualım belədir: Azərbaycan ilə Ermənistan arasındakı əlaqələr, münasibətlər normallaşdıqdan sonra Türkiyə Ermənistanla sərhədini açarsa, reaksiyanız necə olar? Təşəkkür edirəm.**

**İ l h a m Ə l i y e v:** Biz Türkiyə dövlətinə göstərdiyi bütün dəstəyə görə bir daha təşəkkürümüzü bildiririk. Eyni zamanda, sərhədlərin bağlı olması, əlbəttə, qardaşlıq rəmzi idi, qardaşlıq addımı idi. Türkiyə Ermənistanla sərhədlərini 1993-cü ildə bağlamışdır, Kəlbəcər işğal altına düşəndən sonra, məhz buna görə. O vaxta qədər Türkiyə ilə Ermənistan arasında sərhədlər açıq idi. Türkiyə Ermənistanı rəsmən tanıyan ilk ölkələrdən biri olmuşdur. Ermənis-

tanın müstəqilliyinin ilk günlərindən Türkiyə Ermənistanla normal əlaqələr qurmaq fikrində idi. Əfsuslar olsun ki, Ermənistanda anti-Türkiyə təbliğatı həddindən artıq güclü idi və bu gün də bu, davam edir. Türkiyəfobiya orada rəsmi ideologiyaya çevrilib. Onlar Türkiyə və Azərbaycanı hər zaman düşmən sayıblar. Sərhədlərin bağlanması o vaxt Azərbaycana göstərilən həmrəylik aktı idi. İndi münaqişə başa çatıb, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və əlbəttə ki, bölgədə yeni vəziyyət yaranıbdır. Ancaq eyni zamanda, Ermənistanın Türkiyəyə qarşı iddiaları hələ də qüvvədədir. Görün müharibədən əvvəl Ermənistan Prezidenti nə söyləyirdi?! Söyləyirdi ki, Sevr müqaviləsinə yenidən baxılmalıdır. Yəni Türkiyəyə ərazi iddiası vardır. Ermənistanın Konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası vardır. Onlar bundan əl çəkməlidirlər. Bütün dünyada Türkiyəyə qarşı çirkin kampaniya aparırlar. Qondarma «soyqırımı»nı müxtəlif ölkələrin parlamentində qəbul etdirirlər. Belə düşmənçilik siyasəti nə qədər davam edə bilər? Onlar, necə deyərlər, ağlını başına yığmalıdırlar. Türkiyə kimi böyük ölkəyə ərazi iddiaları irəli sürmək özünə qəsddir, axmaqlıqdır.

Biz yeni vəziyyəti nəzərə alaraq, Türkiyə–Ermənistan əlaqələrinin normallaşmasına da müsbət baxırıq. Bu əlaqələrin normallaşması üçün bizim indi hər hansı bir xüsusi fikrimiz yoxdur. Türkiyə özü müəyyən edəcək ki, bu sərhədlər nə zaman açıla bilər, nə zaman əlaqələr normallaşa bilər. Hər halda, Azərbaycan tərəfindən buna hər hansı bir mənfi fikir olmayacaq. Çünki hesab edirəm ki, bölgənin sa-

bitliyi, uzunmüddətli sülh üçün bütün ölkələr arasında münasibətlər normal olmalıdır. Baxın, biz indi nədən danışırıq. Ermənistan–Azərbaycan sərhədinin açılmasından bəhs edirik. Yəni Ermənistan–Azərbaycan sərhədi açılırsa, Türkiyə–Ermənistan sərhədinin bağlı qalmasına da təbii ki, ehtiyac qalmır. Əgər biz bu koridorlardan söhbət ediriksə, Zəngəzur koridorunu gerçəkləşdirmək istəyiriksə, təbii ki, Türkiyə–Ermənistan sərhədi də açılacaq. Amma bu, təbii ki, Türkiyənin öz qərarıdır. Bir halda ki, siz məndən bunu soruşursunuz, Azərbaycan tərəfindən bu məsələ ilə bağlı hər hansı bir xüsusi mövqe yoxdur. Bir də ki, Türkiyənin xeyrinə nə olacaqsa, bu bizim də xeyrimizədir.

**Hikmət Hacıyev:** Möhtərəm cənab Prezident, Sizə son dərəcə təşəkkür edirik. Gərgin qrafikinizdə bizə dörd saatdan artıq vaxt ayırdınız, 35-dən çox dünya mediasının 50-yə yaxın sualını cavablandırdınız. Buna görə Sizə təşəkkür edirik.

**İlham Əliyev:** Mən də sizə təşəkkürümü bildirirəm ki, siz mənim sözlərimə diqqətlə qulaq asdınız. Hesab edirəm ki, həm mənim üçün, həm də sizin üçün bu mətbuat konfransı çox faydalı oldu. Mən sizin vasitənizlə sizin ölkələrinizdə yaşayan insanların diqqətinə Azərbaycan həqiqətlərinin bir hissəsini çatdıra bildim. Əminəm ki, belə səfərlər tez-tez həyata keçiriləcək. Çünki siz indi dağıdılmış yerlərə səfər etdiniz, baxdınız. Bir müddətdən sonra isə siz o yerləri bərpa edilmiş yerlər kimi görəcəksiniz. Bir daha sizə təşəkkür edirəm və uğurlar arzulayıram. Sağ olun.

## BAKI GƏMİQAYIRMA ZAVODUNDA RO-PAX TİPLİ «AKADEMİK ZƏRİFƏ ƏLİYEVA» GƏMİ-BƏRƏSİNİN SUYA SALINMASI VƏ EYNİ TƏYİNATLI «AZƏRBAYCAN» GƏMİ-BƏRƏSİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*1 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 1-də Bakı Gəmiqayırma zavodunda Ro-Pax tipli «Akademik Zərifə Əliyeva» gəmi-bərəsinin suya salınması və eyni təyinatlı «Azərbaycan» gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak etmişlər.*

*President İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə «Akademik Zərifə Əliyeva» gəmi-bərəsinin suya salınması mərasimində iştirak etdilər.*

*Məlumat verildi ki, Ro-Pax tipli «Akademik Zərifə Əliyeva» gəmi-bərəsi «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı Gəmiqayırma zavodunda inşa olunub.*

*Prezident İlham Əliyev «Akademik Zərifə Əliyeva» gəmi-bərəsinin suya salınmasını bildirən düyməni basdı.*

*Birinci vitse-prezident xanım Mehriban Əliyeva gəminin suya salınmasını bildirən rəmzi lenti kəsdi.*

*Yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir.*

*Bu istiqamətdə atılan addımlar Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun həyata keçirilir. «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC yaradılan vaxtdan bu günədək keçən 7 il ərzində 18 yeni gəmi istismara verilib. Son bir ilin pandemiya şəraitində keçdiyini nəzərə alsaq, dövlət başçısının davamlı inkişafa yönəlmiş iqtisadi strategiyasının miqyası daha aydın nəzərə çarpar.*

* * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Ro-Pax tipli «Azərbaycan» gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etdilər.*

*Dövlət başçısına və xanımına «Azərbaycan» gəmi-bərəsi barədə məlumat verildi. Bildirildi ki, nadirliyi ilə seçilən bu layihə çərçivəsində ilk dəfə Xəzərdə yeni Ro-Pax tipli gəmi-bərələr istismara veriləcək.*

*Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən düyməni basdı.*

*Diqqətə çatdırıldı ki, istismara verilən gəmi-bərə sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyacaq. Bildirildi ki, 2013-cü ildən bəri donanmanın yenilənməsi istiqamətində aparılmış işlər nəticəsində 18 yeni gəmi alınaraq istismara verilibdir.*

*Xatırladaq ki, bu gəmilərin hazırlanması əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətindən əldə olunan mənfəət hesabına maliyyələşir. Bununla da yerli bazara sərmayə yatırılmaqla, səhmdarı dövlət olan müəssisə kimi, Azərbaycanda yerli gəmi tikintisi sənayesinin inkişafına və yeni iş yerlərinin yaranmasına töhfə verilir.*

*Ro-Pax tipli gəmilərin uzunluğu təxminən 155 metr, eni 18 metr, bortunun hündürlüyü isə 7,5 metrdir. Yükgötürmə qabiliyyətinə görə Xəzərdə hazırda mövcud bərələrdən böyükdür və 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili (TIR) daşımaq imkanına malikdir. Hazırda Azərbaycan ərazisindən tranzit keçən avtotexnika və vaqonların Xəzər dənizində daşınmasını ümumilikdə 13 bərə və 6 Ro-Ro tipli gəmi həyata keçirir. Onların hamısı «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» QSC-nin donanmasına məxsusdur və QSC bu gün Xəzərdə yeganə bərə operatorudur. Beləliklə, Ro-Pax tipli gəmi-bərələrin Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm halqası olmaqla, Xəzərin şərq və qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirəcəyi, Azərbaycanın coğrafi mövqeyindən və tranzit potensialından daha səmərəli istifadəyə xidmət edəcəyi proqnozlaşdırılır.*

## «SURAXANI» TANKER-MUZEYİN AÇILIŞI MƏRASİMİ

*1 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 1-də Bakıda «Suraxanı» tanker-muzeyin açılışında iştirak etmişlər.*

*Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bu gününü və gələcəyini özündə birləşdirən «Suraxanı» tanker-muzeyinin yaradılması dövlət başçısının dəstəyi ilə bu sahədə atılmış növbəti mühüm addımdır. Muzey qismində «Suraxanı» tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub. Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib. Muzeyə gələn ziyarətçiləri kapitan və baş köməkçi qarşılayaraq, onları heyət üzvləri və onların vəzifələri barədə məlumatlandırırlar. Muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Məsələn, oyun manipulyatorları vasitəsilə*

*yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək mümkündür. Həmçinin ziyarətçilər 360 dərəcəli ekranla nümayiş olunan videoda baş verənlərin birbaşa «iştirakçısı»na çevrilirlər.*

*Muzeydə dünyaca üç məşhur dəniz mayakının modelləri ilə tanış olmaq imkanı da vardır. Naviqasiya masasında ziyarətçilər Xəzərdə üzən gəmilərin marşrutu, xarici kommunikasiya və naviqasiyaları ilə tanışlıq fürsəti əldə edəcəklər. Burada keçmişə səyahət də mümkündür. Ötən əsrin ortalarına səyahət edən ziyarətçilər gəminin maşın şöbəsində çalışan heyətin gündəlik iş həyatı ilə yaxından tanış olacaqlar. Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri də okean və dənizlərdən yığılmış flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.*

*Tanker-muzeydə, həmçinin İkinci dünya müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb. Muzeydə ümummilli lider Heydər Əliyevin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafına göstərdiyi misilsiz xidmətləri haqqında interaktiv kitab, Prezident İlham Əliyevin dənizçilik sahəsində həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən infomonitor da vardır.*

*Maraqlı eksponatlarla zəngin tanker-muzey postpandemiya dövründə turistlərin ən çox üz tutacağı məkanlardan olacaqdır.*

*Dövlət başçısına və xanımına fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılmış heykəltəraşlıq kompozisiyası barədə də məlumat verildi.*

*Bildirildi ki, əsərin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı isə Əməkdar memar Elxan Əsədovdur. Heykəltəraşlıq kompozisiyası dinamik fiqurlu dalğanı yaran gəmi pəri ilə təqdim edilib. Bu pər Xəzərdə gəmiçiliyin inkişafını simvolizə etməklə bərabər, həm də dənizçilərin enerji mənbəyi və həyatlarının ayrılmaz atributu kimi yaradılıbdır.*

## «AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ» QSC ÜÇÜN İNŞA OLUNMUŞ YENİ İNZİBATİ BİNANIN AÇILIŞI MƏRASİMİ

*1 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 1-də «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunmuş yeni inzibati binanın açılışı mərasimində iştirak etmişdir.*

*Yeni inzibati bina ilə tanış olan dövlət başçısına məlumat verildi ki, müasir texnoloji sistemlərlə təchiz olunmuş binada beynəlxalq tələblərə cavab verən lokal informasiya texnologiyaları infrastrukturu, videokonfrans və rabitə sistemləri yaradılıb.*

*Burada ölkəmizdə dənizçilik peşəsinin qədimliyini əyani vasitələr, interaktiv təqdimatlarla ziyarətçilərə çatdıran «Üç əsrin şahidi» adlı muzey də yerləşir. Bu muzeyin yaradılmasında əsas məqsəd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin üç əsrə şahidlik edən şanlı tarixini bir araya gətirərək nümayiş etdirmək, tarixi eksponat və sənədləri konservasiya etmək və rəqəmsal formata çevirərək, gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir. Binanın inşası zamanı həm eksteryerdə, həm də interyerdə dənizçilik rəmzlərindən geniş istifadə olunubdur.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ GENERAL NADİM RAZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyətini videoformatda qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Sizi görməyə çox şadam. Əminəm ki, sizin səfəriniz hərbi sahədə ölkələrimiz arasında əməkdaşlığı gücləndirəcək. Bu günə qədər bu əməkdaşlıq çox səmərəli olub və biz tərəfdaşlığımızı genişləndirmək arzusundayıq.

Əvvəlcə, müharibə zamanı nümayiş etdirilən həmrəyliyə və dəstəyə görə qardaş Pakistana təşəkkürümü ifadə etmək istəyirəm. Torpaqlarımızın azadlığı uğrunda apardığımız müharibə 44 gün çəkdi və Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatdı. Biz 30 ilə yaxın işğal altında olan ərazilərimizi azad etdik.

Müharibənin ilk günündən Pakistan Azərbaycana həmrəylik və dəstək nümayiş etdirdi. Pakistan Azərbaycanın işğal olunmuş ərazilərindən qoşunların dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının tərəfdarı kimi çıxış etdi və Ermənistanın təcavüzünü pislədi. Bu, həqiqi qardaşlıq və dostluğun nümunəsi idi. Yəqin bilirsiniz ki, Azərbaycanda insanlar Pakistan xalqı ilə, ölkənizlə bağlı öz hisslərini nümayiş etdirdilər, müharibə zamanı Pakistan bayraqlarını dalğalandırdılar. Bu bir daha bizim birlik və qardaşlığımızı nümayiş etdirir.

Ölkələrimiz arasında əlaqələrin uzun tarixi vardır. Pakistan dünyanın Ermənistanla diplomatik münasibətlər qurmayan azsaylı dövlətlərindən biridir və Azərbaycan torpaqlarının işğalı səbəbindən Ermənistanı rəsmi olaraq tanımayıb. Xalqımız bundan xəbərdardır və biz bunu çox yüksək qiymətləndiririk. Azərbaycan da öz növbəsində, hər zaman Kəşmir məsələsi daxil olmaqla, bütün digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu dəstək tərəfimizdən BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təsisatlarda verilir. Sabah İqtisadi Əməkdaşlıq Təşkilatının videokonfrans formatında Zirvə toplantısı keçiriləcək və biz ölkələrimiz arasında iqtisadi əməkdaşlığı müzakirə edəcəyik. İkitərəfli münasibətlərimizə bir daha toxunaraq qeyd etmək istəyirəm ki, biz diqqətimizi iqtisadiyyat sahəsində cəmləşdirəcəyik. Buraya energetika və nəqliyyat sahəsi aiddir. Biz ümid edirik ki, Pakistan ölkəmizin ərazisindən keçən mövcud və yeni yaranmaqda olan nəqliyyat marşrutla-

rına qoşulacaqdır. Beləliklə, biz əməkdaşlığımızı bu sahədə də genişləndirmiş olacağıq.

Əlbəttə, hərbi sahədə əməkdaşlığımızın böyük potensialı var və əminəm ki, bu gün siz həmkarlarınızla gələcək planlarımızı müzakirə edəcəksiniz. Biz artıq Pakistanın müdafiə sənayesinin məhsulları ilə tanışıq. Bildiyiniz kimi, biz Pakistandan hərbi avadanlıqlar almışıq və bu prosesi davam etdirmək arzusundayıq. Bununla yanaşı, biz birgə hərbi təlimlər üzərində düşünürük. Hesab edirik ki, artıq bunun vaxtı çatıbdır.

Biz artıq Azərbaycan, Türkiyə və Pakistan arasında siyasi və digər sahələrdə, o cümlədən müdafiə sahəsində üçtərəfli əməkdaşlıq formatının yaxşı nəticələrinin şahidi olduq. Hesab edirəm ki, biz səylərimizi birləşdirərək, mövqelərimizi gücləndirəcəyik və sülhə töhfə verəcəyik. Çünki ölkələrimiz regionda sülh və ədalətin tərəfdarıdır. Biz beynəlxalq hüququn işləmədiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində icra edilmədiyini, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana qarşı sanksiyaların tətbiq olunmadığını, Ermənistanın cəzalandırılmadığını və sonsuz danışıqların dalana dirəndiyini görəndə ədaləti özümüz bərpa etməli olduq. Yəni beynəlxalq hüquq işləmədiyi halda, o, güc vasitəsilə həyata keçirilməlidir. Biz buna nail olduq və bunu bütün dünyaya nümayiş etdirdik.

Ancaq biz sülh istəyirik və bu gün sülhü təbliğ edirik. Beləliklə, bizim hərbi sahədə əməkdaşlığımız dünyada sülhün bərqərar olunması işinə töhfə verəcəkdir. Bir daha xoş gəlmisiniz! Sizə ölkəmizdə

yaxşı vaxt keçirməyi və həmkarlarınızla səmərəli iş aparmağı arzulayıram.

**Nadim Raza:** Çox sağ olun, cənab Prezident. Əvvəlcə, Sizinlə görüşməkdən böyük şərəf hissi duyuram və belə yerinə düşən görüş fürsətinə görə Sizə olduqca minnətdaram. Sizin və Azərbaycan xalqının 44 günlük müharibədə tam Qələbəsi münasibətilə Sizi öz adımdan, Pakistanın bütün Silahlı Qüvvələri və Pakistan xalqı adından təbrik etmək istərdim. Deməliyəm ki, Zəfəriniz eyni istəklə Pakistanda da qeyd olundu. Cənab səfir hadisələrin gedişatı haqqında bizi daim məlumatlandırırdı. Müharibənin istənilən anında Azərbaycan Silahlı Qüvvələrinin əməliyyatları bizim kütləvi informasiya vasitələrində əsas başlıqla gedirdi. Bir daha tam Qələbəniz münasibətilə Sizi təbrik edirəm.

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIV ONLAYN ZİRVƏ TOPLANTISI

*4 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısında videoformatda çıxış etmişdir.*

*Zirvə toplantısına sədrlik edən Pakistanın Baş Naziri İmran Xan əvvəlcə sammit iştirakçılarını salamladı və Azərbaycanın Qələbəsi münasibətilə təbriklərini çatdırdı.*

**İmran Xan:** Mən Azərbaycanın işğal olunmuş ərazilərinin müvəffəqiyyətlə azad edilməsi münasibətilə Prezident İlham Əliyevi xüsusilə təbrik etmək istəyirəm.

*Pakistanın Baş Naziri belə çətin bir zamanda Zirvə toplantısının təşkilinin birgə səylər sayəsində mümkün olduğunu qeyd etdi. Təşkilata sədrliyin Türkiyəyə keçdiyini deyən Pakistan hökumətinin başçısı çıxışında təşkilata üzv ölkələr arasında ticarət əlaqələrinin inkişafının vacibliyini vurğuladı.*

*Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sədrliyin Türkiyəyə keçməsindən məmnun olduğunu söylədi. O bir çox sahələrdə tənəzzülə səbəb olmuş pandemiyaya yalnız həmrəylik və regional əməkdaşlıq sayəsində qalib gəlməyin mümkün olduğunu qeyd etdi. Prezident Rəcəb*

*Tayyib Ərdoğan Azərbaycanın işğal altında olan torpaqlarını uğurla azad etdiyini bildirdi.*

**Rəcəb Tayyib Ərdoğan:** Qardaşımız Azərbaycan erməni işğalı altındakı torpaqlarını şanlı bir Zəfərlə azad etmiş, bölgədə yeni bir dövrün qapılarını açmışdır. Bundan sonra hədəfimiz Qarabağda təhlükəsizlik və sabitliyin formalaşmasına yardım etmək, 30 illik işğalın fəsadlarını birlikdə aradan qaldırmaqdır. Bu prosesdə də təşkilat olaraq, Azərbaycan ilə tam həmrəylik içində olacağımıza inanıram. Ermənistanın da atacağı sülhsevər addımlarla regional sabitliyin bir hissəsi olacağına ümid edirik. Xalqın iradəsini heçə sayan antidemokratik müdaxilələri əsla qəbul etmədiyimizi və etməyəcəyimizi burada təkrarlamaq istəyirəm.

*İqtisadi Əməkdaşlıq Təşkilatının baş katibi Hadi Süleymanpur qarşıda duran vəzifələrdən danışaraq, təşkilat çərçivəsində iqtisadi-ticari əlaqələrin inkişafının prioritet olduğunu vurğuladı. Baş katib investisiyaların stimullaşdırılması zərurətindən danışdı, pandemiya ilə mübarizədə kollektiv səylərin əhəmiyyətini vurğuladı. Hadi Süleymanpur Azərbaycanı parlaq Qələbəsi münasibətilə təbrik etdi.*

**Hadi Süleymanpur:** Mən mərhum Prezident zati-aliləri Heydər Əliyevin təşəbbüsü olan İqtisadi Əməkdaşlıq Təşkilatının Araşdırma Mərkəzinin Bakıda yaradılmasına görə Azərbaycan Respublikasının hörmətli Prezidenti cənab İlham Əliyevi təbrik edirəm. Bu, təşkilatı çoxşaxəli etmək İƏT ailəsi üçün böyük bir nailiyyətdir.

Gəlin Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi uğrunda həyatlarını qurban vermiş azərbaycanlı şəhidlərin xatirəsini yad edək.

*Sonra Əfqanıstan Prezidenti çıxış etdi.*

**Məhəmməd Əşrəf Qani:** Mən tarixi nailiyyət münasibətilə qardaşım Prezident Əliyevi təbrik etməkdən məmnunluq duyuram. Azərbaycan xalqı kimi, atanız da Sizinlə fəxr edərdi.

*İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələrin baxışlarının həyata keçirilməsi üçün mühüm platforma olduğunu deyən Məhəmməd Əşrəf Qani pandemiyanın mənfi təzahürlərinin minimuma endirilməsi üçün regional əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini vurğuladı.*

**Rəcəb Tayyib Ərdoğan:** Əlbəttə, Azərbaycan Respublikasının Prezidenti, qardaşım İlham Əliyevə söz vermədən öncə deyim ki, həqiqətən də 30 illik işğal baş vermişdir və orada olan milyonlarla azərbaycanlı qardaşımız, bildiyiniz kimi, öz torpaqlarından qovulmuşdur. Onlar təxminən 30 il idi ki, öz doğma torpaqlarından uzaqda yaşayırdılar. Əfsuslar olsun ki, Minsk qrupu heç bir nəticə əldə edə bilməmişdir və buna görə İlham Əliyevin rəhbərliyi ilə bizim azərbaycanlı qardaşlarımız bu torpaqları işğaldan azad etmişlər. İndi infrastruktur üzrə hazırlıq işləri davam edir və tezliklə bu torpaqların həqiqi sahibləri öz ərazilərində yaşayacaqlar. İndi isə sözü mənim əziz qardaşım, Azərbaycan Prezidenti hörmətli İlham Əliyevə verirəm. Söz Sizindir.

**Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı**

Əziz qardaşım, əziz Prezident cənab Ərdoğan!

Mənə söz verdiyiniz zaman səsləndirdiyiniz fikirlərə görə Sizə təşəkkür edirəm.

Bütün həmkarlarımızın diqqətinə çatdırmaq istərdim ki, Prezident Ərdoğanın yalnız müharibə vaxtı deyil, ümumiyyətlə, Türkiyənin Prezidenti və lideri olduğu müddətdə Azərbaycana davamlı dəstəyi Azərbaycan torpaqlarının işğaldan azad edilməsində mühüm rol oynamışdır.

Türkiyə bizim qardaşımızdır. Türkiyə bizim böyük müttəfiqimizdir. Azərbaycan xalqı Türkiyə kimi müttəfiqi olmasından çox məmnundur. Azərbaycan və Türkiyə xalqları və əminəm ki, dünyada bir çoxları Prezident Ərdoğanın Türkiyənin yalnız dünyada ən önəmli güc mərkəzlərindən birinə çevrilməsində deyil, eləcə də regionda təhlükəsizliyin təmin edilməsindəki tarixi rolundan açıq şəkildə xəbərdardırlar. Türkiyə geniş regionda təhlükəsizlik və sabitliyin təmin olunmasında çox önəmli rol oynayır. Əvvəllər də çox demişəm, indi də bir daha bildirmək istərdim ki, Türkiyənin güclü olması Azərbaycan və bütün digər müttəfiqlərin də güclü olması deməkdir.

Hörmətli cənab sədr, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli cənab baş katib!

Əvvəlcə, mən bir daha əziz qardaşlarıma, Prezident Ərdoğana, Prezident Əşrəf Qaniyə, Baş Nazir İmran Xana Azərbaycanın Qələbəsi və ərazi bütöv-

lüyünü bərpa etməsi münasibətilə səsləndirdikləri xoş təbriklərə görə təşəkkürümü bildirmək istərdim. Qardaş Türkiyəni İqtisadi Əməkdaşlıq Təşkilatında uğurlu sədrliyi münasibətilə təbrik etmək istərdim. Yeni sədr ölkə kimi, qardaş Türkmənistana uğurlar arzulayıram.

Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərinə böyük əhəmiyyət verir. Bu gün burada İqtisadi Əməkdaşlıq Təşkilatının Araşdırma Mərkəzinin Nizamnaməsini imzalayacağıq. Biz Azərbaycanın mərhum Prezidenti Heydər Əliyevin təşəbbüsünü dəstəklədiklərinə görə üzv dövlətlərə minnətdarıq və Azərbaycanda yerləşəcək Mərkəzin səmərəli fəaliyyəti üçün əlimizdən gələni edəcəyik.

2020-ci ildə Azərbaycan öz torpaqlarının Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına hərbi-siyasi yollarla son qoydu. Ermənistan üzərində döyüş meydanında əldə edilmiş hərbi Zəfər siyasi yollarla tam təmin edildi.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri 27 il kağız üzərində qalmışdı. Azərbaycan özü həmin qətnamələrin icrasını təmin edərək, ərazi bütövlüyünü bərpa etdi. İşğalçılar qədim Azərbaycan torpağı olan Qarabağdan qovuldu. 44 gün ərzində Ermənistan ordusu tam darmadağın edildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi.

Müharibə başlayan kimi bizi dəstəkləyən ilk ölkə qardaş Türkiyə oldu. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıqlamalarını və onun siyasi və mənəvi dəstəyini yüksək qiymətləndiririk.

Ötən il sentyabrın 27-də və 28-də – müharibənin birinci və ikinci günü qardaş Pakistan və Əfqanıstan Ermənistanı işğala son qoymağa, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini icra etməyə çağırmış və Azərbaycanın ərazi bütövlüyünə öz dəstəklərini ifadə etmişlər. Mən bizi dəstəklədiklərinə görə onlara dərin təşəkkürümü bildirirəm. Eyni zamanda, müharibə dövründə bizi dəstəkləyən ölkələrin dövlət və hökumət başçılarına da təşəkkür edirəm.

İşğal zamanı Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın kənd və şəhərlərini, bütün mədəni və dini abidələrini qəsdən dağıtmışdır. Bizim məscidlər donuz və inək saxlanılan yerlərə çevrilmişdir. Bütün bunların foto və videoları internetdə vardır. Bu, bütün islam dünyasına qarşı düşmənçilikdir. Azərbaycan xalqının mədəni və dini irsinin qəsdən dağıdılması və təhqir edilməsi faktları beynəlxalq media nümayəndələri tərəfindən əks etdirilibdir. Bütün müsəlmanların hisslərini təhqir edən Ermənistanın müsəlman ölkələri ilə əlaqələrini genişləndirmək cəhdləri riyakarlıqdan başqa bir şey deyil. Azərbaycan müsəlman ölkələri arasında həmrəyliyə dəyərli töhfələr veribdir. Biz müxtəlif beynəlxalq kürsülərdən islam ölkələrini birliyə çağırmışıq. Azərbaycan islam dininin zorakılıq və terrorla əlaqələndirilməsini kəskin şəkildə pislə-

yir. Biz islamofobiyaya qarşı mübarizə aparmalı və islamın həqiqi dəyərlərini – sülhü, tolerantlığı və ədaləti təşviq etməliyik. Bu mənada qardaş Pakistanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatının martın 15-ni Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü elan etməsini alqışlayırıq.

Hazırda qarşımızda azad olunmuş ərazilərin yenidən qurulması kimi nəhəng vəzifə dayanır. Biz azad olunmuş ərazilərdə şəhər və kəndlərimizi yenidən quracağıq, mədəni və dini abidələrimizi bərpa edəcəyik.

Azərbaycan COVID-19 pandemiyası ilə mübarizədə qlobal səyləri səfərbər edən ilk ölkələrdəndir. Azərbaycan ötən il hazırda sədrlik etdiyi iki beynəlxalq təşkilatın – Türk Şurası və «Qoşulmama Hərəkatı»nın Zirvə toplantıları, eləcə də BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsinin təşəbbüskarı olubdur. Bu təşəbbüslər bizim beynəlxalq həmrəyliyə və əməkdaşlığa sadiqliyimizi bir daha nümayiş etdirir.

Pandemiyanın ilk günlərindən biz Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edirik. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə yardımı etmişik. Azərbaycan koronavirusla əlaqədar dünyanın 30-dan artıq ölkəsinə humanitar və maliyyə yardımı edibdir.

Azərbaycan yanvar ayının 18-dən peyvəndləmə prosesinə başlayıbdır. Biz regionda peyvəndləməyə start vermiş ilk ölkələrdən biriyik. Biz vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər ara-

sında qeyri-bərabər və ədalətsiz şəkildə bölünməsini pisləyirik. Bəzi ölkələr özlərinin ehtiyacları ilə müqayisədə bir neçə dəfə çox həcmdə vaksin alır. Aydındır ki, belə olduğu təqdirdə, digər ölkələrə peyvənd çatmayacaqdır.

Azərbaycan bu məsələ ilə bağlı BMT-nin İnsan Hüquqları Şurasında «Qoşulmama Hərəkatı» adından qətnamə layihəsi ilə çıxış etməyi planlaşdırır və mən İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini həmin təşəbbüsü dəstəkləməyə dəvət edirəm.

Azərbaycan Avrasiyada enerji təhlükəsizliyini təmin edən mühüm tərəfdaş ölkədir. «Cənub Qaz Dəhlizi» 2020-ci il dekabrın 31-də istismara verildi. Yeddi ölkəni birləşdirən 3500 kilometr uzunluğunda olan «Cənub Qaz Dəhlizi» dünyanın ən böyük enerji infrastrukturu layihələrindən biridir.

Azərbaycan Şərq–Qərb, Şimal–Cənub və Şimal–Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrində fəal iştirak edir və ölkəmiz Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilibdir. Biz öz tərəfdaşlarımızla birgə Azərbaycanın nəqliyyat infrastrukturunu Lapis-Lazuli nəqliyyat dəhlizi ilə birləşdirdik və nəqliyyat sahəsində çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar yaratdıq.

Artıq qeyd etdiyim kimi, Azərbaycanın Ermənistan üzərində şanlı Qələbəsindən sonra Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu. Dağlıq Qarabağ münaqişəsi artıq tarixdə qaldı.

Biz indi gələcək haqqında düşünürük. Biz bölgədə sülh və sabitliyi təmin etmək üçün bir çox ölkə-

ləri birləşdirən nəqliyyat layihələrini müzakirə etməyə başlamışıq. Azərbaycan, Türkiyə və İran bölgədə nəqliyyat layihələrinin icrası ilə bağlı vahid mövqe sərgiləyir. Ermənistan da özünü normal apararsa, bu prosesdən faydalana bilər.

Bu xüsusda qeyd etmək istərdim ki, Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək və Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni bağlantı dəhlizi regionda nəqliyyat sektorunda yeni imkanlar yaradacaq. Biz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini Zəngəzur dəhlizindən faydalanmağa dəvət edirik.

Diqqətinizə görə sağ olun.

**Rəcəb Tayyib Ərdoğan:** Mənim əziz qardaşım, çox dəyərli fikirlərinizə və mülahizələrinizə görə çox sağ olun. Siz bu problemli və ağrılı dövrü uğurla geridə qoymusunuz. Bu günləri arxada qoyduğunuzu görməyə çox şadıq. İndi isə Dağlıq Qarabağdakı torpaqların sahiblərinin öz doğma yurdlarına qayıtmasını təmin etmək vaxtıdır.

*Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov, İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türk Şurasının baş katibi Bağdad Amreyev, Şimali Kipr Türk Respublikasının Prezidenti Ərsin Tatar və Bey-*

*nəlxalq Enerji Xartiyasının baş katibi Urban Rusnak çıxış etdilər.*

*Sonda İqtisadi Əməkdaşlıq Təşkilatının Araşdırma Mərkəzinin Nizamnaməsi imzalandı.*

*İqtisadi Əməkdaşlıq Təşkilatının növbəti Zirvə toplantısı Türkmənistanda keçiriləcəkdir.*

## YENİ AZƏRBAYCAN PARTİYASININ VII QURULTAYINDA İŞTİRAK

*5 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev martın 5-də keçirilmiş Yeni Azərbaycan Partiyasının VII qurultayında videoformatda iştirak etmişdir.*

**İlham Əliyev:** Yeni Azərbaycan Partiyasının VII qurultayını açıq elan edirəm.

*Dövlət himni səsləndirildi.*

**İlham Əliyev:** Hörmətli Yeni Azərbaycan Partiyasının üzvləri, ilk növbədə, xahiş edirəm ki, Vətən müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

*Vətən müharibəsi şəhidlərinin xatirəsi 1 dəqiqəlik sükutla yad olundu.*

**İlham Əliyev:** Allah bütün şəhidlərimizə rəhmət eləsin.

*Sonra dövlət başçısı, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev qurultayda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Partiyamızın VI qurultayından üç il ötür. Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olubdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr

başı veribdir. Təbii ki, onların sırasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir. Bu gün bizim Qələbəmiz dünyanın aparıcı ölkələrinin aparıcı ali məktəblərində öyrənilir. Azərbaycan xalqı birlik, həmrəylik göstərdi. Azərbaycan Ordusu rəşadət, qəhrəmanlıq, peşəkarlıq göstərdi. Bütün xalqımız bir yumruq kimi birləşib, düşmənə sarsıdıcı zərbələr vurub, öz tarixi torpaqlarını işğalçılardan azad etdi. Biz bu tarixi missiyanı yerinə yetirdik.

Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq.

Ötən son 3 il ərzində Prezident və parlament seçkiləri keçirilibdir. Prezident və parlament seçkilərinin ölkəmizin müasir həyatında xüsusi yeri vardır. Xüsusilə nəzərə alsaq ki, Prezident və parlament seçkilərində ölkəmizdə gedən islahatlar daha bir mərhələyə qədəm qoydu və bu gün Azərbaycan genişmiqyaslı islahatlar aparan ölkədir. Biz gündəlik həyatda, ölkəmizin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə görürük ki, bu islahatların çox böyük əhəmiyyəti vardır. Eyni zamanda, ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında da bizim təşəbbüslərimizin, islahatlarımızın böyük rolu vardır.

Prezident seçkilərindən sonra bəyan etdiyim proqram icra olunur və biz ardıcıllıqla öz hədəflərimizə çatırıq. Prezident seçkilərindən sonra mən ərazi bütövlüyümüzün bərpasını qarşıya 1-ci dərəcəli vəzifə kimi qoymuşdum və biz buna nail olduq. Eyni zamanda, siyasi, iqtisadi, sosial və başqa sahələrdə, o cümlədən xoşagəlməz hallara qarşı mübarizədə də qarşımıza açıq-aydın hədəflər qoyuldu. Biz ardıcıllıqla və məqsədyönlü şəkildə bu hədəflərə çatırıq.

Bu gün Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsinin zərurəti məhz bu səbəblərdən doğur. Yeni bir vəziyyət yaranıb, bu vəziyyəti biz yaratmışıq. Biz reallıqları yaradan ölkəyik. Bundan əvvəlki dövrlərdə də bizim təşəbbüslərimizlə reallaşan bir çox layihələr bölgəyə yenilik gətirdi, əməkdaşlığın yeni formatlarını şərtləndirdi. Bizim uğurlu enerji siyasətimiz, nəqliyyat siyasətimiz nəinki enerji və nəqliyyat dəhlizlərinin yaranmasına gətirib çıxar-

dı, eyni zamanda, bölgədə və geniş mənada Avrasiya məkanında yeni əməkdaşlıq formatlarını yaratdı. Bu gün bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır. Bu, istər-istəməz həmin ölkələr arasında, hətta əvvəlki dövrlərdə bir-biri ilə o qədər də isti münasibətləri olmayan ölkələr arasında da əməkdaşlığı labüd edir. Ona görə son vaxtlar bizim siyasətimizlə bağlı dünyada gedən düzgün təhlillər və bizim fəaliyyətimizə verilən yüksək qiymət həqiqəti tam əks etdirir. İkinci Qarabağ müharibəsinin nəticələri də bölgə üçün yeni reallıqlar yaradıbdır. Bölgədə yeni əməkdaşlıq imkanları yaranıbdır. Uzunmüddətli sülhün təmin edilməsi üçün çox önəmli şərtlər yaradılıb və eyni zamanda, ölkəmizdə də yeni dövrə qədəm qoymaq üçün yeni imkanlar yaranıbdır.

Biz bütün işləri ardıcıllıqla edirik və əgər son 17 illik tariximizə nəzər salsaq görərik ki, qarşıya hədəflər qoyulurdu, hədəflər düzgün müəyyən edilirdi, biz bu hədəflərə çatırdıq və ondan sonra qarşımıza yeni hədəfləri qoyurduq. Beləliklə, həm siyasi, həm iqtisadi sahədə dayanıqlı inkişafı təmin etdik, beynəlxalq aləmdə Azərbaycanı çox böyük nüfuza və hörmətə malik olan ölkəyə çevirdik və əsas məsələmizi – ərazi bütövlüyümüzün bərpasını təmin etdik.

Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insan-

larını onun ətrafında birləşdirdi. Burada onun ötən əsrin 70–80-ci illərinin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyəti nəticəsində isə Azərbaycan 1982-ci ildə qabaqcıl yerlərdə idi.

Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi. O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm də yüngül sənaye sahələrini yüksək dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır.

Digər önəmli amil Heydər Əliyevin Naxçıvan dövrü ilə bağlıdır. Çünki o vaxt Naxçıvan həm Ermənistanın hücumlarına, həm də ovaxtkı Azərbaycan rəhbərliyinin əsassız hücumlarına, təqiblərinə məruz qalırdı. Faktiki olaraq, blokada şəraitindəki respublika işıqsız, qazsız, susuz, heç bir maddi imkanı olmadan yaşayırdı və Heydər Əliyev amili burada əsas rol oynayırdı. Ermənilər nə qədər cəhd etsələr də, Naxçıvanda öz istəklərinə nail ola bilmədilər. Halbuki Qarabağdan sonra onların növbəti hücum hədəfi Naxçıvan idi. Heydər Əliyev və onun ətrafında

birləşmiş insanlar Naxçıvanı qoruya bildilər, düşməni yerinə oturtdular və orada sərhəddə gedən şiddətli döyüşlərdə qalib gəldilər.

Eyni zamanda, müstəqilliklə bağlı ulu öndərin birmənalı, qətiyyətli addımları xalq tərəfindən yüksək qiymətləndirilirdi. O vaxt Azərbaycan Respublikasında Sovet İttifaqının saxlanılmasına dair referendum keçirilmişdi və bu referendumun nəticələri kobudcasına saxtalaşdırılmışdı. Sanki Azərbaycan xalqı müstəqillik istəmir, sanki Azərbaycan xalqı Sovet İttifaqının tərkibində yaşamaq istəyir. Bu, absurd idi. Çünki 20 Yanvar hadisələri hələ təzə-təzə baş vermişdi, Azərbaycana qarşı edilmiş ədalətsizlik, Dağlıq Qarabağdan və ondan sonra ətraf bölgələrdən azərbaycanlıların qovulması, Ermənistandan azərbaycanlıların qovulması – bütün bunlar Azərbaycan xalqının qəlbində yara kimi qalmışdı.

Belə olan vəziyyətdə hansı vətənpərvər insan müstəqilliyin əleyhinə səs verə bilər? Yəni tam saxtalaşdırılmışdı. Ancaq Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev referendumun keçirilməsinə imkan verməmişdi. Bu, böyük cəsarət, qəhrəmanlıq tələb edən addım idi. Eyni zamanda, o vaxt Bakıda sovet Azərbaycanının bayrağı altında oturan rəhbərlik sanki o keçmişdən elə ikiəlli yapışmışdı ki, onu buraxmaq istəmirdi. Ancaq Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi bayraq kimi təsis edildi, hərçənd Sovet İttifaqının dağılmasına hələ çox vaxt var idi.

Yəni bütün bu faktorlar, bütün bu amillər Heydər Əliyevin xalq qarşısında olan hörmətini daha da artırmışdır.

Yeni Azərbaycan Partiyasının yaradılması zərurət idi. O vaxt, yenə də deyirəm, cəsarətli, qorxmaz insanlar açıq-aydın görürdülər ki, təzə-təzə müstəqilliyə qovuşmuş gənc ölkəmiz böyük fəlakətlə üz-üzədir və artıq ölkədə gedən proseslər idarəolunmaz xarakter almışdır. Hərbi məğlubiyyət eyni zamanda, daxili böhranla tamamlanır. Ölkə daxilində gedən xoşagəlməz proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrunda mübarizə ölkəmizin müstəqil yaşamasını sual altına qoymuşdur. O günləri, o ayları təsəvvür etmək üçün bu gün Ermənistanda baş verən hadisələrə nəzər salmaq kifayətdir. Faktiki olaraq, onun əksidir, ümidsizlik, cəmiyyətdə hökm sürən total apatiya, depressiya, heç bir siyasi qüvvəyə inamın olmaması, iqtidara inamın olmaması, müxalifətə inamın olmaması, bax, bu idi o vaxt gənc müstəqil Azərbaycanın mənzərəsi. Belə vəziyyətdə ölkə necə inkişaf edə bilərdi?! Bizim torpaqlarımız əldən gedirdi, ərazi bütövlüyümüz pozulmuşdu, Ermənistandan 300 mindən çox azərbaycanlı qovulmuşdu, Dağlıq Qarabağdan bütün azərbaycanlılar qovulmuşdu, Şuşa və Laçın işğal altına düşmüşdü, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantı yaranmışdı, qaçqınlar, köçkünlər yaranmışdı və gələcək üçün, bu vəziyyəti dəyişdirmək üçün heç bir əsas yox idi. Kim bu vəziyyəti dəyişdirəcəkdi? O vaxt hakimiyyətdə olan AXC–Müsavat cütlüyü ancaq öz maraqlarını güdürdü. Hakimiyyətə gəlmiş təsadüfi adamlar eynən

Ermənistanda 2018-ci ildə hakimiyyətə gələn insanlarla, elə bil ki, əkiz qardaşdırlar. Təcrübəsiz, biliksiz, mədəniyyətsiz, səriştəsiz, qorxaq, fərari, daha hansı epitet qaldı – istənilən mənfi epitet onlara yaraşır. Bax, onlar idi o vaxt Azərbaycanı idarə edənlər.

Belə insanlara xalq tərəfindən inam ola bilərdimi? Ölkə tamamilə idarəolunmaz vəziyyətdə idi. Köhnə partnomenklatura, demək olar ki, tamamilə iflic vəziyyətə düşmüşdü, hakimiyyətə qanunsuz yollarla gəlmiş AXC–Müsavat cütlüyü ölkəni talayırdı, dağıdırdı, müharibə gedə-gedə Ermənistana benzin satırdı. Bütün vəzifələrə rüşvət müqabilində insanlar təyin edilirdi, təsadüfi insanlar, küçədən keçənlər. Mən bunu dəfələrlə demişəm, kim idarə edirdi Azərbaycanı, hansı əxlaq, hansı bilik sahibləri.

Eynən 2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş adamlar kimi, onlar da ölkəni dağıdırdılar və nəticə etibarilə bizi gətirib uçurum kənarına qoydular. Azərbaycan xalqı buna dözə bilərdimi? Əlbəttə, yox! Məhz bu idi Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi zərurəti.

O vaxt cəsarət və milli düşüncə göstərmiş, baxmayaraq ki, repressiyalara məruz qalmış vətənpərvər insanlar – məşhur «91-lər» ulu öndərə müraciət etdilər. Bu, böyük cəsarət tələb edirdi. Çünki o vaxt qanun yox idi. Kim nə istəyirdi, onu da edirdi. Hüquq-mühafizə orqanlarının nümayəndələri insanları əsassız həbs edirdilər, döyürdülər, canlı efirdə döyürdülər, söyürdülər. Tamamilə anarxiya, xaos, özbaşınalıq hökm sürürdü. Kimi istəyirdilər öldürürdülər, şikəst edirdilər, həbs edirdilər. Bax, bu idi o vaxt mövcud olan

mənzərə. Senzuranı tətbiq etmişdilər. O vaxt onlara qarşı bir söz deyəni tutub əzirdilər, döyürdülər, öldürürdülər. Nə üçün bəs Yeni Azərbaycan Partiyasının təsis qurultayı Naxçıvanda keçirildi? Çünki Bakıda imkan vermədilər. Heydər Əliyev fenomenindən o qədər qorxurdular, öz cılız mahiyyətlərini özləri o qədər dərk edirdilər, bilirdilər ki, əgər qurultay Bakıda keçirilsə, onların hakimiyyətinə son qoyulacaq. Çünki onlara xalq tərəfindən olan nifrət artıq bütün həddi keçmişdi.

Mən bu gün bir daha o vaxt bu milli maraqları hər şeydən üstün tutan «91-lər»i qeyd etmək istəyirəm, onların fəaliyyətini yüksək qiymətləndirirəm. Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında da, ictimai həyatda da fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi, hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular.

Faktiki olaraq, 1992-ci ilin noyabr ayı gənc ölkəmizin həyatında yeni bir mərhələyə yol açdı. Ondan sonra heç bir il keçməmiş – 1993-cü ilin oktyabr ayında Heydər Əliyev xalqın mütləq əksəriyyətinin dəstəyi ilə Prezident vəzifəsinə seçildi və ölkəmizin böhrandan çıxma prosesi artıq başlandı.

Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bi-

zim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Müstəqillik tariximiz məhz ondan başlandı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdi. Sovet İttifaqı, demək olar ki, dağılırdı. Artıq parçalanma prosesləri gedirdi. Nəyi gözləyirdilər 18 oktyabra qədər? Ondan əvvəl müstəqilliyi elan etmək olmazdımı? Əlbəttə, olardı. Ona görə bizim əsl müstəqillik tariximiz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Çünki ona qədər müstəqillik sözdə var idi, amma faktiki olaraq, yox idi. Azərbaycan müstəqil siyasət apara bilirdi? Yox! Öz hüdudlarını qoruya bilirdi? Yox! Beynəlxalq aləmdə öz sözünü deyə bilirdi? Yox! Bəs bu necə müstəqillikdir?

Əlbəttə, o dövrü düzgün təhlil edərkən biz gələcəkdə də özümüzü hər hansı bir riskdən sığortalamış olarıq. O dövrü bilməyən, o vaxt yaşamayan gənc nəsil bilməlidir ki, nəyin bahasına biz müstəqilliyi qoruyub saxlaya bilmişik. Kimə biz borcluyuq. Əgər Heydər Əliyev o vaxt hakimiyyətə gəlməsəydi, bu gün Azərbaycan bəlkə də ancaq kiminsə əlinin altında bir oyuncaq dövlət kimi, bir yarımmüstəmləkə kimi yaşaya bilərdi.

Biz bu tarixi bilməliyik, bilirik və bundan sonra öz fəaliyyətimizi bu möhkəm təməl üzərində quracağıq, necə ki, bu vaxta qədər qurmuşuq. 1993–

2003-cü illər həlledici illər olmuşdur. Dövlətçiliyin əsasları qoyulmuşdur. 20 Yanvar faciəsinə siyasi qiymət verilmişdir. Nə üçün Xalq Cəbhəsi–Müsavat cütlüyü 20 Yanvar faciəsinə siyasi qiymət verməmişdir? Onların bir il vaxtı var idi. Nə üçün? Çünki onların da əli Azərbaycan xalqının qanına batmışdır. Onlar da 20 Yanvar faciəsini ört-basdır etmək istəyirdilər. Yalnız Heydər Əliyev 20 Yanvar faciəsinə siyasi qiymət verdi. Konstitusiya yalnız Heydər Əliyevin dövründə qəbul edildi. Xalq Cəbhəsi–Müsavat cütlüyü tərəfindən qoyulmuş senzura məhz onun göstərişi ilə ləğv edildi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı. Biz beynəlxalq təcriddən çıxdıq. Azərbaycan artıq hörmətli və hörmətə layiq olan ölkə kimi tanınmağa başlandı. Ölkəmizə böyük investisiyalar cəlb edildi. Ordu quruculuğuna start verildi. Bizim nizami ordumuz yox idi. Kadrların yetişdirilməsi ilə bağlı önəmli addımlar atıldı. O kadrlar ki, bu gün də ölkəmizin müxtəlif sahələrində öz töhfələrini verirlər.

Təbii ki, 2003-cü ildə xalq Heydər Əliyev siyasətinə səs vermişdir, mənə etimad göstərmişdir. Çünki mən demişdim ki, əgər xalq etimad göstərərsə, ulu öndərin siyasətinə sadiq qalacağam. O, əsas amillərdən biri idi. Həyat onu göstərdi ki, biz son 17 il ərzində doğrudan da tarixi uğurlara imza atmışıq. Bu dövrü xarakterizə etmək üçün çox vaxt lazımdır.

Hər şey göz qabağındadır. Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər. Çünki bu, gənc ölkəmizin yeni dövrüdür,

əvvəlki dövrə əsaslanmış, möhkəm təmələ əsaslanmış, amma yeni dövrüdür. Bu da təbiidir. Çünki hər dövrün öz tələbləri vardır. Biz keçən əsrin 90-cı illərinin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq. Ancaq əgər biz oturub bütün günü o dövr haqqında danışsaq, gələcək haqqında düşünməsək, onda nə olacaq?! Biz gələcək haqqında düşünməliyik. Biz zamanı qabaqlamalıyıq. Mən demişəm, indi Qarabağın bərpası ilə bağlı bizim əsas rəqibimiz zamandır. Ölkənin gələcəyini elə planlaşdırmalıyıq ki, uzunmüddətli dayanıqlı inkişaf təmin edilsin, müstəqillik əbədi olsun, ölkəmizin qüdrəti artsın, təsir imkanlarımız artsın və daim Azərbaycan xalqı təhlükəsizlik şəraitində öz dədə-baba torpağında yaşasın.

Deyə bilərəm ki, 2003–2020-ci illər, əgər indi tarixə bu prizmadan yanaşsaq, bir hazırlıq dövrü idi. Biz hazırlaşmalı idik və mən bunu gizlətmirdim. Mən deyirdim ki, sülh yolu ilə məsələ həll olunmasa, müharibə yolu ilə bunu həll edəcəyik. Mənə qarşı nə qədər təzyiqlər oldu buna görə. Məni nə qədər ittiham etdilər böyük ölkələrin nümayəndələri ki, İlham Əliyev sülh istəmir, müharibə istəyir, kimisə hədələyir. Müharibə mümkün deyil. Siz də nə qədər eşitmisiniz, Azərbaycan xalqı da eşidib ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli yoxdur. Daha adam qalmamışdı bunu deməsin. Mən buna razılıq verdimmi? Xeyr. Nə qədər məni, necə deyərlər, inandırmağa çalışırdılar ki, Ermə-

nistan ilə hər hansı bir formada bir protokol imzalansın ki, ancaq məsələ sülh yolu ilə həll olunsun. Yəni hərbi yol istisna edilsin. Mən buna razılıq verməmişdim.

Ondan sonra məni ittiham etməyə başlamışdılar ki, əgər Prezident buna razılıq vermirsə, deməli, müharibəyə hazırlaşır. Deyirdim, bəli, hazırlaşıram, xalq hazırlaşır, dövlət hazırlaşır. Demişdim ki, əgər məsələ həll olunmasa, müharibə yolu ilə bunu həll edəcəyik. Açıq demişdim, bunu mən gizlətmirdim. Bu, hazırlıq dövrü idi. İlk növbədə, biz mənəvi cəhətdən hazır olmalı idik. Bütün başqa amillərlə bərabər, bax, bu amil həlledici rol oynadı. Müharibənin ilk günündən mənəvi üstünlük bizdə idi. Təkcə ona görə yox ki, biz haqlı idik, onlar nahaq. Ermənistanın rəsmi təbliğatı erməni xalqının beynini elə zəhərləyib ki, onların bəlkə də bir çoxları hesab edirdilər ki, haqlı olaraq bizim torpaqlarımızı zəbt ediblər. Mən demişdim, onları müalicə etdirmək lazımdır. Onlar xəstələniblər, koronavirusdan da betər bir virus hopub onların canına. O millətçi və irqçi, azərbaycanofob, islamofob erməni siyasətçiləri, bax, buna gətirib çıxardılar. Təkcə ona görə yox ki, biz haqlı idik. Biz mənəvi üstünlüyü ona görə əldə etdik ki, bütün bu illər ərzində bir amalla yaşamışıq: ərazi bütövlüyümüzün bərpa edilməsi, düşmənlərin torpaqlarımızdan qovulması.

Mən, demək olar ki, bütün çıxışlarımda, beynəlxalq müstəvidə bütün tədbirlərdə bu məsələni dilə gətirirdim, münaqişəni dilə gətirirdim. Bilirdim ki, gənc nəslin tərbiyə edilməsində bu amil həlledici olacaqdır. Amma görün bizi nəyə sürükləyirdilər

bəzi qeyri-hökumət təşkilatları, bəzi guya sülhsevər dairələr ki, gəlin indi vətəndaş cəmiyyətinin nümayəndələri, digər nümayəndələr bir-biri ilə görüşsünlər, əməkdaşlıq olsun, Ermənistanla Azərbaycan əməkdaşlıq etsin. Mən bu sözləri ən yüksək kürsülərdən, bir çox ikitərəfli görüşlərdə çox eşitmişdim ki, siz əməkdaşlıq etməlisiniz, əməkdaşlıq etsəniz, Qarabağda yaşayanları inandıra bilsəniz, əgər Ermənistan görsə ki, Azərbaycan xoş niyyət göstərir, onda məsələ həll olunacaq. Başımızı aldatmaq istəyirdilər, mən isə deyirdim ki, əməkdaşlıq ancaq o təqdirdə ola bilər ki, düşmən torpaqlarımızdan çıxsın. Bax, yenə də sözümə sadiqəm. Düşmən özü çıxmadı, biz onu rədd etdik, qovduq, amma yenə də əməkdaşlığa hazırıq. Azərbaycan–Ermənistan–Rusiya Baş nazirlərinin müavinləri artıq neçə dəfə görüşüblər. Nə barədə danışıblar? Əməkdaşlıq barəsində. Biz əməkdaşlığın əleyhinəyikmi? Yox. İndi Ermənistan əməkdaşlıqdan boyun qaçırır. İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiklərimizə də nail olacağıq. Amma o vaxt Ermənistanla əməkdaşlıq etmək bizim işimizə gələrdimi? Əlbəttə ki, yox. Nə qədər deyirdilər ki, qoy vətəndaş cəmiyyətinin nümayəndələri gəlsinlər, görüşsünlər. Bir müddət belə görüşlər var idi. Amma biz gördük ki, burada əsas mahiyyət kənarda qalır. Sanki müharibə olmayıb. Xocalı soyqırımı olmayıb. Bizim qaçqınlarımız, köçkünlərimiz sanki öz torpaqlarından ermənilər tərəfindən qovulmayıb. Binalarımız,

məscidlərimiz dağıdılmayıb. Biz bunu necə unuda bilərik? Nə qədər çalışdılar bizi inandırsınlar ki, neft kəmərlərimiz Ermənistan ərazisindən keçsin. Mən buna rədd cavabı verəndən sonra Bakı–Tbilisi–Ceyhan neft kəmərinin maliyyələşdirilməsini bir il yubatdılar. O vaxt biz kreditlərə möhtac idik. Aparıcı beynəlxalq maliyyə qurumları bir il kredit vermədilər ki, bizi məcbur etsinlər buna. Dedim ki, vermirlər, necə deyərlər, cəhənnəmə verməsinlər, özümüz vəsait taparıq.

Bax, bu reallığı biz yaratdıq və yenə də deyirəm, mənəvi hazırlıq həlledici rol oynadı. Gənc nəsil yetişdi, Vətənə sevgi, düşmənə nifrət hissi ilə yetişdi və bu gənc nəsil torpaqlarımızı işğalçılardan azad etdi. Mən demişəm ki, torpaqlarımızın azad edilməsində bütün nəsillərin nümayəndələri uğurlu fəaliyyət göstəriblər, ancaq döyüşdə iştirak edənlərin mütləq əksəriyyəti 2003-cü ildə mən hakimiyyətə gələndə uşaq olan insanlardır. Onlar yetişdi, onlar vətənpərvərlik və fədakarlıq göstərərək, canlarından keçdilər, şəhid oldular, qazi oldular, qəhrəmanlıq göstərdilər və tarixi ədaləti bərpa etdilər.

Ondan sonra hansı hazırlıq işləri aparılmalı idi? Əlbəttə, iqtisadi hazırlıq. İqtisadi hazırlıq olmadan heç nəyi etmək mümkün deyil. Ermənistandan fərqli olaraq, Azərbaycana heç kim kömək etmirdi.

Biz hər şeyi öz hesabımıza əldə etmişik. Ermənistan kimi, heç vaxt gedib qapı-qapı gəzməmişik, özümüzü alçaltmamışıq, yalvarmamışıq, heç kimdən yardım istəməmişik. Ona görə iqtisadi müstəqillik həm hazırlıq baxımından, həm də siyasi müstəqil-

liyin möhkəmləndirilməsi baxımından əsas şərt idi. Buna da nail olduq. Bu gün istənilən meyar üzrə, istənilən parametr üzrə heç kimdən asılı deyilik, iqtisadi sahədə ən qabaqcıl yerlərdəyik – istər xarici borc baxımından, istər iqtisadi artım baxımından və adambaşına düşən valyuta ehtiyatları baxımından. Yəni biz istənilən meyar üzrə qabaqcıl yerlərdəyik və bu sahədə şəffaflığı təmin etmişik. Mənə dünən məlumat verildi ki, çox mötəbər təşkilat tərəfindən dünyanın 60-dan artıq suveren fondlarının təhlili aparılıb və Azərbaycan Dövlət Neft Fondu bütün parametrlər, bütün meyarlar üzrə 5-ci yerdədir. Mən dedim bu siyahını dərc etsinlər ki, hər kəs görsün hansı ölkələrin suveren neft, yaxud ehtiyat fondları orada göstərilir.

Görün biz kimləri qabaqlamışıq? Davos İqtisadi Forumunun hesabatına baxın, biz iqtisadi inkişaf baxımından, infrastruktur layihələri baxımından inkişaf etmiş ölkələri qabaqlamışıq. Kimsə bizə kömək edib? Yox. Bunu borca girib etmişik? Yox. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 18-19 faizini təşkil edir. Bir də ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 5-6 dəfə çoxdur. Biz istəsək sabah, birisi gün, bir aydan sonra bütün xarici borcumuzu ödəyə bilərik. Yəni bu nailiyyətləri öz zəhmətimiz hesabına qazanmışıq, əraziləri işğal olunmuş ölkə kimi qazanmışıq, çox çətin geosiyasi vəziyyətdə olan ölkə kimi qazanmışıq. Bu, Vətən müharibəsi üçün iqtisadi sahədə, siyasi sahədə, daxili sabitlik sahəsində hazırlıq idi. Baxın, indi Azərbaycana xaricdən nə qədər investisiyalar qoyu-

lur. Bunun əsas amili daxili sabitlikdir. «Doing Business» proqramında biz yaxşı yerlərdəyik. İndi bizim yerimizi yüksəldiblər və qabaqcıl ölkələr sırasındayıq. Ermənistana bir manat qoyan var? Yox. Adam gərək dəli olsun ki, oraya pul qoysun. Heç xaricdə yaşayan ermənilər də oraya pul qoymurlar. Nə üçün? Çünki hərc-mərclik var, aləm qarışıb, sabitlik yoxdur, lider yoxdur, etibar oluna biləcək bir şəxs yoxdur ki, investor gəlib desin, bəli, mən inanıram bu dövlətə, bu dövlət başçısına, mən vəsait qoyuram. Biz bu il təqribən 400–500 milyon dollarlıq xarici investisiyaları bərpa olunan enerji növlərinə gətirmişik. Artıq bir müqavilə bağlanılıb, bir müqavilə də bu ay, ya gələn ay bağlanılacaqdır. Onlar özləri bunu təklif ediblər. Yeddi aparıcı şirkət bu layihələr uğrunda mübarizə aparırdı. Onlardan ikisi bizə ən sərf edən təkliflər irəli sürdü. Onlar 440 meqavat gücündə Günəş və külək elektrik stansiyalarını öz vəsaitləri hesabına inşa edəcəklər. Azərbaycanlılar həm inşaat dövründə, həm də istismar dövründə orada işləyəcəklər və bizə nə qədər xeyir gətirəcəklər. Azad edilmiş torpaqlarla bağlı indi nə qədər təkliflər var? Biz indi onları cəmləşdiririk və gərək onların arasından ən yaxşılarını seçək. İndi vəziyyət elə deyil ki, biz gedib kiminsə qapısını döyək, yaxud da hansısa bankdan kredit istəyək. Mən, ümumiyyətlə, hökumətə xarici kreditləri götürməyi qadağan etmişəm. Biz ancaq yüksək texnoloji layihələrə kredit götürməliyik. Yoxsa yol çəkirik, asfalt bizim, bitum bizim, çınqıl bizim, niyə biz xarici kredit götürməliyik? Yaxud da ki, buna oxşar layihələr. Bu proses davam etdirilir.

Daxili sabitlik əsas amildir. Azərbaycanda bu var. Amma baxın görün bizim bölgəmizdə bir çox yerlərdə bu varmı? Xeyr. Baxın görün hansı proseslər gedir, hansı ixtilaflar cərəyan edir. Xaricdən gəlirlər bəzilərini barışdırmağa. Bəs onda ölkədaxili proseslər nəyə lazımdır, əgər kimsə xaricdən gəlir kimisə barışdırmağa? Yaxud da ki, baxın Ermənistana, indi xaricdən yardım olmasa, birdəfəlik batacaq, birdəfəlik! Heç ümid yeri də yoxdur. İnkişaf üçün heç bir əsas yoxdur. Daxili sabitlik üçün heç bir əsas yoxdur. Bunlar heç dövlət çevrilişi də edə bilmirlər. Gah bunu ediblər, gah etməyiblər, heç özləri də bilmirlər. İndi ordu hakimiyyətə tabe olmur. Prezident deyir ki, mən siyasətlə məşğul olmuram, məni bu işlərə qatmayın, qoyun sakit oturum. Belə də biabırçılıq olar? Baş nazir haqqında daha bir şey demək istəmirəm. Başqa yerlərə də baxın, mən postsovet məkanını deyirəm. Ona görə daxili sabitlik olmalı idi. Nəyin hesabına? Siyasət hesabına, xalq–iqtidar birliyi hesabına. Zor gücü hesabına yox. Buna da biz nail olduq. Eyni zamanda, bu sahədə sosial təminat, sosial ədalət məsələləri önəmli rol oynamışdır.

Biz hazırlıq dövründə, əlbəttə, beynəlxalq vəziyyəti də öz xeyrimizə çevirməli idik. Çünki ötən əsrin 90-cı illərində bilmirəm nədənsə, yəqin ki, bu da Xalq Cəbhəsi–Müsavat dövründən gələn bir fəsaddır, çünki onlar bir il ərzində, demək olar ki, bütün ölkələrlə münasibətləri yerə vurdular. Bəzi ölkələrə qarşı iddialar irəli sürdülər, bizi bəzi qonşularımızla düşmən etdilər. Onlar idi günahkar, bunu biz açıq

deyirik, onlar idi günahkar. Özlərini, necə deyərlər, əlaltı kimi aparmaqla hesab edirdilər ki, özləri üçün bir sığınacaq yeri tapa bilərlər. Ona görə biz bu yaranmış stereotipləri dağıtmalı idik. Nə üçün hesab olunmalıdır ki, hansısa ölkə Ermənistanla yaxın münasibətdədir, Azərbaycanla yox? Nə üçün? Dedim ki, baxaq görək nədir bunun əsasında – bir fundamental məsələ var, bir fundamental ixtilaf var? Yoxdur. Sadəcə olaraq, ambisiyalar, səriştəsizlik, ağılsızlıq və xaricdən idarə olunma. O siqnalları xaricdən alırdılar ki, bu ölkə ilə yaxınlaşma, bu ölkə ilə yaxınlaşmaq olmaz, bu ölkədən uzaq dur. Beləliklə, yaşadığımız bölgədə Xalq Cəbhəsi–Müsavat cütlüyü bizi təcrid etdi. Biz təcrid edilmiş vəziyyətdə idik, Ermənistan yox. Amma biz nəyə gətirib çıxartdıq? İndi Ermənistan təcrid edilmiş vəziyyətdədir, biz isə bütün qonşularla çox səmərəli dostluq, mehriban qonşuluq əsasında münasibətlər qurduq və bu da bir hazırlıq idi. Mən bunu açıq demək istəyirəm, əgər bu sahədə hazırlıq işləri aparılmasaydı, İkinci Qarabağ müharibəsində çətinliklər ola bilərdi. Ermənistan isə özünü təcrid etdi. Yəni biz onları regional layihələrdən, neft-qaz layihələrindən təcrid etdik, onların iqtisadiyyatını çökdürdük və bunu qürur hissi ilə deyə bilərik, bunu hər bir müstəqil iqtisadi ekspert də deyə bilər ki, bunun əsas amili bizik, Ermənistanı qeyri-müəyyən, qeyri-sabit və gələcəyi olmayan ölkə kimi təqdim etdik. İqtisadi çətinliklər artdıqca, oradan köç daha da geniş vüsət aldı.

Demoqrafik problemlər yarandı və bu özlüyündə iqtisadi bazarın daralmasına gətirib çıxardı. İqtisa-

di bazar dar olanda heç kim ora investisiya qoymayacaq. Nəyə investisiya qoyacaq, əgər orada adam yoxdursa, pul yoxdursa? Sən bu investisiyanın gərək sonra pulunu çıxarasan, pulunu çıxarmaq üçün isə gərək bazar olsun. Bizdə isə, əksinə, investisiyalar böyük axınla gəlirdi, əhali artırdı, 10 milyona çatmışıq. Baxın, sovet dövründə bizim əhalimiz 7 milyon idi, Ermənistan əhalisi 3,5 milyon. İndi Ermənistan əhalisi 1,8, bizim əhalimiz isə 10 milyondur.

Beynəlxalq məsələlərə gəldikdə, bir daha demək istəyirəm ki, biz köklü surətdə bölgəmizdə vəziyyəti dəyişdirə bildik. Mən xarici siyasətlə bağlı çıxışlarımda demişdim ki, prioritetlər arasında qonşu ölkələrlə bizim əməkdaşlığımız xüsusi yerə malikdir. Amma bununla bərabər, biz bütün başqa ölkələrlə də münasibətlər qurduq. Bu gün belə bir ölkə yoxdur ki, bizim o ölkə ilə hansısa problemimiz olsun. Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb. Mən indi heç kimin haqqında danışmaq istəmirəm, amma bunu deməliyəm. «Şərq Tərəfdaşlığı» ölkələrindən hansı bir ölkə Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb? Heç biri. Onlar assosiasiya sazişi imzalayıblar, o sazişə də mən baxmışam. O faktiki olaraq, saziş deyil, o, təlimat kitabçasıdır. O ölkələrə təlimat verilir, bunu belə etməlisən, bunu elə etməlisən. Mən isə ondan imtina etdim. Dedim ki, bizə belə təlimat lazım deyil. Biz özümüz bilirik nə etmək lazımdır. Bu gün biz Avropa İttifaqı ilə bərabərhüquqlu saziş üzərində işləyirik və sazişin

90 faizi razılaşdırılıbdır. Əlbəttə ki, pandemiya və müharibə bu işlərə bir az müdaxilə etdi. Yaxın gələcəkdə bu danışıqlar bərpa ediləcək. Biz bu sahədə də uğurlar əldə etmişik və bizim digər ölkələrlə xarici siyasətimiz çoxşaxəlidir.

Beynəlxalq təşkilatlarda nə qədər fəal iş aparmışıq. Bəziləri hesab edirdi ki, bu işlər əbəsdir. Yox, elə deyil. Biz İkinci Qarabağ müharibəsi üçün hüquqi bazanı daha da möhkəmləndirməli idik. 2005-ci ilə qədər bizim üçün əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələri idi. Əlbəttə ki, onlar çox önəmli qətnamələrdir, amma icra edilmirdi, biz onları icra etdik. 2005-ci ildə Avropa Şurası Parlament Assambleyası uzun müzakirələrdən sonra apardığımız iş nəticəsində bizi qane edən qətnamə qəbul etdi. Əlbəttə, Avropa Şurası Parlament Assambleyası Qarabağ məsələsini həll edən qurum deyil, ancaq onun qətnaməsi hüquqi baza idi. O biri təşkilatlar da buna baxıb, artıq gördülər ki, bəli, əgər orada bu, qəbul olunubsa, deməli, başqa yerlərdə də qəbul oluna bilər. BMT Baş Assambleyası buna oxşar qərar, qətnamələr qəbul etmişdir. Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, «Qoşulmama Hərəkatı» və digərləri. Bu, hüquqi bazadır. Bunun nəticəsində biz Avropa İttifaqı ilə bir neçə il bundan əvvəl imzaladığımız «Tərəfdaşlıq prioritetləri» sənədinə, yəni paraflanmış sənədə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərimizin toxunulmazlığına hörmət prinsipini əks etdirən müddəa saldıra bildik. Mən Avropa Komissiyası ilə 2004-cü ildən bu məsələni daim müzakirə edirəm. Onlara deyirəm ki, necə ola

bilər, siz Gürcüstanın, Moldovanın ərazi bütövlüyünü dəstəkləyirsiniz, bunu ikitərəfli sənədlərdə, hansısa bəyanatlarda əks etdirirsiniz, bizə gəldikdə isə deyirsiniz ki, sülh yolu ilə həll olunsun? Bu ədalətsizlikdir. Bu nə qədər davam edə bilər? Mən Avropa Komissiyasının prezidentlərinin bir neçəsi ilə işləmişəm və hər dəfə bunu demişəm və nəhayət, buna nail olduq. Bu nədir? Bu, hüquqi bazadır. Müharibə başlayanda kim deyə bilərdi ki, Azərbaycan haqsızdır? Biz öz torpağımızdayıq. Mən bəyanatlar verdim ki, bizim Ermənistan ərazisi ilə işimiz yoxdur, Ermənistan sərhədini biz keçməyəcəyik və keçmədik də. Ona görə, bax, bu hüquqi baza lazım idi. Ondan sonra «Qoşulmama Hərəkatı»na üzv olduq. Bəzi «siyasətçilər» ağızlarını büzdülər ki, nahaq. «Qoşulmama Hərəkatı» üzvlərinin sayına görə ikinci təsisatdır. Bizə qarşı müharibə dövründə BMT Təhlükəsizlik Şurasında çirkin kampaniya aparılan zaman qətnamə hazırlanırdı. Kim onu pozdu? «Qoşulmama Hərəkatı»na üzv ölkələr, onlar bizi müdafiə etdilər. Bizim bu təşkilata rəhbərlik etməyimiz formal rəhbərlik deyil. Biz bu təşkilat üzvlərini müdafiə edirik, biz onlara kömək göstəririk, biz COVID-lə bağlı onlara yardım etmişik, biz heç kimdən çəkinmədən onların haqq səsini müdafiə edirik. Onlar da bizi müdafiə etdilər. Beləliklə, bu qətnamə qəbul edilmədi. O, qəbul edilsəydi də, bizi dayandırmazdı. Heç nə və heç kim bizi dayandıra bilməzdi. Mən demişdim ki, ancaq Ermənistanın baş naziri özü gərək bizə erməni qoşunlarının çıxarılmasının tarixini versin, ondan sonra biz dayanarıq. Amma o qətnamə bizə başağrısı gətirə

bilərdi. Ona görə biz indi orada da etibarlı tərəfdaş kimi, fəaliyyət göstəririk. BMT-nin xüsusi sessiyasını biz çağırdıq.

Buna da müqavimət var idi və mən bu barədə indi deyə bilərəm ki, insanlar da bilsinlər. Biz COVID-lə bağlı «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünü, Türk Şurasının Zirvə görüşünü keçirdik və BMT-nin xüsusi sessiyasının keçirilməsi haqqında müraciət etdik. Amma bir neçə ay razılaşmalar getdi, dəqiqləşmələr getdi. Nəhayət, keçən ilin dekabrında bunu da keçirdik. Bu da beynəlxalq müstəvidə hazırlıq idi.

Əlbəttə ki, ordu quruculuğu hazırlığı da əsas məsələlərdən biri idi və bizim şanlı Qələbəmiz hər şeyi özü deyir. Bu haqda çox danışmaq istəməzdim. Bir daha demək istəyirəm ki, bütün bu hazırlıq istiqamətləri nəticədə bir nöqtədə birləşdi – 44 günlük müharibədə və bizim tarixi Qələbəmiz bizim qürur mənbəyimizdir. Bundan sonra əsrlərboyu Azərbaycan xalqı bu Qələbəni öz ürəyində, qəlbində yaşadacaq. Çoxəsrlik Azərbaycan tarixində buna oxşar parlaq Qələbə və mütləq Qələbə olmamışdır.

İndi biz yeni dövrə qədəm qoyuruq. Bu dövrlə bağlı mən bundan sonra da öz fikirlərimi bildirəcəyəm. Çünki konseptual nöqteyi-nəzərdən bütün baxışlar yerindədir. Hər şeyi açıq-aydın görürük. Amma, əlbəttə, həyat və xüsusilə Qarabağın bərpası ilə bağlı məsələlər bizim planlarımıza müxtəlif korrektələr edəcək. Bu da təbiidir. Ancaq konseptual nöqteyi-nəzərdən gələcəklə bağlı bəzi fikirlərimi bölüşmək istərdim.

Biz yeni dövrdə siyasi dialoqu daha da dərinləşdirməliyik. Bu prosesə müharibədən əvvəl start verilib və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olunubdur. Demək olar ki, bütün partiyalar – əgər biz özünü siyasi qurum adlandıran antimilli şuranı istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərdilər, bizim təşəbbüsümüzü alqışladılar və artıq bu dialoq baş tutubdur. Bunu mən tam əminliklə deyə bilərəm ki, heç bir kənar müdaxilə olmadan. Çünki mənim yadımdadır, keçən əsrin 90-cı illərində, hətta indi, mənim dövrümdə də bəziləri xaricdən gəlirdilər ki, burada siyasi dialoqu bizim üçün təşkil etsinlər. Bu bizim üçün təhqir idi. Siz kimsiniz, gedin öz işinizlə məşğul olun. Sizin ölkənizdə indi siyasi dialoqa daha böyük ehtiyac var, nəinki Azərbaycanda. İndi bir-birini didirlər, necə deyərlər, bu, başqa məsələnin mövzusudur.

Ancaq biz buna nail olduq, qısa müddət ərzində. Yenə də sadəcə olaraq, baxdıq ki, hansı fundamental ziddiyyətlər var, harada biz, necə deyərlər, bir-birimizlə razılığa gələ bilmirik. Belə qərara gəldik, belə təklif etdik ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələ Qarabağ məsələsidir. Ümumi məsələ siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşdirilməsi üçün bunun böyük əhəmiyyəti vardır. Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna fikir verməyə çağırıram ki, bizim ölkə

daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur. Antimilli ünsürlərlə, əlbəttə ki, biz heç vaxt bir masa arxasında otura bilmərik, çünki onlar satqındırlar, xaindirlər. Onlar təlimatları xaricdən alırlar. Onların emissarları xarici paytaxtlarda oturublar. Oradan pul alıb bura göndərirlər, camaatı çaşdırmaq üçün, onlar bizim şanlı Qələbəmizə kölgə salmaq istəyirlər. Onlar Paşinyanı bizə nümunə gətirirdilər, onu təmiz adam adlandırırdılar, onu demokrat adlandırırdılar. Deyirdilər kaş ki, Azərbaycanda da belə bir lider olaydı. Həmin o demokrat bütün müxalifəti həbs etdirdi. Əgər sentyabrın 27-si müharibə başlamasaydı, o onları heç buraxmazdı da. Əsas müxalifət partiyasının liderini müharibədən bir neçə gün əvvəl həbs etdi. Cinayət işi açıldı. İndi özünü orada müxalifət lideri adlandıran bir adam var, onu da keçmişdən qalan naftalindən çıxarıblar. İndi onu da çağırıblar, ölkədən çıxmağa qadağa qoyublar. Budurmu demokratiya? İndi Qərb buna göz yumur, bu öz yerində. Qərb artıq bu demokratiya məsələləri ilə bağlı özünü tam ifşa edib. Yəni artıq heç bir ikinci fikir ola bilməz. Ona göz yumur, bu təbiidir. Amma bizim bu «demokratlar» indi niyə susurlar? İndi niyə demirlər ki, Paşinyan bizə nümunə olmalıdır. Gəlsin desin, öz zibilini yığışdırsın. Ermənistanda adam qalmayıb ki, onu lağa qoymasın. Hansısa adlar veriblər, özləri bilərlər. Bunu bizə nümunə gətirirdilər. Nə üçün? Çünki oradan, mərkəzdən, onların mərkəzindən təlimat almışdılar. Məqsəd nə idi? Məqsəd Azərbaycanı qarışdırmaq, Azərbaycanı çökdürmək, Azərbaycan rəhbərliyini hörmətdən salmaq, çirkin uydur-

malar, iftiralar, yalançı məqalələr yazdırmaq – hamısı bizim gözümüzün qabağındadır. Biz bunları unutmamışıq. Bizi əsas vəzifəmizdən çəkindirmək istəyirdilər ki, başımız qarışsın daxili çəkişmələrə, başımız qarışsın əsassız ittihamları yalanlamağa, əsas vəzifədən bizi çəkindirsinlər ki, işğal edilmiş torpaqlar ermənilərin əlində əbədi qalsın. Bu idi məqsəd. Bu gün antimilli şurada cəmləşmiş milli satqınlar da bu məqsədi güdür. Bizim şanlı ordumuzun Qələbəsinə kölgə salmaq istəyənlər də bu məqsədi güdür. Azərbaycan tarixində bəlkə də onlar kimi iyrənc insanlar olmayıb. Amma bütün digər siyasi qurumlarla biz əməkdaşlıq edirik və edəcəyik.

İqtisadi sahəyə gəldikdə, burada da yeni dövr artıq göz qabağındadır. Bu, şəffaflıq dövrüdür, dürüstlük dövrüdür, inhisarlara son qoymaq dövrüdür. Artıq bunu biz dəfələrlə nümayiş etdirmişik. Bu ilin iki ayının nəticələri bir daha onu göstərir. Bu ilin iki ayında bizim gəlirlərimizdə proqnozdan əlavə təqribən 200, ya 300 milyon artım olub. Bunun böyük hissəsi vergi orqanlarının hesabınadır. Bir hissəsi də gömrük orqanlarının hesabınadır. Nəyin hesabına? Vergitutma bazası genişlənir, biznes «kölgə»dən çıxır. Sahibkarlara düzgün istiqamət verilir. Davranış qaydaları müəyyəndir. Bunu camaat da görür, sahibkarlar da görür. Beləliklə, hətta böhranlı pandemiya dövründə biz maliyyə baxımından özümüzü çox rahat hiss edirik, büdcənin icrası ilə heç bir problem görmürük. Əksinə, biz Qarabağda böyük bərpa işlərinə başlamışıq. Bütün bunlar vəsait tələb edir. Ona görə iqtisadi sahədə əsas məsələ budur. Özəl sahib-

karlığın inkişafı, o cümlədən azad edilmiş torpaqlarda bütün işlərin planlı şəkildə aparılması, investisiyalar üçün imtiyazların müəyyən edilməsi – bu təlimat da verilib. Əminəm ki, xarici investorlar azad edilmiş torpaqlara böyük həvəslə gələcəklər.

Xarici siyasətlə bağlı kursumuz dəyişməz olaraq qalır. Müharibə dövrü və müharibədən sonrakı dövr bir də onu göstərdi ki, bu çox düzgün kurs idi. Müharibə dövründə bəzi ölkələr bizə qarşı müəyyən iradlar irəli sürdülər. Amma mənim cavabım nə oldu? Azərbaycan xalqı bunu bildi. Artıq bu iradlar da yoxdur. Artıq bu əsassız ittihamlar da aradan qaldırılıb. Hətta müharibə dövründə hesab edirəm ki, ədalətsiz mövqe sərgiləyən ölkələrlə də indi münasibətlər normallaşır. Yəni onlar tərəfindən belə bir təklif irəli sürüldü, biz də bunu qəbul etdik. Biz indi anlayırıq ki, bəzi daxili səbəblər ola bilər. İndi bəzi yalan məlumatlar ola bilər. Hər halda, biz maraqlı deyilik ki, bu məsələni uzadaq. Mən demişəm, hətta Ermənistanla biz bu səhifəni bağlamalıyıq, vəssalam, qurtardı getdi. Biz heç vaxt Xocalı soyqırımını unutmayacağıq. Heç vaxt şəhidlərimizin qəhrəmanlığını unutmayacağıq. Amma biz şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının qanını aldıq. Düşməndən qisasımızı döyüş meydanında aldıq. Xalqımızın böyüklüyünü bir daha göstərmək üçün hesab edirəm ki, əldə olunmuş Qələbə bizi tam qane edir. Biz bundan sonra belə yaşamalıyıq. Biz şəhidlərimizin qanını yerdə qoymadıq, qisasımızı aldıq, düşməni cəzalandırdıq. Bütün dünyanın gözü qarşısında onlar bizim qabağımızda diz çökdülər, təslim oldular, ağ bayraq

qaldırdılar və bundan sonra məğlub edilmiş ölkə damğası ilə əbədi yaşayacaqlar. Biz isə bundan sonra qürurlu xalq kimi və mübariz dövlət kimi yaşayacağıq.

Beləliklə, biz xarici siyasətlə bağlı əməkdaşlığa hazırıq. İndi bir çox ölkələr Qarabağda bərpa işlərinə maraq göstərir. Onları da biz dəvət etmişik. Xarici siyasət dəyişməz olaraq qalacaq. Bu gün Azərbaycan nəinki siyasi müstəvidə özünü təsdiqlədi. «Qoşulmama Hərəkatı»nın məsuliyyətli sədri kimi özünü göstərdi, eyni zamanda, öz haqlarını özü müdafiə edə bilən ölkə kimi özünü göstərdi. Döyüş meydanında da, siyasi meydanda da qələbə qazandıq. Müharibədən sonra nə qədər çalışsa da Ermənistan öz istəyinə nail ola bilmədi. İndi bəzi ölkələrin bələdiyyələri hansısa qərar qəbul edirlər. Bunlar, ümumiyyətlə, əhəmiyyətli deyil. Onların heç adı da heç bir siyahıda yoxdur. O bizi maraqlandırmır. Hətta bəzi parlamentlərin qərarları qəbul edilir. Ancaq biz nəyi görürük? Bizim də təbii ki, haqlı iradlarımız var. O ölkələrin rəsmi şəxsləri – ya Xarici İşlər nazirləri, ya da digər nazirlər deyirlər ki, bunu etməyin, bu qəbuledilməzdir, yəni heç bir ölkə ilə. Mənə məlumat verildi ki, bir ölkənin – Lüksemburqun Xarici İşlər naziri hansısa bir qəbuledilməz ifadə işlədib. Özü də mən başa düşmürəm, Lüksemburqun bizə nə dəxli var. Lüksemburq, ümumiyyətlə, bu bölgədən uzaq olan bir ölkədir. Yumşaq desək, dünya miqyasında o qədər də böyük siyasi çəkiyə malik olan ölkə deyil ki, onun Xarici İşlər naziri bizə irad tutsun. Ondan başqa, belə bir qəbuledilməz ifadələr olmayıbdır.

Ona görə müharibədən sonrakı dövr də bizim xarici siyasətimizin uğurlu olmasını bir daha göstərir.

Əlbəttə, hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir. Amma eyni zamanda, təcrübədir. Ali Baş Komandan, bütün işlərə rəhbərlik edən şəxs kimi bilirəm ki, bizim zəif yerlərimiz də hardadır. Biz hətta müharibə dövründə o zəif yerləri düzəltdik. Müharibə dövründə önəmli qərarlar qəbul edildi. Bundan sonra, əlbəttə ki, bu təcrübə bizim üçün əsas olacaq və olmalıdır. Göstərişlər verildi ki, daha müasir ordu yaradaq. Çünki indi beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıbdır. Biz elə planlaşdırmalıyıq ki, bəlkə də 50 ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər.

Mən bu gün qarşıda duran bəzi vəzifələr barədə öz fikirlərimi həm partiya üzvləri ilə, həm Azərbaycan xalqı ilə bölüşməklə, əlbəttə ki, bütün siyasi qüvvələri, bütün ictimaiyyəti geniş diskussiyaya çağırıram. Buna ehtiyac vardır. Çünki bir daha demək istəyirəm ki, biz yeni dövrə qədəm qoyduq. Bölgədə və ölkəmizdə tamamilə yeni geosiyasi vəziyyətdir. Ona görə biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun.

* * *

**Əli Əhmədov** (*Yeni Azərbaycan Partiyasının sədr müavini*): Çox hörmətli Prezident, çox hörmətli

Yeni Azərbaycan Partiyasının sədri, hörmətli qurultay nümayəndələri!

Böyük məmnuniyyətlə Yeni Azərbaycan Partiyasının sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmişəki kimi, möhtəşəm çıxışını dinlədik. İcazə versəydiniz, mən sizin hər birinizin adından Prezident İlham Əliyevin geniş, dərin məzmunlu və proqram xarakterli çıxışına görə qurultay nümayəndələrinin minnətdarlığını Prezidentə çatdırardım. Eyni zamanda, fürsətdən istifadə edib, 30 ilə qədər işğal altında olan Azərbaycan torpaqlarını 44 günlük Vətən müharibəsində azad etdiyinə, Azərbaycanın çoxəsrlik tarixinin ən şərəfli səhifələrindən birini yazdığına və yaratdığına, Azərbaycana qüruru geri qaytardığına və Azərbaycanın adını ucaltdığına, yüksəltdiyinə görə Prezident, Yeni Azərbaycan Partiyasının sədri və Ali Baş Komandan İlham Əliyevə Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin minnətdarlıq hisslərini bir daha ifadə edərdim.

Hörmətli Ali Baş Komandan, Siz Azərbaycanın adını yüksəltdiniz, Azərbaycan da daim Sizin adınızı uca tutacaqdır.

Hörmətli qurultay nümayəndələri, koronavirus pandemiyası ilə əlaqədar olaraq, Yeni Azərbaycan Partiyasının VII qurultayı nisbətən məhdud nümayəndələrin iştirakı ilə keçirilir. Bu gün Yeni Azərbaycan Partiyasının qurultayında Azərbaycanın bütün bölgələrini, rayon və şəhər təşkilatlarını təmsil edən 194 nümayəndə iştirak edir. Partiyanın bütün təşkilatları və strukturları qurultayda təmsil olunduğundan təbiidir ki, qurultay səlahiyyətlidir.

Yeni Azərbaycan Partiyasının qurultayının gündəliyi təsdiq olunmalıdır. Gündəliyə aşağıdakı məsələlər təklif olunur: partiyanın yeni Nizamnaməsinin təsdiq edilməsi, partiyanın İdarə Heyətinin seçilməsi, partiyanın Təftiş Komissiyasının seçilməsi, partiyanın Veteranlar Şurasının seçilməsi və beşincisi, bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına dair müraciətlərinə baxılması.

Mən gündəliyi təsdiq edilməsi üçün səsə qoyuram. Kim gündəliyin təsdiq olunmasına tərəfdardırsa, xahiş edirəm, öz münasibətini bildirsin.

Əleyhinə olan yoxdur, bitərəf qalan yoxdur. Beləliklə də, Yeni Azərbaycan Partiyasının VII qurultayının gündəliyi təsdiq olunur.

İndi isə partiyanın sədri cənab İlham Əliyevin məruzəsi ətrafında çıxışlara başlayırıq və mən məmnuniyyətlə ilk sözü partiyanın veteranlarından olan Arif Rəhimzadəyə verirəm.

**Arif Rəhimzadə:** Möhtərəm cənab Prezident! Hörmətli qurultay iştirakçıları!

Hər şeydən əvvəl, icazə verin, Sizin qarşınızda çıxış etmək imkanı yaradıldığına görə təşəkkürümü bildirim. Mən bu imkanın əhəmiyyətini və xüsusi dəyərini onda görürəm ki, partiyanın VII qurultayı ölkəmizin tarixinin son dərəcə vacib bir dövründə keçirilir. Cənab Prezident bu barədə ətraflı danışdı. Qarabağda Zəfər savaşı özümüz və ətraf aləm barədə təsəvvürümüzü kökündən dəyişdi, xalqı həqarət vəziyyətindən çıxardı, biz öz gözümüzdə ucaldıq. Bu müharibə, sözün həqiqi mənasında, Vətən müharibəsinə çevrildi, xalqımızı daha da sıx birləşdir-

di, Vətənimizi, milli və mənəvi dəyərlərimizi müdafiə etmək əzmimizi və iradəmizi nümayiş etdirdi. On minlərlə gəncin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etməsi, əsgər və zabitlərimizin döyüş meydanında göstərdiyi mərdlik və cəsarət xalqımızın qəhrəmanlığının yeni bir nümunəsi oldu. Bizim vətəndaşlarımız dərindən anladılar ki, hətta dünya birliyi tərəfindən tanınmış qanuni haqqımızı almaq üçün dövlətin gücünün, xalqın birliyinin, müdrik rəhbərliyin olması mütləq şərtdir.

Hörmətli qurultay iştirakçıları, Vətənimizə və xalqımıza böyük Qələbəni, yeni və ləyaqətli bir gerçəkliyi bəxş etdiyinə görə ölkəmizin Prezidenti, Yeni Azərbaycan Partiyasının rəhbəri cənab İlham Əliyevə hamımızın adından sonsuz minnətdarlığımızı bildirsəm, yəqin sizin də ürəyinizdən xəbər vermiş olaram. Bu minnətdarlıq həm də ona görədir ki, cənab İlham Əliyev nəinki ulu öndər Heydər Əliyevin ona vəsiyyət etdiyi dövlət ləyaqətini və mənəvi dəyərləri qoruyub saxlayıb, həm də Azərbaycan vətəndaşlarının şüurunda onları daha da inkişaf etdiribdir. Zəfər savaşının gedişində atılmış hər bir addım, görülmüş hər bir tədbir Ali Baş Komandan tərəfindən dəqiq ölçülüb-biçilib və həyata keçirilibdir. Döyüş əməliyyatlarına ölkəmiz üçün maksimum sərfəli olan şərtlər əsasında son qoyulması da möhtərəm Prezidentimizin xüsusi siyasi duyumunun və dərin zəkasının, ölkəmizin hər bir vətəndaşına qayğıkeş münasibətinin nəticəsi olubdur.

Axı qış vaxtı dağ şəraitində döyüş əməliyyatlarının davam etdirilməsi əsgər və zabitlərimiz arasında xeyli itkilərə gətirib çıxara bilərdi. Bununla birlikdə, Xankəndinin hərbi yolla azad edilməsi və bu zaman şəhər sakinlərinin bir qisminin labüd surətdə həlak olması BMT Təhlükəsizlik Şurasına Azərbaycanın Dağlıq Qarabağ üzərində suverenliyini tanımamaq üçün əvvəl göstərdiyi cəhdi daha uğurlu şəkildə reallaşdırmağa yeni bir bəhanə verərdi. Bu da qeyd edilməlidir ki, ölkəmizin Dağlıq Qarabağ üzərində suverenliyini tanımamaq üçün Təhlükəsizlik Şurasının göstərdiyi cəhd məhz möhtərəm Prezidentimizin həyata keçirdiyi uzaqgörən siyasət və beynəlxalq aləmdə onun böyük nüfuzu sayəsində boşa çıxdı.

Biz hamımız böyük Qələbənin təsiri altındayıq, döyüş təcrübəsi və təchizatı ilə bir sıra inkişaf etmiş ölkələrin hərbi qurumlarının araşdırma mövzusuna çevrilmiş ordumuzla fəxr edirik. Lakin ölkəmizin güclü iqtisadiyyatı olmasaydı, belə bir ordu qurula bilməzdi. Bu barədə cənab Prezident ətraflı danışdı. Karbohidrogen ehtiyatlarının nəqlinə dair irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi, dəmir yolu kommunikasiyalarının inşa olunması, sənayenin və kənd təsərrüfatının inkişaf etdirilməsi sayəsində ölkəmizin böyük və zəngin iqtisadi potensialı yaradılmışdır. Azad edilmiş ərazilər ölkə iqtisadiyyatının gələcək inkişafına güclü təkan verəcək, həmin ərazilərdə yüksək texnoloji istehsalatların və «ağıllı şəhər və kəndlərin» yaradılması barədə cənab

Prezidentin planlarının həyata keçirilməsi isə rahat və əlverişli yaşayış şəraitini təmin edəcəkdir.

Bu gün biz qürur duyuruq ki, ölkəmizin və xalqımızın bütün möhtəşəm xariqələrində Yeni Azərbaycan Partiyası həmişə cənab Prezidentin yanında olubdur. Artıq uzun müddətdir ki, Yeni Azərbaycan Partiyası ölkəmizin aparıcı siyasi qüvvəsidir. Hesab edirəm ki, ölkənin aparıcı siyasi qüvvəsi kimi, Yeni Azərbaycan Partiyası öz qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirir.

Mən çıxışımın sonunda partiyanın gənc üzvlərinə müraciət etmək istəyirəm. Çünki indi həyata keçirilən və həyata keçirilməsi nəzərdə tutulan işlərin bir çoxu əsasən sizinlə bağlıdır. Bu gün hazırlanan layihələri siz icra edəcəksiniz. Həmin layihələrin bəhrələrini də əsasən siz görəcəksiniz.

Amma sirr deyil ki, hələ ölkədə bir qrup azğın insan da var və onların niyyəti görülən bütün işlərə qara yaxmaq, ölkədəki ab-havanı sarsıtmaqdır. Adlarını müxalifət qoyan bu insanlar cürbəcür uydurmalar yayır, bizə qarşı ədəbsiz, təhqiramiz ifadələrə yol verirlər. Əslində onlar ölkədə həyata keçirilən siyasətə qarşı deyil, dövlətimizə qarşı çıxış edirlər.

Belə hallarla qəti mübarizə aparılmalıdır. Partiya qurumları bu istiqamətdə tədbirlər görür. Hesab edirəm ki, partiyanın hər bir üzvü, xüsusən gənclər daha fəal olmalıdırlar. Mətbuatda və sosial şəbəkələrdə həqiqətə uyğun olmayan təhqiramiz yazılara dərhal barışmaz münasibət bildirməlidirlər. Heç bir partiya üzvü düşünməməlidir ki, bunun ona aidiy-

yəti yoxdur. Biz hamımız ölkəmizin ləyaqətini qorumalı və müdafiə etməliyik.

Diqqətinizə görə sağ olun.

**Bahar Muradova** (*Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*): Zati-aliləri möhtərəm cənab Prezident! Hörmətli qurultay nümayəndələri!

İlk növbədə, Sizi salamlayır və bu mötəbər kürsüdən fikirlərimi bölüşmək üçün imkan yaratdığınıza görə dərin təşəkkürümü bildirirəm.

Tarix və xalq qarşısında xidmətlərini heç bir zaman unutmayacağımız ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edərək, qurultayın işinə uğurlar arzulayıram.

Hörmətli siyasi həmfikirlər, mən bir anlıq da olsa, 29 il bundan əvvəl soyuq noyabr günlərini xatırladıqca qəlbimizi isidəcək bir hadisəni, Yeni Azərbaycan Partiyasının təsis konfransını, xalqımızı düşdüyü çətin və böhranlı vəziyyətdən xilas etmək məqsədilə respublikamızın müxtəlif bölgələrindən Naxçıvana gələn fədakar insanları yada salmaq istəyirəm. Onların hər birinin simasında o dövrün ağrıları, qeyri-müəyyənlikdən doğan nigarançılıqla yanaşı, Heydər Əliyevə dikilmiş gözlərində bir inam və bir ümid qığılcımı vardı. O zaman hər kəs bir ideya, bir şəxsiyyət ətrafında, bir siyasi təşkilatda birləşməyin ən doğru seçim olduğuna inanaraq, Azərbaycanın xilasının Heydər Əliyev yoluna qədəm qoymuşdu. Fəxrlə qeyd etmək lazımdır ki, o ümidlər tam doğrulmuş, partiyamız Azərbaycanın hərtərəfli dinamik inkişafının ideoloji sütunlarından biri kimi misilsiz fəaliyyətə

imza atmışdır. O həm də sürətlə dəyişməkdə olan cəmiyyətlə həmahəng yenilənmiş, müasir tələblərə və standartlara uyğun gəlməyən fəaliyyət formalarından zamanında qətiyyətlə imtina etmişdir. Özünütənqid metodlarından çəkinməmiş, ictimai rəyin öyrənilməsi və nəzərə alınması işini fəaliyyətinin əsas tərkib hissəsi kimi qəbul etmişdir. Odur ki, ətrafına yüz minlərlə siyasi həmfikir toplamağa nail olmuş və ümumxalq partiyasına çevrilmişdir. Zənnimcə, təkcə bu fakt ölkənin siyasi tarixində Yeni Azərbaycan Partiyasının yerini və rolunu dəyərləndirmək üçün bizə imkan verir.

Sıralarında gənclərə geniş imkanlar yaradılması baxımından apardığı siyasət gənc nəsil üçün cəlbedici olmaqla yanaşı, təbliğ etdiyi prinsiplərin xalq tərəfindən tam dəstəkləndiyini sübut edir. Qeyd etmək lazımdır ki, son iki onillikdə, xüsusilə Prezident İlham Əliyevin 17 illik liderliyi ilə bütün parametrlər üzrə dinamik inkişafın əsas göstəricilərindən biri qadın amilinin cəmiyyət və dövlət həyatında əhəmiyyətinin artması olubdur. Bu illər ərzində ölkədə gender bərabərliyi mədəniyyətinin təbliği, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması sahəsində ciddi irəliləyişlər əldə edilibdir. Öz potensialını reallaşdırmaq sahəsində mövcud tarixi təcrübə ilə yanaşı, dövlət səviyyəsində yaradılan şərait fəal vətəndaş mövqeyini ifadə etmək yolunda qadınların imkanlarını xeyli dərəcədə artırıbdır. Yeni Azərbaycan Partiyasının sədr müavini, Birinci vitseprezidentimiz hörmətli Mehriban xanım Əliyevanın timsalında Şərqin mədəni dəyərləri ilə Qərbin mütə-

rəqqi yeniliklərinin uğurlu vəhdətini özündə birləşdirən, təkcə hüquq və imkanları deyil, həm də məsuliyyət və cavabdehliyi bərabər bölüşməyə hazır olan müasir Azərbaycan qadınının obrazı formalaşıbdır. Xalqa və dövlətə xidmət naminə öz taleyini ölkədə fəaliyyət göstərən siyasi partiyalara bağlayan qadınların və qızların ölkəmizin ictimai-siyasi həyatında iştirakçılıq və təmsilçilik faizi getdikcə yüksəlməkdədir.

Təsadüfi deyildir ki, ölkə rəhbərliyinin qəbul etdiyi taleyüklü qərarların həyata keçirilməsində mütəşəkkillik nümayiş etdirərək, 44 günlük Vətən müharibəsi zamanı digər siyasi partiyaların və hərəkatların da ümummilli maraqlar ətrafında cəmləşməsi, xüsusilə ictimai-siyasi fəal qadınların bu həmrəyliyə nəzərəçarpacaq dərəcədə töhfə verməsi tarixi Zəfərdən sonrakı dövrdə də azərbaycançılıq və həmrəylik prinsipləri ətrafında milli birliyin möhkəmləndirilməsi üçün vacib rol oynamaqdadır.

Hazırda ölkədə yaranmış yeni siyasi konfiqurasiya çərçivəsində dünya azərbaycanlılarının şəriksiz lideri möhtərəm Prezidentimiz İlham Əliyevin başlatdığı dərin islahatlar siyasəti, əldə edilmiş tarixi Zəfər dünya ictimaiyyətinin diqqət mərkəzindədir.

Möhtərəm cənab Prezident, bu bir faktdır ki, Sizin qətiyyətiniz, fədakarlığınız və qəhrəmanlığınız, müdrik sərkərdəliyiniz, xalqımızın dəmir yumruqda birləşən gücü və ordumuzun qüdrəti sayəsində ərazi bütövlüyümüz təmin edildi, ölkəmizin beynəlxalq arenada nüfuzu qat-qat yüksəldi.

Siz həlli uzadılmış münaqişələrin regional aktorların iştirakı ilə həll oluna biləcəyinə dair Azərbaycan

nümunəsini ortaya qoymaqla, bu sahədə daşlaşmış stereotipləri kökündən dağıda bildiniz. Bu triumfunuzla hər addımda yanınızda olan partiyamızın üzvlərinə, Sizinlə qürur duyan insanlara və xalqımıza böyük sevinc yaşatdınız. Amma əlbəttə ki, biz Sizin liderliyiniz və partiyamızın öndərliyi ilə hələ qaysaq bağlamamış yaralarımızı sarımalı, şəhidlərimizin xatirəsini əziz tutmalı, qazilərimizin ehtiyaclarını həll etməli, Vətən yolunda övlad itkisinin acısını, həm də qürurunu yaşayan şəhid ailələrinə dəstək verməli, analarımızın dərdinə şərik olmalıyıq. Torpağımızı, viran qalmış şəhər və kəndlərimizi yenidən dirçəltməli, o yerlərə həyat və uşaq gülüşlərini qaytarmalıyıq. Bütün bu cinayətləri törədən erməni cəlladlarını ədalətin gücü ilə mühakimə edəcəyimizə isə qəti şəkildə inanıram. Bunun üçün köklü dəyişikliklərə gətirib çıxaran yanaşmalara, VII qurultayın gündəliyinə dair qəbul ediləcək qərarlara qətiyyətlə dəstək verməliyik.

Hörmətli siyasi həmfikirlər, yaxın tarix sübut edir ki, Yeni Azərbaycan Partiyası hər zaman cəmiyyətin inkişafına əngəl ola biləcək problemlərin aradan qaldırılması üçün ciddi siyasi qərarların qəbulu prosesində də ön mövqedədir. Təsadüfi deyil ki, ötən il növbədənkənar parlament seçkilərinin keçirilməsinin təşəbbüskarı da məhz Yeni Azərbaycan Partiyası olmuşdur. Zaman göstərdi ki, bu, ölkədə genişmiqyaslı islahatların həyata keçirildiyi həmin dövr üçün verilmiş ən düzgün və müdrik qərar idi.

Bütün bunlar deməyə əsas verir ki, bu gün hamılıqla qəbul edəcəyimiz vacib qərarlar, partiyamızın sədri cənab İlham Əliyevin müasir çağırışlara və

tələblərə islahatlar vasitəsilə cavab siyasətinə sanballı töhfə olacaqdır. Bu həm də antimilli ünsürlərə əsl cavabdır.

Sonda hər kəsi bu amal ətrafında sıx birliyə, həmrəyliyə səsləyirəm.

Diqqətiniz üçün təşəkkür edirəm.

**Mixail Zabelin** (*Milli Məclisin üzvü*): Çox hörmətli cənab Prezident! Hörmətli qurultay iştirakçıları, xanımlar və cənablar!

Hamınızı salamlayıram. Çıxış üçün mənə söz verdiyinizə görə minnətdaram. Yeni Azərbaycan Partiyasının növbəti qurultayı münasibətilə sizi təbrik edirəm və uğurlar arzulayıram.

2022-ci ildə Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 ili tamam olacaqdır. Bu illər respublikamız üçün mürəkkəb dövr olub. Çoxmillətli Azərbaycan xalqı təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş yeni dövlət qurub. Heydər Əliyevin yaratdığı partiya müxalifət partiyasından xalqın lider partiyasına çevrilib, sıralarında müxtəlif sosial təbəqələri və müxtəlif millətlərdən olan partiya üzvlərini birləşdirərək, respublikamızın ictimai-siyasi həyatında sabitləşdirici amilə çevrilibdir.

Prezidentimiz İlham Heydər oğlu Əliyev tərəfindən həyata keçirilən islahatlar respublikamızın ictimai-siyasi, sosial, iqtisadi və mədəniyyət sahələrində uğurlu inkişafa şərait yaradıbdır.

Uğurlu iqtisadi və sosial struktura, güclü orduya malik olan demokratik, dünyəvi dövlət quran Azərbaycan xalqı eyni zamanda, erməni silahlı qüvvələri tərəfindən respublikamızın ərazisinin 20 faizinin işğal

edilməsi, yüz minlərlə məcburi köçkün, Xocalı faciəsi, azərbaycanlıların evlərinin və müqəddəs ziyarətgahların dağıdılması, ərazilərimizin səhraya çevrilməsi kimi qanlı yaranı da unutmayıb. Hər birimiz dövlətimizin informasiya siyasətinə töhfə verməyə, Azərbaycan haqqında, onun yüksək multikulturalizm və tolerantlıq keyfiyyətləri ilə seçilən xeyirxah xalqı barədə həqiqəti söyləməyə, Qarabağ münaqişəsinin dinc yolla və ədalətli həllinə nail olmağa, dövlətimizin ərazi bütövlüyünü qorumağa, erməni işğalçıları tərəfindən zəbt edilmiş torpaqlarımızı geri qaytarmağa çalışmışıq.

Açıq deməliyəm, ATƏT-in Minsk qrupunun fəaliyyəti, bu məsələnin həllinin uzadılması cəmiyyətdə inamsızlıq, münaqişənin dinc yolla həlli, Azərbaycanın tarixi torpaqlarının öz qanuni sahiblərinə qaytarılması ilə bağlı narahatlıq doğururdu. Buna görə də Prezidentimizin Azərbaycan xalqına müraciətləri, onun inamlı nitqləri xalqda ruh yüksəkliyi yaradır, onu Prezidentimizin, Silahlı Qüvvələrinin Ali Baş Komandanının ətrafında sıx birləşməyə və əzəli torpaqlarımızı erməni işğalçılarından nəyin bahasına olursa-olsun azad etməyə ruhlandırırdı. Azərbaycan vətəndaşları Prezidentimizin növbəti müraciətini, uzun müddət işğal altında olmuş növbəti yaşayış məntəqəsinin və rayonun rəşadətli qoşunlarımız tərəfindən azad edilməsi barədə fərəhli xəbərlərini səbirsizliklə gözləyirdi.

Müxtəlif millətlərə mənsub olan Azərbaycan vətəndaşları Prezidentin ruhlandırıcı nitqlərinin təsiri ilə könüllü olaraq cəbhəyə yollanır, dəmir yumruq

kimi sıx birləşərək, düşməni darmadağın etməyə çalışırdı. Müharibə təkcə döyüş meydanında deyil, həm də informasiya məkanında gedirdi. Yeni Azərbaycan Partiyasının üzvləri Prezidentimizin inandırıcı, qətiyyətli və səlis çıxışlarını, xarici ölkələrin çoxsaylı informasiya agentliklərinə verdiyi müsahibələri əsas götürərək, respublika rəhbərliyinin mövqeyini kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə izah edir, Azərbaycanın düşmənlərinin insinuasiyalarını, yalan və uydurmalarını qətiyyətlə ifşa edirdilər.

Azərbaycan xalqı qalib gəldi. Qarabağ Azərbaycana qaytarıldı, ədalət bərpa olundu. Bəs Vətən müharibəsində Qələbəmizin sirri nədədir? İlk növbədə, Ali Baş Komandanımızın hərtərəfli düşünülmüş hərbi-siyasi strategiyasında, ordumuzun yüksək peşəkarlığında və xalqımızın birliyində. Müxtəlif millətlərdən olan Azərbaycan vətəndaşları, o cümlədən ruslar Prezidentimiz İlham Heydər oğlu Əliyevə ürəkdən inanır və ona dərin hörmət bəsləyirlər, respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinə səmimi minnətdardırlar. Daha bir vacib məqam odur ki, onlar öz ölkələrinə və səmimi, xeyirxah, həssas, yüksək dərəcədə multikultural və tolerant, başqa millətə və başqa dinə mənsub olan insanlara hörmətlə yanaşan xalqına görə fəxr edirlər.

Biz azad, demokratik ölkədə qardaş Azərbaycan xalqı ilə yanaşı yaşayırıq. Bu xalqın əcdadları tərəfindən onların qəlbində kök salmış yüksək multikulturalizm keyfiyyətlərinə görə çox minnətdarıq. Biz ruslar, respublikanın tamhüquqlu vətəndaşları kimi,

rus dilindən sərbəst istifadə edirik, öz mədəniyyətimizi və ənənələrimizi qoruyub saxlamışıq. Dövlətimiz tərəfindən qorunub saxlanılan və Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş xristian pravoslav məbədlərinə sərbəst gedirik. Respublikada tədrisin rus dilində olduğu məktəblər qorunub saxlanılıb, ölkənin ali məktəblərində tədrisin rus dilində olduğu fakültələr fəaliyyət göstərir. Azərbaycanın 120 minlik rus əhalisi heç vaxt və heç kim tərəfindən sıxışdırılmayıb, onların mülki hüquqları pozulmayıbdır. Buna görə də onlar Azərbaycan xalqına ürəkdən minnətdardırlar.

Azərbaycan bizim doğma yurdumuz, Vətənimizdir. Buna görə də başqa millətlərdən olan gənclər kimi, rus gəncləri də istər Birinci Qarabağ müharibəsi dövründə, istərsə də Vətən müharibəsi zamanı azərbaycanlı qardaşları ilə çiyin-çiyinə ölkəmizin ərazi bütövlüyünün müdafiəsinə qalxıb, bu gənclərin bir çoxu xalqımızın xoşbəxtliyi və rifahı naminə canlarından keçibdir.

Mən düşmənlərlə savaşda həlak olmuş döyüşçülərin ailələrinə, erməni işğalçılarına qarşı döyüşlərdə yaralananlara göstərilən hərtərəfli köməyə və dəstəyə görə respublika rəhbərliyinə, Azərbaycan xalqına, Yeni Azərbaycan Partiyasına dərin təşəkkürümü bildirirəm.

Əminəm ki, belə Prezidenti, Silahlı Qüvvələrin belə Ali Baş Komandanı, belə ordusu və xalqı olan Azərbaycan həmişə çoxmillətli, müstəqil, firavan və sabit dövlət olacaq. Diqqətinizə görə sağ olun.

**A n a r İ s g ə n d ə r o v** (*Milli Məclisin üzvü*): Möhtərəm cənab Prezident! Hörmətli qurultay iştirakçıları!

Hamınızı salamlayır və uzun illər ərzində düşmən işğalına məruz qalmış tarixi torpaqlarımızın 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsi münasibətilə Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını bu əzəmətli Qələbə münasibətilə təbrik edirəm. Şübhəsiz, bu Zəfərin baş qəhrəmanı Ali Baş Komandan İlham Heydər oğlu Əliyevdir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizi qorumaq və möhkəmləndirmək üçün çox böyük uğurlara imza atmışdı. O, Qarabağ həqiqətlərini dünyaya çatdırmaq və torpaqlarımızın işğaldan azad olunması üçün mübarizənin bütün vasitələrindən istifadə etmiş və hətta Azərbaycanın gələcəyi naminə öz siyasi varisini xalqa təqdim etmişdi. 2003-cü il oktyabrın 1-də o, Azərbaycan xalqına müraciətində demişdi: «İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm».

Bəli, ümummilli lider Heydər Əliyevin dediklərini tarix və zaman çox böyük həqiqət kimi təsdiq etdi. Onun müstəqil Azərbaycanın haqq işini dünyaya çatdırmaq üçün apardığı ədalətli siyasi kursunu dövlət başçısı İlham Əliyev uğurla davam etdirir.

Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticələri göz qabağındadır. 17 il ərzində onun həyata keçirdiyi siyasətin nəticəsidir ki, Dağlıq

Qarabağ probleminin ədalətli həlli ilə bağlı İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə qətnamələr qəbul edib, «İslam həmrəyliyi ili» elan olunub, Bakıda İslam Həmrəyliyi oyunları keçirilib, müsəlman ölkələri arasında Azərbaycanın nüfuzu kifayət qədər artıbdır. Azərbaycan Prezidentinin dünyanın 120 ölkəsini öz ətrafında birləşdirən və BMT-nin Baş Assambleyasından sonra dünyada ikinci böyük beynəlxalq təsisat olan «Qoşulmama Hərəkatı»na sədrlik etməsi Qarabağ müharibəsi dövründə Azərbaycanın haqq işinə öz müsbət təsirini göstərdi.

Azərbaycanda vitse-prezidentlik institutunun təsis edilməsi və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi dövlət idarəçiliyi sahəsində ən uğurlu addımlardan biri oldu. UNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi, Mehriban Əliyeva Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin ifşa olunması istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin, idmanın inkişafı, xalqımızın multikultural dəyərlərinin, qeyri-maddi irsinin qorunması və təbliği üçün geniş və çoxşaxəli fəaliyyət göstərir, bu məqsədlə müxtəlif beynəlxalq və yerli proqramlar həyata keçirir.

Azərbaycan Prezidenti dövlət başçıları ilə görüşlərində, nüfuzlu beynəlxalq təşkilatlardakı çıxışlarında, xarici və ölkə informasiya agentliklərinə verdiyi

çoxsaylı müsahibələrində Azərbaycanın prinsipial mövqeyini bəyan edərək bildirmişdir ki, Qarabağ problemi ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Çox təəssüflər olsun ki, dünyanın nüfuzlu təşkilatları, o cümlədən ATƏT-in həmsədr dövlətləri problemin sülh yolu ilə həll olunmasını təkid etsələr də, 30 il ərzində heç bir əməli addım atmadılar.

Ali Baş Komandan 2020-ci il sentyabrın 27-də növbəti atəşkəs pozulduqda əks-hücum haqqında siyasi qərar verdi. Azərbaycanın Qarabağ uğrunda Vətən müharibəsi 44 gün davam etdi, ermənipərəst xarici dövlətlərin və bəzi nüfuzlu beynəlxalq təşkilatların Azərbaycana göstərdikləri çox ciddi təzyiqlərə və təhdidlərə baxmayaraq, Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin və müzəffər ordumuzun cəsarəti, qətiyyəti və əzmkarlığı sayəsində doğma Qarabağımızı azad etdi, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi və düşməni danışıqsız təslim aktına imza atmağa məcbur etdi.

Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi dövründə verdiyi müsahibələrin birində qeyd etmişdir ki, o, 17 illik hakimiyyəti dövründə dörd mühüm məsələnin həllinə nail olubdur. Bunlardan birincisi, xalqla iqtidarın birliyi təmin olunub; ikincisi, Qarabağ probleminin tarixi və hüquqi aspektləri dünya ictimaiyyətinə çatdırılıb; üçüncüsü, ölkədə güclü iqtisadiyyat yaradılıb və dördüncüsü, ordu

quruculuğu prioritet sahə kimi diqqət mərkəzində olubdur.

Bütün bunların nəticəsidir ki, Azərbaycan xalqı 44 günlük müharibə dövründə Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək, tariximizdə görünməmiş bir Qələbə əldə edibdir. Qarabağ döyüşlərində şəhid olan əsgər və zabitlərimizin, dinc insanların, yaralı qazilərimizin qanı yerdə qalmadı, onların intiqamı alındı. Dövlətimiz şəhid ailələrinə və yaralı qazilərimizə hər cür yardım göstərir.

Bu gün Azərbaycanın əldə etdiyi bu möhtəşəm Qələbə, onun səbəbləri, Ali Baş Komandanımızın sərkərdəlik bacarığı və məharəti, həmçinin diplomatik səyləri və bu sahədə atdığı addımlar, müasir dünyanın hərb tarixində nümayiş etdirdiyimiz yeniliklər dünya dövlətləri tərəfindən müsbət qiymətləndirilir və öyrənilir.

Möhtərəm Prezident, bütün bunlara görə xalqımız məhz Sizə minnətdardır. Sizin müharibənin lap əvvəlində xarici dövlətlərə və beynəlxalq təşkilatlara ünvanlanmış «Mən özüm bilirəm nəyi, necə və nə vaxt etmək lazımdır» tezisiniz özünü tarixi təcrübədə ən yüksək səviyyədə doğrultdu və bizə bu möhtəşəm Qələbəni qazandırdı. Uca Allah Siz başda olmaqla, ölkəmizi və dövlətimizi qorusun!

Diqqətinizə görə sağ olun.

**Hikmət Məmmədov** (*Milli Məclisin üzvü*): Zati-aliləri möhtərəm cənab Prezident! Hörmətli qurultay iştirakçıları!

Sizi salamlayır və mənə bu ali kürsüdən çıxış etmək imkanı verdiyiniz üçün təşəkkür edirəm.

Son bir neçə ayda biz bir xalq olaraq olduqca mühüm tarixi günlər yaşamaqdayıq. «Tarix keçmiş siyasət, siyasətsə bugünkü tarixdir» deyimini nəzərə alsaq, əminliklə söyləyə bilərik ki, Azərbaycan xalqının ən yeni tarixinə bu zəfər günlərini yazan Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdir. Ən mürəkkəb şəraitdə ən doğru qərarları qəbul etmək bacarığıdır. Əldə etdiyimiz Qələbənin miqyası və əhəmiyyəti haqqında bu gün təkcə Azərbaycan xalqı deyil, bütün dünya danışır.

Azərbaycan 44 günlük müharibədə təkcə işğalçı Ermənistana deyil, həm də uzun illərdir regionumuzda kök salmış erməni terroruna qalib gəldi. Hazırda ölkəmiz özünün yaratdığı yeni geosiyasi reallıqla formalaşmaqda olan çoxqütblü dünya nizamında müttəfiqləri ilə birlikdə güc mərkəzlərindən birinə çevrilməkdədir. Milli dövlətimizə belə mühüm geostrateji mövqe qazandıran əsas faktor isə düşünülmüş xarici və daxili siyasət və uzaqgörən milli strategiyanın olmasıdır. Qlobal imperializmin milli dövlətləri beynəlxalq münasibətlər sistemində təzyiq altında saxladığı bir vaxtda milli iradəyə əsaslanmış müstəqil qərar qəbul etmək olduqca çətindir. Bunun üçün cəsarət, siyasi-diplomatik uzaqgörənlik, qətiyyət kimi keyfiyyətlər tələb edilir ki, bunların da hamısı eyni vaxtda çox nadir hallarda bir siyasi liderdə olur. Siz öz xalqınıza və qurucusu olduğunuz ordumuza arxalanaraq, çox mürəkkəb şəraitdə elə eyni dərəcədə cəsarətli qərar qəbul etməklə, xalqımıza tarixi Zəfər qazan-

dırdınız. Bu Qələbənin müəllifi Azərbaycan Ordusu və onun şanlı Ali Baş Komandanı İlham Əliyevdir!

Cənab Prezident, 44 günlük müharibədə dünyanın ən aparıcı media subyektlərinin «informasiya müharibəsi cəngavərlərinə» qarşı verdiyiniz mücadilə ayrıca bir hadisədir. Hazırda yumşaq güc vasitəsi kimi əlahiddə və universal alət hesab olunan, hegemon güc mərkəzlərinin idarəetmə mexanizminə çevrilmiş informasiyadan heç də həmişə və hər yerdə uğurla istifadə etmək mümkün olmur. Ancaq Siz qlobal imperializmin yaratdığı bu gücü Azərbaycanın düşmənlərinə, islamofob dairələrə və dünya erməniçiliyinə qarşı mükəmməl şəkildə istifadə etməyi bacardınız.

Fevralın 26-da təşkil olunmuş mətbuat konfransı isə həm format, həm məzmun etibarilə tamamilə yeni üslubda idi. Bu vaxta qədər heç bir siyasi lider medianın imkanlarından milli məqsədlər üçün bu qədər məharətlə istifadə edə bilməmişdi.

Möhtərəm cənab Prezident, bu gün eyni zamanda, ölkəmizin sosial-siyasi, iqtisadi, idarəetmə kimi digər mühüm sferalarında da tarixi islahatlar mərhələsini yaşayırıq. Bu islahatların fəlsəfəsini də, məzmununu da vətəndaşın rifahının daha da yaxşılaşdırılması təşkil edir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti, sosial sahədə bütün problemlərin mümkün həllinə xüsusi diqqətin göstərilməsi, Heydər Əliyev Fondu vasitəsilə olduqca əhatəli sosial layihələrin ardıcıl olaraq həyata keçirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması geniş vüsət alıb və xalqımız tərəfindən təqdir edilməkdədir.

İslahatların ən mühüm istiqamətlərindən birini də ictimai-siyasi institutlaşma və siyasi sistemimizin təkmilləşdirilməsi təşkil edir. Hər bir ölkənin siyasi sistemi özünün struktur elementləri ilə tamdır və ictimai-siyasi proseslərin keyfiyyətini təyin edir. Azərbaycanda da cəmiyyətin siyasi lokomotiv institutları şübhəsiz ki, siyasi partiyalardır. Onların fəaliyyəti, fəaliyyətsizliyi, yaxud fəaliyyətinin ictimai faydalılıq əmsalı göstəriciləri siyasi sistemin inkişafı üçün əsas şərt kimi çıxış edir. Bu həm də siyasi sistemimizin hesabatlılığı üçün olduqca vacibdir. Müxtəlif dövrlərdə bu münasibətlər passiv, dinamik, dəyişkən və bəzən də qarşıdurma vəziyyətində olubdur. Siyasi partiyalar ölkədaxili milli çağırışlar kontekstində cəmiyyətin gözləntiləri ilə ayaqlaşmağa çalışsalar da, bəzən bu fəallıq sadəcə, seçkilərdə iştirakçılıqla məhdudlaşıb. Yalnız Sizin təşəbbüsünüz və bu sahədə də islahatları dərinləşdirmə siyasətinizdən sonra siyasi sistemimizdə keyfiyyətcə yeni, konstruktiv dialoq və plüralist əməkdaşlıq mərhələsi başlayıbdır. Belə ki, Vətən müharibəsində 50 siyasi partiya Prezident İlham Əliyevi dəstəklədiyini bəyan etmiş, eyni zamanda, müxtəlif regional və beynəlxalq təşkilatlara müraciətlər göndərmiş, beləliklə də, Azərbaycanın siyasi sisteminin milli məsələlərdə həmrəy, immunitet qabiliyyətli yetkin bir sistem olduğunu göstərmişdir. Hazırda siyasi sistemimizə ideologiyaların bütün rəng palitrasını əhatə edən yeni bir siyasi platforma təqdim etmisiniz: burada siyasətin bütün çalarlarının müstəqil fəaliyyəti və dialoqu üçün demokratik, hüquqi və siyasi

imkanlar mövcuddur. Bu siyasi çətir altında özlərinə yer tapmayanlar isə milli siyasətə yox, başqa məqsədlərə xidmət edirlər.

Möhtərəm cənab Prezident, sədri olduğunuz Yeni Azərbaycan Partiyasının qurultayının keçirilməsi və onun fəaliyyətinin daha səmərəli təşkili ilə bağlı atılmış addımlar da ölkəmizdə həyata keçirilən dərin və çoxşaxəli islahatların davamı kimi qiymətləndirilir. Bütün bunlar isə yeni tarixi mərhələdə milli gücümüzü və inamımızı daha da artırır. Qurultayımızın işinə uğurlar, partiyamıza isə bundan sonrakı fəaliyyətində də qələbələr arzulayıram.

Diqqətinizə görə çox sağ olun.

**Azər Badamov** (*Milli Məclisin üzvü*): Möhtərəm cənab Prezident! Hörmətli qurultay nümayəndələri! Hörmətli sədr!

Mənə bu yüksək kürsüdən çıxış etməyə imkan yaratdığınıza görə təşəkkürümü bildirirəm.

Çıxışıma Azərbaycan xalqının ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı və türk dünyasının böyük oğlu Heydər Əliyevin «Ağıl olan yerdə zora ehtiyac yoxdur» müdrik kəlamı ilə başlamaq istəyirəm. Bu müdrik kəlamın inkaredilməzliyi, cənab Prezident, Sizin xalqa, Vətənə, torpağa sonsuz məhəbbətinizdə, nəcib əməllərinizdə öz təsdiqini tapmışdır. Siz Azərbaycanın iqtisadi inkişafına, beynəlxalq aləmdə tanınmasına, şöhrətlənməsinə, müharibədə tarixi Qələbəmizə məhz aydın düşüncələriniz, bəşəri duyğularınız, parlaq zəkanız, uzaqgörən siyasətiniz, təmkin və cəsarətinizlə nail olmusunuz.

Faşizmə, təcavüzkarlığa nifrətiniz, insanların sağlamlığına və təhlükəsizliyinə göstərdiyiniz qayğı, pandemiyaya qarşı mübarizəyə verdiyiniz önəm və diqqət əvəzsizdir. Sülhə, əmin-amanlığa, insanlığa istiqamətlənən görüşləriniz və çıxışlarınızla Siz dünyanın siyasi liderlərinə dövlətə rəhbərlik etməyin, xalqın və Vətənin mənafeyini qorumağın aydın, düşünülmüş modelini təqdim edir, ədaləti, həqiqəti dananlara haqqın üzünü göstərir və dərs verirsiniz.

Cənab Prezident, Siz bu yolu seçməklə, ulu öndərimizin vəsiyyətlərinə sədaqətlə əməl edib xalqı və ordunu birləşdirərək, torpaqlarımızı azğın düşməndən təmizləməklə, unudulmaz rəhbərimizin və bütün şəhidlərimizin ruhunu şad etdiniz. Dərdli anaların, bacıların dərdini sağaltdınız, hər birimizin, dünya azərbaycanlılarının, türk dünyasının başını ucaltdınız və özünüz də insanların nəzərində daha yüksək zirvələrə ucaldınız.

Xalqın Sizə göstərdiyi məhəbbət və ehtiram tükənməzdir, Azərbaycanın ömrü qədər sonsuzdur. Biz bu gün qalib bir ölkənin vətəndaşları kimi, fəxr edirik və bu şərəfi bizə yaşatdığınıza görə Sizə minnətdarıq. Vətən müharibəsi sübut etdi ki, Azərbaycan xalqı çətin gündə həmrəydir və bu milli həmrəylik dəmir yumruğa çevriləndə qarşısında düşmənlərimizin tab gətirməsi mümkün deyildir.

Cənab Prezident, Sizin tapşırıqlarınız, hörmətli Mehriban xanımın köməyi, Heydər Əliyev Fondunun böyük dəstəyi ilə nəinki ölkəmizdə, həm də xarici ölkələrdə bir çox humanitar layihələr həyata keçirilir. Məktəblər, bağçalar tikilir, parklar salınır, dini abi-

dələr təmir olunur, xəstə insanlara yardım edilir. Bu da bizi nəcib bir xalq kimi tanıdır. Sözümüzü, əməlimizi sübuta yetirir, dostlarımızın sayını daha da artırır. Azərbaycanın dünya ölkələri ilə əməkdaşlığının möhkəmləndirilməsi, səsimizə səs verənlərin sayının çoxalması gələcək uğurlarımız üçün bir zəmanətdir.

Hörmətli qurultay iştirakçıları, ulu öndərimizin «İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir» müdrik kəlamı, gündəlik həyatımızda olduğu kimi, 44 günlük Vətən müharibəsi dövründə də özünü bir daha təsdiq etdi. Cənab Prezident, Siz də rəhbər seçildiyiniz ilk gündən ölkə iqtisadiyyatının inkişafını 1-ci dərəcəli vəzifə kimi qarşıya qoydunuz. Müəllifi olduğunuz mühüm layihələrin, imzaladığınız fərman və sərəncamların icrası Azərbaycanın sürətli inkişafını təmin edir və ölkəmizin dünyanın reytinq hesabatlarında öncül yerlərdə sıralanmasını şərtləndirir.

Ölkədə apardığınız idarəetmə sisteminin müasir çağırışlara uyğunlaşdırılmasına imkan yaradan islahatlar ildən-ilə dərinləşir, bütün hakimiyyət qollarını əhatə etməklə, Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsini də zəruri edərək, parlamentin rəhbər vəzifələrində müxalif siyasi partiyaların nümayəndələrinin təmsil olunmasına şərait yaradıbdır. Ölkədəki siyasi partiyalarla dialoq mühitinin yaradılması demokratik cəmiyyətin inkişaf etdirilməsinin bir nümunəsi və siyasi islahatların uğurla həyata keçirilməsinin göstəricisidir.

2020-ci ildə bəşəriyyət üçün böyük təhlükəyə çevrilmiş qlobal pandemiyaya qarşı mübarizədə Sizin tapşırıqlarınız əsasında həyata keçirilmiş qabaqla-

yıcı tədbirlər kütləvi insan tələfatının qarşısını aldı, xalqımızı gözəgörünməz bəladan xilas etdi. Pandemiya ilə bağlı tətbiq edilmiş məhdudiyyətlərin iqtisadiyyata və insanlara təsirinin minimuma endirilməsi məqsədilə həyata keçirdiyiniz, 5 milyondan çox insanı əhatə edən sosial dəstək tədbirləri, habelə təşəbbüsünüzlə baş tutmuş «Qoşulmama Hərəkatı»nın Təmas Qrupu çərçivəsində Zirvə görüşü, BMT Baş Assambleyasının COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası beynəlxalq ictimaiyyət tərəfindən yüksək dəyərləndirilibdir.

Cənab Prezident, Siz müsahibələrinizdə xatırladırsınız ki, mövcud vəziyyət yeni reallıqlar yaradıbdır. Müharibədə tarixi Qələbəmiz də reallıqdır və bu, xalqımızın haqqı idi. İşğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin sürətlə aparılması, həmin torpaqların cənnətə çevrilməsi yalnız arzuların ifadəsi deyil, həm də Sizin əməllərinizin və amallarınızın təntənəsi olacaqdır. Siz Mehriban xanımla birlikdə o torpaqlara bir fateh, xilaskar kimi səfər edirsiniz. Bu, xalqımızı çox qürurlandırır.

Şəhidlərimizin qanı bahasına azad olunmuş o torpaqları Sizin rəhbərliyinizlə xalqımız həqiqətən də cənnətə çevirəcəkdir. Buna şübhə ola bilməz.

Dövlətimiz güclüdür, Yeni Azərbaycan Partiyası qüdrətlidir, xalqımız yekdildir. Ən başlıcası, cənab Prezident, Siz bizimləsiniz, siyasi rəhbər və sərkərdə kimi uzaqgörən, müdrik və qətiyyətlisiniz. Bir lider, xilaskar kimi, xalqımızın ürəyində əbədi ola-

raq yurd salmısınız. Allah Sizi qorusun! Tanrı xalqımıza yar olsun! Diqqətinizə görə çox sağ olun.

**Ülviyyə Həmzəyeva** (*Milli Məclisin üzvü*): Möhtərəm cənab Prezident!

29 il bundan əvvəl – 1992-ci il noyabrın 21-də ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan şəhərində təsis konfransı keçirən Yeni Azərbaycan Partiyası ölkəmizdə əsas hərəkətverici siyasi təşkilata çevrilərək, dövlət müstəqilliyimizin möhkəmləndirilməsinin və Azərbaycanın hərtərəfli yüksəlişinin təminatçısı olmuşdur. Partiyanın Azərbaycanın müstəqillik tarixində ən böyük missiyası ölkəmizin ağır, faciəli günlərində, onun taleyinin həll olunduğu bir vaxtda «Heydər Əliyev–xalq, xalq–Heydər Əliyev» birliyinin təzahürünə çevrilməsindədir.

Cənab Prezident, Sizin də dediyiniz kimi, «Yeni Azərbaycan Partiyasının gücü ilk növbədə, onun əvəzsiz lideri Heydər Əliyevdir. Yeni Azərbaycan Partiyasının gücü ondadır ki, onun təməlində duran prinsiplər əməli surətdə həyata keçirilir. Yeni Azərbaycan Partiyasının gücü ondan ibarətdir ki, partiya liderinin daxili və xarici siyasətini xalq bəyənir və dəstəkləyir».

2005-ci il martın 26-da Yeni Azərbaycan Partiyasının III qurultayında yekdilliklə partiyanın sədri seçilmiş cənab İlham Əliyev ulu öndərimizin quruculuq və inkişaf xəttinin layiqli davamçısıdır. Bu gün Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun ən yüksək zirvəyə çatması, ölkəmizin sosial-iqtisadi və hərbi-siyasi yüksəlişi məhz bu yolun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin

nəticəsidir. 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində azad edilməsi, düşmən üzərində böyük tarixi Qələbə qazanılması bir tərəfdən, bu inkişafın məntiqi yekunudursa, digər tərəfdən, möhtərəm Prezidentimizin müstəsna hərbi-siyasi məharətinin və çoxşaxəli dövlətçilik fəaliyyətinin ən parlaq nümunəsidir.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edib Sizi – Silahlı Qüvvələrin Ali Baş Komandanını bu böyük tarixi Qələbə münasibətilə Naxçıvan Muxtar Respublikasının əhalisi adından təbrik edirəm. Bizim hamımızın qəti inamı bundan ibarətdir ki, Azərbaycan dövlətinin və xalqının bütün sahələrdə, indiyədək olduğu kimi, bundan sonra da ən mühüm qələbələrində məhz Heydər Əliyev yolunun layiqli davamçısı kimi, Sizin imzanız olacaqdır!

Möhtərəm cənab Prezident, Sizin ölkə rəhbəri kimi, muxtar respublikaya son 17 il ərzində etdiyiniz səfərlər zamanı 90-dan çox müxtəlif təyinatlı obyektlərin istifadəyə verilməsi bu qədim diyarın inkişafına və müdafiəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bu qayğının nəticəsidir ki, muxtar respublikada ərzaq, enerji və müdafiə təhlükəsizliyi təmin olunub. Hazırda Naxçıvanda 384 növdə məhsul istehsal olunur və 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Dövlət başçısının qayğısı ilə bütün yaşayış məntəqələri qazlaşdırılıb, 4 yeni su-elektrik stansiyası, 3 Günəş elektrik stansiyası, bir modul elektrik stansiyası tikilərək, bir elektrik stansiyası isə yenidən qurularaq istifadə-

yə verilibdir. Muxtar respublikada ordu quruculuğu tədbirlərinə diqqət artırılıb, sərhədlər möhkəmləndirilib, peşəkar və vətənpərvər şəxsi heyətə malik ordu formalaşdırılıbdır. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı da ötən dövrdə böyük inkişaf yolu keçibdir. Ümummilli liderin müəyyən etdiyi prinsiplərə əsaslanmaqla, hər bir partiya üzvü muxtar respublikamızda aparılan dövlətçilik və quruculuq işlərində yaxından iştirak edir, Yeni Azərbaycan Partiyası sıralarına qəbul olunanların sayı əvvəlki dövrlərlə müqayisədə xeyli artıbdır. Əgər 2003-cü ildə muxtar respublikada partiya üzvlərinin sayı 30 min nəfər idisə, hazırda bu göstərici 57 min nəfərə çatıbdır.

Möhtərəm cənab Prezident, ölkəmizdə Yeni Azərbaycan Partiyasına və onun qüdrətli liderinə böyük inam vardır. Əmin edirik ki, Azərbaycanın müstəqilliyi və tərəqqisi naminə həyata keçirdiyiniz dövlətçilik siyasətində Naxçıvan Muxtar Respublikası daim Sizinlədir! Sağ olun.

**Əli Əhmədov** (*Yeni Azərbaycan Partiyasının sədr müavini*): Möhtərəm sədr! Hörmətli qurultay nümayəndələri!

Yeddi nəfər çıxış edib və təklif var ki, qurultayda çıxışlara son verilsin. Kim bu təklifin tərəfdarıdır, xahiş edirəm, münasibətini bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Biz qurultayın müzakirə edəcəyi digər məsələyə keçirik. Bu da partiyanın yeni Nizamnaməsinin qəbul olunmasıdır.

Partiyanın mövcud Nizamnaməsinin qəbul olunmasından xeyli müddət keçib. Bu müddət ərzində Yeni Azərbaycan Partiyası ciddi irəliləyişlər əldə edibdir. Partiyada bir sıra müsbət dəyişikliklər baş verib və təbii olaraq, partiyanın idarə olunmasının və partiyada fəaliyyətin tənzimlənməsinin yeni, çevik mexanizminin yaradılması aktuallıq kəsb edir.

Düşünürəm ki, bütün bu məsələlər partiyanın bu gün qurultay tərəfindən təsdiq edilməli olan yeni Nizamnaməsində öz əksini tapıb. Əminliyimi bildirmək istəyirəm ki, bu gün partiyanın qurultayında qəbul olunacaq yeni Nizamnamə Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin ciddi əsasları üçün bünövrə yaradacaq. Buna görə də mən partiyanın yeni Nizamnaməsini səsə qoymaq istəyirəm.

Kim partiyanın yeni Nizamnaməsinin bu təkliflər əsasında qəbul edilməsini istəyirsə, xahiş edirəm, münasibət bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsi qəbul olunur.

Gündəliyin növbəti məsələsi Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin seçilməsidir. Təklif var ki, partiyanın İdarə Heyəti 40 nəfərdən ibarət tərkibdə seçilsin. Bu təklifi səsə qoyuram, kim partiyanın İdarə Heyətinin 40 nəfərdən ibarət tərkibdə seçilməsinin tərəfdarıdırsa, xahiş edirəm səs versin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Partiyanın İdarə Heyətinin tərkibi ilə əlaqədar partiya sədrinin tövsiyələrini diqqətinizə çatdırmaq istəyirəm:

İlham Əliyev, Mehriban Əliyeva, Vasif Talıbov, Arif Rəhimzadə, Eldar İbrahimov, Mixail Zabelin, Amin İsmayılov, Əli Əhmədov, Mübariz Qurbanlı, Anar İsgəndərov, Rauf Əliyev, Eldar Əzizov, Musa Quliyev, Bahar Muradova, Ədalət Muradov, Elnur Sadıqov, Tofiq Cahangirov, Tahir Budaqov, Hikmət Məmmədov, Azər Badamov, Aynur Sofiyeva, Ramiz Hüseynov, Fuad İbrahimov, Elmar Qasımov, Rəşad Mahmudov, Cavid Osmanov, Pərvin Kərimzadə, Samir Cəfərov, Asif Əsgərli, Tahir Mirkişili, Elşad Mirbəşiroğlu, Elnarə Akimova, Vazeh Əsgərov, Ramin Məmmədov, Əfsun Sucayev, Ülviyyə Həmzəyeva, Şahin İsmayılov, Rövşən Bayramov, Bayram Aslanov və Kamal Cəfərov.

Təklif olunan nümayəndələrin Yeni Azərbaycan Partiyasının İdarə Heyətinə seçilməsi ilə bağlı məsələni səsə qoyuram. Kim bu şəxslərin İdarə Heyətinin üzvü seçilməsinə tərəfdardırsa, xahiş edirəm münasibət bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, Yeni Azərbaycan Partiyasının İdarə Heyəti seçilmiş sayılır.

Gündəliyin digər məsələsi partiyanın Təftiş Komissiyasının seçilməsidir. Təklif var ki, Təftiş Komissiyasının tərkibi 13 nəfərdən ibarət seçilsin. Təklifi səsə qoyuram. Kim bu təklifə tərəfdardır, xahiş edirəm münasibət bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Partiyanın Təftiş Komissiyasının tərkibi ilə əlaqədar partiya sədrinin təkliflərini diqqətinizə çatdırıram:

Cavanşir Paşazadə, Həsən Həsənov, Məlahət İbrahimqızı, Musa Musayev, Nizami Səfərov, Aydın Hüseynov, Səməd Seyidov, Elman Nəsirov, Sevinc Hüseynova, Sadiq Qurbanov, Vüqar İsgəndərov, Badam Hüseynova və Naqif Həmzəyev.

Kim adları çəkilən şəxslərin Yeni Azərbaycan Partiyasının Təftiş Komissiyasının üzvü seçilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, partiyanın Təftiş Komissiyası seçilir. Bütün seçilənləri təbrik edirəm. Xeyirli, uğurlu olsun.

Gündəliyin növbəti məsələsi partiyanın Veteranlar Şurasının müzakirə edilməsidir.

Cənab sədr, hörmətli qurultay nümayəndələri! Bir ildən sonra Heydər Əliyev tərəfindən əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının yaradılmasından 30 il ötəcəkdir. Bu, bir tərəfdən gənc partiyadır, eyni zamanda, artıq otuzillik ömür yaşamış partiyadır. Beləliklə də, Yeni Azərbaycan Partiyasının tərkibində partiyanın inkişafında xidmətlər göstərmiş kifayət qədər çoxlu sayda veteranlar yaranıb. Bununla əlaqədar olaraq, partiyanın tərkibində yeni bir strukturun, Veteranlar Şurasının yaradılması aktuallıq kəsb edir və öz nitqində partiya sədrinin qeyd etdiyi kimi, partiyanın veteranları partiyanın bugünkü və gələcək fəaliyyətində də öz səmərəli işlərini davam etdirəcəklər.

Təklif var ki, partiyanın yeni yaradılan Veteranlar Şurası 35 nəfərdən ibarət tərkibdə seçilsin. Bu təklifi səsə qoyuram. Kim 35 nəfərdən ibarət Veteranlar Şurasının seçilməsinə tərəfdardırsa, xahiş edirəm münasibət bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Veteranlar Şurasının tərkibi ilə əlaqədar partiya sədrinin tövsiyələrini diqqətinizə çatdırıram:

Arif Rəhimzadə, Sədaqət Qəhrəmanova, Akif Əlizadə, Ədalət Fərəcov, Kərim Kərimov, İsgəndər Quliyev, Sudeyf İmamverdiyev, Əjdər İsmayılov, Vilayət Əliyev, Ramiz Mehdiyev, Dilarə Seyidzadə, Yaqub Mahmudov, Məmməd Nəsirov, Rizvan Cəbiyev, Şahlar Əsgərov, Zahid Xəlilov, Adilə Abbasova, Urxan Ələkbərov, Hüseynbala Mirələmov, Rafiq Məmmədhəsənov, Cəmil Əliyev, Misir Mərdanov, Nurlanə Əliyeva, İbrahim Əzizov, Əhliman Əmiraslanov, Maqsud Nəcəfov, Asif Cahangirov, Elbay Qasımzadə, Əli Həsənov, Nizami Xudiyev, Tahir Məmmədov, Xeyrəddin Qoca, Elman Məmmədov, Vahid Novruzov və Tahir Rzayev.

Bu şəxslərin partiyanın Veteranlar Şurasının tərkibinə seçilməsi ilə əlaqədar məsələni səsə qoyuram. Kim tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, Veteranlar Şurası seçildi. Eyni zamanda, Veteranlar Şurasının sədri və müavini qurultay tərəfindən seçiləcək. Partiyanın sədri tərəfindən partiyada yeni yaradılmış Veteranlar Şurasının sədri vəzifəsinə partiyanın veteranlarından olan Arif Rəhimzadənin, müavini vəzifəsinə isə Sədaqət Qəhrəmanovanın namizədliyi təklif olunur. Sədr vəzifəsini səsə qoyuram. Kim Arif Rəhimzadənin partiyanın Veteranlar Şurasının sədri vəzifəsinə seçilməsinə tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

İndi isə Veteranlar Şurası sədrinin müavini vəzifəsinə seçilmək üçün Sədaqət Qəhrəmanovanın namizədliyini səsə qoyuram. Kim onun Veteranlar Şurası sədrinin müavini vəzifəsinə seçilməsinə tərəfdardırsa, xahiş edirəm münasibət bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, Arif Rəhimzadə Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının sədri, Sədaqət Qəhrəmanova isə onun müavini seçilir. Hər ikisini təbrik edirik. Xeyirli, uğurlu olsun.

Yeni Azərbaycan Partiyasının VII qurultayında gündəliyin növbəti məsələsi Yeni Azərbaycan Partiyasına qoşulmaq istəyən 6 siyasi partiyanın müraciəti ilə əlaqədardır. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən Heydər Əliyev siyasətinin uğurlar qazanması, dövlətimizin gücünün, qüdrətinin, iqtisadi gücünün artması, eyni zamanda, 44 günlük Vətən müharibəsi nəticəsində 30 il işğal altında qalmış Azərbaycan torpaqlarının azad edilməsi, Azərbaycanın bir dövlət kimi dünyada nüfuzunun artması və digər müsbət cəhətlər Azərbaycanın bütün vətəndaşları kimi, bir çox siyasi partiyalar tərəfindən də İlham Əliyev siyasətinin birmənalı şəkildə dəstəklənməsi ilə nəticələnib. Bir qədər əvvəl haqqında söhbət gedən milli birlik və həmrəyliyin təmin olunmasında Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyətinin birmənalı şəkildə müsbət rol oynaması, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəkləməsi hesab edirəm ki, bunun bariz ifadəsidir. Bu bariz ifadənin yeni bir

görüntüsü də srağagün özlərinin keçirdikləri qurultayda Yeni Azərbaycan Partiyasına qoşulmaq haqqında 6 siyasi partiyanın çıxardığı qərarlarda əks olunur. Bu partiyaları sizin diqqətinizə təqdim etmək istəyirəm:

Azərbaycan Xalq Demokratik Partiyası, 1992-ci ildə təsis olunub, bu günə qədər fəaliyyət göstərir;

Azərbaycan Kəndli Partiyası, 1992-ci ildə təsis edilib;

Milli Qurtuluş Partiyası, 1993-cü ildə təsis edilib;

Azərbaycan Yurddaş Partiyası, 1993-cü ildə təsis edilib;

Azərbaycan Milli Hərəkat Partiyası, 1994-cü ildə təsis edilib;

Azərbaycan Demokrat Sahibkarlar Partiyası, 1994-cü ildə təsis edilib.

Qeyd etdiyim kimi, onlar iki gün bundan əvvəl Yeni Azərbaycan Partiyasına qoşulmaq haqqında qərar veriblər, partiyaya müraciət ediblər və partiya sədrinin tövsiyəsi əsasında bu gün həmin məsələ partiyanın VII qurultayının müzakirəsinə çıxarılıbdır. Diqqətinizə çatdırmaq istəyirəm ki, bu 6 partiyanın təmsilçiləri qonaq qismində VII qurultayda iştirak edirlər. Güman edirəm ki, həmin partiyaların Yeni Azərbaycan Partiyasına qoşulması Azərbaycanda milli birliyin, həmrəyliyin artmasına, Yeni Azərbaycan Partiyasının siyasi mövqeyinin daha da gücləndirilməsinə xidmət edən uğurlu bir addım sayıla bilər. Bununla əlaqədar olaraq, Yeni Azərbaycan Partiyasına qoşulmaq haqqında müraciət etmiş 6 partiyanın Yeni Azərbaycan Partiyasına qoşulması ilə bağlı

məsələyə münasibət bildirilməsini diqqətinizə təqdim edirəm. Kim həmin partiyaların Yeni Azərbaycan Partiyasına qoşulmasına tərəfdardırsa, xahiş edirəm münasibətini bildirsin.

Əleyhinə olan, yoxdur, bitərəf qalan, yoxdur.

Beləliklə, cənab Prezident, hörmətli qurultay nümayəndələri, Yeni Azərbaycan Partiyasının VII qurultayının gündəliyində olan məsələlər başa çatdı, lazımi qərarlar qəbul olundu. Diqqətinizə görə sağ olun.

**Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin yekun nitqi**

Partiyamızın rəhbər orqanlarına seçilmiş bütün partiya üzvlərini təbrik edirəm, onlara fəaliyyətlərində uğurlar arzulayıram.

Partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır. Partiyamızın böyük ənənələri vardır. Qeyd olunduğu kimi, biz gələn il partiyamızın 30 illik yubileyini keçirəcəyik.

Hesab edirəm ki, partiya yenilənmiş formatda, o cümlədən rəhbər orqanlarında təmsil olunmuş namizədləri nəzərə alsaq, daha fəal olacaq, ölkə qarşısında duran problemləri daha fəal icra edəcəkdir. Həyat dəyişir, zəmanə dəyişir. Bir daha demək istəyirəm ki, biz ən müasir təcrübəni Azərbaycanda bütün sahələrdə tətbiq etməliyik, o cümlədən siyasi islahatlar sahəsində. Əminəm ki, partiyanın rəhbər orqanlarında təmsil olunan üzvləri fəal olacaqlar, partiyamızın fəaliyyətində öz rolunu oynayacaqlar,

ümumi işimizə öz töhfələrini verəcəklər ki, partiyamız bundan sonra da ölkəmizin aparıcı siyasi qüvvəsi olaraq qalsın. Mən buna şübhə etmirəm. Bizim dost partiyalarımızın bu gün partiyamıza qoşulması da bunu göstərir. Bu da çox önəmli, əlamətdar hadisədir. Bu da siyasi sistemimizin təkmilləşdirilməsi istiqamətində atılmış növbəti addımdır və eyni zamanda, göstərir ki, partiyamızın məramı, proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir.

Əminəm ki, bir neçə partiyanın Yeni Azərbaycan Partiyası ilə birləşməsi partiyamızı gücləndirəcək. Bu partiyaların üzvlərini biz qəbul edirik, onlara bizim ailəyə «Xoş gəlmisiniz!» – deyirik və birgə fəaliyyətlə bağlı əlavə addımlar da atılacaqdır. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, partiyamızın yeni proqramı da hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. İdarə heyətinə tapşırıq verirəm ki, 3 ay ərzində partiyamızın yeni proqramı hazırlansın və təqdim edilsin.

Qurultayımızın keçirilməsi, bir daha demək istəyirəm ki, ölkəmizin həyatında önəmli hadisədir. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaqdır. Partiyamızın çoxminli üzvləri xalqımızın bütün təbəqələrini təmsil edirlər.

Görüləcək işlərə qayıtdıqda, mən xüsusilə şəhid ailələrinə göstərilən dəstəyi qeyd etmək istəyirəm. Partiyamızın fəalları bu sahədə də fəal olmalıdırlar, dövlət öz üzərinə düşən vəzifəni icra edir. Müharibədən 4 ay keçməsinə baxmayaraq, artıq 1500 şəhid

ailəsi və müharibə əlili üçün mənzillərin təqdim edilməsi mərasimi də keçirilibdir. Keçən il şəhid ailələrinə verilmiş mənzillərin sayı 1572 idi, bu, rekord göstəricidir. Bu il isə 3000-ə yaxın şəhid ailəsi və müharibə əlili yeni mənzillər alacaq.

Bildirməliyəm ki, beləliklə, Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda növbədə dayanan, o cümlədən ilk növbədə, Birinci Qarabağ müharibəsinin şəhid ailələrinin nümayəndələrinə tam şəkildə mənzillər, evlər veriləcəkdir. Növbəti illər ərzində bu gün növbədə dayanan Birinci və İkinci Qarabağ müharibəsinin şəhidlərinin yaxınlarına mənzillər veriləcəkdir. Ancaq şəhid ailələrimizə qayğımız mənzillərin, yaxud da ki, avtomobillərin verilməsi ilə bitmir. Yeni Azərbaycan Partiyasının nümayəndələri bu kateqoriyadan olan insanlara daim qayğı, diqqət göstərməlidirlər.

Eyni zamanda, qazilərimiz də dövlət tərəfindən bütün lazımi müalicə vasitələri ilə təmin edilir, ən müasir protezlər sifariş olunubdur. Müharibə zamanı sağlamlığını itirmiş qazilərimizi biz tezliklə normal həyata qaytaracağıq. Onu da bildirməliyəm ki, bizə bu məsələdə xaricdən gələn həkimlər də kömək göstərirlər. Bir neçə ölkədən həkimlər artıq Azərbaycana gəlib, əməliyyatlar aparırlar. Bu xoş missiyaya görə bütün xarici dostlarımıza da təşəkkürümü bildirirəm.

Həmçinin biz «Böyük Qayıdış» proqramı icra olunmağa başlayanda məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması prosesinə də start verəcəyik və burada da Yeni Azərbaycan Partiyasının üzvləri, fəallar ön planda olmalı, öz rolunu oynamalıdır.

Çünki bu proses müəyyən zaman kəsiyində baş verəcək. Biz bir gündə, yaxud da ki, bir il, ya iki ildə dağılmış bütün şəhər və kəndlərimizi bərpa edə bilmərik. Ona görə burada ardıcıllıq, əlbəttə ki, gözləniləcək. Bu ardıcıllıqla bağlı hesab edirəm ki, ilk növbədə, ən ağır vəziyyətdə yaşayan məcburi köçkünlərə üstünlük verilməlidir. Çünki 300 mindən çox məcburi köçkün dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilib, onların məişət şəraiti yaxşıdır. Ancaq hələ də uşaq bağçalarında, yataqxanalarda və digər yararsız, yəni uyğunlaşdırılmış binalarda köçkünlər yaşayır və burada da sosial ədalətin gözlənilməsi üçün Yeni Azərbaycan Partiyasının fəalları öz rolunu oynamalıdır.

Gənc nəslin tərbiyə edilməsi hər bir dövlət üçün xüsusi əhəmiyyət daşıyan məsələdir. O ölkələrdə ki, bu məsələyə fikir verilmir, o ölkələr vaxt keçdikcə böyük problemlərlə üzləşə bilər. Çünki dünyada gedən proseslər deməyə əsas verir ki, bəzi yerlərdə bu proses kortəbii şəkildə aparılır. Belə olan halda, əlbəttə ki, gələcəkdə – 10 ildən, 20 ildən sonra çox ciddi problemlər yaşana bilər. Əgər gənc nəsil tərbiyə edilməsə, əgər gənc nəslə ümumbəşəri dəyərlər aşılanmasa, o zaman gələcəkdə problemlər qaçılmazdır. Çünki biz bu gün də görürük ki, nəsillər dəyişdikcə bəzi ölkələrdə radikal qüvvələr ya hakimiyyətə gəlir, ya da ki, ildən-ilə, seçkilərdən-seçkilərə onlara verilən səslərin sayı çoxalır. Onların arasında faşist partiyaları da var, onların arasında islamofob şüarlarla hakimiyyətə gəlmək istəyənlər də var, onların arasında radikallar da var. Bütün bunlar onu göstərir ki, tərbiyə işində boşluqlar olub. Sadəcə olaraq, ölkələ-

rin təhsil sistemi bu sahəyə diqqət yetirməyib. Amma tərbiyə həm dərslər zamanı verilməlidir, həm də eyni zamanda, ölkədə hökm sürən ab-hava ilə – o da tərbiyə üsullarından biridir. Məsələn, əgər Azərbaycanı misal gətirsək, bizdə iqtidarın siyasəti xalq tərəfindən məhz ona görə dəstəklənir ki, iqtidarın siyasəti xalqın maraqlarını güdür. Harada ki, xalqın maraqları ön plandadır, o ölkələrdə nəsildən-nəslə keçən ənənələr yaşayır və biz bu ənənələri yaşatmalıyıq. O ölkələrdə ki, milli identifikasiya artıq arxa plana keçir, o ölkələrdə ki, ənənəvi dəyərlər, demək olar ki, deqradasiyaya uğrayır, o ölkələrin gələcəyi çox problemli ola bilər. Biz indi qlobal dünyada, qlobal informasiya məkanında yaşayırıq. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan daim informasiya hücumuna məruz qalan ölkədir və bizə qarşı nə qədər çirkin kampaniyalar aparılıb, istisna edilmir ki, gələcəkdə də aparılacaqdır. Ölkəmizin imicini aşağı salmaq, ölkə daxilində inamsızlıq yaratmaq, saxta faktlar ortaya atmaq – bütün bunların bir məqsədi var – çaxnaşma, xaos şəraitində gələcəkdə, hansısa xarici dairələr üçün zəmin yaratmaq. Biz buna imkan verə bilmərik. Ona görə gənc nəslin tərbiyə edilməsi gündəlik fəaliyyətimiz olmalıdır. Həm ali məktəblərdə, həm ailədə, həm də siyasi partiyalarda buna fikir verilməlidir. Siyasi partiyalarda fəaliyyət göstərən gənc nəslə elə təlimat verilməlidir ki, onlar gələcək həyata hazırlıqlı olsunlar, onlar ölkəmizin müstəqilliyini hər şeydən üstün tutsunlar. Burada təcrübəli nəslin fəaliyyətindən çox şey asılıdır. Misal üçün, Yeni Azərbaycan Partiyasında Veteranlar Şurası yaradılıb. Hesab edirəm ki, bu çox önəmli

addımdır. Bu Veteranlar Şurasının tərkibində tanınmış hörmətli insanlar fəaliyyət göstərəcəklər. Mən onlardan da xahiş edirəm ki, onlar da çox fəal olsunlar, bölgələrdə olsunlar, gənc nəslin nümayəndələri ilə görüşsünlər. Ölkə haqqında həqiqətləri gənc nəsil bilmir, hansı ki, 1991–92-ci illəri görməyiblər. Bu haqda məlumat verilməlidir ki, onlar bilsinlər, biz nəyin bahasına bugünkü reallıqları əldə etmişik. Vətən müharibəsi ilə bağlı, postmüharibə dövrü ilə bağlı məlumatlar verilməli, bütün bunlar izah edilməlidir. Çünki xaricdən, ordan-burdan yalan, saxta məlumatlar gəlir və bəzi hallarda gənc insanlar buna inanırlar. Məhz o hesabat da bunun üzərində qurulur və gənc nəslimizin milli ruhda, milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsi ən başlıca vəzifələrdən biridir. Ənənələrimiz, dəyərlərimiz, yaşayış tərzimiz – bütün bunlar bizim sərvətimizdir, biz bunu itirə bilmərik və itirməməliyik. Ona görə gənc nəslin tərbiyə edilməsi çox önəmli məsələdir və burada milli-mənəvi dəyərlər ön plandadır. Digər önəmli məsələ isə odur ki, – Yeni Azərbaycan Partiyası həmişə bu sahədə fəal olub, bizim dövlət siyasətimiz də bu sahədə birmənalıdır – Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir ailə kimi yaşayırlar və bundan sonra da bir ailə kimi yaşayacaqlar. Bu bizim böyük sərvətimizdir. Mən də müxtəlif tədbirlərdə demişəm ki, bizim dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir.

Biz hamımız Azərbaycan xalqının nümayəndələriyik. Ancaq eyni zamanda, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu üçün hər bir xalqın, hər bir dinin nümayəndəsinin öz ənənələri var, öz

bayramları var, öz həyat tərzi var və bir-birimizə hörmətlə yanaşmağımız bizim böyük sərvətimizdir.

Mən deyə bilərəm ki, Azərbaycan bu sahədə də dünyada nadir ölkələrdən biridir. Çünki baxın, inkişaf etmiş ölkələrdə indi hansı problemlər yaşanır. Onlar bu problemlərin öhdəsindən gələ bilməyiblər. Orada dini, milli zəmində ziddiyyətlər, ayrı-seçkilik baş verir. O ölkələrin bəzi şəhərlərində elə bölgələr var ki, oraya heç polis girə bilmir. Sanki bir dövlət içində dövlət qurublar. Nəyə görə? Çünki siyasət düzgün aparılmayıb, ümumiyyətlə, siyasət aparılmayıb. Hesab edirdilər ki, iqtisadi nailiyyətlər və meyarların yüksək olması orada yaşayan və oraya gələn bütün başqa xalqların nümayəndələri üçün xoşbəxtlik gətirəcək. Amma bu belə deyil.

Orada ədalətsizlik hökm sürür, təbəqələşmə hökm sürür, milli, dini zəmində ayrı-seçkilik var, irqçilik var. Biz bunun təzahürlərini görürük və son zamanlar bu özünü daha qabarıq şəkildə göstərir, xüsusilə miqrant böhranı ilə əlaqədar. Miqrant böhranı da əslində göstərdi ki, elan edilmiş dəyərlər bir çox hallarda sadəcə olaraq, şüar idi, real həyatda bu yoxdur.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər, öz ailəsində, öz doğma torpağında hiss edirlər. Xalqlar arasındakı dostluq, mehriban münasibət bizim böyük sərvətimizdir. Biz bunu qorumalıyıq. Burada siyasət bundan sonra da ardıcıl şəkildə aparılacaq. Bizim siyasətimiz xalq tərəfindən də qəbul edilir. İkinci Qarabağ müharibəsində Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri

fədakarlıq, qəhrəmanlıq göstərdilər, şəhid oldular, Vətən uğrunda vuruşdular, Azərbaycan bayrağı altında ölümə getdilər. Azərbaycanda belə cəmiyyət mövcuddur. Bu bizim böyük sərvətimizdir.

Amma biz yaxşı bilirik ki, son 30 il ərzində Ermənistan dövlətinin və erməni diasporunun əsas fəaliyyətlərindən biri Azərbaycanda yaşayan xalqlar arasında qarşıdurma yaratmaq olub. Onlar bunu gizlətmirlər və hesab edirdilər ki, burada hansısa uğura nail ola bilərlər. Amma görünür ki, onlar Azərbaycan reallıqlarından xəbərsizdirlər.

Ermənistan düşmən dövlət kimi, Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi üçün bir nömrəli hədəf idi. Dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, bizim bütün gənclərimiz ölümə gedirdilər. Bu bizim böyük sərvətimizdir. Ona görə bu sahəyə çox böyük diqqət verilməlidir və Azərbaycan – necə ki, biz bu gün dünya miqyasında multikulturalizm mərkəzlərindən birinə çevrilmişik – bundan sonra da həm ölkə daxilində, həm də beynəlxalq fəaliyyətdə daim bu məsələyə diqqət yetirməlidir.

Biz bu il müstəqilliyimizin 30 illiyini qeyd edəcəyik. Mən giriş sözümdə bu məsələ ilə bağlı öz fikirlərimi dedim. Bir daha demək istəyirəm ki, 30 ildən sonra biz bu günü qürur hissi ilə qarşılayırıq. Biz müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik.

Müstəqilliyimizin möhkəmləndirilməsi işində bundan sonra da fəaliyyət göstəriləcəkdir. Bu, əbədi prosesdir. Müstəqillik deyəndə təbii ki, mən real müstəqilliyi nəzərdə tuturam. Burada da Azərbaycan dün-

ya miqyasında nadir ölkələrdəndir ki, tam müstəqil şəkildə öz daxili və xarici siyasətini aparır, öz dostlarını özü seçir, heç kimin qabağında baş əymir, heç kimə hesabat vermir. Ancaq Azərbaycan xalqının iradəsi Prezident kimi, mənim üçün əsas məsələdir. Son illərin tarixi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi. Nə qədər cəhdlər göstərildi ki, bizi bu və ya digər avantüraya cəlb etsinlər, bizi təhrik etsinlər, hətta bəzi dost ölkələrlə bizim aramıza girsinlər. Bu cəhdlər çox olub. Sadəcə olaraq, geniş ictimaiyyət bundan xəbərsizdir. İstisna edilmir ki, bundan sonra da çox olacaq. Ancaq biz müstəqil siyasət apararaq, bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır.

Əlbəttə, biz dövlət müstəqilliyini əldə edəndə – mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirdim – müstəqilliyimiz şərti xarakter daşıyırdı. Müstəqillikdən dörd ay sonra Ermənistan bizə qarşı Xocalı soyqırımını törətdi. Müstəqillikdən yeddi ay sonra Şuşa və Laçın işğal altına düşdü. Yəni müstəqilliyimizin ilk illəri faciəvi illər idi və biz müstəqilliyi tamamilə itirə bilərdik. İndi isə – 30 ildən sonra biz ərazi bütövlüyünü bərpa etmiş ölkə kimi, Ermənistanı məğlub etmiş ölkə kimi, bu yubileyi qarşılayırıq. Müharibə ilə bağlı bəzi yerlərdə gedən müzakirələrdə deyirlər ki, biz 7 rayonu azad etmişik. Elə deyil. Biz eyni zamanda, Şuşanı azad etmişik, eyni zamanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonunu tam azad etmişik. Keçmiş Dağlıq Qarabağ

Muxtar Vilayətinin keçmiş Martuni, indiki Xocavənd rayonunun 50 faizdən çox hissəsini azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Mardakert, indiki Ağdərə rayonunun böyük hissəsini azad etmişik, o cümlədən Suqovuşan qəsəbəsini. Biz təkcə 7 rayonu azad etməmişik, daha çox ərazini azad etmişik və bu gün yaratdığımız reallıq artıq dünya tərəfindən qəbul edilir. Bir daha demək istəyirəm ki, bu reallığı biz yaratmışıq – güc hesabına, iradə hesabına, birlik hesabına.

Müharibənin nəticələrindən biri də, əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu bizim növbəti tarixi uğurumuz olacaqdır.

Müstəqillik bizim ən böyük sərvətimiz, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq.

Beləliklə, bir çox hallarda dediyim kimi, bugünkü qurultayı da bu sözlərlə yekunlaşdırmaq istərdim: Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınları milli varlığımızı özündə əks etdirən mədəni dəyərlərimizin əsrlərdən bəri bir bütöv halında qorunub saxlanılmasında misilsiz xidmətlər göstərmiş və həmişə cəmiyyətimizin etibarlı mənəvi dayağı olmuşlar. Məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, onlar milli dövlət quruculuğu işinin fəal iştirakçıları kimi, ölkəmizin sosial-iqtisadi, mədəni və elmi potensialının artırılması üçün qüvvələrini əsirgəmədən tariximizdə dərin iz qoyan fədakar, mübariz və məğrur sələflərindən aldıqları tükənməz mənəvi güc sayəsində bütün sınaqları dəf etmiş, öhdələrinə düşən vəzifələri şərəflə yerinə yetirmişlər.

Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək, dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu gözlədikləri və yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdirmişdir.

Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, 44 günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir. Gözünü açıb Azərbaycanı azad və

müstəqil görmüş həmin rəşadətli nəsildir ki, ümidləri doğruldaraq ədalətin bərpa edilməsində, uzun həsrətdən sonra Qarabağın Ana Vətənə qovuşmasında və məğrur xalqımıza hüdudsuz Zəfər sevincinin yaşadılmasında müstəsna payı vardır. Mən torpaqlarımızın müdafiəsi zamanı canından keçmiş igid oğullarımızın xatirəsini bir daha ehtiramla yad edir, şəhid analarına və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbçilərimizin ömür-gün yoldaşlarına, Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına ən xoş arzularımı çatdırıram.

İnanıram ki, qurub-yaratmaq əzmi və sosial-mədəni fəallığı ilə seçilən zəngin mənəviyyatlı Azərbaycan qadını cəmiyyətimizin həyatına bundan sonra da yüksək dəyərlər qazandıracaq, bizi qarşıda gözləyən nəhəng quruculuq dövründəki nailiyyətləri ilə müstəqillik salnaməmizə yeni parlaq səhifələr yazacaqdır.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 mart 2021-ci il*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ SƏDRİ AKİF ÇAĞATAY KILIÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz.

**Akif Çağatay Kılıç:** Xoş gördük, cənab Prezident, necəsiniz?

**İlham Əliyev:** Çox sağ olun. Şadam sizi görməyimə.

**Akif Çağatay Kılıç:** Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik.

**İlham Əliyev:** Sizin səfəriniz, əlbəttə, böyük önəm daşıyır. Çünki parlamentlərarası əlaqələrimiz də çox uğurla inkişaf edir. Həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir yerdəyik, bir-birimizi dəstəkləyirik. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək bütün Azərbaycan xalqını çox məmnun etdi. Bu təbiidir. Çünki iki qardaş ölkə daim bir-birinin yanındadır. Əziz qardaşım hör-

mətli Prezident Rəcəb Tayyib Ərdoğanın ilk saatlardan bizə verdiyi siyasi və mənəvi dəstək, əlbəttə, bizi çox ruhlandırdı. Eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin rəhbəri hörmətli Mustafa Şəntop və parlament üzvləri də bizə həmrəylik və dəstək göstərmişlər. Yəni bu müharibə günləri bir daha göstərdi ki, bizim xalqlarımız nə qədər bir-birinə bağlıdır, nə qədər bir-birinə sevgi və hörmətlə yanaşır. Bu yaxınlarda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə də əziz qardaşım hörmətli Prezident Azərbaycan haqqında, bizim Zəfərimiz haqqında çox gözəl sözlər demişdir. Bildiyiniz kimi, bu Zəfəri qeyd etmək üçün ötən ilin sonunda Bakıda hərbi parad keçirilmişdir.

Onu da bildirməliyəm ki, Türkiyənin mətbuatı, bütün ictimai qurumları bu müharibə dövründə Azərbaycana çox böyük dəstək göstərdilər. Biz bunu çox yüksək qiymətləndiririk. Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq, bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq. Sizi bir daha ürəkdən salamlayıram. Xoş gəlmisiniz.

**Akif Çağatay Kılıç:** Hörmətli cənab Prezident, əvvəlcə mən də hörmətli Prezidentimizin Sizə salam və sevgilərini çatdırmaq istəyirəm. Həmçinin Məclis Sədrimizin də Sizə sevgi, salam və ehtiramları var. Təbii ki, biz Türkiyə Böyük Millət Məcli-

sinin Xarici əlaqələr komissiyasının üzvləri olaraq, Sizin böyük Zəfərinizdən həm çox məmnunluq duyuruq, həm də bu mənada birlik və bərabərliyimizi bir daha göstərmək üçün Sizi ziyarət etmək istədik. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, Türkiyə Böyük Millət Məclisində Sizin bu uğurunuzu, bu liderliyinizi və Siz də dediyiniz kimi, bölgənin tarixində dönüş nöqtəsi olan bu mübarizənizi dəstəkləyən dörd siyasi partiyanın – bilirsiniz, Türkiyə Böyük Millət Məclisi bu barədə bəyanat qəbul etdi – təmsilçiləri olaraq buradayıq.

*Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntopun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına və parlamentinin sədrinə çatdırmağı xahiş etdi.*

## ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

Zati-müqəddəsləri!

Tacqoyma Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün həmməzhəblərinizi şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu gün Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlərin yüksək səviyyəsi məmnunluq doğurur. Tolerantlıq və multikultural dəyərləri həyat tərzi kimi qəbul edən Azərbaycan mədəniyyətlər və dinlər arasında dialoqun təşviqinə yönəlmiş bu əlaqələrin daha da genişlənməsinə xüsusi əhəmiyyət verir.

Keçən il Vatikanda Sizinlə görüşümüzü, apardığımız fikir mübadiləsini ən gözəl təəssüratlarla xatırlayır, Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə verdiyiniz yüksək qiymətə görə təşəkkürümü bildirirəm.

Dünyanı bürümüş COVID-19 virusu ilə mübarizə apardığımız bu mürəkkəb dövrdə bəşəriyyət tərəfindən qarşılıqlı anlaşma, dəstək, həmrəylik və humanizm kimi ülvi dəyərlərin səfərbər edilməsi vacibdir. İnanıram ki, Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında mövcud olan nümunəvi əməkdaşlıq münasibətləri bundan sonra da sivilizasiyalar arasında qarşılıqlı etimad mühitinin yaradılmasına, dini

və mədəni irsin qorunmasına, ümumbəşəri dəyərlərin təntənəsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, ali mənəvi missiyanızda müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 mart 2021-ci il*

## MACARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRİ PETER SİYARTO İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*10 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Macarıstanın Xarici İşlər və Ticarət naziri Peter Siyartonu videoformatda qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Cənab nazir, xoş gəlmisiniz. Sabahınız xeyir. Sizi görməyə çox şadam. Bu vaxt ölkəmizə səfər etməyiniz müsbət haldır və bizim söhbət aparmaq üçün imkanımız olacaq. Bilirəm ki, bir neçə ay əvvəl siz həmkarınızla ikitərəfli iqtisadi komissiyanın işi ilə əlaqədar məsələləri müzakirə etmisiniz. Mənə bu barədə məlumat verilib və hesab edirəm ki, işlər düzgün istiqamətdə gedir.

Əlbəttə, strateji tərəfdaş olan Azərbaycan və Macarıstan müxtəlif sahələrdə fəal əməkdaşlığı davam etdirməlidir. Biz Avropa Komissiyası ilə əlaqələrimizdə sizin dəstəyinizə görə minnətdarıq. Bildiyiniz kimi, biz Avropa İttifaqı ilə sazişin müzakirəsinin yekun mərhələsindəyik, pandemiya və müharibə səbəbindən bu müzakirələr müvəqqəti dayandırılıb. Lakin sazişin müddəalarının mütləq əksəriyyəti artıq razılaşdırılıb və əminəm ki, qarşıdan gələn aylar ərzində daha böyük irəliləyiş olacaq. Əlbəttə, ikitərəfli gündəliyimiz

çox vacibdir. Dost ölkələr olan Azərbaycan və Macarıstan iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığı fəallaşdırmalıdır. Xüsusilə də işğal altında olan ərazilərimizin azad edilməsindən sonra orada yenidən qurma sahəsində çoxlu imkanlar mövcuddur. Həmin ərazilər tamamilə viran qoyulub və yəqin ki, siz də həmin videomateriallarla tanışsınız. Oralar darmadağın edilib və biz həmin əraziləri sıfırdan yenidən qurmalıyıq. Söhbət Azərbaycanın böyük bir hissəsi – 10 min kvadratkilometrdən artıq ərazidən gedir və biz bu işi tərəfdaşlarımızla əməkdaşlıq şəraitində icra etmək istəyirik. Mən artıq bir neçə dəfə bunu ictimai şəkildə bəyan etmişəm ki, biz dost ölkələrdən olan şirkətləri əməkdaşlığa dəvət edəcəyik. Macarıstan Azərbaycanın ən yaxın dostlarındandır. Əminəm ki, Macarıstan şirkətlərinin də azad edilmiş ərazilərdə bizimlə birlikdə çalışmaqla bağlı çoxlu imkanları olacaq.

Digər sahələrdə də imkanlar mövcuddur. Bilirəm ki, kənd təsərrüfatı və texnologiya sahələrində böyük potensial var. Biz azad olunmuş ərazilərdə müasir infrastruktur və şəhərsalma layihələrinin icrasını planlaşdırırıq. Beləliklə, görüləcək işlərin həcmi böyükdür və əminəm ki, səfəriniz çərçivəsində həmkarlarınızla bu məsələləri ətraflı müzakirə edəcəksiniz. Bir daha Azərbaycana xoş gəlmisiniz.

**Peter Siyarto:** Sizinlə videokonfrans vasitəsilə görüşmək imkanına görə təşəkkür edirəm. Cənab Prezident, bildiyiniz kimi, bizim mövqeyimiz hər zaman ondan ibarət olub ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivə-

sində suverenliyi bərpa olunmalıdır. Son bir neçə onillik ərzində Azərbaycanın bu hüququ pozulmuşdu və biz bununla bağlı mövqeyini gizlətməyən ölkələrdən olmuşuq. Biz bu məsələ ilə bağlı mövqemizi aydın ifadə etməkdə davam edəcəyik. Cənab Prezident, əmin ola bilərsiniz ki, biz bu baxımdan hər zaman balanslı yanaşma nümayiş etdirəcək, həqiqəti söyləyəcək və mövqemizi açıq ifadə edəcəyik. Cənab Prezident, ölkəmizin Baş Naziri Sizə salamlarını çatdırmağı tapşırıb.

*Prezident İlham Əliyev Macarıstanın Baş Naziri Viktor Orbanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Macarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*10 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

*Söhbət zamanı bölgədə yaranmış yeni geosiyasi vəziyyət, postmüharibə şəraiti, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidən qurma işlərinin aparılması, regional nəqliyyat layihələrinin həyata keçirilməsi məsələləri müzakirə olundu.*

## DAXİLİ QOŞUNLARIN YARANMASI GÜNÜNDƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BAKININ SABUNÇU RAYONUNDA YENİ İNŞA OLUNAN «N» SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 12-də – Daxili Qoşunların yaranması günündə Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Bakının Sabunçu rayonunda yeni inşa olunan «N» saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.*

*Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə raport və görülən işlər barədə məlumat verdi.*

*Bildirildi ki, hərbi hissədə şəxsi heyətin xidmət, məişət, sıra və döyüş hazırlığı səviyyəsinin yaxşılaşdırılması tədbirləri çərçivəsində qərargah və əsgər kazarması, yeməkxana, tibb, qarovul, texniki nəzarət, buraxılış məntəqələri, digər köməkçi binalar inşa olunub, idman şəhərciyi yaradılıb. Yeni binalar zəruri avadanlıq və inventarla təchiz edilib. Mövcud binalar isə əsaslı təmir olunub. Hərbi hissədə mərkəzləşdirilmiş havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılıb.*

*Prezident, Ali Baş Komandan hərbi hissədə yeni inşa edilən qərargah, əsgər yataqxanası, tibb məntəqəsi və yeməkxana ilə tanış oldu.*

*Diqqətə çatdırıldı ki, hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün imkanlar yaradılıb.*

*Əsgər və zabitlərin xidmət şəraitinin yaxşılaşdırılması onların döyüş qabiliyyətini artırmaqla bərabər, istənilən vəzifənin icrasına birbaşa təsir göstərən amillərdəndir.*

*Sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili Qoşunların xüsusi təyinatlıları üçün nəzərdə tutulan silah-sursata və kütləvi iğtişaşların dağıdılmasında istifadə olunan texnikaya və komendant postlarına baxdı. Bu postlar işğaldan azad olunmuş ərazilərdə xidmət aparmaq üçün hazırlanıb.*

*Daxili Qoşunların şəxsi heyəti ictimai asayişin qorunmasında və təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak edir. Birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də Daxili Qoşunların xüsusi təyinatlıları vahid komandanlıq altında Azərbaycanın haqq işinin müdafiəsində fəal iştirak ediblər. Birinci Qarabağ müharibəsində Daxili Qoşunların 9 hərbçisi Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. 44 günlük Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 hərbi qulluqçu isə yaralanıb, 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.*

*Prezident, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, sosial-məişət şəraitinin*

*daha da yaxşılaşdırılmasına, xidməti vəzifələrini layiqincə yerinə yetirən hərbi qulluqçuların mükafatlandırılmasına xüsusi diqqət yetirir. Azərbaycan Prezidentinin 2021-ci il 12 mart tarixli Sərəncamına əsasən, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının iki hərbi qulluqçusunun «Vətən uğrunda», üç nəfərin «İgidliyə görə», 7 nəfərin isə «Hərbi xidmətlərə görə» medalları ilə təltif olunması bunun əyani göstəricisidir.*

*Xatırladaq ki, Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi, Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsinin, ictimai təhlükəsizliyin təmin olunmasını, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.*

*Hərbi hissə ilə tanışlıqdan sonra Prezident, Ali Baş Komandan İlham Əliyev Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının bütün şəxsi heyətini təbrik etdi.*

# İSVEÇİN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ ANN LİNDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2021-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də İsveçin Xarici İşlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə Prezident İlham Əliyevlə ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin təkbətək görüşü oldu. Sonra görüş geniş tərkibdə davam etdirildi.*

**İlham Əliyev:** Xoş gəlmisiniz, xanım nazir. Sizi görməyə çox şadam. Bizim təkbətək danışmaq imkanımız oldu, indi isə nümayəndə heyətlərinin iştirakı ilə görüşürük. Sizin səfərinizə böyük əhəmiyyət veririk. ATƏT Ermənistanla Azərbaycan arasındakı münaqişənin həllinə birbaşa cəlb olunmuş təşkilatdır. Beləliklə, indi münaqişə artıq tarixə qovuşub və biz gələcəyə baxmalıyıq. Bu gün sizinlə gələcək işlərin necə qurulması ilə bağlı fikirlərimizi müzakirə etdik. Düşünürəm ki, müharibədən sonra ötən 4 ay artıq hər iki tərəfin səhifəni bağlamaq və diqqəti gələcəyə yönəltmək iradəsini nümayiş etdirir. Bu çox mühümdür.

Bizə gəlincə, biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir. Çox iş görülməlidir, çünki işğaldan azad edilmiş ərazilərdə hər şey – şəhərlər, kəndlər, mədəni abidələr, bütün infrastruktur dağıdılıb. Həqiqətən də işlərin miqyası böyük olacaq. Tamamilə dağıdılmış ərazi 10 min kvadratkilometrdən çoxdur. Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir.

Danışıqların müxtəlif səviyyələrdə artıq bir neçə mərhələsi olub. Düşünürəm ki, məhz bu məsələ müharibə səhifəsini tamamilə bağlamaq və onu tarixdə qoymaq üçün başlanğıc nöqtəsi ola bilər. Çünki kommunikasiyaların açılması bütün region ölkələrin xeyrinə olacaq, regional əməkdaşlığa yeni dinamika gətirməklə yeni imkanlar yaradacaq. Bu bir çox başqa sahələrdə potensial əməkdaşlığa gətirib çıxara bilər. Mən artıq açıq şəkildə demişəm ki, Azərbaycan buna hazırdır. Biz öz vəzifəmizi tamamlamışıq. Əraziləri azad etmişik, BMT Təhlükəsizlik Şurasının qətnamələrini və ATƏT-in qərarlarını icra etmişik. Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik. Bilirəm ki, bu günlərdə çox məşğulsunuz, çox ölkəyə səfər edirsiniz. Mən sizi Azərbaycanda görməyə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox məhsuldar olacaq. Bir daha xoş gəlmisiniz.

**A n n L i n d e:** Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakıya belə uzun müddətdən sonra qayıtmaq sevindirici haldır. Təəssüf edirəm ki,

payızda gələ bilməmişəm. Çünki hökumətimiz həmin vaxt uçuşların həyata keçirilməsinin təhlükəli olduğunu hesab etmişdir və bu səbəbdən mən gələ bilməmişdim. Lakin indi mən buradayam. Bildiyiniz kimi, ATƏT-in sədri olaraq, bizim əsas prioritetimiz Avropada təhlükəsizlik sistemini müdafiə etməkdir və təhlükəsizliyi demokratiyaya, insan hüquqlarına və qanunun aliliyinə bağlayan hərtərəfli təhlükəsizlik konsepsiyasına dəstək olmaqdır. Əlbəttə, biz ATƏT ərazisində münaqişənin həllinə töhfə vermək üçün nə edə biləcəklərimizi nəzərdən keçirəcəyik. Odur ki, bu kontekstdə beynəlxalq hüquq, beynəlxalq insan hüquqları, humanitar qanun, qadınlar, sülh və təhlükəsizlik bizim üçün prioritet məsələlərdir. Hesab edirəm ki, bu məsələlər üzərində birlikdə çalışmaq mümkündür.

## QEYDLƏR

**1. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 5, 27, 28, 31, 41, 44, 52, 117, 140.

**2. İtaliya,** İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Padan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301,3 min km$^2$, əhalisi 61 milyon nəfərdir. İnzibati cəhətdən 20 vilayətə bölünür. Paytaxtı Roma şəhəridir. – 6, 9, 10, 12, 13, 31, 40, 44, 45, 52, 53, 54.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə

birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozub.

27 sentyabr 2020-ci ildə Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozması ilə Azərbaycan Silahlı Qüvvələri erməni təxribatlarının qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başlamışdır. DQMV inzibati ərazi statusu 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilmişdir. – 6, 23, 67, 71, 72, 73, 90, 102, 109, 110, 111, 124, 139, 143, 144, 155, 162–164, 167, 170, 176, 185, 187, 188, 197, 202–204, 207, 213, 214, 219, 220, 237, 240, 243, 244, 252, 257, 259, 276, 278, 285, 289, 290, 317.

**4. Sercio Mattarella** (d.1941) – İtaliyanın siyasi və dövlət xadimi. 2015-ci ildən İtaliya Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 9.

**5. SOCAR,** Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Azərbaycan Respublikası ərazisində neft sərvətlərindən istifadəni vahid siyasət əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən,

yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. Respublikanın bütün ərazisində (quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. 1992-ci ildə «Azərneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə «Hasilatın Pay Bölgüsü» Sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 11, 195, 199.

**6. «Qoşulmama Hərəkatı»** – özlərini heç bir bloka tərəfdar olmadığını bildirmiş 120 dövlətin üzv olduğu digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda birləşdikləri blok. 1961-ci ildə yaradılmışdır. Mənzil-qərargahı Cakartadadır. Azərbaycan Respublikası 25–26 oktyabr 2019-cu il tarixində Bakı şəhərində Hərəkatın 18-ci dövlət və hökumət başçılarının Zirvə görüşünə ev sahibliyi etmişdir. Bakı Sammiti ilə Hərəkata sədrlik 2019–2022-ci illər üzrə Azərbaycan Respublikasına keçmişdir. – 14, 79, 80, 130, 131, 214, 215, 242, 243, 266, 267, 273, 289.

**7. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Kəlbəcər şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 3050 $km^2$, əhalisi 93 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il-

də imzalanan müqaviləyə əsasən, 15 noyabr tarixində təhvil verilməsi qərarlaşdırılan Kəlbəcər rayonu 25 noyabrda Azərbaycana təhvil verildi. Məğlubiyyətlə barışa bilməyən ermənilər bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirmişdir. – 19, 65–67, 69, 71, 72, 102, 104, 105, 137, 170, 182, 188, 196, 200, 207, 222.

**8. Laçın** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Laçın şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 79,9 min nəfərdir. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan müqaviləyə əsasən, Laçın rayonu işğaldan azad edildi. Bəyanata əsasən, 1 dekabr 2020-ci il tarixində Laçın rayonu boşaldılıb Azərbaycan Silahlı Qüvvələrinə təhvil verildi. – 19, 60–67, 69, 71, 72, 73, 74, 102, 104, 105, 109, 128, 137, 147, 163, 182, 188, 196, 200, 252, 316.

**9. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edir. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlandırılmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən, Qarabağ xanlığının tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağ-

da törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Şuşa şəhərini 8 noyabr 2020-ci ildə işğaldan azad etmişdir. – 19, 65, 71, 72, 102, 103, 105, 109, 128, 135, 164, 166, 169, 191, 195, 200, 207, 211, 212, 252, 316, 317.

**10. Kamran Əliyev,** K a m r a n B a y r a m o ğ l u (d.1965) – hüquqşünas, 2-ci dərəcəli Dövlət Ədliyyə müşaviri. 2014–2020-ci illərdə Azərbaycan Respublikası Baş prokurorunun müavini olmuşdur. 1 may 2020-ci ildən Azərbaycan Respublikasının Baş prokurorudur. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 24.

**11. Gəncə terroru** – İkinci Qarabağ müharibəsi zamanı Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən bombalanması ilə törədilən terror aktları. Mülki şəxsləri hədəf alan hücumlar nəticəsində 27 nəfər ölmüş, 125 nəfər yaralanmışdır. Hücumlardan həyatını itirənlər və yaralananlar arasında azyaşlılar da vardır. Terror aktları nəticəsində şəhərin infrastrukturuna, yaşayış binaları da daxil olmaqla, digər

binalara, avtomobillərə ciddi ziyan dəymişdir. Bununla da Ermənistan yenə beynəlxalq hüququn norma və prinsiplərini, insan haqlarını kobudcasına pozmuş, qeyri-insani əməllərinin arealını genişləndirmişdir. – 25, 107, 124, 159, 210.

**12. Bərdə terroru** – Ermənistan silahlı qüvvələri tərəfindən 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinə, oktyabrın 28-də isə Bərdə şəhərinə olan raket hücumları. Hücumlar nəticəsində 27 nəfər ölmüş, 80 nəfərdən artıq insan isə yaralanmışdır. – 25, 107, 124, 210.

**13. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası İqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 26.

**14. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı– Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 27, 28, 29, 31, 53, 135, 162, 195, 204, 213, 228.

**15. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 27, 28, 30, 31, 32, 33, 34, 35, 39, 40, 41, 43, 44, 45, 46, 47, 50–57, 152, 243.

**16. *bp*** – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 27, 28, 32, 51, 53.

**17. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 27, 34.

**18. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 27 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 28, 35, 40, 42, 43, 48, 49, 51, 55, 56, 57, 265, 266, 325, 328.

**19. Trans–Adriatik boru kəməri** (TAP) –Azərbaycan qazını Yunanıstandan Albaniyaya, oradan Adriatik dənizindən keçərək İtaliyaya, daha sonra qərbi Avropaya nəql edən boru kəməri. – 31, 33, 35, 36, 43, 45, 46, 50, 51, 54.

**20. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 31, 34, 35, 41, 45, 51, 54, 55, 87, 146, 147, 174, 217, 218, 267.

**21. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 83 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 31, 35, 41, 45, 51, 52, 54, 55, 56, 59, 69, 70, 93, 94, 119, 124, 129, 138, 139, 142, 143, 146, 147, 148, 149, 151, 152, 162, 168, 172, 173, 174, 182, 183, 207–209, 213, 219–224, 228, 236, 239–241, 244, 320–322.

**22. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 31, 52, 54, 56.

**23. Avropa Komissiyası** (AK) – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin 2 müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında 1 yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcə layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 31, 34, 39, 46, 48, 50, 58, 267, 325.

**24. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,7 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 31, 45, 52, 54, 56, 57, 172.

**25. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 32, 38, 41.

**26. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası

bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 32, 41.

**27. Trans – Anadolu qaz boru kəməri** (TANAP) – **K**əmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard kubmetr qaz ötürülməsi nəzərdə tutulur. Qaz Türkiyə – Bolqarıstan və Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql edilir. – 33, 35, 45, 54.

**28. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1768 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 35, 37, 260.

**29. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 37, 53, 55, 56, 174, 240, 244, 245.

**30. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 37.

**31. Pərviz Şahbazov,** Pərviz Oqtay oğlu (d. 1969) – mühəndis, diplomat. 2005–2016-cı illərdə Azərbaycanın Almaniya Federativ Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. 2017-ci ildən Azərbaycan Respublikasının Energetika naziridir. – 39, 40, 44, 50.

**32. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu Yorkda yerləşir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San Fransisko Konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Assambleya, Təhlükəsizlik Şurası, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və Katiblikdir. Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. – 42, 43, 79, 80, 132, 217, 233, 243, 268.

**33. «Şərq Tərəfdaşlığı» Proqramı** – Avropa İttifaqının üzv ölkələri Polşa və İsveçin MDB-yə daxil olan Azərbaycan, Gürcüstan, Ermənistan, Moldova, Belarus və Ukrayna ilə qonşuluq siyasəti çərçivəsində münasibətlərin yaxşılaşdırılmasına aid layihəsi. – 47, 265.

**34. COVID-19** – koronavirus pandemiyası. 2019-cu ilin ortalarında Çinin mərkəzi Hubey əyalətində yerli sakinlərdə naməlum mənşəli virusun yayılması ilə başlanan xəstəlik. – 48, 130, 215, 242, 267, 268, 298, 323.

**35. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min $km^2$, əhalisi 7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 57.

**36. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 57, 325–326.

**37. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur. Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 59, 93, 119, 124, 208, 236–239, 244, 321, 322.

**38. Füzuli** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 144 min nəfərdir. 1993-cü ildən əra-

zisinin bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

27 sentyabr 2020-ci il tarixindən etibarən Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndləri, 17 oktyabr tarixində isə Füzuli şəhəri işğaldan tam azad edilmişdir. – 60, 90, 107, 127, 128, 135, 136, 166, 175, 207, 211.

**39. Zəngilan** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 707 $km^2$, əhalisi 42 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

20 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 60, 61, 67, 68, 75, 128, 135, 138, 141, 175, 181, 196.

**40. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 $km^2$, əhalisi 80,8 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

4 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 60, 67, 77, 135, 136, 166, 175, 196.

**41. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik

M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi, həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə isə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı

xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 60, 75, 76, 116, 117, 225, 226, 228, 281, 286, 289, 298, 303.

**42. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 60, 75, 76, 117.

**43. Horadiz** – Azərbaycan Respublikasının Füzuli rayonunda şəhər. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilsə də, 1994-cü ildə keçirilən «Horadiz əməliyyatı» zamanı işğaldan azad edilib.

27 Sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyat nəticəsində işğaldan tamamilə azad edilmişdir. – 60, 68.

**44. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı

illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən isə Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. Sahəsi 5,5 min km$^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 60, 68, 129, 159, 244, 251, 301.

**45. Qubadlı** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Qubadlı şəhəridir. 14 mart 1933-cü ildə yaradılmışdır. Əhalisi 40,2 min nəfər, sahəsi 802 km$^2$-dir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

25 oktyabr 2020-ci il ildə Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edilmişdir. – 62, 63, 74, 109, 135, 175.

**46. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 66, 69, 138, 147, 151, 152, 172–174, 176, 178, 179, 244.

**47. 10 noyabr Bəyanatı** – Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə

saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistanın nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi haqqında müqavilə. – 68, 69, 126, 127, 135, 137, 144, 146, 154, 158, 182, 183, 189, 190, 191.

**48. Ağdam** – Azərbaycan Respublikasında inzibati ərazi vahidi. İnzibati mərkəzi Ağdam şəhəridir. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1150 $km^2$, əhalisi 202,2 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci il müqaviləsinə əsasən, 20 noyabrda Ermənistan silahlı qüvvələri Ağdamı boşaldıb Azərbaycan Respublikasına təhvil vermişdir. – 69, 71, 90, 105, 107, 124, 141, 172, 174–176, 179, 180, 182, 187, 188.

**49. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 69, 70.

**50. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 $km^2$, əhalisi 92,1 min nəfərdir. Azərbay-

canın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir. 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 69, 179, 212, 250, 251.

**51. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 69, 70, 127, 129, 133, 143, 146, 147, 148, 149, 150, 151, 152, 155, 158, 159, 160–163, 171, 172, 173, 174, 183, 186, 187, 190, 215, 220, 259.

**52. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli

dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quru-

culuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 75, 92, 95,

229, 237, 240, 249–252, 254–256, 280, 284, 286, 288, 295, 299, 300, 304, 306.

**53. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 266,3 milyon nəfərdir. İnzibati ərazisi 32 əyalətə və əyalət statusu olan 2 xüsusi inzibati əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 78, 80, 81.

**54. Coko Vidodo** (d.1961) – 2014-cü ildən İndoneziya Respublikasının Prezidentidir. – 78, 79.

**55. BMT Baş Assambleyası** – BMT-nin qanunverici orqanı. Hal-hazırda hər bir sessiyada iştirak etməli olan və 5-dən çox nümayəndəsi olmayan 191 üzv dövlətdən ibarətdir. Baş Assambleya, Baş Assambleyanın sessiyalarıarası görüşən 7 Əsas Komitə, Prosessual Komissiya və Daimi Komissiyalar kimi Daimi Komitələrdən ibarətdir. O həmçinin Təhlükəsizlik Şurasının rəyi ilə növbəti 5 il müddətində fəaliyyət göstərəcək Baş Katibi təyin etmək üçün də məsuliyyət daşıyır. – 79, 130, 131, 242, 266, 289, 298.

**56. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddə-

də yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 79, 117, 180, 182, 233, 242, 266, 289.

**57. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 80, 233, 234, 240, 241, 266, 267, 278, 290, 333.

**58. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 82, 83, 84.

**59. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 82, 84.

**60. Nəriman Həsənzadə,** N ə r i m a n Ə l i m ə m m ə d o ğ l u (d.1931) – Xalq şairi, filologiya elmləri doktoru. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi. İncə lirizm ruhunda yazılmış şeirlərin

müəllifidir. N.Nərimanova həsr edilmiş «Nəriman» poeması, XII əsr Azərbaycan həyatından bəhs edən «Atabəylər» mənzum dramının da müəllifidir. «Ədəbiyyat və incəsənət» qəzetinin baş redaktoru olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 85.

**61. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 88, 89, 92.

**62. UNESKO** – BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 91, 289.

**63. İkinci Qarabağ müharibəsi** – Azərbaycan Silahlı Qüvvələri və Ermənistan silahlı qüvvələri ara-

sında atəşkəsdən sonra müşahidə olunan ən gərgin döyüşlər. Tarixə «Vətən müharibəsi», «Dəmir Yumruq» əməliyyatı kimi daxil olan döyüşlər Azərbaycanın inamlı qələbəsi ilə başa çatmışdır. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında başlamışdır. Rusiyanın vasitəçiliyi ilə həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilən humanitar atəşkəs rəsmi olaraq 10 oktyabr tarixində qüvvəyə minsə də, Ermənistan silahlı qüvvələri atəşkəsi yenidən pozmuşdur. Döyüşlər zamanı Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın birbaşa rəhbərliyi ilə işğal altındakı torpaqlar uğrunda qəhrəmancasına mübarizə aparmış və qələbə qazanmışdır. 44 günlük müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı, 8 noyabrda isə Şuşa şəhəri işğaldan azad edilmişdir. Şuşa şəhərinin azad edilməsi ilə Ermənistan silahlı qüvvələrinə ciddi zərbə vurulmuş, bununla da məğlubiyyətə məcbur edilmişdir. Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistanın baş naziri arasında imzalanmış müqaviləyə əsasən, 10 noyabr 2020-ci il tarixində Bakı vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişə zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabr 2020-ci il tarixinədək Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən çıxarılması razılaşdırılmışdır. Bu müqaviləyə əsasən, işğal altındakı digər ərazilər Azərbaycana qaytarılmış, döyüşlər Azərbaycan tərəfinin inamlı qələbəsi ilə başa çatmışdır. – 99, 100, 120, 121, 124, 153, 155, 192, 249, 264, 315, 320.

**64. Birinci Qarabağ müharibəsi** – 1980-ci illərin sonlarından 1994-cü ilin mayına kimi cənub-qərbi Azərbaycanda yerləşən Qarabağ bölgəsinə Ermənistanın hücumu ilə Azərbaycan və Ermənistan arasında baş vermiş ərazi münaqişəsi. Tərəflər arasında genişmiqyaslı döyüşlər, əsasən 1992-ci ildə başlamışdır. 1994-cü ilin mayında atəşkəs əldə olunmuşdur. Münaqişənin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün isə ATƏT-in Minsk qrupu yaradılmışdır. Müharibə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonları isə işğal olunmuşdur. Müharibə zamanı Ermənistan silahlı qüvvələri minlərlə hərbi cinayət törətmiş, beynəlxalq hüququn bütün norma və prinsiplərini kobudcasına pozmuş, atəşkəs elan olunduqdan sonra belə, Azərbaycan tərəfinin hərbi bölmələrini və dinc insanları mütəmadi olaraq atəşə tutmuş, işğal olunmuş Azərbaycan torpaqlarında etnik, milli və mədəni təmizləmə və ekoloji terror, eləcə də qanunsuz məskunlaşma işləri aparmışdır. – 99, 100, 101, 108, 139, 287, 330.

**65. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Da-

nimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. – 102, 124, 143, 165, 238, 285.

**66. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmış, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. Faciəni qətliam kimi dünyanın 10-dan çox ölkəsi, həmçinin ABŞ-ın 22 ştatı tanımışdır. – 102, 116, 117, 118, 119, 120, 121, 122, 123, 124, 139, 153, 154, 169, 204, 260, 272, 285, 316.

**67. İlqar İsmayılov,** İlqar Sədi oğlu (1959–1992) Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi. Onun rəhbərliyi ilə 128 nəfər döyüşçümüz Qızartı yüksəkliyini erməni basqınçılarından azad etmişdir. 1992-ci ildə qəhrəmancasına şəhid olmuşdur. – 108, 109.

**68. Dünya İqtisadi Forumu,** Davos İqtisadi Forumu (DİF) – İsveçrənin kurort şəhəri Davosda keçirilən forum. 1971-ci ildə yaradılmışdır. Ötən əsrin 70-ci illərinin ortalarından forumun iclaslarına müxtəlif ölkələrin hakimiyyət nümayəndələri və iş dünyasının liderləri olan sahibkarlar dəvət edilməyə başlandı. 1987-ci ildən etibarən DİF Dünya İqtisadi Forumu adlandırılmağa başlanıb. Davos forumu üçün ənənəvi şəkildə illik keçirilən görüşlər xarakterikdir. DİF-in

hər il keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenlərin iştirakı ilə yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. 27–31 yanvar 1995-ci ildə Heydər Əliyev ilk dəfə olaraq Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrənin Davos şəhərində işgüzar səfərdə olub. Azərbaycan Respublikasının DİF-də ilk dəfə iştirakı münasibətilə forum çərçivəsində Azərbaycana həsr olunan görüş keçirilib və Heydər Əliyev ölkə haqqında, onun siyasi, iqtisadi və sosial-mədəni inkişaf göstəriciləri barədə tədbir iştirakçılarına geniş məlumat verib. – 112, 261.

**69. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 117, 123, 287, 289, 293, 295.

**70. Hikmət Hacıyev,** Hikmət Fərhad oğlu (d.1979) – Azərbaycan Respublikası Prezident Administrasiyası Xarici Əlaqələr şöbəsinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi. 2014–2018-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri olmuşdur. – 122, 200, 224.

**71. «Azərbaycan Televiziya və Radio Verilişləri» QSC** (AzTV) – Azərbaycanın ilk milli televiziya kanalı. Azərbaycan televiziyası 1956-cı il fevralın 14-də yayıma başlamışdır. Kanada, Rusiya, Türkiyə kimi ölkələrdə müxbir məntəqələri fəaliyyət göstərir. – 122.

**72. TASS İnformasiya Agentliyi** – Rusiyanın informasiya agentliyi. Dünyanın ən böyük 4 informasiya agentliyindən biri. – 127.

**73. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 129.

**74. Zəngəzur mahalı,** Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli Fər-

manına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdir. – 137, 138, 151, 179, 224, 244, 259, 317.

**75. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 125,9 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 153.

**76. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nin direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə isə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 156, 157, 159, 166, 173, 189, 191.

**77. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli Qərarı ilə «bir siyasi mərkəz» olaraq, ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdir. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII– IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir

şah (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşlar. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin ermənilәri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 159, 169, 187.

**78. «Independent» qəzeti** – 1986-cı ildə Birləşmiş Krallıqda fəaliyyətə başlayan dünyanın ən məşhur qəzetlərindən biri. 2016-cı ildən onlayn yayıma keçmişdir. – 162.

**79. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 29,12 km$^2$, əhalisi 55 min nəfərdir. 1991-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. 10 noyabr 2020-ci il tarixində imzalanan müqaviləyə əsasən, Rusiyanın sülhməramlı qüvvələri şəhərdə yaşayan ermənilərin, habelə Xankəndiyə köçürüləcək hər iki xalqın yerləşdirilməsinə və təhlükəsizliyinə nəzarət mexanizmi həyata keçirir. – 163, 164, 168, 169, 187, 188, 278.

**80. Aprel döyüşləri –** 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan silahlı qüvvələri arasında işğal olunmuş bəzi ərazilərimizin azad olunması əməliyyatı. Döyüşlər Azərbaycan Silahlı

Qüvvələrinin qələbəsi ilə nəticələnmiş – Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi tərəfindəki yollar tamamilə erməni tapdağından azad edilmişdir. – 165, 166.

**81. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 180, 181, 289.

**82. Pənah xan,** P ə n a h ə l i x a n (1693–1763) Qarabağ xanlığının yaradıcısı və birinci hakimi. Cavanşir xanları sülaləsinin əsasını qoymuşdur. – 181.

**83. Anadolu agentliyi** – Türkiyə Cümhuriyyətinin rəsmi xəbər agentliyi. Anadolu agentliyi Mustafa Kamal Atatürkün tapşırığına əsasən 1920-ci il aprelin 6-da Türkiyənin ilk mətbuat naziri, böyük türk ideoloqu Əhməd bəy Ağaoğlu tərəfindən Ankarada yaradılmışdır. – 182.

**84. Reuters agentliyi** – mərkəzi Londonda yerləşən beynəlxalq xəbər agentliyi. 1851-ci ildə Böyük Britaniyada fəaliyyətə başlamışdır. 2500-dən çox müxbir, 600 fotojurnalist heyəti ilə dünyanın ən böyük xəbər agentliklərindən biridir. – 195.

**85. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinq-

tonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşdur. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 215, 221.

**86. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997-ci il) və 2005-ci ildə qurumu tərk etdi. – 216–219.

**87. Hulusi Akar** (d.1952) – ordu generalı. 2015–2018-ci illərdə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, 2018-ci ildən isə Türkiyə Cümhuriyyətinin Müdafiə naziridir. – 221.

**88. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. Azərbaycan Respublikasının «Dostluq» ordeni ilə təltif edilmişdir. – 221.

**89. Zərifə xanım Əliyeva,** Zərifə Əziz qızı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 225.

**90. 1990-cı il 20 Yanvar hadisələri** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi

zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 229, 251, 256.

**91. Səlhab Məmmədov,** Səlhab İsa oğlu (d.1943) – Azərbaycan Rəssamlıq Akademiyasının prorektoru, Azərbaycan Respublikası Rəssamlar İttifaqı sədrinin birinci müavini, professor, Azərbaycanın Xalq rəssamı. Almaniyanın Berlin şəhərində ucaldılmış «Xocalı», həmçinin Roma şəhərində Nizami Gəncəvi abidəsinin müəllifidir. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 230.

**92. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 232–235, 236, 241.

**93. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,2 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 238, 241.

**94. Əşrəf Qani** (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 238, 239.

**95. Türk Şurası** – 3 oktyabr 2009-cu ildə Naxçıvan müqaviləsi ilə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan arasında qurulmuş beynəlxalq təşkilat. Türk Şurasının üç mərkəzi vardır. İstanbul Ümumi katibliyin, Bakı Parlamentar Assambleyanın, Nur-Sultan isə Türk Akademiyasının mərkəzidir. – 242, 244, 268.

**96. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST) – BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 242.

**97. Kasım-Jomart Tokayev** (d.1953) – Qazaxıstanın dövlət və siyasi xadimi. 2013–2019-cu illərdə Qazaxıstan Senatının Sədri olmuşdur. 2019-cu ildən Qazaxıstan Respublikasının Prezidentidir. – 244.

**98. Həsən Ruhani** (d.1948) –İranın siyasi və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 244.

**99. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18,5 milyon nəfərdir. Dövlət

başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 244.

**100. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 244.

**101. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistanın Prezidentidir. – 244.

**102. Sadır Japarov** (d.1968) – qırğız siyasətçisi və dövlət xadimi. 2021-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 244.

**103. Özbəkistan,** Özbəkistan Respublikası– Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 448,8 min km$^2$, əhalisi 34 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 244.

**104. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilkin partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmiz-

də demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 246, 248, 249, 252, 253, 254, 275, 276, 277, 279, 280, 281, 282, 286, 287, 295, 298, 301, 302, 303, 304, 306–311, 313.

**105. Dövlət Neft Fondu** – 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 261.

**106. Əli Əhmədov,** Əli Cavad oğlu (d.1953) – Azərbaycanın siyasi xadimi, fəlsəfə doktoru, professor. Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP-ın sədr müavini-icraçı katibidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 275, 301.

**107. Helsinki Yekun Aktı** – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi olmuşdur. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzalamışlar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 290.

**108. Ağoğlan** (*Hadrut*) – Azərbaycan Respublikasının Xocavənd rayonu inzibati ərazi dairəsində qəsəbə. Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci ildə işğal edilmişdir.

9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilmişdir. – 317.

**109. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 323.

**110. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 57 üzv, 11 əməkdaşlıq üzrə tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 332–334.

## Şəxsi adlar göstəricisi

**Abbasova Adilə** – 305
**Akimova Elnarə** – 303
**Amanov Batır** – 55
**Amato Fabrizio** – 6
**Amreyev Bağdad** – 244
**Aslanov Bayram** – 303
**Babayev Rahim** – 110
**Badamov Azər** – 295, 303
**Bayramov Rövşən** – 303
**Bekteşi Kreşnik** – 57
**Berdıməhəmmədov Qurbanqulu** – 244
**Betiya İlir** – 57
**Boyaniç Mladen** – 57
**Budaqov Tahir** – 303
**Cahangirov Asif** – 305
**Cahangirov Tofiq** – 303
**Cəbiyev Rizvan** – 305
**Cəfərov Kamal** – 303
**Cəfərov Samir** – 303
**Cons Qəri** – 51
**Çağatay Kılıç** – 320, 321
**Diyaluçe Gilberto** – 53, 54
**Donelli Kurt** – 52
**Dönməz Fatih** – 51
**Düzyol Saltuk** – 51

**Eyvazov Vilayət** – 329
**Əhmədov Əli** – 275, 301, 303
**Ələkbərov Urxan** – 305
**Əliyev Cəmil** – 305
**Əliyev Heydər** – 75, 92, 95, 229, 237, 240, 249–252, 254–256, 280, 284, 286, 288, 295, 299, 300, 304, 306
**Əliyev Kamran** – 24
**Əliyeva Leyla** – 60, 75, 76, 117
**Əliyeva Mehriban** – 60, 75, 76, 116, 117, 225, 226, 228, 281, 286, 289, 298, 303
**Əliyeva Nurlanə** – 305
**Əliyev Rauf** – 303
**Əliyev Vilayət** – 305
**Əliyeva Zərifə** – 225
**Əlizadə Akif** – 305
**Əmiraslanov Əhliman** – 305
**Ərdoğan Rəcəb Tayyib** – 59, 93, 119, 124, 208, 236–239, 244, 321, 322
**Ərsin Tatar** – 244
**Əsədov Elxan** – 230
**Əsgərli Asif** – 303
**Əsgərov Şahlar** – 305
**Əsgərov Vazeh** – 303
**Əzizov Eldar** – 303
**Əzizov İbrahim** – 305
**Fərəcov Ədalət** – 305
**Folgiero Pierroberto** – 11

**Fransisk** – 323
**Hacıyev Hikmət** – 122, 224
**Hamid Hildi** – 78, 81
**Həmzəyev Naqif** – 304
**Həmzəyeva Ülviyyə** – 299, 303
**Həsənov Əli** – 305
**Həsənov Həsən** – 304
**Həsənzadə Nəriman** – 85
**Hüseynov Aydın** – 304
**Hüseynov Ramiz** – 303
**Hüseynova Badam** – 304
**Hüseynova Sevinc** – 304
**Xeyrəddin Qoca** – 305
**Xəlilov Zahid** – 305
**Xudiyev Nizami** – 305
**İbadullayev Əli** – 230
**İbrahimqızı Məlahət** – 304
**İbrahimov Eldar** – 303
**İbrahimov Fuad** – 303
**İmamverdiyev Sudeyf** – 305
**İmran Xan** – 236, 239
**İsgəndərov Anar** – 288, 303
**İsgəndərov Vüqar** – 304
**İsmayılov Amin** – 303
**İsmayılov Əjdər** – 305
**İsmayılov Şahin** – 303
**İsmayılov İlqar** – 108, 109
**Japarov Sadır** – 244
**Kərimov Kərim** – 305
**Kərimzadə Pərvin** – 303

**Qani Məhəmməd** – 238, 239
**Qaribaşvili İrakli** – 87
**Qasımov Elmar** – 303
**Qasımzadə Elbay** – 305
**Qəhrəmanova Sədaqət** – 305, 305
**Qocayeva Fatma** – 108
**Quliyev İsgəndər** – 305
**Quliyev Musa** – 304
**Qurbanlı Mübariz** – 303
**Qurbanov Sadiq** – 304
**Linden Ann** – 332, 333
**Lobillo Kristina** – 58
**Lukaşenko Aleksandr** – 82, 84
**Mahmudov Rəşad** – 303
**Mahmudov Yaqub** – 305
**Mattarella Sercio** – 9
**Məmmədhəsənov Rafiq** – 305
**Məmmədov Elman** – 305
**Məmmədov Əli** – 109
**Məmmədov Hikmət** – 292, 303
**Məmmədov Ramin** – 303
**Məmmədov Tahir** – 305
**Məmmədov Səlhab** – 230
**Mehdiyev Ramiz** – 305
**Mərdanov Misir** – 305
**Mixayloviç Zorana** – 57
**Milatiç İvo** – 58
**Mirbəşiroğlu Elşad** – 303
**Mirkişili Tahir** – 303
**Mirziyoyev Şavkat** – 244

**Morton Vendi** – 27, 29
**Muradova Bahar** – 280, 303
**Muradov Ədalət** – 303
**Musayev Musa** – 304
**Nəcəfov Maqsud** – 305
**Nəsirov Elman** – 304
**Nəsirov Məmməd** – 305
**Nikolson Emma** – 53
**Nizami Gəncəvi** – 88, 89, 92
**Novruzov Vahid** – 305
**Orban Viktor** – 327
**Osmanov Cavid** – 303
**Papesku Virgil** – 57
**Paşazadə Cavanşir** – 304
**Petkova Temenuşka** – 56
**Pənahəli xan** – 181
**Putin Vladimir** – 156, 157, 159, 166, 173, 189, 191
**Racapaksa Qotabaya** – 14
**Ravkov Andrey** – 82, 84
**Raza Nadim** – 232, 235
**Rəhimzadə Arif** – 276, 303, 305, 306
**Rəhmon Emoməli** – 244
**Rondolat Erik** – 112, 113, 114
**Ruhani Həsən** – 244
**Rusnak Urban** – 245
**Rzayev Tahir** – 305
**Sadıqov Elnur** – 303
**Serageldin İsmail** – 88, 91
**Seyidov Səməd** – 304

**Seyidzadə Dilarə** – 305
**Səfərov Nizami** – 304
**Simson Kadri** – 39, 44
**Siyarto Peter** – 57, 325, 326
**Skrekas Kostas** – 56
**Sofiyeva Aynur** – 303
**Sucayev Əfsun** – 303
**Süleymanpur Hadi** – 237
**Süleymanov Vüqar** – 15, 23
**Şahbazov Pərviz** – 39, 40, 44, 50
**Şerpatti Luka** – 50
**Şəntop Mustafa** – 322
**Şnayer Mark** – 5
**Talıbov Vasif** – 303
**Toivo Klaar** – 328
**Tokayev Kasım-Jomart** – 244
**Turnava Natela** – 54, 55
**Varhelyi Oliver** – 46, 50
**Vidodo Coko** – 78, 79
**Vike-Freyberqa Vayra** – 88
**Vladimiroviç Gennadi** – 82
**Zabelin Mixail** – 284, 303

## Coğrafi adlar göstəricisi

**Abşeron** – 12, 95, 99
**Amerika Birləşmiş Ştatları** – 5, 27, 28, 31, 44, 52, 117, 140
**Ağbənd** – 60, 68
**Ağdam** – 69, 71, 90, 107, 124, 141, 172, 174–176, 179, 180, 182, 187, 188
**Ağoğlan** (*Hadrut*) – 317
**Albaniya** – 31, 41, 57
**Avrasiya** – 151, 243
**Avropa** – 27, 36, 41, 44, 45, 47, 50, 51–56, 146
**Bala Soltanlı** – 63
**Bazarçay** – 76
**Belarus** – 82, 83, 84
**Bərdə** – 25, 107, 124, 210
**Bəsitçay** – 75, 76
**Binəqədi** – 24
**Brüssel** – 40
**Bolqarıstan** – 31, 52, 54, 56
**Böyük Britaniya** – 27, 28, 29, 31, 53, 136, 162, 195, 204, 213, 228
**Böyük Mərcanlı** – 166
**Cəbrayıl** – 60, 67, 77, 135, 136, 166, 175, 196

**Culfa** – 179
**Çin** – 129
**Dağlıq Qarabağ** – 6, 23, 67, 71, 72, 73, 90, 102, 109, 110, 111, 124, 139, 143, 144, 155, 162–164, 167, 170, 176, 185, 187, 188, 197, 202–204, 207, 213, 214, 219, 220, 237, 240, 243, 244, 252, 257, 259, 276, 278, 285, 289, 290, 317
**Düşənbə** – 190, 191
**Əbu-Dabi** – 158
**Əfqanıstan** – 238, 241
**Füzuli** – 60, 90, 107, 127, 128, 135, 136, 166, 175, 207, 211
**Gəncə** – 25, 107, 124, 159, 187, 210
**Goranboy** – 107
**Güləbird** – 63, 64, 65, 71
**Gürcüstan** – 31, 34, 35, 41, 45, 51, 54, 55, 87, 146, 147, 174, 217, 218, 267
**Həkəri** (*kənd*) – 63
**Həkəri** (*çay*) – 65, 73, 76
**Horadiz** – 60, 68
**Xaçınçay** – 76
**Xankəndi** – 163, 164, 168, 169, 187, 188, 278
**Xanlıq** – 74
**Xəndək** – 62
**Xızı** – 107
**Xocalı** – 102, 116, 117, 119, 120–124,139,

153, 154, 169, 204, 260, 272, 285, 316
**Xocavənd** – 71, 317
**Xorvatiya** – 58
**İkinci Ağalı** – 63
**İndoneziya** – 78, 80, 81
**İran** – 66, 69, 138, 147, 151, 152, 172–174, 176, 178, 179, 244
**İrəvan** – 159, 169, 187
**İspaniya** – 170
**İsrail** – 213
**İstanbul** – 142
**İsveç** – 332
**İtaliya** – 6, 9, 10, 12, 13, 31, 40, 44, 45, 52, 53, 54
**Kanada** – 131
**Kəlbəcər** – 19, 65, 66, 67, 69, 71, 72, 102, 104, 105, 137, 170, 182, 188, 196, 200, 207, 222
**Qazaxıstan** – 244
**Qəbələ** – 96, 169
**Qırğız Respublikası** – 244
**Qubadlı** – 62, 63, 74, 109, 135, 175
**Laçın** – 19, 60–67, 69, 71, 72, 73, 74, 102, 104, 105, 109, 128, 137, 147, 163, 182, 188, 196, 200, 252, 316
**Lüksemburq** – 273
**Macarıstan** – 57, 325–326
**Mərdanlı** – 63

**Moldova** – 217, 218, 267
**Monteneqro** – 58
**Moskva** – 173, 186, 191
**Muradxanlı** – 62
**Naftalan** – 107
**Naxçıvan** – 69, 179, 212, 250, 251
**Naxçıvan Muxtar Respublikası** – 60, 68, 129, 159, 244, 251, 301
**Niderland** – 228
**Özbəkistan** – 244
**Padar** – 63
**Pakistan** – 232–235, 236, 241
**Rumıniya** – 58
**Rusiya** – 69, 70, 127, 129, 133, 136, 143, 146–152, 155, 158, 159, 160–163, 171, 172, 173, 174, 183, 186, 187, 190, 215, 220, 259
**Serbiya** – 57
**Səfiyan** – 71
**Soltanlı** – 77
**Sumqayıt** – 99, 112, 114, 115
**Şamaxı** – 112, 114, 115
**Şəmkir** – 96
**Şimali Kipr Türk Respublikası** – 244
**Şimali Makedoniya** – 57, 58
**Şri-Lanka** – 14
**Şuşa** – 19, 65, 71, 72, 102, 103, 105, 109, 128, 136, 164, 166, 169, 191, 195, 200,

207, 211, 212, 252, 316, 317
**Tacikistan** – 244
**Tərtər** – 25, 107, 124, 160, 210
**Tərtər** (*çay*) – 76
**Türkiyə** – 31, 35, 41, 45, 51, 52, 54, 55, 56, 59, 69, 70, 93, 94, 119, 124, 129, 138, 139, 142, 143, 146, 147, 148, 149, 151, 152, 162, 168, 172, 173, 174, 182, 183, 207–209, 213, 219–224, 228, 236, 239–241, 244, 320–322
**Türklər** – 71
**Türkmənistan** – 37, 53, 55, 56, 174, 240, 244, 245
**Ukrayna** – 132, 146, 184, 185, 209, 210, 216, 217, 218
**Üçüncü Ağalı** – 60, 61, 63
**Vatikan** – 323
**Yaponiya** – 153
**Yunanıstan** – 31, 45, 52, 54, 56, 57,172
**Yusifbəyli** – 63
**Zəngəzur** – 137, 138, 151, 179, 224, 244, 259, 317
**Zəngilan** – 60, 61, 67, 68, 75, 128, 135, 138, 141, 175, 181, 196

# MÜNDƏRİCAT

ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ VƏ TƏSİSÇİSİ MARK ŞNAYER İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 fevral 2021-ci il*............................................................................5

İTALİYANIN «MAİRE TECNİMONT GROUP» ŞİRKƏTİNİN SƏDRİ FABRİZİO Dİ AMATONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 fevral 2021-ci il*............................................................................6

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QOTABAYA RACAPAKSAYA

*4 fevral 2021-ci il*............................................................................14

MİNATƏMİZLƏMƏ AGENTLİYİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ VÜQAR SÜLEYMANOV İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*4 fevral 2021-ci il*............................................................................15

AZƏRBAYCAN RESPUBLİKASI BAŞ PROKURORLUĞUNUN BİNƏQƏDİ RAYONU ƏRAZİSİNDƏ YENİ İNZİBATİ BİNA KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*8 fevral 2021-ci il*............................................................................24

BÖYÜK BRİTANİYANIN AVROPA QONŞU-
LUĞU VƏ AMERİKA MƏSƏLƏLƏRİ ÜZRƏ
DÖVLƏT NAZİRİ XANIM VENDİ MORTON
İLƏ GÖRÜŞ

*9 fevral 2021-ci il* ........................................................................ *27*

«CƏNUB QAZ DƏHLİZİ» MƏŞVƏRƏT ŞURASI
ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN VİDEOKONFRANS
FORMATINDA KEÇİRİLMİŞ 7-ci İCLASINDA
İŞTİRAK

*11 fevral 2021-ci il* ........................................................................ *30*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB
ƏRDOĞANA

*14 fevral 2021-ci il* ........................................................................ *59*

FÜZULİ, ZƏNGİLAN, LAÇIN VƏ CƏBRAYIL
RAYONLARINA SƏFƏR

*14 fevral 2021-ci il* ........................................................................ *60*

ZƏNGİLAN RAYONUNUN BƏSİTÇAY DÖVLƏT
TƏBİƏT QORUĞUNUN ƏRAZİSİNDƏ ÇİNARƏKMƏ
MƏRASİMİ

*14 fevral 2021-ci il* ........................................................................ *75*

İNDONEZİYA RESPUBLİKASININ ÖLKƏMİZDƏ
YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ
SƏLAHİYYƏTLİ SƏFİRİ HİLDİ HAMİD
İLƏ GÖRÜŞ

*16 fevral 2021-ci il* ........................................................................ *78*

BELARUS RESPUBLİKASININ ÖLKƏMİZDƏ
YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ
SƏLAHİYYƏTLİ SƏFİRİ ANDREY RAVKOV
İLƏ GÖRÜŞ

*16 fevral 2021-ci il* .......... *82*

XALQ ŞAİRİ NƏRİMAN HƏSƏNZADƏYƏ

*17 fevral 2021-ci il* .......... *85*

GÜRCÜSTANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB İRAKLİ QARİBAŞVİLİYƏ

*23 fevral 2021-ci il* .......... *87*

NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİNİN
HƏMSƏDRİ İSMAİL SERAGELDİN İLƏ
VİDEOFORMATDA GÖRÜŞ

*23 fevral 2021-ci il* .......... *88*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB
ƏRDOĞANA

*24 fevral 2021-ci il* .......... *93*

XƏZƏR RAYONUNDA ŞAĞAN REABİLİTASİYA
PANSİONATININ ƏSASLI TƏMİRDƏN
SONRA AÇILIŞI MƏRASİMİ

*25 fevral 2021-ci il* .......... *95*

RAMANA QƏSƏBƏSİNDƏKİ YAŞAYIŞ
KOMPLEKSİNDƏ ŞƏHİD AİLƏLƏRİ VƏ
MÜHARİBƏ ƏLİLLƏRİNƏ MƏNZİLLƏRİN
TƏQDİM EDİLMƏSİ MƏRASİMİ

*25 fevral 2021-ci il* .......... *97*

«SİGNİFY» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU ERİK RONDOLAT VƏ ŞİRKƏT RƏHBƏRLİYİNİN DİGƏR NÜMAYƏNDƏLƏRİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*25 fevral 2021-ci il ........................................................................ 112*

XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNƏ UCALDILMIŞ ABİDƏNİ ZİYARƏT

*26 fevral 2021-ci il ........................................................................ 116*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ TELEFONLA GÖRÜŞ

*26 fevral 2021-ci il ........................................................................ 119*

YERLİ VƏ XARİCİ MEDİA NÜMAYƏNDƏLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSI

*26 fevral 2021-ci il ........................................................................ 120*

BAKI GƏMİQAYIRMA ZAVODUNDA RO-PAX TİPLİ «AKADEMİK ZƏRİFƏ ƏLİYEVA» GƏMİ-BƏRƏSİNİN SUYA SALINMASI VƏ EYNİ TƏYİNATLI «AZƏRBAYCAN» GƏMİ-BƏRƏSİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİ

*1 mart 2021-ci il ........................................................................... 225*

«SURAXANI» TANKER-MUZEYİN AÇILIŞI MƏRASİMİ

*1 mart 2021-ci il ........................................................................... 228*

«AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ» QSC ÜÇÜN İNŞA OLUNMUŞ YENİ İNZİBATİ BİNANIN AÇILIŞI MƏRASİMİ

*1 mart 2021-ci il ........................................................................... 231*

PAKİSTAN İSLAM RESPUBLİKASININ BİRLƏŞMİŞ QƏRARGAH RƏİSLƏRİ KOMİTƏSİNİN SƏDRİ GENERAL NADİM RAZANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*3 mart 2021-ci il* ........................................................................ *232*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XIV ONLAYN ZİRVƏ TOPLANTISI

*4 mart 2021-ci il* ........................................................................ *236*

YENİ AZƏRBAYCAN PARTİYASININ VII QURULTAYINDA İŞTİRAK

*5 mart 2021-ci il* ........................................................................ *246*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*6 mart 2021-ci il* ........................................................................ *318*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ ƏLAQƏLƏR KOMİSSİYASININ SƏDRİ AKİF ÇAĞATAY KILIÇIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 mart 2021-ci il* ........................................................................ *320*

ROMA PAPASI FRANSİSK HƏZRƏTLƏRİNƏ

*10 mart 2021-ci il* ...................................................................... *323*

MACARISTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ TİCARƏT NAZİRİ PETER SİYARTO İLƏ VİDEOFORMATDA GÖRÜŞ

*10 mart 2021-ci il* ...................................................................... *325*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAAR İLƏ GÖRÜŞ

*10 mart 2021-ci il* ........................................................ *328*

DAXİLİ QOŞUNLARIN YARANMASI GÜNÜNDƏ DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ BAKININ SABUNÇU RAYONUNDA YENİ İNŞA OLUNAN «N» SAYLI HƏRBİ HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*12 mart 2021-ci il* ........................................................ *329*

İSVEÇİN XARİCİ İŞLƏR NAZİRİ, ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ ANN LİNDENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2021-ci il* ........................................................ *332*

QEYDLƏR ........................................................ *335*

*Şəxsi adlar göstəricisi* ........................................................ *375*

*Coğrafi adlar göstəricisi* ........................................................ *381*

**Texniki redaktor** *Zoya Nəcəfova*

**Yığım üzrə operator** *İlhamə Kərimova*

**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.